**AZƏRBAYCAN RESPUBLİKASI**
**DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ**

**AZƏRBAYCAN İLAHİYYAT İNSTİTUTU**

# "Heydər Əliyev və dini tolerantlıq"

**mövzusunda**

**RESPUBLİKA ELMİ KONFRANSININ MATERİALLARI**

**BAKI – 2024**

**Baş redaktor:**
Dos. Aqil Şirinov

**Redaktor:**
Rəna Həsrətova

**Tərtibçilər:**
Şahin Ələsgərov
Şəms Bağırova

**Texniki redaktor:**
Hilal Ağamoğlanov

**“Heydər Əliyev və dini tolerantlıq” mövzusunda respublika elmi konfransının materialları**

**ISBN: 978-9952-545-37-1**

## MÜNDƏRİCAT

**Ön söz** ........................................ 5

İctimai həmrəylik ideyası və dini-mənəvi dəyərlərin əhəmiyyəti: Heydər Əliyevin dövlət siyasəti müstəvisində fəlsəfi-etik təhlil
**Anar Qafarov** ........................................ 7

Qloballaşan dünyada mədəniyyətlərarası dialoq zərurəti və Azərbaycan təcrübəsinin əhəmiyyəti
**Məmmədəli Babaşlı** ........................................ 20

Heydər Əliyevin fenomenal şəxsiyyəti və mədəni abidələrin qorunub-saxlanılmasında rolu
**Ələddin Məlikov** ........................................ 31

Cənubi Azərbaycanda xalqlar dostluğu və dini-multikultural ideyalara dair (“Azərbaycan” qəzetinin (ADF) materialları əsasında)
**Əli Fərhadov** ........................................ 42

Ümummilli Liderin din siyasəti: dinlərarası dialoq vasitəsilə dini təhlükəsizliyə nail olunması
**Aliyə Mürsəlova** ........................................ 50

Heydər Əliyev və Azərbaycan gəncliyi
**Aynur Səfərli** ........................................ 58

Философские убеждения об идеологии азербайджанства и религиозная толерантность в наследии Общенационального Лидера
**Ирана Мамедова** ........................................ 67

Heydər Əliyev siyasəti: tolerantlıq nümunəsi
**Şahanə Həsənova** ........................................ 75

İslam baxışında dinlərarası dialoqun mənəvi əsasları
**Əfzələddin Rəhimli** ........................................ 86

Fransada dövlət–din münasibətlərinin tarixi
**Şəfa Əbdürrəhimova** ........................................ 97

Dövlət və din münasibətlərinin tarixi aspektləri
**Rəhim Həsənov** ........................................ **105**

Multikultural və dini dəyərlərin formalaşmasında Heydər Əliyev siyasətinin rolu
**Sevinc Muxtarova** ........................................ **115**

Azərbaycanda dövlət–din münasibətləri
**Gülnarə Əsədullayeva** ........................................ **124**

Heydər Əliyev və Azərbaycanda din siyasətinin prioritetləri
**Nərgiz Əliyeva** ........................................ **132**

## ÖN SÖZ

XX əsrin sonlarından etibarən, dünyada cərəyan edən qlobal dəyişikliklər bəşəriyyətin gələcəyi baxımından böyük əhəmiyyət daşıyır. Fərqli dünyagörüşə, müxtəlif etnik və dini kimliyə malik olan, ayrı-ayrı mədəniyyətləri təmsil edən insanların dərisinin rəngindən, irqindən, sosial statusundan, dinindən asılı olmayaraq bir arada yaşamaları aktuallıq kəsb edib. Belə bir şəraitdə fərdlərin "mən" anlayışının fövqünə yüksələrək, "biz" görüşünü mənimsəməsi, fərddən millətə, millətdən bəşəriyyətə aparan yolların axtarılıb-tapılması vacibdir. Fərdiyyətçilik əvəzinə ictimai şüura üstünlük verilməsinə, fərqliliklərin zənginlik kimi qəbul edilməsinə, fikir müxtəlifliyindən inkişafa təkan verən amil kimi istifadə edilməsinə ehtiyac yaranıb.

Əfsuslar olsun, ortaq nöqtədə anlaşaraq birlikdə yaşamaq o qədər də asan başa gəlmir. Zamanla fərdlər, qruplar, ideologiyalar, dinlər, dövlətlər arasında qarşıdurmalar yaranır. Belə bir şəraitdə insanlar arasında birlik, bərabərlik düşüncəsinin yayılması, cəmiyyətin xoşbəxt olması üçün tolerantlıq, dözümlülük prinsipini mənimsəmək yeganə çıxış yoludur. Buna görə də insanlar istənilən vəziyyətdə sülhü, əmin-amanlığı təmin etmək üçün çalışmalı və əllərindən gələni etməlidirlər. İnsanların fərqli dünyagörüşlərini, həyata baxış tərzlərinə sahib olmasını maneə olaraq görməməlidirlər. Başqalarını öz mövqelərində qəbul edərək birlikdə yaşamağı, onlarla yaxşı davranmağı bacarmalıdırlar. Həqiqi üstünlüyün yaradılışdan gələn millət, irq, nəsil, mal və digər xüsusiyyətlərlə deyil, insanın öz iradəsi ilə qazandığı mənəvi dəyərlərlə ölçüldüyünü dərk etməlidirlər. Buna görə də mənsub olduğumuz dinin gözəlliklərini doğru şəkildə öyrənmək, həyata tətbiq etmək və davranışda göstərmək lazımdır.

Təsadüfi deyildir ki, İslam tarixində ilk dövrlərdən tolerantlığa həmişə böyük əhəmiyyət verilmişdir. Əsrlərboyu müsəlmanların yaşadıqları coğrafiyada digər din mənsubları və millətlər yurd salmış, öz kimliklərini qoruyub-saxlamışlar. Tarixin ən qədim səhifələrini vərəqlədikcə, dünyəvi dinlərin ortaq məkanı olan Azərbaycan coğrafiyasının da multikulturalizm, tolerantlıq və dini dözümlülük ənənələrini özündə ehtiva etdiyinin şahidi oluruq.

Xalqımızın tolerant baxışlarının qədim köklərə bağlılığı dinlərarası dialoqların inkişafında həmişə müsbət rol oynayıb. Tarixi ənənələrdən qaynaqlanan multikultural və tolerant dəyərlər bu gün də ölkəmiz tərəfindən uğurla inkişaf etdirilir. Azərbaycanın tolerantlıq ənənələrinin mədəni, siyasi, sosial mahiyyətinin araşdırılması, respublikadakı dini müxtəlifliyin tolerant əsaslarının elmi müstəvidə təhlili, ölkəmizin əldə etdiyi multikultural nailiyyətlərin beynəlxalq ictimaiyyətə təbliği, tarix, mədəniyyət və dini abidələrin qorunub-saxlanılmasına dəstəyin göstərilməsi bu siyasətin əsas prioritet istiqamətlərindəndir.

Ulu öndər Heydər Əliyevin "Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir" bəyanı, cəmiyyət olaraq, bəşəri dəyərlərə münasibətimizin ən aydın izahını verir. Təsadüfi deyildir ki, Prezident İlham Əliyev III Bakı Beynəlxalq Humanitar Forumunun açılış mərasimindəki nitqində tədbirin Azərbaycanda keçirilməsinin təbii hal olduğunu vurğulamışdır: "Azərbaycanda hökm sürən ictimai-siyasi quruluşdan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycan dözümlülük, tolerantlıq məkanı olmuşdur. Bu gün müstəqil Azərbaycan öz siyasətini bu möhkəm təməl üzərində qurur".

Bu səbəbdən də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə ölkə Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan İlahiyyat İnstitutu 26 aprel 2023-cü il tarixində "Heydər Əliyev və dini tolerantlıq" mövzusunda respublika elmi konfransını təşkil etmişdir. Konfransın keçirilməsində

məqsəd tarix və müasirlik baxımından Azərbaycanda dövlət–din münasibətləri, tolerantlıq və multikulturalizmin mahiyyəti, Heydər Əliyev və Azərbaycanda din siyasətinin prioritetləri, multikultural dəyərlərin formalaşmasında təhsilin rolu, gənclər arasında milli-mənəvi dəyərlərin təbliği və digər aktual məsələləri elmi təhlilə cəlb etmək olmuşdur.

Bu səpkidə müzakirələrin aparılması nüfuzlu alim və tədqiqatçıların yaxından iştirakı ilə ərsəyə gəlmişdir.

*Dos. Aqil Şirinov,*
***Azərbaycan İlahiyyat İnstitutunun rektoru***

# İCTİMAİ HƏMRƏYLİK İDEYASI VƏ DİNİ-MƏNƏVİ DƏYƏRLƏRİN ƏHƏMİYYƏTİ: HEYDƏR ƏLİYEVİN DÖVLƏT SİYASƏTİ MÜSTƏVİSİNDƏ FƏLSƏFİ-ETİK TƏHLİL

***f.f.d., dos. Anar Qafarov,***
Azərbaycan İlahiyyat İnstitutu
Dinşünaslıq kafedrasının müdiri
anargafarov@ait.edu.az
https://orcid.org/0000-0002-3113-1287

## XÜLASƏ

İdeyalar və dəyərlər həm fərdi, həm də ictimai mövcudluq aspektində mühüm anlayışlardır. Bu anlayışların, ümumiyyətlə, fəlsəfədə tarixboyu geniş müzakirə obyektinə çevrilməsi təsadüfi deyildir. Cəmiyyətlərin mənəvi və siyasi mövcudluqlarının davam etdirilməsi onlara xas ideya və dəyərlərin təhlil süzgəcindən keçirilməsi ilə mümkündür. Bu məqam "İctimai həmrəylik ideyası və dini-mənəvi dəyərlərin əhəmiyyəti: Heydər Əliyevin dövlət siyasəti müstəvisində fəlsəfi-etik təhlil" mövzusunda tədqiqatın əhəmiyyətini və aktuallığını artırır. Araşdırmanın məqsədi Heydər Əliyevin siyasi strategiyası aspektindən ictimai həmrəylik ideyasını və dini-mənəvi dəyərlərin əhəmiyyətini fəlsəfi və etik zəmində əsaslandırmaqdır. Tədqiqatın metodunu əvvəlki araşdırma işlərindəki dəyərləndirmə və nəticələri əsas götürməklə, mövzu ilə bağlı termin və anlayışları yenidən təhlil etmək təşkil edir. Məqalənin əsas tezislərindən biri də budur ki, Heydər Əliyev müstəqil dövlətçiliyimizin mənəvi əsası olaraq milli-mənəvi köklərimizə bağlılığa, ənənələrə sadiqliyə çox böyük əhəmiyyət verirdi. Bu mənada, azərbaycançılıq ideologiyası məhz milliliklə ümumbəşəriliyin ayrılmaz vəhdətini nəzərdə tutur. Belə bir ideologiya qloballaşma prosesində milli-mənəvi dəyərlərə söykənən xüsusiyyətlərin yad təsirlərə məruz qalaraq aşınmasının qarşısını ala bilər, əriyib yox olması riskini azaldar.

***Açar sözlər:*** *ictimai həmrəylik, milli-mənəvi dəyərlər, Heydər Əliyev, azərbaycançılıq, qloballaşma.*

# THE IDEA OF SOCIAL SOLIDARITY AND THE IMPORTANCE OF RELIGIOUS AND MORAL VALUES: A PHILOSOPHICAL AND ETHICAL ANALYSIS IN THE CASE OF HEYDAR ALIYEV'S STATE POLICY

***Assoc. Prof. Anar Gafarov***

## ABSTRACT

Ideas and values are important concepts in terms of both individual and social existence. It is no coincidence that these concepts have become the object of wide discussion in philosophy throughout history. Continuation of the moral and political existence of the societies is possible by analyzing the ideas and values intrinsic to the societies. This point increases the importance and relevance of the study "The idea of social solidarity and the importance of religious and moral values: a philosophical and ethical

analysis in the case of Heydar Aliyev's state policy". The purpose of the research is to justify the importance of the idea of social solidarity and religious and moral values from the aspect of Heydar Aliyev's political strategy on a philosophical and ethical basis. The method of the research is to reanalyze the terms and concepts related to the topic based on the evaluation and results of the previous research works. One of the main theses of the article is that Heydar Aliyev attached great importance to the adherence to our national and moral roots, loyalty to national traditions, being the moral basis of our independent statehood. In this sense, the ideology of Azerbaijanism implies the inseparable unity of nationality and panhumanism. Such an ideology can prevent the erosion of national characteristics built on national and moral values, in the process of globalization caused by exposure to foreign influences, and reduce the risk of dispersion and disappearing.

***Keywords:*** *Philosophy, Heydar Aliyev, National-moral values, the Idea of Azerbaijanism, Globalization*

## ИДЕЯ ОБЩЕСТВЕННОЙ СОЛИДАРНОСТИ И ЗНАЧЕНИЕ РЕЛИГИОЗНО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ: ФИЛОСОФСКО-ЭТИЧЕСКИЙ АНАЛИЗ В КОНТЕКСТЕ ГОСУДАРСТВЕННОЙ ПОЛИТИКИ ГЕЙДАРА АЛИЕВА

***д.ф. по философии, доц. Анар Гафаров***

### РЕЗЮМЕ

Идеи и ценности являются важными понятиями в аспекте как индивидуального, так и социального существования. Не случайно эти понятия становились объектом обширного обсуждения на протяжении всей истории философии в целом. Продолжение духовного и политического существования обществ возможно путем анализа присущих им идей и ценностей. Данный аспект повышает значимость и актуальность исследования «Идея общественной солидарности и значение религиозно-духовных ценностей: философско-этический анализ в плоскости государственной политики Гейдара Алиева». Целью исследования является обоснование идеи общественной солидарности и значимости религиозно-нравственных ценностей с точки зрения политической стратегии Гейдара Алиева на философской и этической основе. Метод исследования заключается в повторном анализе терминов и понятий, относящихся к предмету, на основе оценок и выводов из предыдущих исследовательских работ. Одним из основных тезисов статьи является то, что Гейдар Алиев придавал большое значение приверженности нашим национально-духовным корням, верности традициям как духовной основе нашей независимой государственности. В этом контексте идеология азербайджанства предполагает именно неразрывное единство национальности и общечеловечности. Такая идеология может предотвратить в процессе глобализации размывание черт, опирающихся на национально-духовные ценности, под воздействием чужеродных влияний, снизить риск их растворения и исчезновения.

***Ключевые слова:*** *общественная солидарность, национально-духовные ценности, Гейдар Алиев, азербайджанство, глобализация.*

**Giriş**

Qloballaşma prosesi ilə cəmiyyətlər üçün mədəni müxtəlifliyin labüd olduğunu deyə bilərik. Belə bir vəziyyət lokal və qlobal dəyərlərin transformasiyası və müxtəlif mədəniyyətlərə mənsub olan insanlar və cəmiyyətlər arasındakı münasibətlərin inkişaf etməsi baxımından müsbət bir hadisədir. Bu proseslə dil, rəng, etiqad, mədəniyyət, məzhəb, təriqət və iqtisadi cəhətlərdən ortaya çıxan müxtəlifliyin ictimai vəhdət zəminində həll edilməsi bir o qədər də asan olmayan bəzi problemləri ortaya çıxaracağı da istisna edilmir. Belə ki, qloballaşma prosesində özünü və dünyanı yenidən inşaetmə qayəsi ilə yola çıxan insan, varlıq aləmindəki elmi kəşf və icadları ilə mədəni həyat tərzini və insan həyatını asanlaşdırmaqla yanaşı, digər tərəfdən, elmi və texnoloji kəşflər sayəsində güc əldə edib, zamanla metafizikadan bağını qopararaq, həddindən artıq dünyəviləşdi. Beləcə, insanlıq metafizik hədəfindən uzaqlaşdı. Nəticə etibarilə insanın ülvi mənliyinin inşası yerini süfli (fiziki aləm) mənliyi olan eqonun inşasına, bizmərkəzli həyat fəlsəfəsi mənmərkəzli həyat fəlsəfəsinə, bir dəyər olaraq həqiqətin və humanist dəyərlərin mərkəzə alındığı dünyagörüşü isə vaxt keçdikcə yerini əşyamərkəzli dünyagörüşünə tərk etdi. İnsan övladının özünə yadlaşmasını ehtiva edən mənmərkəzli həyat fəlsəfəsi, nəticədə, kapitalizmi ortaya çıxardı. Mahiyyəti etibarilə əşyamərkəzli dünyagörüşü ehtiva edən kapitalist zehniyyət əşyaya və ya kapitala sahib olmaq üçün dəyərli varlıq olan insanı vaxt keçdikcə əşyaya sahibolma yolunda vasitə halına gətirərək dəyərsizləşdirdi. Belə bir vəziyyət ictimai münasibətlərin mənəvi hörgülərini aşındıraraq, sosial vəhdət baxımından böyük sıxıntı olan "mən və özgəsi" problemini də özü ilə birlikdə gətirdi. Beləliklə, mədəni müxtəliflik, demokratiya, insan hüquqları və azadlığı mövzusunda keçirilən bir çox siyasi müzakirələrə baxmayaraq, dünyamız şiddət, zülm, ədalətsizlik, özgələşdirmə, hüquq bərabərsizliyi, marjinallaşdırma nümayiş etdirən mənfi hallar və münasibət formaları ilə çalxalanan planet halına gəlmişdir.[1] Bu mənada, ictimai vəhdət və həmrəyliyi canlandırcaq əsas dəyər və prinsiplərin təkrar nəzərdən keçirilib dəyərləndirilməsi, elmi müzakirə obyektinə çevrilməsi olduqça əhəmiyyətlidir.

Bu istiqamətdə müxtəlif tədqiqatlar aparılmış, məqalə və kitab şəklində müxtəlif əsərlər elmi ictimaiyyətə təqdim edilmişdir. Bunların arasında Rəhman Bədəlovun "Birgəyaşayış və ya adamlar demokratiya yoluna necə çıxdılar?" (Bakı: Tutu nəşriyyatı, 2001), İbrahim Kalının "İslam və Batı" (İstanbul: TDV İSAM Yayınları, 2015), "Ben öteki ve ötesi-İslam-Batı ilişkileri tarihine giriş" (İstanbul: İnsan Yayınları, 2016), Orhan Atalayın "Doğu-Batı kaynaklarında birlikte yaşama", Anar Qafarovun "Felsefi ve dini açıdan birlikte yaşamanın temel değerleri üzerine bir analiz" (Değerler eğitimi dergisi, cild: 14, sayı: 31, İstanbul, haziran, 2016. s. 87-91), "Din ve felsefe toplumu bütünleştirici değerlere ilişkin bir bilinç inşa edebilir mi?" ("Din araşdırmaları" jurnalı, Azərbaycan İlahiyyat İnstitutu, 2018, s. 265-288), "*Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi"* (həmmüəliflər: A.Qafarov və b., editor: Səyyad Aran, İstanbul: Azərbaycan İstanbul Başkonsolosluğu, Kutup Yıldızı Nəşriyyatı, 2007), Hidayət Orucovun "Milli-mənəvi dəyərlərə qayıdış" (Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər, DQİDK, Bakı 3-4 aprel, 2007), Mübariz Qurbanlının "Heydər Əliyev: azərbaycançılıq ideologiyası və mənəvi dəyərlər" (Bakı: Tuna nəşriyyatı, 2018), Mehman İsmayılov və Ceyhun Əliyevin həmmüəllifliyi ilə hazırlanmış "Mənəvi dəyərlər İlham Əliyev siyasətinin tərkib hissəsi kimi" (Bakı: Tuna nəşriyyatı, 2018), Gündüz İsmayılovun "Tolerantlıq: bildiklərimiz və bilmədiklərimiz" (Bakı: Nurlar nəşriyyatı, 2014), "Azərbaycanda dini məsələ: təhdidlər və hədəflər. İdeoloji, milli, ictimai təhlükəsizlik müstəvisində" (Bakı: Tuna nəşriyyatı, 2020) əsərlərini qeyd etmək olar. Əlbəttə, sözügedən əsərlərin bir qismində ictimai həmrəylik (və ya birgəyaşayış) ideyası və onun mahiyyətinə dair ümumi təsəvvür formalaşdırılmış, Şərq

[1] Bu mövzuda ətraflı məlumat üçün bax: Anar Qafarov, "Felsefi ve dini açıdan birlikte yaşamanın temel değerleri üzerine bir analiz", Değerler Eğitimi Dergisi, cild: 14, sayı: 31, İstanbul, Haziran, 2016. s. 87-91.

və Qərb ictimai mühitindəki real hadisələrə əsaslanaraq müəyyən sosioloji və müqayisəli təhlillər aparılmış, digər qismində isə ictimai həmrəylik məsələsi və milli-mənəvi dəyərlər daha çox azərbaycançılıq ideologiyasının tərkib hissəsi kimi araşdırılmış, bu məsələnin ideoloji bir amil kimi əhəmiyyətindən bəhs edilmişdir. Bütün bunları nəzərə alaraq, tədqiqatımız çərçivəsində günümüzdə ictimai həmrəyliklə əlaqədar dəyərlər zəminində hansı problemlərin olduğu və onların əsasında hansı amillərin dayandığı məsələsi, ictimai həmrəyliyi meydana gətirən prinsiplərin hansı əsas milli-mənəvi dəyərlər üzərində inşa edilməsinin mümkün olacağı kimi mövzular müzakirə obyektinə çevrilmiş, bu mənada, nümunə kimi ümummili lider Heydər Əliyevin bu istiqamətdəki dövlət strategiyası fəlsəfi və etik aspektlərdən təhlil edilmişdir. Bütün bu məsələlərin fəlsəfi və dini mətnlərin analizi və sintezi vasitəsilə fəlsəfi, teoloji və etik müstəvidə izah edilməsi tədqiqatın əsas metodlarından biridir. Bu metoda əsasən, filosofların cəmiyyətdə ictimai həmrəyliyə zərər verən "mən" və "özgəsi" kimi anlayışları tənqidetmənin nəzəri əsaslarını təşkil edən və ictimai həmrəyliyə xidmət göstərən dəyərlərlə əlaqədar görüş və düşüncələri fəlsəfi, teoloji və etik prinsiplər əsasında analiz edilərək ortaya qoyulacaqdır. Bununla yanaşı, tədqiqat prosesində qeyd edilən istiqamətdəki nəzəri açıqlamalar tarixi təcrübələrdən nümunələr gətirilməklə müəyyən qədər əsaslandırılmışdır.

Mövzunun əhəmiyyətini ortaya qoymaq məqsədilə burada, hər şeydən əvvəl, dünyada ictimai həmrəylik sahəsində bəşəriyyətin qarşılaşdığı problemlərə dair ümumi mənzərəyə diqqətçəkmənin müvafiq olacağını düşünürük.

### İctimai həmrəylik ideyasının fəlsəfi arxaplanı

Müəyyən tədqiqatı mənalandıran cəhətlərdən biri də onun insan zehnində bir sual ətrafında şəkillənməsidir. Bu mənada, "İnsan nə üçün sosial-mədəni və ya bir cəmiyyət halında yaşamağa məhkumdur?" şəklində bir sual ortaya qoymaqla, tədqiqat obyektinin müzakirəsinə başlamaq olduqca əhəmiyyətlidir. Bu suala veriləcək cavab məqaləmizin əsas tədqiqat obyektinin sosial-fəlsəfi aspektdən əsaslandırılması üçün nəzəri bir zəmin hazırlamış olacaqdır.

Qeyd edilən sualın cavabı bilavasitə insanla bağlı olduğu üçün hər şeydən əvvəl "İnsan nədir və necə bir varlıqdır?" kimi bir sualla işə başlamaq olduqca məntiqlidir. Bu sualın cavablandırılması yuxarıdakı sualın cavabını özündə ehtiva etməklə yanaşı, sosial-mədəni həyatın və ictimai vəhdətin əhəmiyyətini və dəyərini də ortaya qoyacaqdır.

İnsanın mahiyyətinə dair sual Qədim dövr yunan filosofları Əflatun və Aristotel, İslam filosoflarından Farabi, İbn Sina, Qəzali, İbn Miskəveyh, Nəsirəddin Tusi, hətta İbn Xəldun və müasir dövr dünya filosof və müdriklərini düşündürən məsələlərdən biridir. Ontologiyanın ən əhəmiyyətli mövzularından biri olan bu məsələyə dair verilən cavablardan ikisi, demək olar ki, bir çox filosofun üzərində ittifaq etdiyi fikirlərdəndir. Bunlardan birincisi, insanın düşünən varlıq olması, digəri, onun varlığı etibarilə sosial və ya mədəni bir varlıq olması istiqamətindəki fikirdir. Bu cavablar arasında, xüsusilə ikinci tərif mövzumuzu bilavasitə maraqlandırır. Mənbə etibarilə Əflatun və Aristotelə aid olduğu qeyd edilən tərifdən anlaşılır ki, insan bir cəmiyyətdə başqa insanlarla birlikdə və vəhdət halında yaşamağa ontoloji olaraq məhkumdur.[2] İnsan varlığı etibarilə öz-özünün bütün ehtiyaclarını qarşılayacaq gücdə deyil. Bundan əlavə, insanların ontoloji olaraq eyni qabiliyyətlərə malik olmaması həyatın müxtəlif ehtiyacları istiqamətində sosial

---

[2] Farabi, *Ârâ`u əhli`l-mədînəti`l-fazıla*, nşr. Albert Nasri Nadir, Beyrut: Dârü'l-Məşriq, 1986, s. 117-119; Mücahid, *Fârâbî'den Abduh'a Siyasî Düşünce*, (Vecdi Akyüz, Çev.). İstanbul: İz Yayıncılık, 2005, s. 58. İbn Miskəveyh, *Təhzîbu'l-əxlaq və tathîru'l-a'râq*, nşr. İbnu'l-Hatîb y.y.: Matbaatü'l-asriyyə. 1398/1978, s. 149.

münasibətlər şəbəkəsini zəruri hala gətirir. Qurani-Kərimdə də "Şübhəsiz ki, sizin iş, çalışma və cəhdləriniz, əlbəttə, fərqli-fərqlidir"[3] şəklində qeyd olunan bu məsələ həm insanlar üçün sosial mədəni həyatın labüdlüyünü, həm də bir cəmiyyətdə sosial mədəni statusların formalaşmasının təbii olduğu düşüncəsini ifadə edir.[4]

İnsanın sosial varlıq olması və sosial-mədəni həyatın vacibliyi özlüyündə sosial-mədəni vəhdəti də zəruri hala gətirir. Sosial münasibətlər şəbəkəsi yalnız sosial vəhdəti əks etdirdiyi ölçüdə sağlam ola bilər. Əks halda, heç bir sosial-mədəni münasibətlərdən söhbət gedə bilməz. Bu mənada, sosial vəhdətin mahiyyətinə dair qısa bir icmal vermək münasib olardı.

Sosial vəhdət bir cəmiyyətdə fərd, qrup və sosial strukturun bütün ünsürləri ilə maddi-mənəvi mədəniyyət ünsürlərinin ortaq məxrəcə gələrək, funksional bir tamlıq və ya bütövlük meydana gətirəcək şəkildə bir-birlərini tamamlamaları və qaynayıb-qarışmalarıdır. Bir cəmiyyətin gələcəyi və uzunmüddətli varlığı yalnız belə bir bütövlük və qaynaşma şəraitində mümkündür. Sosial-mədəni vəhdət bir-birindən ayrı olan hissələrin birlik halına çevrilməsini digər bir ifadə ilə – bir cəmiyyətdə fərdlərin və sosial qrupların birliyini, bütövlüyünü və ya bir-birlərini tamamlamalarını təmin edən prosesdir. Başqa bir aspektdən, sosial-mədəni vəhdət bir cəmiyyətdə və sosial qrup daxilində üstün olan mədəni dəyərlərin cəmiyyəti meydana gətirən fərdlər tərəfindən qəbul edilərək mənimsənilməsi və insanların əldə etdikləri sosial-mədəni dəyərlərə müvafiq şəkildə yaşamasıdır.[5] Bu mənada, qeyd edilə bilər ki, sosial-mədəni vəhdətdə bir mədəniyyətin maddi dəyərləri ilə yanaşı, mənəvi dəyərləri də olduqca əhəmiyyətlidir. Hər hansı bir cəmiyyətdə və sosial qrupda əxlaq, din, dil, sənət, ədəbiyyat, hüquq və təhsil kimi mənəvi dəyərlər bir-birlərini tamamlayaraq, fərdlər arasında sosial-mədəni qaynaşma və uyum meydana gətirmədiyi təqdirdə, sosial münasibətlər şəbəkəsi ideya və məqsəd birliyinin funksional hesab edildiyi bir sahə olmaqdan çıxıb, məhdudiyyət qoyulmayan şəxsi seçim, arzu və tələbatların hökmranlıq edəcəyi münasibətlər şəbəkəsinə çevirəcəkdir. Bu mənada, cəmiyyətdə sosial vəhdət eyni məkanda yaşamaqla deyil, cəmiyyətin nüvəsini təşkil edən fərdlərin məkanından asılı olmadan müştərək ideya, maraq, hədəf və ya amal ətrafında həmrəylik göstərərək, bir araya gəlmələrini ifadə edir. Buna görə də məkanmərkəzli vəhdət həqiqi vəhdəti əks etdirmir. Nüvəsini mənəvi dəyərlər təşkil etməyən belə bir vəhdət formaldır və özlüyündə güclü sosial partlayışlara və çaxnaşmalara hamilədir. Bu fikrə əsasən deyə bilərik ki, hətta xarici təsirlərlə meydana gələn sosial vəhdəti də məkanmərkəzli vəhdətlə xaraktercə müştərəkkeyfiyyətli hesab etmək olar. Belə ki, dinləri, etiqadları, adət-ənənələri, milli-mənəvi dəyərləri, tarixləri bir-birindən fərqli olan millətlərin avtoritar bir rejimin əsarəti altında özlərinə yad saydıqları mədəni dəyərləri qəbul etməyə məcburən sürüklənmələri və buna görə səmimi münasibətlərə əsaslanmayacaq şəkildə həmrəylik nümayiş etdirmələri xarici təsirlərlə meydana gələn izafi bir vəhdətdir. Belə bir keyfiyyətdəki vəhdət izafi vəhdət olub, eyni ilə məkanmərkəzli vəhdət kimi sağlam dəyərlər üzərində inşa edilməmişdir və parçalanmağa məhkumdur. Belə cəmiyyətlərin mövcudluğunun ömrü avtoritar rejimin var olması qədərdir.

---

[3] "Leyl", 92/4

[4] Farabi, *əs-Siyâsetu'l-mədəniyyə*, ( tərcümə: Mehmet Aydın, Abdükadir Şener və M. Rami Ayas), Ankara: Kültür Bakanlığı, 1980, s. 43. Skirbekk - Gilje, *Antik Yunan'dan modern döneme felsefe tarihi*, (tərcümə: Emrah Akbaş və Şule Mutlu ), İstanbul: Kesit Yayınları, 2006, s. 109.

[5] Ünver Günay, "Toplumsal bütünləşmə və din", *Din sosiolojisi el kitabı,* (ed. Niyazi Akyüz ve İhsan Çapcıoğlu), 3. Baskı, Ankara: Grafiker Nəşriyyatı, 2012, s. 454-455.

**Heydər Əliyevin həmrəylik və dini-mənəvi dəyərlər strategiyası**

İnsan öz məhdud dünyası ilə yanaşı, ictimai hadisələrin və proseslərin də aktyorudur. O, bu aktyorluq müddətində, sadəcə, öz təcrübələri və fəaliyyətləri ilə hərəkət edə bilməz. İnsan fiziki bir varlıq olduğu kimi, fövqəlfizik bir həqiqət sahəsi ilə əlaqədar xüsusiyyətlərlə də təchiz olunmuşdur. İnsanın bu xüsusiyyətlərini və gücünü yaradılış məqsədinə müvafiq olaraq fərqində olub inkişaf etdirməsi lazımdır. Onun bu fərqindəliyi öz tənhalığı içində həbs olunmuş bir subyektivlik içində tapması və əldə etməsi mümkün deyildir. Bir çox məsələdə olduğu kimi, bu mövzuda da yaxın və uzaq ictimai mühitdəki insanların köməyinə ehtiyacı vardır. Azərbaycan türk-İslam mədəniyyətində cəmiyyətin mənəvi lideri olan şəxsiyyətlər fərdə ictimai mühiti ilə qurduğu münasibətdə rəhbərlik edən mühüm aktyorlardır. Müasir dövrdə rəhbərliyi ilə yolgöstərici rolunda önə çıxan şəxsiyyətlərdən biri də Heydər Əliyevdir. Bu tədqiqatımızda ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlər istiqamətindəki siyasi strategiyası və onun ictimai-mədəni vəhdətin əsasını təşkil edən fikir və düşüncələri sosial-fəlsəfi və etik zəmində funksional və sensual vəhdət prizmalarından təhlil ediləcəkdir. Hər şeydən əvvəl sosial, funksional və sensual vəhdətin mahiyyətinin açıqlanmasının məsələyə aydınlıq gətirilməsi və elmi-tədqiqat metodları baxımından əhəmiyyətli olacağını düşünürük. Buna görə də tədqiqatımızın ilkin mərhələsində sosial-mədəni, funksional və sensual vəhdət konsepsiyalarının mahiyyətini ortaya qoymağa çalışacağıq.

Funksional vəhdət – cəmiyyətdə müxtəlif iş sahələrində fəaliyyət göstərən fərd və qrupların ictimai həyatın zəruri tələbatlarını yerinə yetirməklə məsul olduqları vəzifələri layiqincə həyata keçirmək üçün əmək fəaliyyətlərindən və cəhdlərindən meydana gəlir. Sözsüz ki, burada cəmiyyətin hər növ normaları, prinsipləri, qurumları və dəyərləri əhəmiyyətli dərəcədə rol oynamaqdadır. Buna görə də funksional vəhdət və ya birlik mədəniyyət ünsürlərinin ictimai mexanizmini ahəngli bir şəkildə funksional vəziyyətə gətirəcək daxili idrak nəticəsində meydana çıxan ictimai inteqrasiyanı ifadə etməkdədir.[6] Bu mənada, avtomobili hərəkətə gətirən hər bir detalın öz funksiyasını lazımi şəkildə yerinə yetirərək, onun işləməsini müştərək şəkildə təmin etməsi hadisəsini nümunə göstərmək olar. Bu nümunəyə əsaslanaraq deyə bilərik ki, funksional vədhət və birlik funksiyaya əsaslanan tamı və bütövlüyü əks etdirir. Əgər avtomobili hərəkətə gətirən detallardan hər hansı biri çıxarılarsa, bu, onun ümumi mənzərəsində hər hansı bir dəyişikliyi əks etdirməsə də, onun hərəkətində nöqsana səbəb olar. Bundan əlavə, avtomobildən çıxarılan detal onun xaricində öz funksiyasını icra edə bilmədiyi üçün hər hansı bir məna ifadə etməz. Eyni ilə bir cəmiyyətdə müxtəlif iş sahələrində meydana gələcək hər hansı bir əskiklik – axsama və durğunluq, ictimai strukturda və funksionallıqda bəzi əhəmiyyətli narahatlıqlara, nöqsanlara və cəmiyyəti vahid bir varlıq kimi ayaqda saxlayan bir sıra maddi-mənəvi dəyərlərin zəifləməsinə, ortadan qalxmasına səbəb ola bilər. Qısası, funksional vəhdət fərd və qruplar aralarında meydana gələn iş bölümü ilə izah edilə bilər. Cəmiyyətdə isə funksional vəhdətin, sadəcə, iş bölgüsü sayəsində reallaşması mümkünsüzdür. Cəmiyyətdə ictimai münasibətlərin dinamikliyini təşkil edən sosial problemlər və ehtiyaclar zaman keçdikcə, yeniləri ilə əvəz olunur və dəyişir. Belə bir səhnə özlüyündə problemlərin həll edilməsi istiqamətində iqtisadi, siyasi, dini, milli-mənəvi dəyərlər, təhsil və s. kimi sahələrdə yeni tədbirlərin görülməsini labüd hala gətirir. Bu halda sosial-mədəni münasibətlər şəbəkəsinin sağlam ola bilməsi üçün funksional vəhdətlə yanaşı, mənamərkəzli (sensual) birlik də böyük əhəmiyyət kəsb edir. Bu mənada,

---

[6] İhsan Çapcıoğlu, "Sosyo-kültürel bütünleşmede milli ve manevi değerlerin rolü: Mehmet Feyzi Efendi Örneği" *III. Uluslararası Şeyh Şa`ban-ı Veli Sempozyumu*, Editör: Prof.Dr. Ali Rafet Özkan, Kastamonu: 06-08 Mayıs, 2016, s. 517

tədqiqatın bundansonrakı hissəsinin sensual vəhdətin mahiyyətinə dair sosial-fəlsəfi təhlillə davam etdirilməsi daha uyğun olar.

Funksional vəhdətin mövcud olduğu və bu istiqamətdə son dərəcə ixtisaslaşmış cəmiyyətlərdə iş bölgüsü o qədər kompleksli və funksiyalar bir-birinə o qədər bağlıdır ki, qeyd edilən vəzifələrin hər hansı birində meydana gələn bir nöqsan cəmiyyətin normal funksionallığını əhəmiyyətli dərəcədə sükuta məruz qoya bilər. Bundan əlavə, ictimai münasibətlərdə fərd və sosial qruplar öz funksiyalarına əsaslanaraq, bir-birləri ilə sıx şəkildə bağlı olsalar da, bəzən vahid mexanizmin çarxları kimi duyğusuz, laqeyd və anlayışsız ola bilirlər. Bu kontekstdən cəmiyyəti təşkil edən fərd və sosial qrupların vahid bir ideya, məna və dəyərlər ərtafında həmrəy olmaları lazım gəlir. Bu halda cəmiyyət sağlam bir struktur qazanar və mövcudluğunu bölünüb-parçalanmadan davam etdirər.

Cəmiyyət arasında fərd və ya qrupları tək vahid orqanizm kimi bir araya gətirəcək vəhdət nədir? Bu, funksional baxımdan bir-birini tamamlayan mexanizmin ləngimədən işləyə bilməsini təmin edən, cəmiyyəti əmələ gətirən müxtəlif ünsür və qrupların müştərək dəyərlər, normalar, qanunlar və əxlaqi anlayışla cəmiyyət üzvlərinin bir-birləri ilə qaynayıb-qarışmasından doğan məna ətrafında və ya mənamərkəzli vəhdətdir. Əsasən, cəmiyyətin həmrəy olmasına şərait yaradan amil də elə məhz bu növ birlikdir. Mənamərkəzli vəhdət mənəvi birliklə yanaşı, maddi birlik və bərabərliyi də özündə ehtiva edir. Belə bir bütünləşmə növündə cəmiyyətdəki müxtəlif ünsürlər, sadəcə, müəyyən funksiyaları icra etmək üçün deyil, eyni zamanda, daşıdıqları şəxsi xarakter etibarilə bir-birini tamamlamaq üçün bir yerdədirlər. Sosioloqların bir çoxu mənamərkəzli ictimai vəhdətin sosiomədəni birliyin ən ideal şəkli olduğunu qəbul edirlər. Belə bir vəhdət həm davamlı, həm də bu davamlılığı təmin edən çuğlaşdırıcı və gücləndirici bir özəyə malikdir. Milli-mənəvi dəyərlər cəmiyyətdə bir məna ətrafında bütünləşmək üçün mədəniyyət ünsürləri arasında əhəmiyyətli yerə malikdir.[7]

Sosiomədəni vəhdət növləri arasında ideal tip olaraq yuxarıda araşdırdığımız funksional və məna ətrafında vəhdətin Heydər Əliyevin milli-mənəvi dəyərlər istiqamətindəki siyasi strategiyasında əhəmiyyətli bir yerə sahib olduğunu görürük. Onun bu istiqamətdəki siyasi strategiyasının bünövrəsində Azərbaycan cəmiyyətinin kollektiv hafizəsini və ictimai şüurunu təşkil edən dini və milli-mədəni ünsürlərin birliyi ideyası yatır. Belə bir birlik şüurunun siyasi və praktik təcəssümü 28 may 1918-ci ildə Şərqdə ilk demokratik respublika olaraq qurulan Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan Azərbaycan Respublikasının Prezidenti kimi, Heydər Əliyevin siyasi fəaliyyətində də özünü bariz şəkildə göstərməkdədir. Belə ki, onun nümunə kimi diqqətəlayiq olan müəyyən fikir və ifadələrində bunu açıq şəkildə görmək mümkündür. Sovetlər Birliyinin dağılması nəticəsində ateizmin təlim və təbliğatının ağırlıq təşkil etdiyi bir cəmiyyətdən milli-mənəvi dəyərlərə daha çox ağırlıq verən bir cəmiyyətə keçidin Sovetlər birliyinin əsarətindən qurtularaq müstəqilliyini yeni elan etmiş (18 oktyabr 1991) ölkəmiz üçün bir o qədər də asan olmadığını nəzərə alsaq, müstəqillik tariximizdən etibarən başlayan özünəqayıdış və özünüdərk prosesinin daha sonra, xususilə Heydər Əliyevin milli-mənəvi dəyərlər zəminindəki dərin siyasi fəaliyyəti sayəsində müvəffəqiyyətlə davam etdirilməsi təqdirəlayiq bir haldır. Onun bu istiqamətdə reallaşdırdığı siyasi strategiya həmin dövrdə Sovetlər birliyinin Şərq mədəniyyətinə böyük töhfələr vermiş Azərbaycan cəmiyyətini özünəyadlaşdırma siyasətinin təsirindən hələ də tam qurtulmayan vətəndaşlarımızın müstəqilliyin yenicə əldə edildiyi bir dövrdə zamanın ziddiyyətlərinə ram olmamaları üçün olduqça əhəmiyyətli idi.

---

[7] Ünver Günay, “Toplumsal bütünləşmə və din”, *Din sosiolojisi el kitabı,* (ed. Niyazi Akyüz ve İhsan Çapcıoğlu), 3. Baskı, Ankara: Grafiker Nəşriyyatı, s. 409-420.

Məlum olduğu kimi, postsovet dövrünün əvvəllərində Azərbaycanda vaxtilə Sovetlər birliyinin hakim ideologiyasına xidmət edən, şüurlu və şüursuz şəkildə Sovet İttifaqının özünəyadlaşdırma siyasətinin təbliğatçısına çevrilən bəzi insanlar yolayrıcında qalmışdılar. Belə bir vəziyyətdə insanların zehnində iki mühüm sual doğdu: keçmişə "əlvida" deyib yeni dövrün strategiyasına müvafiq şəkildə yol xəritəsi müəyyənləşdirib yaşamaq, yoxsa keçmişlə yaşamaq daha doğrudur? Cəmiyyətlərin ekzistensiyası baxımından olduqca əhəmiyyətli hesab edilən bu sual varolmanın mahiyyət və keyfiyyətini müəyyənləşdirəcək intellektual refleksiyanın bir ifadəsi idi. Heydər Əliyevin postsovet dövrü Azərbaycanda milli-mənəvi dəyərlər istiqamətində icra etdiyi siyasi strategiya ölkə cəmiyyətinin varlığını məhz öz milli-mənəvi dəyərlərinə əsaslanaraq, gələcəyə daşıya biləcəyi ideyasını ehtiva edirdi. Müstəqilliyinin ilk günlərindən etibarən, milli-mənəvi dəyərlərə münasibətin müsbət istiqamətdə dəyişdiyi və ateizm buxovlarının getdikcə qırılma prosesinin yaşandığı ölkəmizdə 1993-cü ildə yenidən iqtidara gələn Heydər Əliyevin bu istiqamətdəki siyasi addımları ilə milli-mənəvi dəyərlər zəminində yeni bir mərhələyə qədəm qoyuldu. Bu dövrü ölkəmizin mənəvi mədəniyyətinin intibahı kimi qiymətləndirsək, mübaliğə etmiş olmarıq. Belə ki, Heydər Əliyevin postsovet Azərbaycanına rəhbərliyi dövründə insan hüquq və azadlıqları, din və vicdan azadlığının bərqərar olması, milli-mənəvi dəyərlərimizin mühafizəsi və gənclərimizin bu dəyərə müvafiq şəkildə yetişdirilməsi dövlətimizin əsas hədəflərindən biri idi. Bu mənada, onun ölkə gənclərinin I forumunda dilə gətirdiyi fikirlər böyük əhəmiyyət kəsb edir: "Gənclərimiz dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Biz heç vaxt imkan verə bilmərik ki, ayrı-ayrı şəxslər, ayrı-ayrı qüvvələr öz şəxsi mənafelərini güdərək, İslam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsini və mənəviyyatını zədələsinlər".[8]

Bu fikirlər cəmiyyətdə mənaməkəzli sensual vəhdətin nəzəri zəminini formalaşdırması baxımından olduqca əhəmiyyətlidir. Bundan əlavə, qeyd olunduğu kimi, bəzi şəxs və qrupların cəmiyyəti mənəvi zəmində parçalamağa xidmət edəcək fikir və planlarının reallaşdırılmasına izin verilməməsi istiqamətində çıxışda yer alan təkidli ifadələr özlüyündə, sadəcə, dövlət rəhbərinin deyil, eyni zamanda, cəmiyyətimizin hər bir fərdinin funksional vəhdət istiqamətində üzərinə düşən öhdəliyi icra etməsinin vacibliyini dilə gətirir.

Heydər Əliyev milli-mənəvi dəyərlərin ən həssas nöqtəsi olan dinimizi xalqımızın milli-mənəvi sərvəti kimi qiymətləndirir, onu cəmiyyətin zəmanəti olan ən mühüm və həssas sahə kimi görürdü. Ulu Öndərin siyasi kursuna görə, xalqımızın və ölkəmizin daim var olması onun yiyələndiyi etiqad və dininə məsafəli olmaması ilə və mənəvi dəyərlərimizdən faydalanmaqla düz mütənasibdir.[9] Belə bir dövlət fəlsəfəsində milli ideologiya və siyasətin tərkib hissəsini təşkil edən siyasi kurs milli-mənəvi və xüsusilə də dini dəyərlər bir xalqın ən mühüm istinadgahı kimi qəbul edilirdi. Bu mənada, din Azərbaycan xalqının milli-mənəvi sərvətidir. Mənəvi dəyərlərimiz ölkəmizin gələcəyinin əsasını təşkil edir. Bu xüsusiyyət Heydər Əliyevdən iqtibas etdiyimiz bu fikirlərdə də özünü açıq şəkildə büruzə verir. "Biz dini, ilk növbədə, mədəniyyətin, tarixi irsin, milli mentalitetimizin bir fenomeni və ayrılmaz bir hissəsi kimi qəbul edirik. Biz Azərbaycanda öz milli-mənəvi dəyərlərimizə söykənərək, eyni zamanda xalqımızın elminin, mədəniyyətinin inkişafına, milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə zənginləşməsinə və vəhdətinə xüsusi əhəmiyyət veririk".[10]

---

[8] Bax. Hidayət Orucov, "Milli-mənəvi dəyərlərə qayıdış" *Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər"*, DQİDK, Bakı 3-4 aprel, 2007, s. 72.

[9] Həmmüəllif., eyni məqalə, s. 72.

[10] Həmmüəllif., eyni məqalə, s. 73, 76.

Müstəqil Azərbaycan Respublikasının Prezidenti olduğu dövrlərdə İslam dininin mənəvi dəyərlərinin əhəmiyyətini və öyrənilməsinin zəruriliyini dilə gətirən Heydər Əliyevin təşəbbüsü ilə 2 fevral 1996-cı ildə keçirilən müstəqil Azərbaycan Respublikası gənclərinin birinci forumunda söylədiyi fikirlər diqqətəlayiqdir: *"Bizim Konstitusiyamıza görə, ölkəmizdə dünyəvi dövlət qurulur, din dövlətdən ayrıdır. Təbii ki, bütün dünyəvi ölkələrdə bu belədir. Bu, heç kəsdə təəccüb doğurmasın. Bu, bizim dinə münasibətdə başqa bir mövqe tutmağımızı göstərmir. Ancaq gənclərimizin İslam dinini mənimsəmələri üçün hesab edirəm ki, lazımi tədbirlər görülməlidir. Çünki bu tədbirlərin olmaması nəticəsində bəzi mənfi hallar meydana çıxır, ayrı-ayrı qruplar gənclərə fanatizm əhval-ruhiyyəsini aşılamaq istəyirlər və bunlar da bizim gənclərimizin tərbiyəsinə zərər vurur. Ona görə də İslam dininin məktəblərdə tədris olunması, hesab edirəm ki, günün tələblərindən biridir və bu barədə Təhsil Nazirliyi, müvafiq təşkilatlar düşünməlidirlər, lazımi tədbirlər görməlidirlər. Yəni bizim gənclərimiz, dinimizi olduğu kimi öyrənməli, qəbul etməli və ondan istifadə etməlidirlər. Biz heç vaxt yol verə bilmərik ki, ayrı-ayrı şəxslər, ayrı-ayrı qüvvələr öz şəxsi mənafelərini güdərək, İslam dini pərdəsi altında Azərbaycan gənclərinin tərbiyəsinin zədələnməsinə gətirib çıxarsınlar".*[11]

Heydər Əliyev milli-mənəvi və dini dəyərlər istiqamətindəki siyasi fəaliyyətində ümumbəşəri dəyərləri də gözardı etmirdi. Belə ki, onun dövlət siyasəti təkqütblü olmayıb, mahiyyəti etibarilə mədəni-mənəvi müxtəlifliyi və multikulturalizmi də özündə ehtiva edən bir tərkibə malik idi. Bu mənada, onun 26 avqust 1994-cü ildə Peyğəmbərimizin (s.a.s.) mövludu ilə əlaqədar bir çıxışında dilə gətirdiyi və bizim də indi bilavasitə iqtibas edəcəyimiz ifadələr fikirlərimizin əsaslandırılması baxımından diqqətəlayiqdir: *"İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmamışdır. Çünki bu dinlərin hamısı Allahdan gəlir. Azərbaycanda müsəlmanlarla yanaşı, başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabərhüquqlu vətəndaşlarıdır. Çalışmalıyıq ki, dini, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-Taalanın buyuruğu, bizim yolumuzdur".*[12] Bu ifadələri sosial-fəlsəfi və etik perspektivlərdən təhlil etsək görərik ki, bu çıxış özlüyündə funksional və mənamərkəzli (sensual) vəhdətə dair subliminal mesajlar ehtiva edir. Çıxışın sonunda keçən ifadələrə diqqət yetirsək, burada vurğulanan vəhdət mesajının teoloji və hüquqi perspektivdən əsaslandırıldığını bariz şəkildə görürük. Heydər Əliyevin bu və ya digər çıxış və ifadələrindən məlum olur ki, onun funksional və sensual vəhdət istiqamətindəki fikir və düşüncələri köklü dəyərlərimizdən olan multikulturalizmi özündə tərənnüm edir. Belə ki, onun qeyd edilən məzmundakı çıxışlarında, ümumiyyətlə, insanların dini-mədəni mənsubiyyətindən asılı olmayaraq, digər dinlərə, mədəniyyətlərə, mənəvi dəyərlərə və adət-ənənələrə hörmət bəsləmələri və dözümlü olmaları tövsiyə edilir. Bu mənada, dini zəmində hər hansı bir ədavət və münaqişə yolverilməzdir.[13] Heydər Əliyevin milli və dini bayramlar münasibətilə müxtəlif məzhəb və konfessiyadan olan insanlar arasında olması, ölkəmizdə məscidlərlə yanaşı, kilsə və sinaqoqların tikintisi və bərpasına dəstək verməsi, əhalisinin 90 faizi müsəlman olan ölkəmizdə 2 166 məscidlə yanaşı, 40-dan artıq kilsə, sinaqoq və ibadət evlərinin mövcud olması, həmçinin ərazilərimizdə xalq və millətlərin dini keçmişləri ilə bağlı 500-dən artıq

---

[11] Heydər Əliyev, Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci formunda çıxışı, "Azərbaycan" qəzeti, 1996, 3 fevral.
[12] Həmmüəllif., eyni məqalə, s.73-74.
[13] Həmmüəllif., eyni məqalə, s. 84.

müqəddəs ocağın varlığı[14] kimi həqiqətlər onun mənamərkəzli vəhdət siyasətində bir dəyər kimi tolerantlığın mühüm yer tutduğunu deməyimizə əsas verir. Onun funksional və sensual vəhdət şüurunu özündə əks etdirən fikir və düşüncələri, bu istiqamətdə gördüyü işlər ölkəmizdə vətəndaş həmrəyliyinin və birliyinin yaranması, onun inkişaf etdirilməsi üçün həm nəzəri, həm də təcrübi olaraq ciddi zəmin təşkil edir. Belə bir nəzəri və və təcrübi zəmin mahiyyəti etibarilə tarixi keçmişimizdən gələn mütərəqqi ənənənin izlərini daşıyır. Tolerantlıq və mədəni müxtəliflik olaraq tanınan bu irsin Heydər Əliyevin bu istiqamətdəki siyasi strategiyası ilə daha da inkişaf etdirilməsi dini-etiqadi zəmindəki münasibətlərin gərginləşdiyi və dini-etnik qarşıdurmanın vüsət aldığı bir dövrdə dünyanın digər xalq və cəmiyyətləri üçün bir nümunədir. Bu mənada, 2003-cü il üçün ABŞ Dövlət Departamentinin hesabatında dövlətimizdə yaşayan vətəndaşların etiqad azadlığı haqqının təmin edilməsi sahəsində Azərbaycanın həyata keçirdiyi tədbir və qərarları təqdirəlayiq hesab etməsi[15] Heydər Əliyevin həm dini, həm də milli-mənəvi dəyərlər istiqamətindəki siyasi fəaliyyətinin müvəffəqiyyətinə dəlalət edən əhəmiyyətli faktlardan biridir.

Heydər Əliyevin vətəndaş həmrəyliyinə xidmət edən funksional və sensual çağırışlı siyasi fəaliyyətində bir incə məqam da budur ki, ölkəmizdə sosial vəhdətin xarici təsir gücləri tərəfindən pozula biləcəyi ehtimalına qarşı gördüyü tədbirlərdir. Onun bu istiqamətdə gördüyü tədbirlər həm funksional, həm də məna ətrafındakı həmrəylik şüurunun cəmiyyətimizdə dərin kök salaraq, hər bir vətəndaşımız üçün bir həyat fəlsəfəsi halına gəlməsi baxımından böyük əhəmiyyət kəsb edir.

Heydər Əliyevin bir cəmiyyətdə milli-mənəvi və xüsusilə də dini zəmində sosial vəhdətin və həmrəyliyin təmin edilməsi sahəsindəki siyasi fəaliyyətinin istiqamətlərindən birini də cəmiyyətin milli-mənəvi dəyərlər sisteminin və xüsusilə də çox həssas məsələ olan din sahəsində maarifləndirmənin vacibliyi məsələsi təşkil edirdi. Bu cəhət milli-mənəvi dəyərlər sahəsindəki ideoloji təhlükəsizliyimiz üçün olduqca əhəmiyyətli idi. Mahiyyətcə dünyəvi dövlət prinsiplərini əsas götürən Heydər Əliyev dini maarifləndirmə sahəsində, xüsusilə dini biliklərlə yanaşı, müasir baxışı və elmi təfəkkürü ilə dünyəvilik prinsiplərinə cavab verəcək ilahiyyatçı alim və mütəxəssislərin yetişdirilməsinə əhəmiyyət verirdi. Onun bu istiqamətdəki siyasi kursunda donmuş və statik bir din anlayışına yer yox idi. Dünyanın daim tərəqqi etdiyi, qloballaşma nəticəsində fərqli mədəniyyətləri təmsil edən insanların və qrupların eyni məkanda bir yerdə yaşadığı, bu mənada ölkəmizdə mədəni müxtəlifliyin getdikcə geniş vüsət aldığı bir dövrdə milli-mənəvi təhlükəsizliyimizin təmin edilməsində din kimi həssas bir sahədə dinamik elmi təfəkkürə ehtiyac var idi. Dini məsələlərin dərindən tədqiq edilməsi və yenidən improvizə edilməsi inkişaf mərhələsinə qədəm qoymuş ölkəmizin bu prosesdə özünəyadlaşma cəhdi kimi qiymətləndirilə bilər. Bu cəhət açıq şəkildə Heydər Əliyevin ifadələrində də öz əksini tapırdı: "Biz heç bir zaman İslamı donmuş halda buraxmamalıyıq. Dünya tərəqqi etməkdə, cəmiyyətlər inkişaf etməkdədir. Ona görə də İslam donaraq əvvəlki halında qalmamalıdır. Fəqət bu, dinin əsaslarına və qoyduğu yolda onun ənənələrinə qarşı çıxmaq mənasını daşımır. Tam tərsinə dünyaya gələn hər yeni nəsil öz köklərini daha da möhkəmləndirməlidir. Elə etməlidir ki, həmin köklər həmişə bəslənsin, inkişaf etsin, budaqlansın, donmuş halda qalmasın və çürüməsin".[16] Mərhum dövlət rəhbərimizin bu və bu qəbildən olan fikirləri dinimizin və milli-mənəvi dəyərlərimizin ən mühüm əsaslarından birini təşkil edən Qurandan süzülüb-gəlir. Belə ki, dinimiz Allahın

---

[14] Anar Qafarov, "Heydər Əliyev və din" *Heydər Əliyev və çağdaş Azərbaycan Dövlətçiliyi*, Editor: Səyyad Aran, İstanbul, Azərbaycan İstanbul Başkonsolosluğu, Kutup Yıldızı Nəşriyyatı, 2007, s. 33.

[15] Bax. Həmmüəllif., eyni məqalə, s. 34.

[16] Anar Qafarov, "Heydər Əliyev və din", *Heydər Əliyev və çağdaş Azərbaycan dövlətçiliyi*, s. 37.

da buyurduğu kimi, kökü yerdə sabit, budaqları göydə olan gözəl bir ağac[17] kimidir. Kökü sabit olan bu ağacın budaqları Heydər Əliyevin siyasi fəaliyyəti sayəsində bəhrə vermiş və ölkəmizdə elmi təfəkkürə və dünyəvi səviyyəyə malik olan ilahiyyatçı alimlər yetişmişlər. Belə bir hal onun uzaqgörən siyasətinin nəticəsi idi. O, dini maarifləndirmənin zəruriliyi ilə yanaşı, bu sahədə akademik mövqeyi olan elm adamlarının yetişdirilməsinin zəruriliyinin də fərqində idi.

Məlumdur ki, Azərbaycan həssas bölgədə yerləşir və buna görə də Heydər Əliyev din–dövlət münasibətlərinin tənzimlənməsi və dövlətin dini ekstremizmə qarşı mübarizəsində qanunların yol verdiyi ölçüdə bəzi müvafiq ölkələrin təcrübəsindən istifadə etməyi ən optimal variantlardan biri kimi görürdü. Bu mənada o, məhz "bir millət, iki dövlət" olaraq gördüyü –Türkiyə Cümhuriyyəti ilə qarşılıqlı təcrübə alış-verişinə əhəmiyyət vermişdir ki, bu prosesin ondan sonra cənab Prezidentimiz İlham Əliyev tərəfindən də uğurla davam etdirildiyinin şahidiyik. Belə ki, ölkəmizdə Türkiyə və Azərbaycan dövlətlərinin müştərək fəaliyyəti ilə Bakı Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən İlahiyyat fakültəsində savadlı mütəxəssislərin yetişdirilməsi məsələsinə Heydər Əliyev xüsusi diqqət ayırırdı. İlahiyyatçı magistr dərəcəsində 1997-ci ildə ilk məzunlarını verən bu fakültə dövlətimizə töhfəsini artıq bəxş etmişdir. Bu məzunlardan bir qismi daha sonra ilahiyyat sahəsində fəlsəfə doktorluğu dərəcəsi almışdır. Onlar bu gün də dövlətimizin dini maarifləndirmə istiqamətindəki siyasətinin reallaşdırılmasına əvəzsiz xidmətlər göstərməkdədirlər. Belə bir nəticə məhz Heydər Əliyevin din–dövlət münasibətləri sahəsindəki siyasətinin çatmaq istədiyi hədəf idi. Yalnız bu təqdirdə milli-mənəvi və dini zəmində sosial, funksional və sensual vəhdət canlılıq qazana bilərdi. Din duyğusu yaradılışdan gələn bir duyğu olduğu üçün insanlar din adında nə ilə qarşılaşsalar belə, onu din zənn edərlər. Bu səbəbdən, Heydər Əliyev sözügedən sahənin heç vaxt boş buraxılmaması və xalqımızın dini zəmindəki vəhdəti xaosa çevirmək istəyən bəzi xarici qüvvələrdən bəslənməməsi üçün siyasi fəaliyyətində ilahiyyatçı alimlərin yetişdirilməsi məsələsini də daim diqqət mərkəzində saxlamışdır.

Ulu Öndərin milli-mənəvi təhlükəsizliyimiz istiqamətində atdığı ən əhəmiyyətli siyasi addımlarından biri də 21 iyun 2001-ci ildə 512 saylı imzaladığı Fərman əsasında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin təsis edilməsi hadisəsi idi. Bu qurumun Heydər Əliyev dövründən bu günə kimi ölkəmizdə din–dövlət münasibətlərinin tənzimlənməsi və ölkə daxilində milli-mənəvi dəyərlərlə əlaqədar funksional və sensual vəhdətin təmin edilməsi istiqamətində əvəzsiz xidmətləri olduğu inkaredilməzdir. Ölkəmizdə milli-mənəvi vəhdət istiqamətində həyata keçirilən bütün bu kimi siyasi fəaliyyətlərə və nəticələrə əsaslanaraq deyə bilərik ki, istər ümummilli lider Heydər Əliyevin, istərsə də bu gün cənab Prezident İlham Əliyevin ictimai həmrəylik və buna bağlı olaraq dini-mənəvi dəyərlər istiqamətində atdığı təqdirəlayiq siyasi addımlar ölkəmizdəki ümumi sabitliyin ayrılmaz hissəsi kimi qiymətləndirilməlidir.

**Nəticə**

Hər bir xalqın özünüdərkində, milli özünəqayıdışında görkəmli şəxsiyyətlər həlledici rola malikdirlər. Geniş xalq kütlələrini milli, dini, irqi, cinsi mənsubiyyətindən asılı olmayaraq, sözləri və əməlləri ilə ardınca apara bilən, onların əqlinə və hisslərinə təsir göstərmək gücünə malik olan şəxsiyyətlər liderdirlər. Bir cəmiyyətdə baş verən ictimai proseslərin mahiyyəti onun üzvü olan fərdlərin tənhalıq içində həbs etdikləri subyektiv yanaşmaları ilə çox vaxt tam dərk edilə bilmir. Belə bir məqamda cəmiyyətin uzaqgörən ziyalı liderlərə ehtiyacı yaranır. Ulu öndər Heydər Əliyev də müasir dövrdə ictimai-siyasi və

[17] "İbrahim", 14/24

mənəvi rəhbərliyi və ziyası ilə seçilən belə şəxsiyyətlərdən biri idi. Etiraf edilməlidir ki, hər lider də ümumxalq, ümummilli rəhbər səviyyəsinə yüksəlib ölkənin bütün əhalisini, millətin bütün övladlarını istər ölkə daxilində, istərsə də dünyanın müxtəlif ölkələrində öz ətrafında birləşdirə bilmir. Heydər Əliyev məhz bu müqayisəolunmaz missiyanı həyata keçirə bilən və müstəqil dövlətçiliyimizin inkişaf yolunu müəyyənləşdirən dahi fenomenal şəxsiyyətdir.

Heydər Əliyev müstəqil dövlətçiliyimizin mənəvi əsası olaraq, milli-mənəvi köklərimizə bağlılığa, nəsildən-nəslə ötürülən milli ənənələrə sadiqliyə çox böyük əhəmiyyət verirdi. O, bu ümummilli vəzifədə ölkəmizin hər bir vətəndaşının üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edir, bu mənada, ümumiyyətlə, xalqımızın ziyalılarının çox böyük rol oynaya biləcəklərini vurğulayırdı.

Kütləvi informasiya vasitələrinin və mətbuatın milli-mənəvi dəyərlərin aşılanmasındakı mühüm rolundan bəhs edən Ümummilli Lider mətbuatın Vətənin bütün övladlarının, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşlarına vahid Vətən–Azərbaycan təəssübkeşliyini aşılamalı olduğunu, xalqın milli-mənəvi dəyərlərinin keşiyində durmalı, müasir dünyanın mütərəqqi dəyərlərini mənimsəməyə, öyrənməyə yol göstərməlidirlər. Yaddan çıxarılmamalıdır ki, Ulu Öndərin siyasi kursunun əsasını təşkil edən Azərbaycançılıq ideologiyası məhz milliliklə ümumbəşəriliyin ayrılmaz vəhdətini nəzərdə tutur. Belə bir ideologiya ilə qloballaşma prosesində milli-mənəvi dəyərlərə söykənən ənənələrin yad təsirlərə məruz qalaraq aşınmasının qarşısı alına, əriyib yox olması riskini azalda bilər.

Ölkəmizdə ictimai-dini-mənəvi həmrəylik və buna bağlı olaraq mənəvi dəyərlər istiqamətində həyata keçirilən bütün bu kimi siyasi fəaliyyətlərə və nəticələrə əsaslanaraq deyə bilərik ki, həm Heydər Əliyevin, həm də cənab Prezident İlham Əliyevin ictimai həmrəylik və dini-mənəvi dəyərlər istiqamətindəki siyasi fəaliyyətləri ölkəmizdəki ümumi sabitliyin ayrılmaz bir hissəsi kimi qiymətləndirilməlidir. Müstəqilliyimizin son 16 ilində keçid dövrünün bütün çətinliklərinə baxmayaraq, Prezidentimizin dəyərli tövsiyə və göstərişlərini həyata keçirərək, tarixi keçmişimizin çox qiymətli səhifələrini açıb xalqa göstərməyə çalışmaq yolunda uğurlu addımlar ata bilmişik. Bu uğurların zirvəsini isə Azərbaycan Respublikasının Ali Baş Komandanı, cənab İlham Əliyevin qətiyyətli siyasəti və xalqımızın şücaətli əsgər və zabitləri sayəsində fəth olunan Qarabağ (Şərqi Zəngəzur vilayəti) və onun gözü olan Şuşa zəfərimiz təşkil edir. Qarabağ Azərbaycan xalqı üçün milli-mənəvi dəyər məsələsidir.

## ƏDƏBİYYAT

Çapcıoğlu İhsan, "Sosyo-kültürel bütünleşmede milli ve manevi değerlerin rolü: Mehmet Feyzi Efendi Örneği" *III. Uluslararası Şeyh Şa`ban-ı Veli Sempozyumu*, Editör: Prof.Dr. Ali Rafet Özkan, Kastamonu: 06-08 Mayıs, 2016, s. 517.

Əliyev, Heydər, Müstəqil Azərbaycan Respublikası gənclərinin birinci formunda çıxışı, "Azərbaycan" qəzeti, 1996, 3 fevral.

Fərabi, *Ârâ`u əhli`l-mədînəti`l-fazıla*, nşr. Albert Nasri Nadir, Beyrut: Dârü'l-Məşriq, 1986.

Fərabi, *əs-Siyasətu'l-mədəniyyə,* ( tərcümə: Mehmet Aydın, Abdükadir Şener və M. Rami Ayas,), Ankara: Kültür Bakanlığı, 1980.

Qafarov Anar, "Felsefi ve dini açıdan birlikte yaşamanın temel değerleri üzerine bir analiz", Değerler Eğitimi Dergisi, cild: 14, sayı:31, İstanbul, Haziran, 2016. s. 87-91.

Qafarov Anar, “Heydər Əliyev və din” *Heydər Əliyev və çağdaş Azərbaycan Dövlətçiliyi*, Editor: Səyyad Aran, İstanbul, Azərbaycan İstanbul Başkonsolosluğu, Kutup Yıldızı Nəşriyyatı, 2007, s. 33-37

Günay Ünver, “Toplumsal bütünləşmə və din”, *Din sosiolojisi el kitabı,* (ed. Niyazi Akyüz ve İhsan Çapcıoğlu), 3. Baskı, Ankara: Grafiker Nəşriyyatı, 2012, s. 454-455.

İbn Miskəveyh, *Təhzibu'l-əxlaq və tathiru'l-a'raq*, nşr. İbnu'l-Hatîb y.y.: Matbaatü'l-asriyyə. 1398/1978.

Mücahid, Hüriye Tevhid, *Fârâbî'den Abduh'a Siyasî Düşünce*, (Vecdi Akyüz, Çev.). İstanbul: İz Yayıncılık, 2005.

Orucov Hidayət, “Milli-mənəvi dəyərlərə qayıdış” *Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər*, DQİDK, Bakı 3-4 aprel, 2007, s. 72.

Skirbekk G. ve Gilje, N., *Antik Yunan'dan modern döneme felsefe tarihi*, (tərcümə: Emrah Akbaşve Şule Mutlu). İstanbul: Kesit Yayınları, 2006.

## QLOBALLAŞAN DÜNYADA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ ZƏRURƏTİ VƏ AZƏRBAYCAN TƏCRÜBƏSİNİN ƏHƏMİYYƏTİ

***i.f.d., dos. Məmmədəli Babaşlı,***
Azərbaycan İlahiyyat İnstitutu
Dillər və ictimai fənlər kafedrasının müəllimi
mammadalibabasli@ait.edu.az
https://orcid.org/0000-0001-5594-0997

### XÜLASƏ

Mövcud məqalədə xalqlar, ölkələr, vətəndaş cəmiyyətləri və insanlar arasında həyatın bütün sahələrində əlaqələrin genişlənməsi ilə səciyyələnən qloballaşan dünyada dialoqun əhəmiyyəti nəzərdən keçirilir. Müasir dövrdə qlobal problemlərin həlli naminə səylərin birləşdirilməsinin və əməkdaşlığın həyati zərurət daşıdığı vurğulanır. Milli və etnik mənsubiyyətindən, dini anlayışından asılı olmayaraq, qarşılıqlı hörmət, müxtəlifliyin zənginlik olaraq qəbul edilməsi prinsipi əsasında mədəni və bərabərhüquqlu dialoqun aparılmasının vacib olduğu diqqətə çatdırılır.

Yazıda müxtəlif milli-etnik qrupların, dinlərin nümayəndələrinin yaşadığı unikal coğrafi, geosiyasi və mədəni məkanda yerləşən Azərbaycanın əldə etdiyi zəngin multikultural təcrübədən bəhs olunur. Həmçinin din anlayışı, milli və etnik mənsubiyyəti fərqli olsa da, tarix boyunca bütün xalqların ölkəmizdə birlikdə yaşamasının müasir dünya üçün örnək təşkil etdiyi qeyd olunur. Bütün bunların mövcud ictimai sabitliyə, vətəndaş həmrəyliyinə və dini tolerantlığa əsaslanan, uğurla həyata keçirilən dövlət siyasətinin və xalqın həyat tərzinin məntiqi nəticəsi olduğu göstərilir.

***Açar sözlər:*** *qloballaşan dünya, milli və etnik mənsubiyyət, mədəniyyətlərarası dialoq, dövlət siyasəti, vətəndaş həmrəyliyi, Azərbaycan təcrübəsi.*

## THE NEED FOR INTERCULTURAL DIALOGUE IN THE GLOBALIZED WORLD AND THE IMPORTANCE OF AZERBAIJAN'S EXPERIENCE

***Assoc. Prof. Mammadali Babashli***

### ABSTRACT

The article covers the importance of dialogue in a globalized world characterized by the expansion of relations between nations, countries, civil societies, and people in all spheres of life. It is emphasized that the joined efforts and cooperation are a vital necessity in solving the global problems in modern times. It is pointed out that the cultural and equitable dialogue based on the principle of mutual respect, and acceptance of diversity as wealth, regardless of national and ethnic affiliation, and religious understanding, are important.

The rich multicultural experience of Azerbaijan, located in a unique geographical, geopolitical, and cultural space where representatives of various national-ethnic groups and religions live, is discussed. It is also noted that the coexistence of all peoples in our country throughout history is an example of the modern world, even though their religious understanding, and national and ethnic affiliations are different. All this is the logical result of the successfully implemented state policy and people's lifestyle based on the existing social stability, civil solidarity, and religious tolerance.

***Keywords:*** *Globalized World, National and Ethnic Affiliation, Intercultural Dialogue, State Policy, Civil Solidarity, Azerbaijan's Experience*

## НЕОБХОДИМОСТЬ МЕЖКУЛЬТУРНОГО ДИАЛОГА В ГЛОБАЛИЗИРОВАННОМ МИРЕ И ВЕСОМОСТЬ ОПЫТА АЗЕРБАЙДЖАНА

***д.ф. по теологии, доц. Мамедали Бабашлы***

### РЕЗЮМЕ

В настоящей статье рассматривается необходимость диалога в глобализированном мире, характеризующемся расширением связей во всех сферах жизни между народами, странами, гражданскими обществами и людьми. Отмечается, что объединение усилий и сотрудничество для решения глобальных проблем является жизненной необходимостью в наше время. Доводится до внимания, что независимо от национальной и этнической принадлежности, религиозного понимания важно вести культурный и равноправный диалог на основе принципов взаимного уважения и принятия многообразия как богатства.

Рассматривается богатый мультикультурный опыт Азербайджана, расположенного в уникальном географическом, геополитическом и культурном пространстве, где проживают представители различных национально-этнических групп и религий. Также отмечается, что несмотря на неидентичность религиозного понимания, национальной и этнической принадлежности, сосуществование всех народов в нашей стране на протяжении всей истории является примером для современного мира. Все это является закономерным результатом успешно реализуемой государственной политики и образа жизни людей, основанного на существующей социальной стабильности, гражданской солидарности и религиозной толерантности.

***Ключевые слова:*** *глобализированный мир, национально-этническая принадлежность, межкультурный диалог, государственная политика, гражданская солидарность, опыт Азербайджана.*

### Giriş

Bəşər tarixində baş vermiş proseslərin təhlili göstərir ki, dünya tarixi heç bir dövrdə müasiri olduğumuz zaman kəsiyində baş verən bu qədər sürətli və heyrətamiz dəyişikliklərə şahid olmamışdır [7, 350]. Əvvəla, dünya Sovetlər Birliyində sosializm sistemini düşdüyü ağır vəziyyətdən islahatlar yolu ilə

çıxarmaq məqsədilə 1985-ci ildə Mixail Qorbaçovun başlatdığı uğursuz "yeni-dənqurma" və "aşkarlıq" siyasətinin şahidi oldu. Lakin onillərlə daxili və xarici siyasəti sinfi və ideoloji mübarizə zəminində kök-lənmiş ölkənin düçar olduğu iqtisadi tənəzzülün qarşısını almaq mümkün olmadı. Cəmiyyəti sosialist həyat tərzinə uyğun gəlməyən alkoqolizmə meyillilik, iş yerlərində nizam-intizamsızlıq kimi mənfi hal-lardan arındırmaq təşəbbüsü də nəticə vermədi. Həmçinin sovet dövlətinin ədalətsiz və qərəzli milli si-yasəti, milli ucqarlara, xüsusilə türkdilli və müsəlman xalqlara qarşı ayrı-seçkiliyə yol verməsi öz nəticə-sini göstərdi. Milli məsələlərin illərlə həllini tapmaması, 20-ci illərin kollektivləşmə zülmü və 30-cu illərin repressiyaları, bir gecənin içində xalqların sürgün edilməsi, dağıldığı günə qədər də Krım tatarlarının, Məshəti türklərinin doğma torpaqlarına qayıtmalarına imkan verilməməsi saxta beynəlmiləl siyasətin bariz nümunəsi idi. Yenə sovet hakimiyyəti dövründə əzəli Azərbaycan torpaqlarının hissələrlə ermənilərə verilməsi, Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ilə bağlı dəfələrlə cəhdlərin edilməsi də danılmaz faktdır. Xaricdə yaşayan onminlərlə erməninin "vətənə" qaytarılması, onlara sovet vətəndaşlığının verilməsi, əsrlərlə tarixi yurdlarında yaşayan soydaşlarımızın isə Azərbaycana köçürülməsi haqqında SSRİ Nazirlər Sovetinin qərar qəbul etməsi partiya və hökumət orqanlarındakı millətçi ermənilərin məkrli planlarına alət olan mərkəzin anti-Azərbaycan siyasətinin tərkib hissəsi idi.

Təbii ki, onillərlə yol verilmiş haqsızlıqların yeni dövrün ictimai-iqtisadi, siyasi-mənəvi həyatın böhranı şəraitində daha da dərinləşərək milli münaqişə ocaqlarına çevrilməsi qaçılmaz idi. 1986-cı ilin dekabrında Alma-Ata hadisəsinin ardınca 1988-ci ilin fevralında başlayan Dağlıq Qarabağ münaqişəsi və eyni vaxtda baş vermiş Sumqayıt hadisələri, 1989-cu ilin aprelində Tbilisi faciəsi, 1989-cu ilin may–iyun aylarında Özbəkistanın Fərqanə vadisində özbəklər və Məshəti türkləri arasında təşkil olunan etnik qarşıdurma, xalqımıza qarşı törədilmiş 1990-cı il qanlı 20 Yanvar faciəsi, 1991-ci ilin yanvarında Vilnüs şəhərində törədilən qırğın bir-birini izlədi. Daha sonra başlayan gürcü–abxaz və gürcü–osetin mü-naqişələri, Moldovada Pridnestrovye münaqişəsi,Tacikistanda, Özbəkistanda, Qırğızıstanda, Şimali Qafqazda milli-etnik zəmində baş vermiş silahlı toqquşmalar da ardıcıl şəkildə davam etdirildi.

Digər tərəfdən, milyonlarla insanın ölümünə, böyük dağıntılara səbəb olmuş İkinci Dünya müha-ribəsinin ardınca başlayan soyuq müharibə başa çatdı. 1989-cu ildə Berlin divarı dağıdıldı, ikiqütblü dün-yanın barışmaz aktorlarından olan sosializm ideologiyası süquta uğradı. Bu da öz növbəsində, sosia-list düşərgəsinin əhatə dairəsinə daxil olan ölkələrdə kifayət qədər ciddi və köklü dəyişikliklərə gətirib çıxardı. Sosialist düşərgəsini təmsil edən Qarşılıqlı İqtisadi Yardım Şurasının və NATO-nun rəqibi Varşava pak-tının ləğvi ilə nəticələndi. Çox keçmədən sosialist düşərgəsinin ruporu vəzifəsini yerinə yetirən Sovetlər Birliyi də birdəfəlik tarixin arxivinə gömüldü.

### 1. Yeni dünya sistemi və tarixin sonu tezisinin çağırışları

Yuxarıda bəhs etdiyimiz şəraitdə soyuq müharibənin başa çatmasının ardınca bəşəriyyət yeni bir dünya sisteminin təşəkkülü reallığı ilə qarşı-qarşıya qaldı. Beləliklə, keçən əsrin 90-cı illərində "beynəlxalq siyasətdə son illərdə meydana gələn dəyişiklikllərlə bərabər" [13, 101] fərqli bir anlayış ola-raq ortaya çıxan yeni dünya sistemi gündəmə gəldi. Ancaq sözügedən anlayış mütəxəssislər arasında fərqli mülahizələrin meydana gəlməsinə rəvac verdi. Belə ki, bir çoxları yeni sistemin qarşıdurma və münaqişə deyil, əməkdaşlıq və həmrəylik prinsipi üzərində bərqərar, Qərb dəyərlərinin isə hakim dəyərlər olaca-ğı fikrini irəli sürdülər. Habelə yeni sistemin ikiqütblülükdən birqütblülüyə keçidin başlanğıcı olacağı ehtimalını və bundan sonra ABŞ-nin dünyada yeganə hakim gücə çevriləcəyini bəyan etdilər [13, 101]. Başqa bir qrup isə Yaponiya və Almaniya kimi ölkələrin də dünya gücünə çevrildiklərini əsas alaraq,

dünyadakı güc balansının dəyişdiyinə görə hal-hazırda dünyada birdən çox gücdən bəhs edilə biləcəyini düşünürdülər. Bu iki fikir tərəfdarlarının ortaq məxrəcə gəldikləri yeganə məsələ yeni dönəmdə dünyada liberal demokratiya və sərbəst bazar iqtisadiyyatı kimi Qərb dəyərlərinin hakim olacağı fikri idi. Eyni zamanda, bu iki düşüncə cərəyanından fərqli olaraq ortaya çıxan üçüncü bir qrup da yeni dövrün etnik, dini və milliyətçi cərəyanlar səbəbindən baş verəcək lokal münaqişələrə səhnə olacağını və sülhdən çox savaşların hökm sürəcəyini ortaya atırdılar [13, 102]. Bununla yanaşı, İkinci Dünya müharibəsinin və soyuq müharibənin başa çatmasının dünyada ikiqütblülüyə son qoyacağı, qalib gələnin hökmranlığı altında sabitliyin yenidən təmin ediləcəyi mənasına gəlmədiyini iddia edənlər də vardı [16, 1]. Məğlub olan tərəfin sosialist düşərgəsi olmasının heç bir şübhə doğurmadığı halda, qazanan tərəfin ayrı-ayrılıqda ABŞ, Avropa İttifaqı, Yaponiya, Almaniya və ya hamısının bir yerdə qalib gəldiyini təsbit etmək imkansız idi.

Maraqlıdır ki, baş verən dəyişikliklərlə bağlı hələ bir çox sualların olduğu belə bir vaxtda ABŞ-nin Dövlət Departamentinin keçmiş yüksəkrütbəli əməkdaşı yaponmənşəli politoloq Frensis Fukuyama-nın 1989-cu ilin yayında "National Interest" jurnalında "Tarixin sonu və son insan" adlı məlum əsəri işıq üzü gördü. Əsərdə "tarixin sonu"ndan bəhs edilməsi qısa zaman kəsiyində geniş əks-sədaya və qızğın müzakirələrə səbəb oldu. Liberalizmin sosializm üzərində artıq qəti qələbə çaldığını və ABŞ-nin timsa-lında bəşəriyyətin ən yüksək inkişaf səviyyəsinə çatdığını bəyan edən Fukuyama model axtarmağa ehtiyac qalmadığı qənaətində idi. Başqa sözlə, bəşəriyyətin siyasi tarixinin sona çatdığı, bütün xalqların gec-tez Qərbin liberalizm və demokratiya prinsiplərini əsas alan siyasi inkişaf modelini qəbul edəcəyi, belə demək mümkünsə, "qərbləşəcəyi" proqnozunu irəli sürürdü [1, 136]. Müəllifin ən diqqətçəkən açıqlaması bəşəriyyətin gəldiyi liberal demokratiyanın tarixin sonu olduğu və dünyada ona alternativ təşkil edə biləcək hansısa sistemin olmadığı fikri idi [15, 60]. Liberalizmə alternativ olaraq göstərilən faşizmi, ko-munizmi dəstəkləyən cəmiyyətlərin məğlubuyyətinin yekun mərhələsi olduğunu düşünürdü. Fundamen-talizmin və milliyyətçiliyin alternatif təşkil etmə qabiliyyətindən məhrum olduğuna qəti inanırdı [12,s.107]. Həmçinin dinlərin sosial həyatda istiqamətverici özəlliklərinin qalmaması səbəbindən ideolo-giyaların da çökdüyünü irəli sürürdü. Fukuyamaya görə, həm də siyasi yönə malik olmasına, dünya əha-lisinin beşdə birinin mənsubu sayılmasına rəğmən İslam dini bütün dünya üçün yeni bir sistem gətirəcək gücdə deyildi. Fukuyma bütün dünyada demokratiyaya qarşı dini, milliyətçi, irqçi və etnik mübarizələri əhəmiyyətsiz rəqiblər olaraq qiymətləndirdi [18, 248]. Həmçinin Qərb liberalizmini ön plana çıxardığı ifadələrində müəyyən dərəcədə İslam əleyhdarlığını da sezmək mümkün idi [12, 107]. Son olaraq, müəllif nəticə etibarilə geridə liberalizmin və "azad" insanın qalacağını, sərbəst bazar iqtisadiyyatı, istehlak və istehsalın tamamilə fərdlərin tələblərinə görə formaşalacağını, dövlətin isə ancaq məhdud şəkildə və sadəcə vətəndaşların sərbəst yaşaya bilmələri üçün təhlükəsizliyin və sabitliyin təmin edilməsi vəzifəsini yerinə yetirəcəyini təxmin edirdi [12, 107].

## 2. "Mədəniyyətlərin toqquşması" və qloballaşan dünyanın çağırışları

Daha əvvəl də haqqında bəhs etdiyimiz ikiqütblü dünyanın çökməsi əslində ən çox Amerikanın dünya liderliyini sual altında qoyurdu. Çünki sosialist ölkələrinin timsalında barışmaz rəqib müstəvisində qurulmuş sistem dağılınca artıq dostla düşməni bir-birindən ayırmaq imkanı qalmırdı. Maraqlıdır ki, belə bir ehtimalın gündəmdə olduğu şəraitdə,1993-cü ildə, "Foreign Af-fairs" jurnalında amerikalı sosioloq, politoloq və eyni zamanda Fukuyamanın müəllimi olmuş Samuel Hantinqtonun "Mədəniyyətlərin toqquş-ması" adlı məlum məqaləsi işıq üzü gördü. Bir növ Fukuyamanın "tarixin sonu" tezisinə cavab mahiyyəti

daşıyan məqalədə dünya sisteminin yenidən təşkilindən bəhs olunur və böyük bir canlanmanın müşahidə olunacağı ehtimal edilirdi. Məqalə müəllifi bilavasitə ikiqütblü dünyada ideoloji zəmində münaqişələrin geridə qalması məsələsində Fukuyamanın tezisi ilə razılaşsa da mədəniyyət fərqləri əsasında münaqişələrin davam edəcəyi fikrini irəli sürürdü [12, 107]. Hətta tarixdəki gerçək hadisələrin bundan sonra baş verəcəyi, dünyada sivilizasiyalararası müharibələrin, təhlükəli beynəlxalq anarxiyanın yaranacağının qaçılmaz olacağını bəyan edirdi. Bununla da əslində sivilizasiyaların etno-mədəni bölgüsü konsepsiyasının müəllifi Hantinqton yeni dünya sistemində ABŞ-nin liderliyinin təminat altına alınmasına zəmin hazırlayacaq növbəti düşməni hədəf taxtasına oturdurdu. “Mədəniyyətlərin toqquşması” adını alan yeni tezisə görə, dünya Qərb və digərləri (West and the Rest) olmaqla iki qismə ayrılırdı. ABŞ və Avropanın timsalında Qərb deyilincə, ilk növbədə demokratiya, inkişaf, insan haqları kimi üstün dəyərlər başa düşülürdü. Şərq isə adətən terrorizm, yoxsulluq, cəhalət, zorakılıq qəbilindən mənfi təzahürləri təmsil edirdi. Düzdür, Hantinqtonun ortaya atdığı nəzəriyyə geniş əks-səda doğurdu, müzakirələrə səbəb oldu, ancaq akademik mühitdə bir o qədər də müsbət qarşılanmadı. Sözügedən nəzəriyyənin mahiyyətinə gəlincə, Hantinqtonun fərziyyəsinə görə, bundan sonra müasir dünyada ən irimiqyaslı, əhəmiyyətli və təhlükəli münaqişələrin sosial təbəqələr, kasıblar və varlılar deyil, müxtəlif mədəni identifikasiyalı topluluqlar arasında baş verəcəyi qaçılmaz idi [19, 97]. Bu da dünya miqyasında böyük bölünmələrin əsas mübarizə mənbəyinin mədəniyyətlər olacağı mənasına gəlirdi. Məhz bu tezisdən çıxış edən Hantinqton ən qanlı münaqişələrin sivilizasiyaları bir-birindən ayıran sərhədlər boyunca baş verəcəyini proqnozlaşdırdı [4, 271]. Milli dövlətlər dünyadakı hadisələrin yenə ən güclü iştirakçıları olaraq qalacağını, ancaq qlobal mübarizənin fərqli mədəniyyətlərə mənsub millətlər arasında cərəyan edəcəyini proqnozlaşdırırdı. Dünya siyasətinin mehvərini Qərb ilə qeyri-Qərb sivilizasiyalarının gücü və siyasəti arasındakı əlaqənin təşkil edəcəyini düşünürdü [19, 97]. Qlobal siyasətin sivilizasiyalar siyasəti olduğu müddətcə supergüclərin rəqabətinin mədəniyyətlərin toqquşması ilə əvəz olunacağını təxmin edirdi.

Təəssüf ki, eyni zamanda, ABŞ prezidentinin müşaviri vəzifəsini icra etmiş Hantinqtonun fikirlərinin rəsmi siyasəti əks etdirmədiyi bildirilsə də, bu anlayışın təsiri 1993-cü ildən etibarən təkcə ABŞ-nin deyil, bir çox Qərb ölkələrinin də xarici siyasətində özünü açıq-aydın göstərdi. Xüsusilə məşum 11 sentyabr terror aktından sonra mədəniyyətlərin toqquşması tədricən dünya siyasətinin təməl paradiqmasına çevrildi. Çin və təmsil etdiyi region bu qəbildən düşmən qütbləşməsinin tərəfi halına gəlməmək üçün maksimum səy göstərdi. Bu kontekstdə Sakit okean hövzəsi ölkələri ilə Qərb arasındakı mövcud qarşılıqlı iqtisadi asılılıq və Çin iqtisadiyyatının dinamizmi Qərbin Çinə qarşı açıq düşmənçilik mövqeyindən çıxış etməsinə imkan vermədi. İslam dünyasının pərakəndəliyi, əslində mövcud olmaması və sadəcə müsəlmanların çoxluqda yaşadığı əraziləri təmsil etməsi, təxribatlara açıq olması onu Qərb siyasətlərinin ilk qurbanına çevirdi. Sadəcə, keçən yüz ilin son iki onilliyindən bu tərəfə nəzər salsaq, hərbi təcavüzə, işğala, soyqırım siyasətinə, deportasiyaya, mülkiyyət və əmək hüququndan məhrum edilmə faktlarına məruz qalanların əsasən müsəlmanlar olduğunu görmək mümkündür. Bu baxımdan, Qərbin üçüncü dünya ölkələrində həyata keçirilməsində israr etdiyi özəlləşdirmənin məqsədlərindən biri də əslində dövlət mülkiyyəti üzərindən milli nəzarəti qaldırmaqdan başqa bir şey deyildi [20,14].

Əfsuslar olsun ki, 2001-ci il 11 Sentyabr terror aktından sonra ABŞ Prezidenti Buşun sərf etdiyi uğursuz “yeni səlib yürüşü” ifadəsi diplomatik dillə düzəldilməyə çalışılsa da baş verən hadisələrin sonrakı inkişafı müəyyən tərəddüdlərin səbəbsiz olmadığını göstərdi. Dünyada, xüsusilə İslam və Xristian dinlərinin ardıcıllarını qarşı-qarşıya gətirmək istəyən dairələrin məqsədyönlü fəaliyyətinə dair ehtimallar

öz təsdiqini tapdı. Beləliklə, 11 sentyabrdan sonra dünya miqyasında baş verənlər, obyektiv və ya subyektiv səbəblərdən sürətlənən bu prosesin gedişatı ciddi məyusluq doğurdu. Məqsədyönlü şəkildə terrorun, cəhalətin, geri qalmışlığın və əsarətin dəyişməz ünvanı, sinonimi halına gətirilən müsəlmanların timsalında İslam dini və onun müqəddəs dəyərləri haqsız təhqirlərə, hücumlara məruz qaldı. Əbu Qureyb və Quantanama həbsxanalarında yaşanan insanlıq dramı, dünyanın müxtəlif bölgələrində yerləşdiyi və insan hüquqlarının tapdalandığı bilinən gizli həbsxanalar, seperatizmə və terrorizmə münasibətdə hökm sürən ikili standartlar nikbin olmaq üçün əsas vermədi.

Həmçinin bahardan daha çox qışa dönən, ölkə vətəndaşlarının məna-feyinə xidmət etmədiyi şübhə doğurmayan “ərəb baharı” nəticəsində vətəndaş müharibələri, xarici hərbi müdaxilələr, iqtisadi böhranlar, işsizlik, yoxsulluq səbəbindən milyonlarla insanın Qərbə üz tutması həmin ölkələrdə miqrantofobiya və islamofobiyanın artmasına gətirib çıxardı. Dünya mediasında İslam dininin zorakılığı təşviq etməsi, meydana gəldiyi vaxtdan etibarən yer üzündə ancaq qılınc gücünə yayılması, müsəlmanların potensial zorakılıq tərəfdarı kimi tanıdılması istiqamətində aramsız təbliğat aparıldı. Müsəlmanların timsalında yeni düşmən obrazı formalaşdırılmağa çalışan bir sıra düşüncə quruluşları və onların ruporuna çevrilmiş Qərb mediası tərəfindən İslam qlobal sülh üçün ən böyük təhlükə mənbəyi olaraq göstərildi. Hətta müsəlmanlara qarşı yeridilən irqçilik və antisemitizm qədər təhlükəli olan bu nifrət siyasəti nəticəsində İslam dini keçən əsrdə bəşəriyyətə saysız-hesabsız faciələr gətirmiş faşizm və kommunizm təhlükəsi ilə eyniləşdirildi. Bütün bunların nəticəsində bu gün Hollandiya, İsveçrə, Finlandiya kimi nisbətən liberal görünən Avropa ölkələrində belə Qərbin səlib yürüşlərindən qalan əski “şüuraltı xəstəlikləri” baş qaldırır. Halbuki “yaradılmışların ən üstünü olan insana müstəsna dəyər verən İslam dini təməlini sevgi, mərhəmət və şəfqətin təşkil etdiyi ilahi vəhyə dayanan cahanşümul inanc sistemidir” [3, 500]. Düzdür, qırıq-qırıq kölgəsi qalmış İslam dünyasının bugünkü vəziyyətini ürəkaçan saymaq olmaz. Bunun günahını, bir sıra dairələrin etdiyi kimi, İslamda axtarmaq gerçəkləri təhrif etməkdən və qərəzkarlıqdan başqa bir şey deyil. Şübhə yoxdur ki, mövcud durumun yaranmasında bilavasitə İslam dinini dərindən bilməyən və təmsil etməyi bacarmayan, mənsub olduğu dini öyrənmək üçün cəhd göstərməyən müsəlmanların da günahı da az deyildir.

Çox maraqlıdır ki, yeni dünya sistemi ətrafında müzakirələrin davam etdiyi təxminən eyni dövrdə əsas səbəbləri, təzahür formaları, nəticələri, müxtəlif aspektləri bir çox haqlı sual doğuran daha bir termin də dövriyyəyə buraxıldı. Dünya birliyinə daxil olan və hər biri özünəməxsus siyasi, iqtisadi və sosial inkişaf səviyyəsi ilə fərqlənən dövlətlər arasında qarşılıqlı əlaqələrin intensivləşməsi, kommunikasiya və informasiya vasitələrinin qarşısıalınmaz bir qüvvəyə çevrilməsi ilə müşayiət olunan bu proses elmi ədəbiyyatda qloballaşma adını aldı. Nəhayət, proses dərinləşdikcə baş verən dəyişikliklər qloballaşmanın məqsədinə müəyyən aydınlıq gətirdi. Məlum oldu ki, qloballaşma inkişafının müasir mərhələsində bəşəriyyətin əsas məzmununu müəyyən edən bir proses olacaq. Ortaq beynəlxalq iqtisadi, hüquqi, mədəni və informasiya məkanının formalaşması nəticəsində dünya vahid məkana çevriləcək. İnformasiya, məhsul və xidmətlər, kapital, ideyalar və onların daşıyıcıları bu məkanın əsas təkanverici amilləri kimi çıxış edəcək. Dünya miqyasında əmək bölgüsü, kapitalın, işçi qüvvəsinin, istehsal reurslarının miqrasiyası, qanunvericiliyin, iqtisadi və texnoloji proseslərin standartlaşdırılması, nəhayət, müxtəlif ölkələrin mədəniyyətlərinin çulğalaşması baş verəcək. Digər tərəfdən, daxili siyasət, yerli iqtisadiyyat və ənənəvi mədəniyyət sahələri də qloballaşmanın əhatə dairəsindən kənarda qalmayacaq. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə ümumbəşəri dəyərlərlə yanaşı, milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də sirayət etməyə cəhd göstərəcək [11, 8]. Professor Səlahəddin Xəlilov da haqlı olaraq qeyd

etdiyi kimi, "müasir dövrdə proseslər vahid sivilizasiyanın formalaşması istiqamətində gedir. Ən azı, qloballaşma buna xidmət edir" [9, 8].

Qeyd etmək lazımdır ki, insanlıqla bağlı bir anlayış olduğu şübhə doğurmayan qloballaşma yeni bir hadisə olmamaqla bərabər, yeni bir termin olmaq özəlliyinə malikdir [14, 27]. Ümumdünya tarixi prosesinin təhlili göstərir ki, bəşəriyyət daima inteqrasiyaya, vahid siyasi, iqtisadi və sosial-mədəni məkanın bir parçası olmağa can atmışdır. Yayıldıqları məkan-zaman hüdudlarında dünyanın qloballaşmasına xidmət etmiş qədim dövrlərin və orta əsrlərin sivilizasiyaları buna parlaq misaldır. Xüsusilə müsəlmanlar "inanc baxımından müxalif olanlara təzyiq etməyən, əksinə onları qoruyan, dinləri, ibadətləri, iqtisadi və həyati fəaliyyətləri xüsusunda, savaşmadıqları və açıqdan-açığa düşmənçilik etmədikləri müddətcə, onlara etimad təlqin edən ilk və ya tək ümmət olmuşdur" [17, 26]. İlk dəfə nə zaman və kimin tərəfindən dövriyyəyə buraxıldığı mübahisə doğuran, sonrakı onilliklərin və müasir dövrün danılmaz atributuna çevrilmiş qloballaşma başlanğıcda beynəlxalq münasibətlər və iqtisadiyyat sahəsi ilə bağlı kimi görünsə də, siyasi və sosial-mədəni aspektlərinin olduğu ehtimalı da yüksək idi. "Lakin kifayət qədər çoxcəhətli zahiri əlamətlərə malik olan qloballaşmanın mahiyyət etibarı ilə mürəkkəb və ziddiyətlərlə dolu bir proses olması da şübhə doğurmurdu" [2, 225]. Gördüyümüz kimi, müasiri olduğumuz qloballaşma prosesi əslində ayrı-ayrı fərdlər və bütövlükdə bəşəriyyət üçün bir növ yetkinlik, uzaqgörənlik və müdriklik sınağı sayıla bilər.

Digər tərəfdən, qloballaşma prosesi əsnasında birqütblü kənd halına gələn dünyada baş verən dəyişikliklərin masştabı və əhatə dairəsi dövrün reallığına çevrildi. Qloballaşan dünyada zaman və məkan anlayışının yox olması da başqa bir inkarolunmaz həqiqətdir. Müxtəlif dünyagörüşə, etnik və dini kimliyə malik, bir-birindən fərqli mədəniyyətləri təmsil edən insanların birlikdə yaşamaları zərurəti ortaya çıxdı. İnformasiya məkanında çox yaxınlaşmış mədəniyyətlərin bir-birini tanımaq, həqiqi mahiyyətini dərk etmək, bütün mədəniyyətlərdə etnik-milli və bəşəri qatların olduğuna inanmaq, hər bir mədəniyyətin müxtəliflikdə vəhdət təşkil etdiyinə əmin olmaq ehtiyacı hasil oldu [1, 6].

## 3. Mədəniyyətlərarası dialoq zərurəti və Azərbaycan təcrübəsinin önəmi

Mədəniyyətlərarası dialoqdan bəhs edərkən, ilk növbədə, qısaca dialoq məfhumunun lüğəvi və terminoloji mənasını xatırlatmaq məqsədəuyğun olardı. Dialoq kəlməsi lüğətdə "iki və ya daha çox şəxs arasında aparılan danışıq, mükalimə" [8, 65] mənasını ifadə edir. İki insan arasında danışıq, anlaşma, uyğunlaşma, ya da razılaşma niyyəti ilə şəxs və qrupların fikir mübadiləsi aparması kimi də başa düşülür. Termin olaraq isə iki və ya daha artıq şəxsin qarşılıqlı söhbəti, müxtəlif irq və mədəniyyətə, inanc və siyasi anlayışa malik tərəflərin bir araya gələrək, hər birinin öz məramını diqətlə ifadə etməyə çalışdığı, tərəf-müqabilin dediklərinə ehtiramla qulaq asaraq, bir-biri ilə əlaqə və ünsiyyət qurmasının yoludur.

Əsas məqsədlərindən birinin qarşılıqlı ünsiyyəti təmin etmək olan dialoq müxtəlif din və mədəniyyətlərin nümayəndələrinin bir-birləri ilə ortaq dil tapmalarına köməklik göstərir. Bu da öz növbəsində ümumən bəşəriyyətin birgə yaşayışının təmin edilməsinə xidmət edir [10, 7]. Məhz insanların bir-biri ilə ünsiyyəti prosesində müsbət keyfiyyətlərin mübadiləsi baş verməklə yanaşı, tərəflər bilik və bacarıq cəhətdən daha da təkmilləşmək, savadlı və mədəni olmaq imkanı əldə edirlər [7, 365]. Buna görə də mədəniyyətlərarası dialoq müasir dövr üçün həyati əhəmiyyət kəsb edən inkarolunmaz amildir. Çünki mədəniyyətlərarası dialoq müxtəlif xalqlar və dövlətlər arasında mövcud olan problemlərin, münaqişələrin danışıqlar yolu ilə həll edilməsində mühüm rol oynamaq imkanına malikdir. Eyni zamanda, xoşbəxt

gələcəyin qurulması, qarşılıqlı anlaşmanın və hörmətin təşviq olunması, mədəni müxtəlifliyin qorunmasına şərait yaratmaqla yanaşı, müasir beynəlxalq münasibətlərdə sülhün və təhlükəsizliyin təmin olunmasına töhfə verir. Mənsubu olduğumuz İslam dini də özündən olanı sevmək, başqalarına hörmət etmək, həmrəylik, fədakarlıq və yardımlaşma məziyyətləri ilə səciyyələnən bir toplum meydana gətirməyi məqsədəuyğun hesab edir" [5, 149]. Bu səbəbdən də hansı sahədə olursa-olsun, istənilən dövlətin və yaxud cəmiyyətin özünütəcrid şəraitində inkişaf etməsi imkansızdır. İnsan ancaq başqalarını olduğu kimi tanıdığı və onlara qarşı sevgi duyduğu nisbətdə ətrafdakılarla gerçək birlik və inteqrasiya şəraitində yaşaya bilər [7, 365].

Müasir dünyada demokratik yolla artan mədəni müxtəlifliyinin idarə olunması son illərdə xüsusilə aktuallıq qazanıb. Müxtəlifliyin və təhdidlərin artdığı dünyada sosial bağlılığı möhkəmlətmək və münaqişələrin qarşısını almaq üçün etnik, dini və milli sərhədlər mövzusunda müzakirələrə ciddi ehtiyac duyulur. Mədəniyyətlərarası dialoq həmçinin bizlərə birlikdə irəliləməyə, paylaşılmış ümumbəşəri dəyərlər əsasında müxtəlif mənsubiyyətlərlə yaradıcı və demokratik yolla əməkdaşlıq etməyə zəmin hazırlayır. Lakin unutmamalıyıq ki, mədəniyyətlərarası dialoq müəyyən ilkin şərtlər formalaşdığı təqdirdə inkişaf edər və gözlənilən nəticəni verə bilər.

Digər tərəfdən, fərqli mədəniyyət və din mənsubları arasında qarşılıqlı etimadın yenidən bərqərar olması üçün ilk addım olaraq "biz" və "onlar" psixologiyasından, ikili standartlardan xilas olmaq lazımdır. Bunun üçün də dərisinin rəngindən, dilindən və dinindən asılı olmayaraq ədalətin hər kəsə şamil edilməsi olduqca vacibdir. Əslində, fərqli olanların bir-birilərini anlamaları üçün hər kəsi olduğu kimi qəbul etmələri, sağlam düşüncə və fəzilət sahibi olmaları yetərlidir. Məlum olduğu kimi, düşmənliklər, qarşıdurmalar, kin-küdurət bir qayda olaraq sağlam təfəkkür və fəzilətdən məhrum olanların seçimi nəticəsində ortaya çıxır. Elə isə başqa mədəniyyət və din mənsubları ilə dialoqdan, fərqli görüş sahibi olan tərəf-müqabillə müzakirələrdən çəkinmək əsla məntiqli və doğru deyildir. Bu qəbildən mövqe nümayiş etdirmək sadəcə öz dini inancından, mədəniyyətindən, elmi dünyagörüşündən əmin olmamaq mənasına gəlir. Bu səbəbdən də dialoqdan ancaq hansısa səbəbdənsə fərqli fikirlər qarşısında adekvat mövqe nümayiş etdirməkdən çəkinənlər imtina edirlər. Mənsub olduğu dinin gerçək mahiyyətinə, fəlsəfəsinə, onun məntqli hökmlərinə bələd olan və izah edə bilən, problemlərin həllinə töhfə verəcəyinə inanan kimsələr dialoq qurmaqdan boyun qaçırmamalıdır. Hətta "qeyri-müsəlmanlara İslam və onun etiqad prinsipləri haqda qənaətbəxş məlumat vermək və "Dində heç bir məcburiyyət yoxdur" düsturunu tətbiq etmək baxımından dialoq zərurəti ortaya çıxmışdır" [10, 11]. Məhz bu qəbildən dialoqlar nəticəsində yaxından tanıdıqca, gerçəklərə vaqif olduqca, hətta başda din adamları olmaq üzrə bir çox kimsələrin ihtida etdikləri, müsəlman olduqları da məlumdur.

Digər tərəfdən, İslam dininin cahanşümul mahiyyətinə qərəzli mövqeyin nümayiş etdirildiyi bir vaxtda bunun belə olmadığını göstərmək üçün də ilk növbədə, dialoq qurmağa, digər din və mədəniyyətləri təmsil edən insanlarla müzakirə aparmağa ehtiyac var. Qərbdə getdikcə artan islamofobiya təbliğatı və bəzi radikal müsəlman qruplarının dinimizin cahanşümul mahiyyəti ilə bir araya sığmayan davranışı səbəbindən formalaşmış mənfi imici aradan qaldırmaq üçün təktərəfli təbliğat və didaktik metodlarla İslamı anlatmaq mümkün deyil. Bunun da yeganə yolu insanlarla dialoq qurmaqdan, müsəlmanların hamılıqla terrorist olmadığını, əksinə böyük əksəriyyətinin əlindən və dilindən başqalarının zərər görmədikləri şəxslərdən ibarət olduğunu yaşayaraq güvən təlqin etməklə göstərməkdən keçir.

Məhz din mənsubları arasında əmin-amanlığın təmin edilməsi, çoxmədəniyyətliliyin inkişafı ölkədə demokratik dəyərlərin tərəqqisinə yol açan əsas amillərdəndir. Multikulturalizm və tolerantlıq tarixin,

müxtəlif xalqların və etnosların mədəni irsinin öyrənilməsi və yeni inkişaf müstəvisinə yüksəldilməsidir. Milli mədəniyyətlərin qorunması onların dilinin, milli adət və ənənələrinin, başqa sözlə, milli ruhunun qorunması deməkdir. Özünəməxsus milli və yüksək humanist ənənələrə malik olan Azərbaycan həm də multikulturalizm prinsiplərini dünyada yayan nadir ölkələrdəndir. Ölkəmizdə bu sahədə bərqərar olan münasibətlər təsdiq edir ki, multikulturalizm xalqımızın tarix boyu formalaşan milli keyfiyyətidir və bütün dövrlərdə cəmiyyətin həyat tərzi olub. Bu gün isə reallıq odur ki, artıq multikulturalizmin Azərbaycan modeli formalaşıb və mükəmməl örnək kimi ölkəmizdəki çoxsaylı fərqli etnik qrupların sülh şəraitində yaşamasına, bərabərhüquqlu fəaliyyətinə tam zəmin yaradır. Çoxmədəniyyətliliyin həyat tərzi olaraq qəbul olunduğu Azərbaycan multikulturalizmin böhran yaşamadığını göstərən məkanlardandır. Şərqlə Qərbin, Şimalla Cənubun, xristianlıqla islamın, müxtəlif sivilizasiya və mədəniyyətlərin qovşağında yerləşən Azərbaycan multikulturalizmin əbədiyaşar olduğunu təsdiqləyir. Azərbaycanda multikulturalizm modelinin başlıca uğuru "Çoxmillətli dövlət – vahid cəmiyyət" prinsipinə əsaslanır. Ölkədəki sosio-mədəni harmoniyanın səbəblərindən biri də ondan ibarətdir ki, bəzi Qərb ölkələrindən fərqli olaraq Azərbaycan dövlətinin uğurla həyata keçirdiyi siyasət etno-mədəni və dini kimliklərin assimilyasiyasına deyil, onların qorunub saxlanılmasına yönəlib.

Böyük qürur hissi ilə qeyd edə bilərik ki, Azərbaycanın tarixi daim müxtəlif xalqların, mədəniyyətlərin və dinlərin vahid dəyərlər naminə birləşdiyinin şahidi olmuşdur. Bu vahid dəyərlər azadlıq və firavanlıq, müasir tariximizdə isə müstəqillik və demokratik dəyərlərdə öz əksini tapır. Təsadüfi deyildir ki, "multikulturalizm məfhumu ideologiyadan daha çox, həyat tərzi səciyyəsini daşıyan Azərbaycan modelinin timsalında daha universal məna kəsb edir" [6, 223]. 2011-ci ildən etibarən Bakıda qlobal xarakterli məsələlərə dair geniş spektrli dialoqlar, müzakirələr aparmaq məqsədilə hər il dünyanın tanınmış dövlət xadimlərinin, Nobel mükafatı qaliblərinin, nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin toplandığı Beynəlxalq Humanitar Forumun keçirilməsi də multikulturalizmin təbliğinə xidmət edirdi. Azərbaycan Respublikasının Prezidentinin 15 may 2014-cü il Fərmanı ilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması bu sahəyə dövlətin əhəmiyyət verməsinin bariz dəlili idi. Dünyada etnik və dini münaqişələrin tüğyan etdiyi bir dövrdə Azərbaycan Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi beynəlxalq aləmdə də böyük rəğbət doğurdu. Multikulturalizmin Azərbaycan modelinin uğurlarında ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban Əliyevanın müstəsna xidmətləri də xüsusilə qeyd olunmalıdır. Onun təşəbbüsü və rəhbərliyi altında milli-mədəni irsin öyrənilməsi, qorunub saxlanması, dünyaya onu ümumbəşəri irsin bir hissəsi kimi tanıdılması, Azərbaycanın tolerantlıq və multikultural ənənələrinin intişar edilməsi istiqamətində bəşəri əhəmiyyəti olan layihələr həyata keçirilmişdir [6, 224]. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların bərabərliyini təmin edən milli siyasətin əsas müddəaları Azərbaycan Konstitusiyasında göstərilmişdir. Milli azlıqların qorunması Azərbaycan rəhbərliyinin apardığı siyasətin əsas istiqamətlərindən biridir. Konstitusiya və qanunların verdiyi bərabər hüquqlar və imkanlardan istifadə edərək, müxtəlif millətlərin nümayəndələri cəmiyyətin ayrı-ayrı sahələrində məhsuldar işləyərək ölkəninin kişafına layiqli töhfələr vermək imkanına malikdirlər.

**Nəticə**

Mövcud şəraitdə mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi, çətin görünsə də səbrlə səmavi dinləri birləşdirən məqamlar və ortaq dəyərlərin təbliğinə ciddi ehtiyac vardır. Bütün dinlərin, ictimaiyyətin təqdir və qəbul etdiyi əxlaq normalarının üzərində durulması məqsədəuyğun olardı. Unutmamaq lazımdır ki, biz insanları bir-birimizdən fərqləndirən bir çox amil tapmaq mümkündür. Mənsub olduğumuz din, adət-ənənə, mədəni dəyərlər və danışdığımız dil bu amillərdəndir. Bir daha insanları digər bioloji varlıqlardan fərqləndirən xeyir və şər duyğusunun izahına, həmçinin ədalət və şəfqətin zərurəti barədə geniş izahat işinə ciddi ehtiyac vardır. Xüsusilə də bu prosesdə mənsub olduğumuz İslam dininin cahanşümul bir din olduğunu və ona alternativ kimi göstərilməyə çalışılan ideologiyaların və sistemlərin hamısının iflasa uğradığını anlamaq lazımdır. Bu baxımdan, mənsub olduğumuz uca dinimizin təmsil etdiyi ümumbəşəri dəyərləri, prinsip və hökmlərini ilk öncə öz şəxsi həyatımızda tətbiq edərək yaşamağımız və başqalarının da yaşamalarına vəsilə olmağımız böyük əhəmiyyət kəsb edir. Bəşər övladının düçar olduğu şəraitdə, parçalanma və təfriqə yolunu deyil, ümumi dil tapmaq, həmrəylik nümayiş etdirmək, ortaq dəyərlərə sahib çıxmaq yolunu seçəcəyinə, sağlam təfəkürün qələbə çalacağına ümid edirik. Belə olduğu təqdirdə yanlış anlamalardan sui-istifadə etməklə nifaq toxumu səpmək, gücə istinad edərək yeni-yeni gərginlik ocaqları meydana gətirmək və bütün bunlardan maksimum fayda əldə etmək istəyən radikal qrupların qaranlıq planları da pozulmuş olacaqdır.

## ƏDƏBİYYAT


**I. Azərbaycan dilində**

1. Aslanova Rəbiyyət (2004). Qloballaşma və mədəni müxtəliflik. Bakı: “Elm”.
2. Babaşlı Məmmədəli (2009). Qloballaşan dünyada ali təhsilin perspektivləri və aktual məsələləri. Journal of Qafqaz University 2009. № 28, s.224-232
3. Babaşlı Məmmədəli (2012) İslamda insansevərlik anlayışının mahiyyəti və mədəniyyətlərarası dialoq. AMEA akdemik Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun “Elmi Araşdırmalar” (elmi-nəzəri məqalələr toplusu), IX buraxılış, Bakı, s.500-506
4. Babaşlı Məmmədəli (2017). Səbəb və nəticə baxımından Qərb mətbuatında islamın mövcud imici.“İslam həmrəyliyi-2017:reallıqlar və perspektivlər”mövzusunda Respublika elmi-metodik konfransının materialları, Bakı, 26-27 aprel 2017, s. 270-272
5. Babaşlı Məmmədəli (2020). İslam dinində həmrəylik anlayışı və müasir dövrün çağırışları baxımından əhəmiyyəti. Şərqşünaslıq İnstitutunun “Şərq araşdırmaları” elmi-nəzəri jurnalı, Bakı, № 2, səh.149-160 s.149
6. Babaşlı Məmmədəli (2021). Milli və dini kimliyin qorunması baxımından Azərbaycanda birgəyaşayış təcrübəsi və imkanları.“Yaşanabilirlilik açısından İslam dini” mövzusunda Beynəlxalq Simpozium, Türkiyə-Qars 21-22 oktyabr 2021,s. 211-230
7. Babaşlı Məmmədəli (2021). Qlobal problemlər və islam mədəniyyətinin birgəyaşayış təcrübəsi. Azərbaycan İlahiyyat İnstitutu “Din araşdırmaları” jurnalı, № 2(7), dekabr 2021, 349-384
8. İzahlı dini terminlər lüğəti (2020). Azərbaycan İlahiyyat İnstitutu. Bakı, “Nurlar” Nəşriyyat-Poliqrafiya Mərkəzi.
9. Xəlilov Səlahəddin (2009). Sivilizasiyalararası dialoq. Bakı, “Adiloğlu” nəşriyyatı

10. Məhəmməd Xəlifə Həsən (2011). Dialoq mədəniyyəti və metodologiyası. Tərcümə edən və redaktor: Elvüsal Məmmədov, Bakı.

11. Vəliyev Dünyamalı (2008). Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası. Bakı, "Adiloğlu" nəşriyyatı.

**II. Türk dilində**

12. Ateş, Oral.KAREFAD/CAKU Journal of Faculty of Letters, Volume:12, Issue:1, 105-120

13. Baharçiçek, Abdülkadir (1996).Yeni Dünya Düzeni: Barış ve İşbirliği mi, Çatışma ve Düzensizlik mi? Bilig: Türk Dünyası Sosyal Bilimler Dergisi, Sayı:1, s.101-105.

14. Biçer, Ramazan (2010). Küreselleşen Çağda İslam. Gelenek Yayıncılık Tasavvuf Kitaplığı. İstanbul, s.27

15. Fukuyama, F., (1999), Tarihin Sonu ve Son İnsan, çev.: Z. Dicleli, İstanbul, Gün Yayınları.

16. İbrahim M.Abu Rabi (2003). Modernlik ve Çağdaş İslam Düşüncesi. İstanbul.

17. Kutub, Muhammed (2013). Küreselleşme ve Müslümanlar.İstanbul, Step Ajans Matbaacılık

18. Şahin Ceylan, Şule (2006). Francis Fukuyama ve Tarihin Sonu Tezi. İstanbul Ticaret Üniversitesi Sosyal Bilimler Dergisi Yıl:5 Sayı:10 Güz 2006/2 s.233-252

**III. Rus dilində**

19. Васецова, Елена (2016). Исламское государство» как шаг на пути к конфликту цивилизаций?, «Век глобализации», № 1-2, с. 96-101

20. Карпович Олег Геннадьевич (2012). Глобализация: вызовы человеческой безопасности. Вестник ЧитГУ № 2 (81) с.52-58

21. Хантингтон, Самюэль(2018). Столкновение цивилизаций. [Перевод с английского Т.Велимеев], Москва: Издательство AST.

**IV. İngilis dilində**

22. Francis Fukuyama, "The End of History and the Last Man" Free Press – 1992

## HEYDƏR ƏLİYEVİN FENOMENAL ŞƏXSİYYƏTİ VƏ MƏDƏNİ ABİDƏLƏRİN QORUNUB-SAXLANILMASINDA ROLU

**_f.f.d., dos. Əlǝddin Mǝlikov,_**
Azərbaycan Milli Elmlər Akademiyası
Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi
aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764

### XÜLASƏ

Fenomenal şəxsiyyəti fərqləndirən əsas cəhət onun fərdi, ictimai və mədəni xüsusiyyətləridir. Şəxsiyyət bütün keyfiyyət və məziyyətləri ilə yanaşı, elitanı təşkil edən digər şəxslərdən fərqlənməli və spesifik xarakterə malik olmalıdır. Ümummilli lider Heydər Əliyevin fenomenal şəxsiyyətinə gəldikdə isə bu xüsusiyyətlər kifayət qədər çox olduğundan, bu, məqalənin həcminə sığmır. Ulu Tanrı Heydər Əliyevə müdriklik, dahilik, qətiyyət, əyilməzlik, yenilməzlik, mübarizlik, alicənablıq, nadir iş qabiliyyəti, natiqlik istedadı, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini və imkanlarını müəyyənləşdirmək bacarığı, fenomenal və ensiklopedik yaddaş, universal bilik kimi bir çox xüsusiyyətlər bəxş etmişdir.

Heydər Əliyevin rəhbərlik etdiyi illər ərzində Azərbaycanda böyük abadlıq işləri görülmüş, müasir milli memarlığın görkəmli əsərləri sayılan, ölkəmizin sosial və mədəni həyatında mühüm əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, institut, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə bina tikilib istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının tarixi keçmişində, milli-mənəvi irsində, mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın varlığına, duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini gözəl bilirdi.

**_Açar sözlər:_** _Heydər Əliyev, fenomenal, şəxsiyyət, mədəniyyət, abidələr._

## THE PHENOMENAL PERSONALITY OF HEYDAR ALIYEV AND HIS ROLE IN THE PRESERVATION OF CULTURAL MONUMENTS

**_Assoc. Prof. Aladdin Malikov_**

### ABSTRACT

The main aspect distinguishing a phenomenal personality is the individual, social, and cultural merits. Along with all the merits and virtues a personality should be different from others making up the elite and have a specificity. As for the phenomenal personality of National Leader Heydar Aliyev, since he has quite a lot of those merits, we will not be able to cover them all in this article. The Almighty endowed Heydar Aliyev with multiple qualities, such as wisdom, genius, determination, steadfastness, invincibility, fighting spirit, generosity, rare endurance, gift of oratory, self-righteousness, the ability to

see the merits and strength of people around him, phenomenal and encyclopedic memory, and wide knowledge.

During the years of Heydar Aliyev's leadership, significant landscaping works had been carried out in Azerbaijan, a number of architectural ensembles, administrative centers, palaces, institutes, publishing houses, educational buildings and complexes were built and commissioned, which are considered outstanding works of modern national architecture, important in the social and cultural life of our country, as well as many other buildings contributing to the splendor of the city. Precisely because of the initiative of Heydar Aliyev the restoration of many architectural monuments was possible. He knew that immortalization of the great personalities who made their contribution to the historical past, national and spiritual heritage, and cultural history of the Azerbaijani people in the monuments would have an exceptionally positive impact on the people and their feelings.

***Keywords:*** *Heydar Aliyev, Phenomenal, Personality, Culture, Monuments*

## ФЕНОМЕНАЛЬНАЯ ЛИЧНОСТЬ ГЕЙДАРА АЛИЕВА И ЕГО РОЛЬ В СОХРАНЕНИИ ПАМЯТНИКОВ КУЛЬТУРЫ

***д.ф. по философии, доц. Аладдин Маликов***

## РЕЗЮМЕ

Основным аспектом, отличающим феноменальную личность, являются ее индивидуальные, социальные и культурные качества. Личность, наряду со всеми ее качествами и достоинствами, должна отличаться от других лиц, составляющих элиту, и иметь специфический характер. Что касается феноменальной личности общенационального лидера Гейдара Алиева, то, поскольку этих качеств у него достаточно много, мы не сможем охватить их все в данной статье. Всевышний наделил Гейдара Алиева многими качествами, такими как мудрость, гениальность, решительность, непоколебимость, непобедимость, боевой дух, великодушие, редкая выносливость, ораторский талант, уверенность в своей правоте, способность определять достоинства и возможности окружающих его людей, феноменальная и энциклопедическая память, универсальные знания.

За годы руководства Гейдара Алиева в Азербайджане были проведены существенные работы по благоустройству, построен и сдан в эксплуатацию ряд архитектурных ансамблей, административных центров, дворцов, институтов, издательств, учебных корпусов и комплексов, считающихся выдающимися произведениями современной национальной архитектуры, имеющих важное значение в социальной и культурной жизни нашей страны, а также множество других зданий, придающих городу его великолепие. Именно благодаря инициативе Гейдара Алиева стало возможным восстановление большого количества памятников архитектуры. Он прекрасно знал, что увековечивание в памятниках великих личностей, оставивших след в историческом прошлом, национально-духовном наследии, истории культуры азербайджанского народа, окажет исключительно положительное влияние на народ и его чувства.

***Ключевые слова:*** *Гейдар Алиев, феноменальный, личность, культура, памятники.*

## Giriş

*"Rəhbər və başçı: fərq nədir?"* məqaləsində çox doğru qeyd edilir ki, idarəçilik iki hissədə – idarəetmə və politoloji düşüncədə xülasə olur. Elə idarəçilər də var ki, həm idarəetməyə, həm də politoloji düşüncəyə malikdirlər. Bunlar hər bir idarəçinin göstəricisidir. Əgər idarəçinin potensialı, məharəti böyükdürsə, o, müxtəlif məsələləri həll edir. Siyasətçi ilə idarəçi arasında olan fərq də məhz budur. Mahir idarəçi üzərinə düşəni peşəkarlıqla yerinə yetirir; uzaqgörən siyasətçi isə işləri düzgün yerinə yetirir. Bu məsələ o qədər əhəmiyyətlidir ki, xalqların taleyini həll edir. Məhz bunu göstərmək və böyük işlər görmək üçün belə şəxsiyyətlər xüsusi zamanlarda zühur edir, öz xalqlarının istiqamətini dəyişib, ölkənin və xalqın mənafeyinə uyğun işlər görürlər. Professor S.Xəlilov doğru olaraq vurğulayır ki, bu növ şəxsiyyətlər özləri üçün məqsəd hazırlayır, onu icra etmək üçün qüdrətə nail olur və tarixdə dahiyanə izlər qoyurlar. Əksəriyyətin gördüyü, lakin heç də hamının eyni cür duya və dərk edə bilmədiyi ulu öndər Heydər Əliyev belə şəxsiyyətlərdən idi.

Afrikalıların belə bir deyimi var: *"Əgər görürsən ki, su təpə boyunca altdan yuxarı qalxır, deməli, kimsə xeyirxahlığa xeyirxahlıqla cavab vermişdir".* Heydər Əliyev hazırkı qüdrətli və yeni Azərbaycanın memarı və əbədi Prezidenti olaraq, ölkəmizin gələcəyinə olan eşqini, sevgisini və zəkasını birləşdirərək, Azərbaycanı regionun qüdrətli qütblərindən birinə çevirdi. Ulu öndər Azərbaycanın güclü qütb olması üçün bütün maneələri bir-bir aradan qaldırdı. Respublikanı ifrata uğradan subyektiv idealizmdən xilas etdi. O, Azərbaycanı dünyanın qüdrətli qütbünə çevirmək üçün lazım olan potensialları bir-birinin ardınca hazırladı. Nəticəsi isə hazırkı qalib Azərbaycandır. Ümummilli Liderin gücü və qüvvəsi XX əsrin liderləri ilə müqayisədə, təqribən, misilsiz idi. O, bu nəticəyə çatmışdı ki, azərbaycanlıların varlı olmasından və dövlətin iqtisadi səhnədən tədrici şəkildə kənara çəkilməsindən başqa inkişaf yolu yoxdur.

Ümummilli lider Heydər Əliyevin fenomenal şəxsiyyətinə gəldikdə isə bu xüsusiyyətlər kifayət qədər çox olduğundan, məqaləmizin həcminə sığmır.

## Fenomenal şəxsiyyət

Ulu Tanrı Heydər Əliyevə müdriklik, dahilik, qətiyyət, əyilməzlik, yenilməzlik, mübarizlik, alicənablıq, nadir iş qabiliyyəti, natiqlik istedadı, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini və imkanlarını müəyyənləşdirmək bacarığı, fenomenal və ensiklopedik yaddaş, universal bilik kimi bir çox xüsusiyyətlər bəxş etmişdir. Müstəqil Azərbaycanın təməl daşını qranitdən yoğuran Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun qismətinə düşmüş Tanrı payıdır. Uzun illər keçəcək, lakin özünüdərk, özünəqayıdış və özünüifadə kimi milli və dini prosesləri sovet ideoloji sistemindən çox məharətlə xilas edən Heydər Əliyev bir şəxsiyyət kimi sirr olaraq qalacaqdır. Bu səbəbdən də Ulu Öndərin bir sıra keyfiyyətləri özündə ehtiva edən beş əsas xarakterik xüsusiyyətini müxtəsər şəkildə qeyd edirik:

1. **Tədbirli olmaq.** Ulu Öndərin tədbirli olması ilə əlaqədar çoxlu sayda nümunə vardır. Bu nümunələr həm strateji, həm də taktiki proseslərdə həddən ziyadə çoxdur. Burada yalnız bu faktla kifayətlənirik ki, Ulu Öndər hələ sovet dövründən azərbaycanlı kadrların hazırlanması, təşkilatlanması və formalaşması üçün çoxlu dərinməzmunlu işlər görmüşdür. Bilirsiniz, hər hansı bir prosesin formalaşması üçün iki əsas şərt lazımdır: tarixi şans və tarixi şəxsiyyət. Professor S.Xəlilov vurğulayır ki, sovet dövründən başlayaraq, tarixi şəxsiyyətimiz olsa da, tarixi şansımız yox idi. Qeyd etməliyəm ki, tarixi şansı da

tarixi şəxsiyyət formalaşdırır. O dövrdə gedən bir çox proseslərə baxdıqda görürük ki, Ulu Öndər müstəqilliyin formalaşması üçün sanki zəmin yaradırmış. Sən demə, Heydər Əliyev dühası imkansızlıqda da imkan axtarırmış. Ümummilli Liderin "Mən o vaxt Azərbaycanın gələcəyi haqqında düşünürdüm" sözlərindən sonra bu düşüncəm daha da möhkəmləndi. Heydər Əliyev çox yaxşı bilirdi ki, dünya intellekt dünyasıdır və bu dünyada layiqli yer tutmağımızın yolu insan kapitalından keçir. Bunun üçün kadr hazırlamaq cizgilərini zərgər dəqiqliyi ilə hazırlamışdı. Sadəcə, bu faktı qeyd etmək dahi şəxsiyyətin bu sahədə hansı həcmdə işlər apardığını anlamaq üçün yetərlidir.

Azərbaycandan xaricə göndərilən tələbələrin sayı ilə 1969-cu ildən öncə göndərilən tələbələrin sayını müqayisə etmək kifayətdir. Başqa bir nümunə isə budur ki, 1969-cu ildən öncə Azərbaycandan olan neçə-neçə yazıçı, musiqiçi, alim, mütəfəkkir, rejissor, mədəniyyət xadimi və digər peşə sahibləri SSRİnin ali mükafatlarına layiq görülüb, 1969-cu ildən sonra isə neçəsi fəxri ada layiq görülüb. Bütün bunlar ulu öndər Heydər Əliyevin təqdimetmə bacarığı və uzaqgörənliyi sayəsində baş tutub.

**2. Ulu Öndər görkəmli, fenomenal dövlət xadimidir.** Tarix sübut edib ki, millətlərin tale məsələsi olan dövlət müstəqilliyini qoruyub-saxlamaq onu əldə etmək qədər çətindir. Tanrı hər iki neməti Azərbaycan xalqına bəxş etmişdir. Xalq ilə xüsusi münasibətlərin subyekti olaraq şəxsiyyət kommunikativ funksiyanı da yerinə yetirir. Fenomenal şəxsiyyət bununla xalqın nəzərində hüquq və azadlıqlarını təmin edəcəyini, fərdi və siyasi məsuliyyətini və son nəticədə idarəçiliyin məcmu fəaliyyətini təcəssüm etdirir.

Heydər Əliyevin xarakterik xüsusiyyətlərindən biri də kommunikativlik bacarığıdır. Kommunikativ funksiya cəmiyyətdə Heydər Əliyevin apardığı ən vacib funksiyalardan biridir. Bunun məntiqi nəticəsində Ümummilli Liderin səfərbəredici funksiyası formalaşır. Heydər Əliyevin səfərbəredici funksiyası həm xalq arasında, həm də dövlətdə bu və ya digər konkret problemlərin həllində əhalinin səfərbər edilməsi qabiliyyətində özünü tamamilə təzahür etdirirdi. *"Mən həyatımda üç şeyə – Yaradanıma, zəhmətimə və bir də xalqıma arxalanmışam",* – deyən, otuz ildən artıq müddət ərzində Azərbaycan məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran, hələ sağlığında ikən canlı əfsanəyə çevrilən Heydər Əliyev Azərbaycan xalqına Uca Yaradanın töhfəsidir.

**3. İslahatçılıq xüsusiyyəti.** Azərbaycan əgər regionun bütün siyasi, iqtisadi və mədəni məsələlərinin həllində əvəzolunmaz iştirakçı, əsas söz sahibidirsə, bunun təməlləri müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyevin hakimiyyəti dövründə atılmışdır. Onun misilsiz idarəçilik qabiliyyəti, gərgin əməyi nəticəsində əldə olunmuş nailiyyətlər ölkənin davamlı və dinamik iqtisadiyyatının inkişafı üçün möhkəm zəmin yaradıb. Heydər Əliyevin dövlət quruculuğu strategiyasının ana xəttini təşkil edən cəmiyyətin demokratikləşdirilməsi prinsipi, artıq müstəqil Azərbaycan Respublikasını bütün dünyada tanıdıb. Heydər Əliyev o dövrdə prezident kimi fəaliyyətinin əsas istiqamətlərindən bəhs edərkən deyirdi ki, respublika iqtisadiyyatı, demək olar ki, tamamilə dağıdılıb, xalqın rifah halı aşağı düşüb: *"Lakin respublikanın böyük sosial-iqtisadi, elmi-texniki potensialı var. Azərbaycanın coğrafi-siyasi vəziyyəti, onun təbii sərvətləri, ... respublikanı bu ağır böhrandan çıxarmağa imkan verir. Digər tərəfdən, yeni islahatlar aparmaq yolu ilə bazar iqtisadiyyatına keçmək istiqamətində hərəkət etməliyik".* Heydər Əliyev iqtisadi platformasında iqtisadi islahatlar dedikdə, Azərbaycan iqtisadiyyatını bazar iqtisadiyyatı yolu ilə aparmaq, özəl bölmənin fəaliyyətini genişləndirmək və özəlləşdirməni həyata keçirmək, sahibkarlığa, təşəbbüskarlığa geniş imkanlar yaratmaq, ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya etməyi nəzərdə tuturdu.

**4. Düşməni tanımaq və onunla mübarizə aparmaq üslubu.** Heydər Əliyev zəngin siyasi və dövlətçilik təcrübəsi sayəsində düşməni vaxtında tanımış və ona qarşı addımlar atmağa başlamışdır.

Ermənilərin erməni xislətini ilk bilən, ona qarşı müdafiələr planı quran da məhz Ulu Öndərdir. Ümummilli Lider Azərbaycanı parçalanmaq və məhv olmaq təhlükəsindən məhz bu xüsusiyyətə əsasən xilas etdi. Heydər Əliyevin başçılığı ilə hazırlanmış yeni Konstitusiya demokratik əsaslarla addımlayan parlamentdə Azərbaycanın müasir tarixində tamamilə yenisəciyyəli bir mərhələnin başlanğıcı olmuşdur. Bu illər ərzində Heydər Əliyevin müdafiə sahəsinə olan geniş baxışı və düşmən üzərində qələbə üçün atdığı təməl addımlar zamanla özünü göstərdi. O, bütün bunlar üçün lazım olan mühüm sənədləri hazırlamış və qəbul etmişdi. Respublikamızın hazırda ermənilərlə müqayisədə müxtəlif beynəlxalq tribunalarda haqlı çıxmasının əsası o dövrdə atılmışdır. Fikrimcə, Heydər Əliyevin düşmənlə mübarizə aparmaq üslubu hər şeydən öncə tədqiq olunmalı və öyrənilməlidir. Ulu Öndər ilk olaraq atəşkəsi bərpa etmiş, sonra bütün imkanları iqtisadiyyatın dirçəlməsinə yönəltmiş və daha sonra siyasi müstəvidə addımlar atmağa başlamışdır.

**5. Tənqidə açıq olması.** Fenomenal şəxsiyyət olmaq xalq və ziyalılar tərəfindən tənqidsiz qəbul edilmək və ya cəmiyyətdə böyük nüfuza malik ola-ola heç bir tənqid edilməmək demək deyildir. Zatən, lider olmaq düz və əyrini tam şəkildə bilmək və öyrənməkdən keçir. Heydər Əliyevin şəxsiyyəti, müsbət mənada birmənalı qarşılanmağı, şəxsi keyfiyyətləri və siyasət Olimpində mövcudluğundan asılı olmayaraq, həmişə məqbul hesab edilməsi ona tənqidləri görməzdən gəlmək xisləti verməmişdi. Heç təsadüfi deyildir ki, xalqımız Heydər Əliyev dühasında fenomenal şəxsiyyətə xas olan bütün yüksək məziyyətləri görürdü. Bu səbəbdən, ona "Ümummilli Lider" titulu vermişdilər. Digər tərəfdən, Heydər Əliyev şəxsiyyətinin nəhəngliyi və təkrarolunmazlığı onda idi ki, dövrün gündəlik tənqidi mətbuatını oxuyur və tənqidlərə xüsusi diqqət ayırırdı. Təbii ki, belə dahi şəxsiyyət bu tənqidlərin hansı niyyət və məramla yazıldığını çox yaxşı bilirdi. Məsələ tənqidlərin doğru və ya yanlış olmasında da deyil. Əsas mövzu Heydər Əliyev dühasının bu tənqidləri oxuması, eşitməsi və diqqətə almasıdır. Lider olmağın əsas xüsusiyyətlərindən ən barizi də məhz budur. Tənqidlərdən nəticə çıxarmaq hər kəsə nəsib olmur. Heydər Əliyev dühası istənilən tənqidə açıq və onu təmkinlə dinləməyi bacaran şəxsiyyətlərdən idi. Məhz bu xüsusiyyət sayəsində, xalq və idarəçilik vəhdətini güclü təcrübə və iradəsi ilə yüksək müstəvidə birləşdirmişdi.

Heydər Əliyev böyük fenomenal şəxsiyyət olmaqla yanaşı, dövrünün böyük alimi, mütəfəkkiri, habelə böyük ədəbiyyat və incəsənət bilicisi idi. O, həm qədim, həm də müasir tariximizi, az qala, əzbər bilirdi. Özü də təkcə mülki tarixi deyil, siyasi, iqtisadiyyat, mədəniyyət tarixini və milli-mənəvi dəyərlərimizi Heydər Əliyev qədər heç kim dərindən mənimsəməmişdi.

**Mədəniyyət abidələrinin qorunub-saxlanılması**

Heydər Əliyevin rəhbərlik etdiyi illər ərzində Bakıda böyük abadlıq işləri görülmüş, müasir milli memarlığın görkəmli əsərləri sayılan, Azərbaycanın sosial və mədəni həyatında əhəmiyyəti olan bir sıra memarlıq ansamblı, inzibati mərkəz, saray, institut, nəşriyyat, tədris korpusu, kompleks və özünün görkəmi ilə şəhərə rövnəq verən neçə-neçə bina tikilib istifadəyə verilmişdir. Məhz Heydər Əliyevin təşəbbüsü sayəsində çox sayda memarlıq abidəsinin bərpası mümkün olmuşdur. O, Azərbaycan xalqının tarixi keçmişində, mənəvi mədəniyyəti tarixində iz qoymuş böyük şəxsiyyətlərin abidəyə çevrilməsinin xalqın milli varlığına, milli duyğularının güclənməsinə son dərəcə müsbət təsir edəcəyini gözəl bilirdi. Heydər Əliyevin mədəniyyətimizə, tariximizə dərin ehtiram nümayiş etdirərək göstərdiyi qayğı sayəsində Bakının ən görkəmli yerlərində xalqımızın milli varlığının daşıyıcısı olan Füzuli, Nəsimi, N.Nərimanov, C.Cabbarlı, S.Vurğun kimi böyük şəxsiyyətlərin əzəmətli heykəlləri ucaldılmış, məşhur tarixi və ədəbi simaların hər biri üçün sanballı mədəniyyət mərkəzinə çevrilən ev-muzeyləri yaradılmışdır. Onun rəhbərliyi dönəmində klassik mədəniyyət irsinə münasibətdə də aydın, obyektiv mövqe nümayiş etdirilmişdir.

Heydər Əliyev respublikaya rəhbərlik etməyə başladığı ilk gündən Azərbaycan mədəniyyətinin görkəmli şəxsiyyətlərinin, o cümlədən böyük filosofların, şair və ədiblərin yubileylərinin müntəzəm surətdə qeyd olunması ənənə halını almış, bu da Azərbaycan xalqının ümummilli problemləri ilə sıx bağlı olub, milli ruhun, milli özünüdərkin yüksəlişi, xalqın tarixi yaddaşının özünə qaytarılması və müstəqil dövlətçilik ideyalarının gerçəkləşməsi üçün zəmin yaratmışdır. Hələ SSRİ dövründə Azərbaycan mədəniyyətinin ümum-İttifaq miqyasında ön mövqelərə çıxması, elmi, ədəbi, mədəni abidələrin planlı tədqiqi və nəşri Heydər Əliyevin *azərbaycançılıq fəlsəfəsi*nin məhsulu idi. Mədəniyyətin inkişafına dair onun imzası və əməyi ilə gerçəkləşən bəzi faktları qeyd edirik:

Heydər Əliyev Azərbaycanın milli-mədəni irsinə və aliminə də sahib çıxır, onları təbliğ və təqdim etməyi özünə vəzifə bilirdi. Nəsirəddin Tusi Heydər Əliyevin nadir Azərbaycan dahilərindən biri hesab etdiyi alim-mütəfəkkir idi. Heydər Əliyev N.Tusi haqqında ən müxtəlif məqamlarda çox maraqlı fikirlər söyləmiş, onun Azərbaycan elmində, Şərq düşüncəsində və dünya elm tarixindəki mövqeyini dəfələrlə yüksək qiymətləndirmişdir. 2001-ci ildə dahi Azərbaycan alimi və mütəfəkkiri N.Tusinin anadan olmasının 800 illiyi tamam olurdu. O, bu əlamətdar münasibətlə, 800 illik yubileyin hazırlanması və təntənəli keçirilməsi haqqında fərman imzalamış, Dövlət Komissiyası yaratmış və özü birbaşa həmin komissiyanın sədri kimi çox məsuliyyətli və şərəfli vəzifəni üzərinə götürmüşdü. Bu yubileyin dünya miqyasında keçirilməsi barədə UNESCO-nun qərar qəbul edilməsində önəmli rol oynamışdı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı Fərmanda Nəsirəddin Tusi haqqında belə qeyd olunurdu:

*"Nəsirəddin Tusi özündən sonra olduqca böyük elmi irs qoyub getmişdir. Onun əsərləri dünya xalqlarının bir çox dillərinə tərcümə edilərək dəfələrlə çap olunmuş, neçə-neçə alimlər nəslinin yetişməsində müstəsna rol oynamışdır. Təəssüflə qeyd edilməlidir ki, Nəsirəddin Tusinin çoxsahəli yaradıcılığı ölkəmizdə hələ lazımi səviyyədə tədqiq olunmamışdır. Mütəfəkkir alimin irsinin dərindən öyrənilməsi Azərbaycan elmi qarşısında duran vacib məsələlərdəndir"* (Əliyev, Heydər. 13 iyun 2000-ci il).

Zəmanəsinin qüdrətli dövlətlərindən olan SSRİ-də dahi Füzuli haqqında tədqiqatlar, əsasən, Azərbaycanda aparılmışdır. Füzulinin 500 illiyi münasibətilə 1996-cı ildə keçirilmiş beynəlxalq simpozium da Azərbaycanın elmi-ədəbi həyatı üçün əlamətdar olmuşdur. Simpoziumun plenar iclasında və bölmələrində dünya füzulişünaslığının 32 ölkədə fəaliyyət göstərən 70 nümayəndəsi məruzə ilə çıxış etmişdir. Füzulinin 500 illik tədbirlərinin miqyası isə çox geniş olub, Türkiyənin Ankara və İstanbul, Rusiyanın Moskva və Sankt-Peterburq, İranın Tehran və Təbriz, İraqın Bağdad, Kərbəla, Kərkük şəhərlərini əhatə etmiş, Parisdə UNESCO-nun Baş Qərargahında, Tiflisdə, Daşkənddə, Dərbənddə, Mahaçqalada və onlarca digər məntəqələrdə geniş qeyd olunmuş, bu tədbirlərin hər birində müstəqil Azərbaycan Respublikasını təmsil edən nümayəndə heyətləri iştirak etmişlər. Füzulinin xatirəsi bir sıra beynəlxalq forumların, o cümlədən türk dünyası yazıçılarının III qurultayının, "Türksoy" təşkilatının VIII toplantısının, eləcə də Bakıda keçirilmiş beynəlxalq simpoziumun diqqət mərkəzində olmuşdur. Bu tədbirdə füzulişünaslıq elminin bütöv bir əsr ərzində (XIX əsrin sonlarından XX əsrin 90-cı illərinədək) əldə etdiyi nailiyyətlər öz elmi yekunlarını tapmış, dahi sənətkarın parlaq irsinin XXI əsrdə tədqiqinə dair konkret istiqamətlər müəyyən edilmişdir.

Heydər Əliyev 1994-cü ildə M.Füzulinin 500 illik yubileyini keçirmək haqqında qərar qəbul etmək ərəfəsində bu böyük tədbirin tarixi məna və əhəmiyyəti barədə düşünmüşdü. Heydər Əliyev müdrik siyasətçi və dövlət xadimi kimi gələcəyi görür, tarixin bu keçid dövründə – mənəviyyatın və mədəniyyətin müəyyən dərəcədə sıxıntılara məruz qaldığı vaxtda belə, bir yubileyin təşkilini insanların batini həyatını, zənginləşdirəcəyini anlayırdı. Yubileyin keçirilməsi bir tərəfdən, yubilyarın xalq və dünya qarşısında

xidmətlərini daha təbliğ və nümayiş etdirmək, digər tərəfdən, müasir nəslin ona bəslədiyi ehtiramı bildirmək idi.

Məhəmməd Füzuli kimi şəxsiyyəti olan xalq fəxr edə bilər. Həqiqətən də dünya birliyində, dünya xalqları arasında tariximizi, mədəniyyətimizi, milli ənənələrimizi təbliğ etmək, yaymaq üçün belə yubileylər həmişə böyük bir fürsətdir. Əvvəla, Füzuli özünün yaradıcılığına, ədəbi, elmi və fəlsəfi irsinə görə buna layiqdir və Azərbaycan xalqının çağdaş nəsli ona öz minnətdarlığını bildirməlidir. İkincisi, bu yubileyi keçirərkən, xalqımızın özünü daha dərindən tanımasını təmin etməli idik. Xalq gərək daim öz kökünü xatırlasın, tarixini öyrənsin, milli mədəniyyətindən, elmindən heç vaxt ayrılmasın. Beləliklə, Heydər Əliyev dövlət yubiley komissiyasının üzvləri elmi müəssisələr, yaradıcılıq təşkilatları, Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi və yerli icra orqanları qarşısında vəzifələr qoyur və bu tədbirlər vasitəsilə Azərbaycan xalqını dünyaya daha yaxından tanıtmağı onlardan tələb edirdi. Qoy dünya bilsin ki, xalqımızın çoxəsrlik, zəngin və tarixi mədəniyyəti var. Azərbaycanın bugünkü mədəniyyəti dahi şəxsiyyətlərimizin yaratdığı və əsrlərdən-əsrlərə keçən mədəniyyətimizə əsaslanır. Bu, həmçinin düşmən qüvvələrin, guya, Azərbaycan xalqının zəngin tarixinin və kökünün olmadığını daim sübut etmək səyləri ilə mübarizə aparmaq üçün lazım idi. Şübhəsiz, bi iddialar cəfəngiyatdır. Xalqımıza düşmən olan, respublikamızı parçalamaq və onun ərazisini, müstəqilliyimizi qəsd etmək istəyən dairələr, qüvvələr, bəzən də millətlər əvvəllər olduğu kimi, bu gün də guya Azərbaycan xalqının tarixi köklərə malik olmadığını iddia etməyə cəhd göstərirlər.

Heydər Əliyevin böyük şair və ədib Füzuli haqqında qənaətləri 1996-cı il noyabrın 8-də "Füzuli-500" yubileyinin Bakıda keçirilmiş təntənəli zirvə tədbirindəki nitqində öz əksini tapmışdır. O, öz nitqində Füzuli sənətinin fəlsəfi mahiyyəti üzərində geniş dayanır və şairin poetik irsində fəlsəfənin bir çox sahəsində öz əksini və maraqlı şərhini tapdığını göstərirdi. Füzuli özünəqədərki dövrün Şərq və Qərb fəlsəfi qənaətlərini dərindən öyrənib öz əsərlərində ümumiləşdirmiş, bu zəmində də zəmanəsinin fəlsəfi fikrinin zirvəsinə yüksəlmişdir. Heydər Əliyev Füzuli yaradıcılığının mahiyyətini onun insani münasibətləri – sevgi, sədaqət və etibarı, Vətən məhəbbətini, valideynə yorulmadan ehtiramı yüksək bədii səviyyədə tərənnüm və təcəssüm etməsində görürdü. O, belə hesab edirdi ki, bir sıra əsərlərini fars və ərəb dillərində yazmış şairin bizim üçün ən əhəmiyyətli xidməti poetik irsinin həcmcə ən böyük hissəsini türk dilində, doğma Azərbaycan dilində yazmasıdır. Türkcə "Divan"ı və "Leyli və Məcnun" məsnəvisi ilə Füzuli Ana dilimizə yeni pərvəriş vermiş, Azərbaycan şeir dilini uca zirvələrə qaldırmışdır.

Füzuli irsinin Azərbaycan mənəviyyatı ilə üzvi surətdə qaynayıb-qarışdığından bəhs edən Heydər Əliyev çox maraqlı bir bədii müqayisədən istifadə edərək göstərirdi ki, ölməz şair əsərləri ilə özünə vüqarlı bir heykəl ucaltmışdır. Bu abidə 500 ildir ki, hər bir azərbaycanlının, hər bir türkün qəlbindədir. Bu yenilməz mənəvi abidə bütün fırtınalardan, zəlzələlərdən keçərək yaşayır, gündən-günə yüksələrək insanların mənəviyyat aləmində yeni zirvələr fəth edir.

Füzuli yaradıcılığının əbədiyaşar keyfiyyətini şərh edən Heydər Əliyev onun haqlı olaraq müasir dünyamızla üzvi əlaqələrini açıqlayır. "Füzuli-500" tədbirinin xalqımızın mənəvi həyatını daha da zənginləşdirdiyini, vətəndaşları ruhlandırdığını, onları Vətənə, torpağa sədaqət ruhunda tərbiyələndirdiyini göstərir və *"Azərbaycan Respublikasının ərazi bütövlüyünü bərpa etmək, işğal olunmuş torpaqları azad etmək üçün hamımızı səfərbər edir. Biz bu gün də, gələcəkdə də öz həyatımızda, öz işimizdə M.Füzulinin yaratdığı mənəvi dəyərlərdən istifadə edərək xalqımızı xoşbəxt gələcəyə aparacağıq",* – (Heydər Əliyev; Tərt.: V.Quliyev. 1999. s.386) deyə qeyd edirdi.

Heydər Əliyevin böyük şair haqqında mülahizələri arasında beynəlxalq münasibətlər baxımından əhəmiyyət kəsb edən məqamlar da çox idi. İlk dəfə məhz Heydər Əliyev dövlətlərarası münasibətlər müstəvisində çox vacib tezis irəli sürərək, ciddi arqumentlərlə Füzulinin keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olduğunu əsaslandırmışdır. Türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətinin (Türkiyədən başqa) onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq, bu günlərə gətirib çıxarmışdır. Heydər Əliyev iftixar duyğusu ilə deyirdi ki, bu gün biz həm Azərbaycanda, həm Füzulinin doğulduğu yerdə – Bağdadda, həm də Ankarada Füzulinin 500 illiyini qeyd edərkən, artıq keçmişdəki kimi parçalanmış vəziyyətdə deyilik. İndi böyük Türkiyə Cümhuriyyəti ilə yanaşı, digər türk cümhuriyyətləri də vüqarla dayanmışdır. Ay-ulduzlu Türkiyə bayrağının yanında indi, artıq beş müstəqil türk cümhuriyyətinin də bayraqları dalğalanır. Bunlardan biri də Azərbaycan bayrağıdır. Tamamilə təbiidir ki, Məhəmməd Füzulinin 500 illik yubileyi ilə bağlı öncədən xüsusi səriştə ilə planlaşdırılıb həyata keçirilən tədbirlər də Azərbaycan mənəviyyatında parlaq iz qoymuşdur.

Bu münasibətlə dahi sənətkarın əsərləri yüksək səviyyədə yenidən nəşr edilmiş, alimlərin Füzulinin həyat və yaradıcılığına həsr olunmuş yeni tədqiqatları işıq üzü görmüş, yubiley münasibətilə Azərbaycanın bütün bölgələrində, həmçinin Ankarada, İstanbulda, Tehranda, Təbrizdə, Bağdadda, Kərkükdə, Parisdə, Moskvada, Pekində yığıncaqlar, elmi sessiyalar, beynəlxalq simpoziumlar keçirilmiş, “Füzuli-500” mövzusunda sərgi təşkil olunmuşdur. Nəhayət, Bakıda, Respublika sarayında dünyamiqyaslı təntənəli zirvə tədbiri keçirilmiş, regionun bəzi dövlət başçıları da sanballı nümayəndə heyətləri ilə birlikdə həmin tədbirə qatılmışlar. Bu münasibətlə işıq üzü görmüş Füzuli külliyyatını xüsusi qeyd etmək lazımdır. Şairin elm aləminə məlum olan istisnasız olaraq bütün əsərləri ilk dəfə 6 cild həcmində kütləvi tirajla nəşr edilmişdir. Akademik Həmid Araslının, professor Həmid Məmmədzadənin elmi-tənqidi mətni əsasında işıq üzü görmüş bu altıcildlik Füzuli əsərləri ilk və ən mükəmməl akademik nəşr kimi ədəbiyyatşünaslıq elminin tarixində həqiqətən əlamətdar hadisədir. Azadə Rüstəmin “Mütəfəkkir Mövlana Füzuli”, Sabir Əliyevin “Füzulinin nəzəri-bədii düşüncələri”, Vəcihə Feyzullazadənin “Füzulinin ömür yolu”, Ayaz Vəfalının “Füzuli xəlqiliyi”, Lalə Əlizadənin “Füzulinin gizli sözü”, Leyli Əliyevanın “Füzuli ingilis şərqşünaslığında” monoqrafiyalarında, habelə M.F.Körpülüzadə, Həmid Araslı, Mir Cəlal Paşayev, Məmməd Cəfər Cəfərov kimi görkəmli füzulişünasların yenidən çap olunmuş tədqiqatlarında dahi şairin bütün zamanlar üçün qiymətli olan irsi ən müxtəlif istiqamətlərdə araşdırılmışdır. “Füzuli əsərlərinin izahlı lüğəti”ndə şairin poetik əsərlərində işlətdiyi bütün sözlər əhatə olunmuşdur. Ayrı-ayrı yuvacıqlar kimi təqdim edilən mikroməqalələrdə hər bir sözün Füzuli dilindəki əlvan səciyyəvi mənaları üzə çıxarılmışdır. Şairin poetik təxəyyülünün və sənətkar istedadının təcəssümü olan sözlər və sözə ekvivalent olan söz birləşmələri və tərkibləri bu lüğətdə özünün mötəbər şərhini tapmışdır.

**Milli-mənəvi dəyərlərin və adət-ənənələrin qorunub-saxlanması**

Heydər Əliyev milli-mənəvi dəyərlər və adət-ənənələrin qorunub-saxlanmasına xüsusi diqqətlə yanaşırdı. Akademik Bəkir Nəbiyev özünün “Heydər Əliyev haqqında etüdlər” əsərində birbaşa Heydər Əliyevdən nəql edir ki, 1994-cü ildə Məkkə ziyarətinə gedərkən belə demişdir: *“Anası İzzət xanım onun həyatının ən əlamətdar məqamları ərəfəsində ona Allah kəlamı ilə xeyir-dua verər və evdən çıxanda onu Quran altından keçirərmiş...”* (Nəbiyev, Bəkir. 2007, səh 11). Bütün bunların nəticəsi kimi, Heydər Əliyev 2002-ci ildə Bibiheybət ziyarətgahındakı çıxışında İslam və Aşura haqqında dərinmənalı nitq

söyləmişdir: *“Biz bundan sonra da Qurani-Şərifin, Həzrət Məhəmməd (s) peyğəmbərin qoyduğu yol ilə gedəcək və haqq-ədalət və Vətən yolunda şəhid olmuş Həzrət İmam Hüseynin (ə) və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq”* (Heydər Əliyevin 2002-ci ildə Bibiheybətdəki çıxışından). Heydər Əliyev Aşura və bu növ mərasimlərin keçirilməsini İslam dininə ehtiram nümunəsi, milli-mənəvi dəyərlərin və adət-ənənələrin qorunub-saxlanması olduğunu ifadə edir və bunun, sanki gələcək Vətən müharibəsi üçün müqəddəs məqam olduğunu göstərirdi. Göründüyü kimi, Heydər Əliyev öz fikirlərini milli-mənəvi dəyərlər köntekstində gözəl şəkildə bəyan etmişdir. Sadəcə, bu fikrə nəzər salmaqla Heydər Əliyevin bu barədə uca və ali bir fikrə sahib olduğunu görmək mümkündür.

“Kitabi-Dədə Qorqud”un müqəddiməsində deyilir:

*“Məhəmməd peyğəmbərin zamanına yaxın Bayat boyunda Qorqud ata deyilən bir kişi vardı. O kişi... nə deyirdisə olurdu. Gələcəkdən qəribə xəbərlər söyləyirdi. Allah onun könlünə ilham vermişdi. Qorqud ata Oğuz xalqının çətin işlərini həll edərdi... O, nə buyursa, qəbul edərdilər. Onun sözünü tutub gedərdilər”* (transliteriya və qeydlər: Məlikov, Ə. 2020. s.19-20).

Bunları oxuyanda və ümummilli lider Heydər Əliyevin tərcümeyi-halının zəngin faktları və xalq qarşısında tarixi xidmətləri ilə müqayisə edəndə görürük ki, bu müqayisədə, demək olar ki, çox şey üst-üstə düşür. İlləröncə müstəqil Azərbaycanın bugünü barədə nəhəng Bakı–Tbilisi–Ceyhan neft boru kəməri, onun iqtisadiyyatımızın inkişafında əvəzedilməz rolu və yaxud “Biz doğma Qarabağa qayıdacağıq” və Qarabağın azad edilməsi haqqında deyilənlərin hamısı gerçək olmadımı?

Heydər Əliyev deyirdi ki, qəhrəmanlıq eposu olan “Kitabi-Dədə Qorqud” bir cəngavərin, bir igidin deyil, bütöv bir xalqın qəhrəmanlığını özündə toplayan bir əsərdir. Onun ən böyük ideyası baş sərkərdədən tutmuş, böyükdən-kiçiyə kimi bütün qəhrəmanlarının doğma torpaqları qorumaq uğrunda canlarından keçməyə daim hazır olduğunu göstərməkdir. Ölkəmizin yaşadığı hazırkı mərhələdə xalqımızın qarşısında duran ən ümdə problemlərin həlli, o cümlədən respublikamızın suverenliyinin və müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün qorunması baxımından Azərbaycan Respublikası vətəndaşlarının bu qəhrəmanlıq ideologiyasından faydalanmasına Heydər Əliyev çox böyük əhəmiyyət verirdi. O, bu mülahizələri ilə Vətən övladlarını erməni təcavüzkarları tərəfindən işğal olunmuş torpaqları qaytarmaq üçün yurd təəssübkeşliyinə, doğma Qarabağ uğrunda mübarizəyə, oğuz igidləri kimi qələbə çalmağa, lazım gələrsə, bu yolda canlarından keçməyə hazır olmağa təşviq edirdi. Təbiidir ki, “Kitabi-Dədə Qorqud” dastanının 1300 illik yubileyi Heydər Əliyevin şəxsi təşəbbüsü və böyük səyi ilə həyata keçirilmiş və Azərbaycan ədəbiyyatı, elmi və mədəniyyəti sahəsində mühüm və əlamətdar bir hadisə kimi tarixə düşmüşdür. Akademik Nizami Cəfərov bu barədə ümumi qənaətini belə ifadə etmişdir: “Müəllifi Azərbaycan xalqının özünün olduğu belə bir eposun yubileyinin keçirilməsi milli ideologiynın həqiqi təntənəsi oldu” (Nəbiyev, Bəkir. 2007. səh 33). Ədalət naminə etiraf etmək lazımdır ki, “Kitabi-Dədə Qorqud”la bağlı görülən tədbirlərə ən düzgün, əsaslandırılmış qiyməti də o zaman Heydər Əliyev özü vermişdi. Dastanın yubileyi münasibətilə 9 aprel 2000-ci ildə Bakıda keçirilən zirvə toplantısındakı nitqində Heydər Əliyev deyirdi:

*“... Azərbaycanda “Kitabi-Dədə Qorqud” irsinin öyrənilməsi, tədqiq edilməsi, təbliğ olunması sahəsində böyük işlər görülmüş və bunlar «Kitabi-Dədə Qorqud»u bizim xalqımıza, türk dünyasına, türkdilli xalqlara yenidən tanıtmış və onun nə qədər zəngin sərvət oluğunu bütün dünyaya nümayiş etdirmişdir”* (11 aprel 2000-ci il, “Azərbaycan” qəzeti).

Nəticədə, Prezident Fərmanı əsasında çox geniş miqyasda "Kitabi-Dədə Qorqud"a dair araşdırmalar öz səmərəsini vermiş və bu fərman, sanki təkan rolunu oynamışdır.

Heydər Əliyev filosof təfəkkürlü böyük şair və dramaturq Hüseyn Cavidə də çox hörmət bəsləmiş və öz nitqlərində, imzası ilə təsdiq olunmuş qərar və sərəncamlarda onun ölməz ədəbi irsini müxtəlif yönlərdən böyük məharətlə təhlil etmişdir. Cavidşünaslığın vacib problemlərini araşdıranlar zaman keç-dikcə Heydər Əliyevin bu mülahizələrinə dəfələrlə müraciət edərək, onlardan faydalanacaqlar. Hüseyn Cavidin xatirəsinin əbədiləşdirilməsi sahəsində Heydər Əliyevin cəsarətlə irəli sürüb, böyük əzmkarlıq və müdrik ardıcıllıqla həyata keçirdiyi təşəbbüs tarixboyu xalqın milli-mənəvi dəyərləri və adət-ənənələrinin qorunub-saxlanılması zəminində həmişə yaşayacaq, həm böyük sənətkar Hüseyn Cavidi, həm də ulu öndər Heydər Əliyevi şərəfləndirəcəkdir. Heydər Əliyevin nəzərində H.Cavid Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında misilsiz xidmətlər göstərmiş dahi bir sima olmuşdur. Ümummilli Lider iftixar duyğusu ilə etiraf edirdi: *"H.Cavidin yaratdığı əsərlər Azərbaycan xalqlının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərs kitabıdır".* Heydər Əliyev bu ölməz sənətkarın bütün yaradıcılığının Azərbaycan xalqını milli azadlığa və müstəqilliyə çağırdığını onun ibrətamiz həyat yolundan və dərindən bələd olduğu əsərlərindən gətirdiyi nümunələrlə əsaslandırırdı. Ədib həmişə öz iradəsi ilə yaşamış, öz xalqına sadiq olmuşdur, xalqını həddindən artıq sevmiş və ona yetərincə xidmət etmişdir. Bütün bu deyilənlərə əsasən Heydər Əliyev kimi əsl vətənpərvər bir Azərbaycan rəhbəri, hətta ölkəmiz Sovet İttifaqının tərkibində olduğu dövrdə də 1930-cu illər repressiyasında olmazın əzab və işgəncələrə məruz qalmış H.Cavidin qərib məzarının uzaq Sibirdə onminlərlə günahsız və kimsəsiz əzabkeşin məzarı kimi baxımsız qalması ilə barışa bilmirdi. Buna görə Ümummilli Lider 1982-ci ildə o zaman üçün bütün SSRİ-də analoqu olmayan böyük iradə və məsuliyyət tələb edən tarixi bir qərar qəbul edir. H.Cavidin cənazəsi "Sibir mədənləri dərinliyindəki" katorqa məzarlığından Azərbaycana gətirildi və Naxçıvanda, vaxtilə Cavidlərin məskun olduğu ata-baba mənzilinin, təqribən, 100 addımlığında torpağa tapşırıldı. On beş il sonra H.Cavidin məqbərəsinin təntənəli açılış mərasimində Heydər Əliyev dahi sənətkarın cənazəsini uzaq Sibirdən Azərbaycana gətirməyin heç də asan başa gəlmədiyini kövrələrək belə xatırlamışdı:

*"Bu, böyük iradə, cəsarət tələb edirdi. Ancaq xalqımıza, millətimizə, tariximizə, mədəniyyətimizə, ədəbiyyatımıza, mənəviyyatımıza olan sədaqət mənə belə bir cəsarət göstərməyə imkan verdi. Mən bunu etdim..."* (Heydər Əliyevin 29 oktyabr 1996-cı ildəki nitqindən).

Bu gün H.Cavidin həm də böyük bir memarlıq sənəti nümunəsi olan məqbərəsi təkcə onun həmvətənlərinin deyil, xarici ölkələrdən, o cümlədən Türkiyədən və Yaxın Şərqdən gələn saysız-hesabsız ədəbiyyatsevərlərin ziyarətgahına çevrilmişdir.

**Nəticə**

Yekun olaraq qeyd etmək yerinə düşər ki, adətən, mürəkkəb zaman kəsiyində hər hansı bir məsələni qiymətləndirmək çətin olur. Zaman keçdikdən sonra, onları obyektiv dəyərləndirmək mümkündür. Biz hazırda elə bir zamanda yaşayırıq ki, həm o dövrü görmüşük, həm də o dövrdə yaşayırıq. Fikrimcə, zaman keçdikcə daha aydın görünəcək ki, müstəqilliyin ilk dövründən başlayaraq tərəqqini addım-addım keçən respublikamızda Heydər Əliyev şəxsiyyətinin müstəsna rolunu heç bir başqa amillə müqayisə etmək doğru olmayacaqdır. Bu səbəbdən, yazını Ulu Öndərin fikri ilə yekunlaşdırıram: "Tarix hər şeyi öz yerinə qoyur".

## ƏDƏBİYYAT

Tərtibçi: Səlahəddin Xəlilov., Heydər Əliyev – 75., Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1998. 184 səh.

Məlikov. Ələddin., Əmirov. Eldar., Rəhbər və başçı: fərq nədir? (Tarixi-politoloji nəzər) // Elm və Həyat jurnalı (ISSN:2710-0944), 2020, №4, səh.25-31 (http://dx.doi.org/10.13140/RG.2.2.22196.37763)

Məlikov. Ələddin., Heydər Əliyevin "azərbaycançılıq fəlsəfəsi", "Metafizika" jurnalı. 6 (1), səh. 10-32.

Tərtibçi: Quliyev, V., Heydər Əliyev; 1999. s.386

# CƏNUBİ AZƏRBAYCANDA XALQLAR DOSTLUĞU VƏ DİNİ-MULTİKULTURAL İDEYALARA DAİR ("AZƏRBAYCAN" QƏZETİNİN (ADF) MATERİALLARI ƏSASINDA)

***t.f.d., dos. Əli Fərhadov,***
Milli Azərbaycan Tarixi Muzeyinin aparıcı elmi işçisi
ali_farhadov@yahoo.com

## XÜLASƏ

Məqalədə S.C.Pişəvərinin ilk rəhbəri olduğu Azərbaycan Demokrat Firqəsinin (ADF) orqanı olan "Azərbaycan" qəzetinin materialları əsasında Cənubi Azərbaycanda xalqlar dostluğu, dini-multikultural ideyalar mövzuları təqdim edilib. Qəzet 1945-1946-cı illərdə Təbrizdə və daha sonra ADF-nin məğlubiyyəti səbəbindən 1947-1949-cu illərdə Bakıda əski əlifba ilə Azərbaycan dilində nəşr olunmuşdur. Qəzetin 1945-1946-cı illərdə 381, 1947-1949-cu illərdə isə 128 nömrəsi çap olunmuşdur. Azərbaycanda yaşayan bütün xalqların qardaşlığı, dostluğu təbliğ edilir, məzhəbçilik, dini radikalizm, xalqlar dostluğuna zərbə vuranlar qəzetdə sərt tənqid olunurdu. Demokratik hüquqlar uğrunda mübarizə qəzetin əsas ideya xəttini təşkil edirdi.

"Azərbaycan" qəzetində S.C.Pişəvərinin, M.Xiyabaninin, T.Əraninin, ADF üzvlərinin məqalələri tez-tez təqdim edilir, oxucuların savadlanması üçün maarifçilik işləri aparılır, Qacarlara qarşı xalq etirazları, tənbəki üsyanı, məşrutə hərəkatı barədə oxuculara məlumat verilirdi. Səttarxan, Bağırxan, M.Xiyabani və digər fədailər haqqında qəzetdə şeirlər təqdim edilirdi. Həmçinin Pəhləvi hakimiyyəti, yaltaq və satqın mətbuat tərəfindən şahın Allahın kölgəsi adlandırılması tənqid edilir, ümumiyyətlə, şahlıq rejiminin yıxılması istiqamətində ideyalar təbliğ olunurdu. Qəzetdə İran mətbuatından nümunələr verilir, ölkədəki dini, ictimai-siyasi, iqtisadi problemlərin həlli üçün çıxış yolu axtarılırdı. Ölkədəki bütün problemlərin səbəbi kimi, şah hakimiyyətinin xalqlar dostluğuna zidd şovinist siyasəti günahkar kimi göstərilirdi. Bu baxımdan imperializmə qarşı mübarizədə marksizm, sosializm ideyaları, xalqlar dostluğu təbliğ və təşviq edilir, Sovet Azərbaycanı Şərq ölkələrinə nümunə kimi göstərilirdi.

***Açar sözlər**: "Azərbaycan" qəzeti, xalqlar dostluğu, din, multikulturalizm.*

# ON THE FRIENDSHIP OF PEOPLES AND RELIGIOUS AND MULTICULTURAL IDEAS IN SOUTH AZERBAIJAN (A CASE STUDY OF THE AZERBAIJAN NEWSPAPER (ADP))

***Assoc. Prof. Ali Farhadov***

## ABSTRACT

The article covers the friendship of peoples, as well as religious and multicultural ideas in South Azerbaijan, based on the materials of the Azerbaijan newspaper, being the organ of the Azerbaijani Democratic Party (ADP), founded by Pishevari S.J. The newspaper had been being published in the Azerbaijani language using the old alphabet in Tabriz in 1945-1946, and later in Baku in 1947-1949

following the disestablishment of the ADP. In 1945-1946, 381 issues of the newspaper were published, and in 1947-1949 – 128. The newspaper promoted brotherhood and friendship of all peoples living in Azerbaijan, criticizing harshly sectarianism, religious radicalism, and those interfering with the friendship of peoples. The struggle for democratic rights was the main ideological line of the newspaper.

The Azerbaijan newspaper had been often publishing articles by Pishevari S.J., Khiyabani M., Arani T., members of the ADP, carrying out educational work to improve the literacy of readers, telling them about popular uprisings against the Qajars, tobacco protests, and the Constitutional Revolution. The newspaper featured poems about Sattarkhan, Bagyrkhan, Khiyabani M. and other fedayeen. The Pahlavi government was also criticized, as well as calling the Shah – "the Shadow of God" by the flattering and treacherous press, and the ideas of overthrowing the Shah's regime were generally promoted. The newspaper cited examples from the Iranian press, looking for a way to solve religious, socio-political, and economic problems in the country. The chauvinistic policy of the Shah's government, contradicting the friendship of peoples, was shown as the reason for all the problems in the country. In this regard, the ideas of Marxism, socialism, and friendship of peoples were promoted and encouraged in the fight against imperialism, and Soviet Azerbaijan was cited as an example to the countries of the East.

***Keywords***: *Azerbaijan newspaper, Friendship of peoples, Religion, Multiculturalism*

## О ДРУЖБЕ НАРОДОВ И РЕЛИГИОЗНО-МУЛЬТИКУЛЬТУРНЫХ ИДЕЯХ В ЮЖНОМ АЗЕРБАЙДЖАНЕ (ПО МАТЕРИАЛАМ ГАЗЕТЫ «АЗЕРБАЙДЖАН» (ДПА))

***д.ф. по истории, доц. Али Фархадов***

### РЕЗЮМЕ

В статье по материалам газеты «Азербайджан», органа Демократической партии Азербайджана (ДПА), первым руководителем которой был С.Дж. Пишевари, были представлены темы дружбы народов и религиозно-мультикультурных идей в Южном Азербайджане. Газета издавалась на азербайджанском языке на старом алфавите в Тебризе в 1945-1946 годах, а затем в Баку в 1947-1949 годах в связи с прекращением существования ДПА. В 1945-1946 годах вышел 381 номер газеты, а в 1947-1949 годах – 128. В газете пропагандировалось братство, дружба всех народов, проживающих в Азербайджане, жестко критиковались сектантство, религиозный радикализм, те, кто наносил удар по дружбе народов. Борьба за демократические права составляла основную идейную линию газеты.

В газете «Азербайджан» часто публиковались статьи С.Дж. Пишевари, М. Хиябани, Т. Арани, членов ДПА, проводилась просветительская работа по повышению грамотности читателей, читателям рассказывалось о народных восстаниях против Каджаров, табачных протестах, конституционной революции. В газете были представлены стихи о Саттархане, Багырхане, М. Хиябани и других федаинах. Также критиковалась власть Пехлеви и именование шаха тенью Бога льстящей и предательской прессой, в целом пропагандировались идеи в направлении низвержения шахского режима. Газета приводила примеры из иранской прессы,

искала выход для решения религиозных, общественно-политических, экономических проблем в стране. Причиной всех проблем в стране указывалась шовинистическая политика шахской власти, противоречащая дружбе народов. В этой связи в борьбе с империализмом пропагандировались и поощрялись идеи марксизма, социализма, дружбы народов, а Советский Азербайджан приводился в качестве примера странам Востока.

***Ключевые слова***: *газета «Азербайджан», дружба народов, религия, мультикультурализм.*

## Giriş

XIX əsrin sonu – XX əsrin əvvəllərində Qacarların hakimiyyəti altında olan İran və Cənubi Azərbaycan bir sıra inqilabi hadisələrə meydan oldu. Qərb imperializminə və şah diktaturasına qarşı xalq hərəkatları, inqilablar meydana gəldi. Öncə tənbəki üsyanı, daha sonra məşrutə – konstitusiya hərəkatı baş verdi. Tənbəki üsyanı ilə Britaniya imperializminin İran iqtisadiyyatı üzərindəki müstəmləkə əməllərinə zərbə vuruldu. Nəsrəddin şah Qacar xalqın kütləvi etirazları qarşısında Britaniya şirkətlərinin İran üzərindəki ağalığına son qoymağa məcbur oldu. Bu mübarizədə Cəmaləddin Əfqani kimi azərbaycanlı mütəfəkkirlər də mühüm rol oynadılar. Xalqın şah rejiminə nifrəti Nəsrəddin şahın 1896-cı ildə öldürülməsi ilə nəticələndi. İran və Azərbaycan xalqları 1905-1906-cı illərdə məşrutə – konstitusiya tələbi ilə inqilaba başladı. İrandakı konstitusiya tələbində Osmanlı Türkiyəsində baş verən parlamentarizmin və Çar Rusiyasında tüğyan edən demokratik fəhlə hərəkatının böyük təsiri oldu. N.Nərimanovun rəhbərlik etdiyi Azərbaycan və İran kommunistləri xalqın demokratik tələblərinə dəstək və lider oldular.

Müzəffərəddin şah Qacar xalqın etirazlarından qorxuya düşüb, 1906-cı ildə konstitusiya və parlamentarizmi təsdiq etsə də, onun ölümü və oğlu Məhəmmədəli şahın hakimiyyətə gəlməsi ölkədə konstitusiya və parlamentarizmin sonu oldu. Tehranda İran parlamenti bombalandı, məşrutəçilərin qətl edilməsi başlandı. Ölkə 1907-ci il Rusiya–İngiltərə müqaviləsi ilə iki ölkə arasında nüfuz dairəsinə bölündü. Cənubi Azərbaycan xalqı, başda Səttarxan, Bağırxan kimi inqilabçılar, Siqqətülislam kimi ruhanilər olmaqla, şah rejiminə qarşı Təbriz üsyanını başlatdılar. Çar Rusiyasının şaha dəstəyi nəticəsində 1908-1909-cu illər üsyanı məğlub edildi. Səttarxan və Bağırxan əsir edilib öldürüldülər. Bu dövrdə məşrutə hərəkatında aktiv iştirak edən ruhani və ictimai-siyasi xadim M.Xiyabani1920-ci ildə Qacar diktaturasına və Qərb imperializminə qarşı mübarizəyə başladı. O, ölkənin 1919-cu il müqaviləsi ilə Britaniya müstəmləkəsinə çevrilməsinə etiraz edirdi. Azadistan hökuməti qurub, Cənubi Azərbaycanda şah və imperializmin zülmünə son qoydu. Xiyabaninin mübarizəsi qüvvələrin bərabər olmaması səbəbindən yarımçıq qaldı. M.Xiyabani öldürüldükdən sonra, Cənubi Azərbaycanda mənfur şah rejimi bərpa edildi. Sovet Rusiyasının təsiri ilə 1919-cu ildə iranlıların "Ədalət" cəmiyyəti əsasında yaradılmış İran Kommunist Partiyasının fəalları Mirzə Kiçik xanın Cəngəli hərəkatında aktiv rol almış, partiyanın rəhbərliyində təmsil olunan S.C.Pişəvəri İran və Azərbaycan xalqlarının mübarizəsində lider kimi formalaşmışdı. Cəngəli hərəkatının məğlubiyyəti sonrası S.C.Pişəvəri həbs edildi.

Əhməd şah Qacarı sürgünə göndərib, 1925-ci ildə hakimiyyətə gələn Rza şah Pəhləvinin dövründə SSRİ Kommunist Partiyasının dəstəyi ilə mühacirətdə İran Kommunist Partiyasının özəkləri yaradıldı. Almaniyada ali təhsil və elmi dərəcə alan marksist filosof, Berlin Universitetinin Şərq dilləri üzrə professoru Tağı Ərani Tehranda "Dünya" jurnalını nəşr edərək, jurnal ətrafında partiyanın yerli özəyini təşkil

etdi. O, tələbələr arasında Qacarlardan sonra hakimiyyətə gəlmiş Pəhləvi diktaturası əleyhinə güclü inqilabi təbliğata başladı. Bir qədər ötmüş o və tərəfdarları – "53-lər" adlanan dəstə 1938-ci ildə həbs edildi. Bu zaman S.C.Pişəvəri özü də kommunist ittihamı ilə həbsxanada yatırdı. T.Ərani 1940-cı ildə həbsdə öldürülsə də, şah əleyhinə inqilabi hərəkat dayanmırdı.

Rza şahın 1941-ci ildə Hitler lehinə olan siyasətinə qarşı sovet və İngiltərə orduları İrana hücum etdilər. Rza şahın yerinə Məhəmmədrza şah hakimiyyətə gətirildi. Həbsdə olan siyasi dustaqlar azad edildilər. Ərani tərəfdarları İran Tudə (Xalq) Partiyasını yaratdılar. Ölkədə kommunist təbliğatı qadağan edildiyinə görə, partiyaya "Tudə" adı verilmişdi. Tudə Partiyası milli kimliyindən asılı olmayaraq, bütün İran zəhmətkeşlərini öz ətrafında birləşdirən bir partiya idi.

**"Azərbaycan" qəzetində xalqlar dostluğu mövzusu**

S.C.Pişəvərinin qurduğu ADF hökuməti milli müstəqillik ilə yanaşı, həmçinin xalqlar dostluğuna əsaslanan bir siyasət icra edirdi. Hökumətin qərarlarında göstərilirdi ki, "Xalqımız öz müqəddəratını ələ aldığı halda, ölkəmizin İrandan ayrılmamasını elan edir və bütün İran xalqları ilə qardaşlığı hifz etməyi özünə vəzifə bilir" (Pişəvəri 2005, 123). S.C.Pişəvəri göstərirdi ki, ADF hökuməti "Bütün İran xalqlarına azadlıq qapısını açıb" (Pişəvəri, 78).

"Azərbaycan" qəzeti də milli azadlıq ideyası ilə yanaşı, bütün İran xalqlarının qardaşlığını təbliğ edir, ölkədəki xalqların azadlıq və hüquqları uğrunda mübarizə aparırdı. Qəzet İranda xalqlar dostluğuna zərbə vuran Pəhləvi hakimiyyətinin himayədarı olan Qərb imperializmini belə ifşa edirdi: "İmperialist dövlətlərin, xırda və zəif ölkələri müstəmərə vəziyyətinə salmaq içün istifadə etdikləri vasitələrdən biri də ölkələrdə xalq arasına milli ziddiyyət salmaq və bu ziddiyyətdən istifadə edib öz ağalıqlarını möhkəmlətməkdən ibarətdir. Hindistanda hindilərlə sixlər və müsəlmanlar arasında, Fələstində ərəblərlə yəhudilər arasına düşmənçilik salmaq, onları bir-birinə qırdırmaq məqsədilə silah paylamaq, ölkədədaxili vuruşmaları gücləndirmək siyasəti ingilis siyasətçilərinin təcrübədən çıxarılmış üsuludur. İngilislər bu üsulu indi də İranda tətbiq etməkdədirlər" (Vilayi 1948, 1, 4). Qəzetdə, həmçinin göstərilirdi ki, "İranda bir əyalət və ya ostanda azadlıq hərəkatı baş verən kimi oraya nazil olub, bu və ya başqa tayfanı bir-birinin üzərinə qaldırır, qardaş qırğını salıb, azadlıq hərəkatını fitnə-fəsad içərisində boğurlar. Bu, ingilis siyasətçilərinin ən çox sevdiyi üsuldur. Hələ Rza xan hakimiyyəti dövründə belə bu siyasət icra edilirdi. Milli ədavəti qızışdırmaq, xalqlar arasında nifrət və kin hissləri oyatmaq, bir tayfanı o birinin üstünə saldırmaq Rza xan dövründə də var idi. Məsələn, fars olmayan bir xalqı zor ilə farslaşdırmağın özü də həmin xalqlar arasında fars xalqına qarşı kin və ədavət hissləri oyatmaq üçün idi" (Vilayi 1948, 1, 4).

"Azərbaycan" qəzeti ADF-nin Qərb imperializminə və müstəbid şah rejiminə qarşı mübarizəsini belə təsvir edirdi: "Azərbaycanda başlamış milli nəhzət (hərəkat – Ə.F.) həmin xəyanətkar siyasətin əleyhinə olaraq, xalqlar arasında qardaşlıq, dostluq və məhəbbət hisslərini səmimiyyət əsasları üzərində möhkəmlətməkdən ibarət idi. Azərbaycanda başlayan kürd, erməni, assuri, azərbaycanlı və fars xalqları arasında vahid bir ailə yaratmaq, onları həqiqi mənada birləşdirmək Azərbaycan Demokrat Firqəsinin əsas məqsədlərindəndir. Bu millətlərin milli dil, adam, rüsum (adətlər – Ə.F.) və ənənələrinə hörmət bəsləmək, onların hamısını siyasi və ictimai hüquqlardan təmin etmək firqəmizin ana xəttidir" (Vilayi 1948, 1, 4). Qəzetdə, həmçinin göstərilirdi ki, "İndi də İranda həqiqi azadlıq, istiqlal və demokratik üsul-idarə yaratmaq Azərbaycan xalqının ali hədəfidir. O, İranda əqəliyyət (azlıq – Ə.F.) təşkil edən bütün xalqların, o cümlədən kürdlər, ermənilər və qeyrilərinin apardıqları azadlıq hərəkatının pişvalarından (rəhbər – Ə.F.). sayılırlar. İranlıların hamısını birləşdirən və dost edən bu arzu və amaldır. Rza xan istibdadı Hitlerin faşist əfkar (fikir

– Ə.F.) və amalını Vətənimizə keçirərək, zülm və əsarəti gücləndirdi. İran daxilində yaşayan azərbaycanlı, kürd, assuri və ermənilər doğma ana dillərində yazıb-oxumaq, kitab və ruznamələr nəşr etmək, sənət və teatr əsərləri yaratmaq, yerli idarə və məhkəmələrdən ana dilində istifadə etmək imkanını qadağan etdi. Nəticədə, xalqlar arasında böyük nifaq vücuda gətirdi. Bu istibdad heykəlinin yıxılmasından 4 il keçməsinə baxmayaraq, yenə də o mənhus siyasət davam etməkdə, bəlkə onu meydana çıxaran mürtəce ünsürlər get-gedə həyasızlaşaraq, xalqa hücuma keçib onun demokratik hərəkatını boğmaqdadırlar. İrtica məmləkətimizin sənaye cəhətdən tərəqqi edib, güclü və qüdrətli olmasını istəmir" (Azərbaycan...., 1948, 3).

"Azərbaycan" qəzeti Rza şahın hakimiyyətdən getməsinə baxmayaraq, onun irtica siyasətinin oğlu Məhəmməd Rza şah tərəfindən davam etdirildiyini belə göstərirdi: "İran hakim təbəqəsi istər Rza xan dövrü, istərsə Məhəmmədrza şah dövrü xarici imperialistlərin əloyuncağı olaraq İran xalqlarını zülm və əsarət zəncirində saxlayıb və Azərbaycan millətini, kürd, erməni və digər xalqları bu hüquqlardan məhrum etmişdir. Buna görə İran indilikdə bu xalqlar üçün bir zindan mənziləsindədir (kimidir – Ə.F.). Ona görə onlar öz azadlıqları uğrunda mübarizə edir və edəcəklər" (Bicari 1948, 4).

Qəzetdə Sovet Azərbaycanındakı beynəlmiləlçilik siyasət təqdir və təbliğ edilir, burada azərbaycanlı, erməni və digər millətlərin bir ailənin üzvü kimi mehriban yaşadıqları göstərilirdi. Çarizm dövründəki milli qırğınların sona çatması Sovetlərin xalqlar dostluğu və beynəlmiləlçilik siyasəti ilə belə əlaqələndirilirdi: "Azərbaycanda Sovet hakimiyyəti qurulmamışdan əvvəl Qarabağ kəndliləri yerli bəy və xanların zülmü altında əzilirdilər. Azərbaycan və erməni xalqları bu vilayətdə Sovet hakimiyyəti dövründə azad və xoşbəxt həyat keçirməyə nail olmuşlar. Tarixboyu azərbaycanlılar ilə ermənilər həmişə öz düşmənlərinə qarşı birlikdə mübarizə aparmışlar. Bu iki xalq qonşu olmuş, yaxşı və çətin günlərdə bir-birlərinə arxalanmışlar. Azərbaycan və erməni xalqlarının birliyi qüvvəsindən qorxu hiss edən irticaçı qüvvələr bu iki qardaş xalqı ayırmağa və onların hər birisini əsarət altında saxlamağa ciddi cəhd etmiş, bu iki xalq arasında ədavət, ziddiyyət və düşmənçilik toxumu səpmişdilər. Çar hökuməti Azərbaycanda azadlıq hərəkatını boğmaq üçün bu iki qardaş xalqı bir-birinə qırdırırdı. Bu siyasətin təqibində Azərbaycan və erməni xalqlarının ən qəddar düşməni olan müsavatçılar və daşnaklar öz hökmranlıqları dövründə bu iki qardaş xalqı bir-birinin üzərinə saldırmaq və milli qırğınlar düzəltmək kimi təşəbbüslər etmişlər. Lakin Böyük Oktyabr inqilabı keçmiş Çar Rusiyasında yaşayan xalqlara, o cümlədən Azərbaycan və erməni xalqlarına tam azadlıq və milli istiqlal verdi. Şanlı Bolşeviklər firqəsinin müdrik milli siyasəti xalqlar arasında olan ədavət və küdurət (düşmənçilik – Ə.F.) kökündən qoparıb, dostluğun möhkəm bünövrəsini qoydu (Vilayi 1948, 1). Qəzetdə müsavatçıların daşnaklarla eyniləşdirilməsi sovet ideologiyasının ADF-yə təsirinin nəticəsi idi. "Müsavat" partiyasının Sovet Rusiyasının işğalçılıq siyasətinə düşmən mövqeyi və sosializmə zidd olan burjua respublikası qurması, təbii ki, özü də əslində kommunist və beynəlmiləlçi olan Pişəvəri hökuməti və onun orqanı olan "Azərbaycan" qəzeti tərəfindən qəbul edilə bilməzdi. S.C.Pişəvəri özü yazırdı ki, "Mən Çar Rusiyası dövründə və Bakıda Müsavat hökuməti dövründə xalqların ədaləti uğrunda mübarizə apardığım üçün SSRİ-yə tərəfdarlıq edirdim" (Rəhimli 2019, 54-55). Təbii ki, müsəlmanlara qarşı soyqırımlar törətmiş "daşnaksütyun" partiyasının milli-azadlıq partiyası olan "Müsavat"la eyniləşdirilməsi yanlış bir addım idi. ADF və "Azərbaycan" qəzeti daşnak terrorunu pisləyir, lakin sovet ideologiyasını qəbul edən bütün millətləri qardaş sayırdı. Bu, SSRİ-nin himayəsi ilə qurulmuş ADF-nin rəsmi ideologiyası idi. "Azərbaycan" qəzeti də Sovetlərdəki xalqlar dostluğunu nümunə göstərərək, İran xalqlarının da eyni şəkildə bir ailənin üzvləri kimi mehriban yaşaya biləcəklərini, ADF-nin məhz bu siyasətə xidmət etdiyini göstərirdi.

ADF-nin sədri S.Badəganın məruzəsində Pəhləvi şah irticasına qarşı İran xalqlarının və onlara dəstək olan sovet xalqının həmrəyliyi belə ifadə edilmişdi: "Yaşasın Azərbaycan və kürd xalqının apardığı azadlıq

mübarizəsi! Yaşasın Azərbaycan xalqının milli azadlıq mübarizəsində çiyin-çiynə mübarizə edən qəhrəman fars oğulları! Yaşasın böyük sovet xalqı və ona rəhbərlik edən ümumittifaq kommunist bolşeviklər firqəsi!” (Firqəmizin 1948, 3).

“Azərbaycan” qəzetində Cənubi Azərbaycanın Balaş Azəroğlu, Əli Tudə, İbrahim Zakir və başqa şairlərinin milliliklə yanaşı, Azərbaycanda xalqlar dostluğu və beynəlmiləlçilik istiqamətində şeirləri də dərc olunurdu (Azəroğlu 1948, 1; Tudə 1948, 3; Zakir 1948, 3).

### “Azərbaycan” qəzetində dini-multikultural ideyalar

“Azərbaycan” qəzetində İranda din və məzhəbdən siyasi alət kimi istifadə edənlər və onlara bilib-bilmədən tabe olanlar da qınanırdı. Qəzetdəki “Məzhəbi təbliğatdır, ya siyasi fəaliyyət!” adlı məqalədə xalqların azadlıq mübarizəsinə dindən silah kimi istifadə edib mane olanları tənqid edilirdilər. Ə.Şəmidə qəzetdə yazırdı ki, “Millətlər və xalqların dini və milli təəssüblərindən istifadə edib, milli və məzhəbi ədavət və müharibələr qızışdırmaq və başqa fitnəkarlıqlarla xalqların müstəqil və dinc həyat qurmalarına maneəçilik törədirlər. Habelə məzhəbi təbliğat pərdəsi altında irticaçı fikirlər yayıb, xalqların məfkurəsini zəhərləmək və uydurmaqla kütləri azadlıq mübarizəsindən çəkindirmək istəyirlər” (Şəmidə 1949, 4). Ə.Şəmidə xarici imperialist dövlətlərin istismar etdikləri xalqları zəiflətmək üçün işğalçı ordudan və ya mütəxəssislərdən olduğu kimi, din adamlarından da istifadə etdiyini, İranda fəaliyyət göstərən xarici missionerlərin imperialistlərin agenti olduğunu yazırdı (Şəmidə 1949, 4).

Mürtəce ruhanilər Pəhləvi parlamentində çıxış edərək, İran xalqını ADF-yə qarşı mübarizəyə dəvət edirdilər (Гасанлы 2006, 148). Pəhləvi ruhaniləri azərbaycanlıları İslam ideyalarına xəyanətdə və ADF-i dinə zidd olmaqda ittiham edirdilər (Гасанлы 2006, 215, 354). Buna qarşı isə ADF müsəlman ruhaniləri ilə əlaqələri normallaşdırmağa çalışırdı. ADF-nin rəsmi orqanı olan “Azərbaycan” qəzeti Pəhləvilərin yanlış din siyasəti nəticəsində “yalançı rövzəxanlar”ın (Ağayi Pişəvəri1945, 1) minbərləri işğal etdiyini yazır, Pişəvəri hökumətinin qələbəsini “Allahın köməyi və fəthi”ni müjdələyən Quranın “Nəsr” surəsindəki ayələrə bənzədirdi (Pişəvəri 1945, 1).

Pəhləvilər İslam siyasəti, sadəcə, zahiri təbliğat xarakteri daşıyırdı. Ə.Şəmidə “Azərbaycan” qəzetində Məhəmmədəli şahın Vatikanda Roma Papası ilə görüşdüyünü, medal aldığını, 1948-ci ildə Vatikan konfransında İranda Xristianlığın təbliği üçün qərarlar alındığını, Papanın nümayəndələrinin Tehrana gələrək şahla görüşdüyünü, nəticədə, Urmiyada, Təbrizdə, Həmədanda, Tehranda və İranın müxtəlif bölgələrində xristian missionerlərinin sayının artdığını yazırdı. Müəllif qeyd edir ki, “Bunların təşkil etdikləri kilsə və xalqın şüurunu zəhərləmək üçün düzəltdikləri məktəblərdə missionerlərin sayı müəllim və doktorların sayından artıqdır. Bu məktəb və kilsələrdə tərbiyə olunanlar Amerika və ingilis amillərinə (xidmətçi – Ə.F.) çevrilib, onların nəfinə (xeyrinə – Ə.F.) təbliğat və casusluq etməyə başlayırlar. Bunlarla bərabər, onlar məzhəbi təbliğat altında İranın istiqlalı əleyhinə təşəbbüslər göstərib, dini moizələrlə, kitab və risalələri çap və intişar (nəşr – Ə.F.) etməklə imperialistləri tərif edirlər” (Şəmidə 1949, 4). Ə.Şəmidə xristian missionerlərin, əsasən, Cənubi Azərbaycanda SSRİ əleyhinə fəaliyyət göstərdiyini, eyni zamanda, İranı imperialistlərin müstəmləkəsinə çevirməyə çalışdıqlarını göstərirdi.

Pəhləvi hakimiyyəti ingilis müstəmləkəçilərinin köhnəlmiş şüarı olan “Nifaq sal, hökm et” şüarına əsaslanaraq, İranda yaşayan xalqlar arasında milli qırğın törətmək istəyir və bu məqsədinə çatmaq üçün din və məzhəb amilindən istifadə edirdilər. “Azərbaycan” qəzeti yazırdı ki, “Onlar bir gün sünni-şiə, o biri gün müsəlman-erməni adı ilə xalqlar arasında toqquşmalar düzəltmək istəyirlər” (Kəndli 1948, 1). Şahın diktatura siyasəti mürtəce ruhanilər tərəfindən də dəstəklənir, şahı “zillullah” (“Allahın kölgəsi” – Ə.F.)

adlandıran din xadimləri xalqı istismar etməyə davam edir, bu mənfur siyasətə İslam dinini də alət edirdilər (Zakir 1948, 3).

Pəhləvi hakimiyyəti müstəqilliyə meyil edən bölgə mədrəsələrinin ruhanilərinə qarşı öz nəzarətindəki Tehranın ali dini mərkəzlərinin üstünlük qazanmasına çalışır və belə deyirdi: "Tehran dini təlimatın ən mühüm mərkəzlərindən biri olmalıdır" (Şəkibxan 1949, 1). "Azərbaycan" qəzeti yazırdı ki, amerikalılar və ingilislər dövlətin köməyi ilə daneşgah (universitet – Ə.F.) və sair mədrəsələrdə şahpərəstliyi və istismarı təbliğ etmək üçün zəmin yaratmağa səy göstərirlər" (Şəkibxan 1948, 4).

Bu dövrdə qadınlar da dindən sui-istifadə edən mühafizəkarların təqiblərinə məruz qalır, onların seçki hüquqları, ictimai-siyasi haqları təkcə şah hökumətinin sərt tədbirləri ilə məhdudlaşmırdı. Xurafatçı, mövhumatçı mürtəce şəxslər din adından istifadə edərək, təhsil almaq məsələsini qadınlara günah hesab edir, hətta qəzet və radiolarda qadınların azadlığı əleyhinə məqalə, nitq və çıxışlar təşkil edirdilər. İrticaçı qüvvələr İran qadınlarını cəhalət içərisində saxlamağa çalışırdılar (8 mart 1948, 1).

Pəhləvi hakimiyyəti xalqın gözünü boyamaq üçün qadınların çadra məcburiyyətini ləğv etmək, qadın təhsili kimi addımlar atsa da, qəzet göstərirdi ki, "Onlar hay-küy salıb xalqı işğal etməgə çalışırlar. Azadlıq hərəkatını kişilərdən səlb (ləğv – Ə.F.) etməyə çalışan hakim təbəqə heç vəqt qadınlara azadlıq qail olub (söz verib – Ə.F.), demokratik hərəkatın inkişafına razı olmayacaqdır" (Darəndaşi 1948, 4). Qəzetdə qadın haqları müdafiəçisi iranlı Məryəm Firuzun Budapeştdə təşkil olunan Beynəlxalq Qadınlar Konqresindəki nitqi də təqdim olunmuş və göstərilmişdir ki, Məryəm xanımın bu tədbirə gedə bilməməsi üçün hökumət süni əngəllər yaratmışdır (Taziyanə 1948, 1). Lakin Məryəm xanım bu tədbirə gedərək, İran qadınlarının acınacaqlı vəziyyətini konqres iştirakçılarına çatdırmış və belə demişdir: "İranın irticaçı heyəti-hakiməsi İran xalqlarını satmışdır" (Beynəlxalq qadınlar 1948, 1).

Azərbaycanlı qadınlara həqiqi azadlığın Pəhləvilər tərəfindən deyil, məhz 1945-1946-cı illərdə Azərbaycan Demokrat Firqəsi hökuməti tərəfindən verildiyi belə göstərilirdi: "Azərbaycanda milli hökumət təşkil edildiyi vəqtlərdə Azərbaycan qadınları həqiqi azadlığa nail ola bilmişdilər. Milli hökumət İranda birinci dəfə olaraq, Azərbaycan qadınlarına seçki hüququ verib, onları geniş miqyasda istehsalata cəlb etməklə asılı olmaq əsarətindən xilas etmişdi" (8 mart 1948, 1). Qəzetdə ilk dəfə olaraq İranda qadınlara kişilərlə bərabər hüququn məhz ADF hökuməti tərəfindən verildiyi bildirilirdi (Firqəmizin 1948, 4).

**Nəticə**

Son olaraq deyə bilərik ki, "Azərbaycan" qəzeti XX əsrin ortalarında İranda və Cənubi Azərbaycanda insan haqlarının, multikultural hüquqların qorunmasında böyük rol oynamış, dini radikalizmə, məzhəbçiliyə qarşı çıxmışdır. Qəzetin ortaya qoyduğu xalqlar dostluğu ideyaları həm öz dövrü üçün, həm də günümüzün şərtləri daxilində böyük beynəlxalq əhəmiyyət daşıyır. ADF-nin orqanı olan "Azərbaycan" qəzeti partiyanın xəttini, xalqlar dostluğu və beynəlmiləlçilik siyasətini, dini radikalizmə qarşı multikultural ideyaları özünə rəhbər seçmiş, bu istiqamətdə məqalələri ilə xalqı maarifləndirmişdir. Bu ideyalar öz dövründə şah diktaturasına, mürtəce, müstəbid monarxiya rejiminə qarşı güclü silah olduğu kimi, günümüzdə də öz aktuallığını qoruyur. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2016-cı ili "Multikulturalizm İli", 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsi ilə, həm də dünya azərbaycanlılarının milli-mədəni, demokratik hüquqlarının qorunması sahəsində cənab Prezidentin ortaya qoyduğu siyasətlə həmahəngdir, daim təbliğ və təşviq edilməli, öyrənilməlidir. "Azərbaycan" qəzetinin tədqiqi xalqımızın insan haqları, multikultural hüquqlar uğrunda mücadilə və dini radikalizm əleyhinə mübarizəsini öyrənmək baxımından da böyük əhəmiyyət daşıyır və gələcək nəsillərə nümunə olmalıdır.

## ƏDƏBİYYAT


8 Mart dünya qadınlarının beynəlxalq bayramı. (1948). // “Azərbaycan” qəzeti, 10 mart. (s.1).

Ağayi Pişəvərinin nitqinin müxtəsəri. (1945). // “Azərbaycan” qəzeti, 18 sentyabr. (s.1).

Azərbaycan Demokrat Firqəsinin 1324-ci il mehr ayının 10-nunda birinci kongre tərəfindən qəbul olunmuş Məramnaməsi. (1948) // “Azərbaycan” qəzeti, 14 yanvar. (s.3).

Azəroğlu Balaş. (1948). Doktor Ərani // “Azərbaycan” qəzeti, 7 fevral. (s.1).

Beynəlxalq Qadınlar Təşkilatının ikinci konqresində İran qadınlar nümayəndəsi xanım Məryəm Firuzun nitqi. (1948). // “Azərbaycan” qəzeti, 22 dekabr. (s.1).

Bicari Həsən. (1948). Vətən və vətənpərvərlik // “Azərbaycan qəzeti, 4 iyun. (s.4).

Darəndaşi. (1948). İran qadınlarının vəziyyəti haqqında // “Azərbaycan” qəzeti, 28 aprel. (s.4).

Firqəmizin Mərkəzi Komitəsi sədri yoldaş Badəganın məruzəsi. (1948). // “Azərbaycan” qəzeti, 15 dekabr. (s.4).

Firqəmizin mərkəzi komitəsi sədri yoldaş Badəganın məruzəsinin ardı. (1948). // “Azərbaycan” qəzeti, 18 dekabr. (s.3).

Kəndli Qaffar. (1948). Azərbaycan milli hökuməti xalqların azadlığını təmin etmişdi // “Azərbaycan” qəzeti, 9 oktyab. (s.1).

Pişəvəri Mir Cəfər. Çıxışlar və nitqlər. (130 s.) // http://www.achiq.info/

Pişəvəri Seyid Cəfər. (2005). Xatirələr. Bakı. (395 s.).

Pişəvəri Seyid Cəfər. (1945). Mənə xeyir ver, pisliyə ümid yoxdur // “Azərbaycan” qəzeti, 20 sentyabr. (s.1).

Rəhimli (Bije) Əkrəm. (2019). 662 saylı məhbus – S.C.Pişəvəriyə aid istintaq materialları. Bakı: Nurlar. (184 s.).

Şəkibxan F. (1948). Cavanları boğmaq istəyirlər // “Azərbaycan” qəzeti, 13 noyabr. (s.4).

Şəkibxan F. (1948). Xalq yalançı təşəbbüslərə aldanmayacaq // “Azərbaycan” qəzeti, 23 oktyabr. (s.1).

Şəmidə Əli. (1949). Məzhəbi təbliğatdır, ya siyasi fəaliyyət! // “Azərbaycan” qəzeti, 22 yanvar. (s.4).

Taziyanə. (1948). // “Azərbaycan” qəzeti, 4 dekabr. (s.1).

Tudə Əli. (1948). Aprel nəğməsi // “Azərbaycan” qəzeti, 28 aprel. (s.3).

Vilayi Mirrəhim. (1948). İran xəlqləri arasında ziddiyyət salan fitnəkarlar // “Azərbaycan” qəzeti, 10 yanvar. (s.1, 4).

Vilayi Mirrəhim. (1948). Muxtar Dağlıq Qarabağ Vilayəti // “Azərbaycan” qəzeti, 4 avqust, s.1.

Zakir İbrahim. (1948). Azərbaycanlıların dili bağlanmaz // “Azərbaycan” qəzeti, 22 dekabr. (s.3).

Zakir İbrahim (1948). 28 aprel münasibətilə // “Azərbaycan” qəzeti, 28 aprel. (s.3).

Гасанлы Джамил. (2006). СССР- Иран: Азербайджанский кризис и начало холодной войны (1941 – 1946 гг). Москва: Герои Отечества. (560 с.).

# ÜMUMMİLLİ LİDERİN DİN SİYASƏTİ: DİNLƏRARASI DİALOQ VASİTƏSİLƏ DİNİ TƏHLÜKƏSİZLİYƏ NAİL OLUNMASI

***f.f.d. Aliyə Mürsəlova,***
Azərbaycan İlahiyyat İnstitutu İlahiyyat fakültəsi
Dinşünaslıq kafedrasının müəllimi
aliyatagiyeva@yahoo.com
https://orcid.org/0000-0001-7806-8353

## XÜLASƏ

Ölkələrarası və dövlətlərdaxili baş verən müharibələrin, münaqişələrin, qarşıdurmaların, soyqırımlarının, terrorizmin, dini radikalizmin tüğyan etdiyi bir dövrdə məzhəblər və konfessiyalarararsı dialoqun, multikulturalizmin, dözümlülüyün, birgəyaşayışın, vəhdət və həmrəyliyə ehtiyacın olması danılmaz faktdır. Qloballaşan dünyamızda insanların miqrasiyası nəticəsində bir-birlərinə qarışması zəminində fərqli dünyagörüşlərin və mədəniyyətlərin toqquşması mövcud olan dini, etnik xüsusiyyətləri, milli-mənəvi dəyərləri hifz etmək, onları assimilyasiyadan qorumaq və düzgün formada təbliğ etmək əhəmiyyət kəsb edir.

Azərbaycan əsrlərboyu geostrateji əhəmiyyətə və zəngin təbii resurslara sahib olduğuna görə, müxtəlif inanc və mədəniyyətlərə mənsub xalqların vətəninə çevrilmişdir. Tolerantlıq və dözümlülük burada yaşayan xalqların genofonduna həkk olunmuşdur, çünki Şərq və Qərb arasında körpü yaratmaq fərqli dünyagörüşü və dinlərə məxsus xalqların arasında anlaşmadan keçirdi.

Şərq ilə Qərb arasında balanslaşdırılmış siyasət aparan dahi lider Heydər Əliyev tarixi aspektdən xalqımızın yuxarıda qeyd olunan genofondunu nəzərə alaraq, möhtəşəm strateji kurs seçmiş, irqindən, etnik mənsubiyyətindən, dinindən asılı olmadan ölkəsinin bütün vətəndaşlarının milli-mənəvi və etiqadi dəyərlərinin qorunmasına nail olmuş, bu dəyərlərə mənfi təsir göstərmək istəyənlərin cəhdlərinin qarşısını qətiyyətlə almışdır. Nəticədə, hal-hazırda ölkəmizdə stabillik, sülh və əmin-amanlıq hökm sürür.

Ümummilli Liderimizin layiqli davamçısı olan respublika Prezidenti İlham Əliyev sayəsində, Azərbaycan, artıq dinlərarası dialoq sayəsində dini təhlükəsizliyə nailolma baxımından digər ölkələr üçün praktiki nümunəyə çevrilmişdir. Belə ki, Azərbaycanın müstəqilliyini müdafiə etmək üçün canından keçən vətəndaşlar sırasında yəhudilər, udilər, ruslar, gürcülər, ləzgilər, tatlar, talışlar, avarlar və digər xalqların nümayəndələri də var.

***Açar sözlər:*** *dinlərarası dialoq, konfessiyalararası əməkdaşlıq, din təhlükəsizliyi, tolerantlıq, multikulturalizm, din siyasəti.*

# RELIGIOUS POLICY OF THE NATIONAL LEADER: SECURING RELIGIOUS SAFETY VIA INTERFAITH DIALOGUE

***PhD Aliya Mursalova***

## ABSTRACT

In an era of inter-country and intra-state conflicts, disagreements, confrontations, genocides, terrorism, and religious fanaticism, inter-religious and interconfessional dialogue, multiculturalism, tolerance, cohabitation, togetherness, and solidarity are all clearly needed. Due to people's movement and the collision of many worldviews and cultures in our globalized world, it is vital to protect and promote religious, ethnic, and national-spiritual values of the nations.

Because of its geostrategic importance and plentiful natural resources, Azerbaijan has become a home for people of different religions and cultures. Tolerance and patience are ingrained in the people living here, since building a bridge between East and West was a way for people of different worldviews and religions to understand one another.

Heydar Aliyev, the brilliant leader maintaining a balanced policy between the East and the West, chose a great strategic course protecting the national, moral, and religious values of all citizens of the country, regardless of race, ethnicity, or religion, and prevented attempts to negatively influence them. As a result, our country is a stable, peaceful, and well-balanced place.

Azerbaijan has already become a real model for other nations in terms of establishing religious stability and interreligious dialogue, thanks to the President of the Republic of Azerbaijan Ilham Aliyev, being a worthy successor of our national leader. This is evident from the fact that Jews, Udis, Russians, Georgians, Lezgins, Tats, Talyshes, Avars and representatives of other nations were among those giving their life for the independence of Azerbaijan.

***Keywords:*** *Interreligious Dialogue, Interconfessional Cooperation, Religious Safety, Tolerance, Multiculturalism, Religious Policy*

# РЕЛИГИОЗНАЯ ПОЛИТИКА НАЦИОНАЛЬНОГО ЛИДЕРА: ДОСТИЖЕНИЕ РЕЛИГИОЗНОЙ БЕЗОПАСНОСТИ ЧЕРЕЗ МЕЖКОНФЕССИОНАЛЬНЫЙ ДИАЛОГ

***д.ф. по философии Алия Мурсалова***

## РЕЗЮМЕ

Неоспоримым фактом является необходимость межрелигиозного и межконфессионального диалога, мультикультурализма, толерантности, сосуществования, единства и солидарности в эпоху, когда бушуют межгосударственные и внутригосударственные войны, конфликты, противостояния, геноциды, терроризм и религиозный радикализм. В нашем глобализированном мире важно сохранить существующие в обществах религиозные, этнические особенности и

национально-духовные ценности на фоне столкновений различных мировоззрений и культур в результате миграции людей, защитить их от ассимиляции и правильно вести пропаганду.

Благодаря своему геостратегическому значению и богатым природным ресурсам Азербайджан всегда привлекал внимание и стал родиной народов, принадлежащих к разным верованиям и культурам. Толерантность и терпимость заложены в генофонде проживающих здесь народов, ведь наведение моста между Востоком и Западом было способом взаимопонимания между народами разных мировоззрений и религий.

Блестящий лидер Гейдар Алиев, проводивший сбалансированную политику между Востоком и Западом, избрал великий стратегический курс, учитывающий вышеупомянутый генофонд нашего народа с исторической точки зрения, и защитил национальные, нравственные и религиозные ценности всех граждан своей страны, независимо от их расы, национальности и вероисповедания, а также препятствовал попыткам тех, кто хотел негативно повлиять на них. В результате в нашей стране царят стабильность, мир и спокойствие.

Благодаря политике и опыту Президента Азербайджанской Республики Ильхама Алиева, последовательно продолжившего курс всенародного лидера, Азербайджан стал практическим примером для других стран в плане достижения межрелигиозного диалога и религиозной безопасности. Об этом свидетельствует тот факт, что среди добровольцев и граждан, погибших при защите независимости Азербайджана, есть евреи, удины, русские, грузины, лезгины, таты, талыши, аварцы и представители других наций.

***Ключевые слова:*** *межрелигиозный диалог, межконфессиональное сотрудничество, религиозная безопасность, толерантность, мультикультурализм, религиозная политика.*

## Giriş

Məhz ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və təcrübəsi sayəsində ölkəmizin din sferasında sabitlik hökm sürür, dövlət–din münasibətləri beynəlxalq hüquqi normalar müstəvisində tənzimlənir, ölkə ərazisində mövcud olan dini konfessiyalar sərbəst formada fəaliyyət göstərə bilir, dini icmalarda və ocaqlarda rahat şəkildə ibadət edə bilmək üçün bütün vətəndaşlara şərait yaradılır.

Tarixboyu Azərbaycan torpaqlarının coğrafi xüsusiyyətlərinə görə buraya hər tərəfdən fərqli dinlərə sahib millətlər axın edərək məskunlaşmışlar. Yerli tayfalarda isə həmrəylik və dini dözümlülük keyfiyyətlərinin artırılması ilə xalqımızın genofondu formalaşmışdır. Müəyyən dövrlərdə torpaqlarımızda Bütpərəstlik, Zərdüştlük, Xristianlıq, Yəhudilik və nəhayət, İslam dini yayılmışdır. Belə ki, Bütpərəstliyin hökm sürdüyü dövrdə torpaqlarımızda Zərdüştlük yayıla bilmiş, eramızın ilk illərində xristian həvarilər Şəki və Qəbələyə gəlmiş, məbədlər inşa etmişdir (Байпаков 2018, 158). İslam öz mədəniyyətini və etiqadını 639-cu ildən buraya gətirə bilmiş, XIV əsrin əvvəllərində katoliklər, 1819-cu ildən isə protestantlar torpaqlarımızda məskunlaşmışlar (Əlizadə 2016, 128, 211; Multikulturalizmə giriş 2019, 98-99). Xristianlıqdan XVIII əsrdə ayrılan molokanlar (Multikulturalizmə giriş 2019, 100-101), 1841-1844-cü illərdə duxoborlar (Əlizadə 2007, 173, 180), staroobraçılar və digər təriqətlər Rusiya imperiyasından qovularaq Vətənimizdə rahatlıq tapmış (Əlizadə 2016, 107), 1815-ci ildə ilk pravoslavlar gəlmiş (Əlizadə 2016, 5; Multikulturalizmə giriş 2019, 96), bunlardan savayı, həm I əsrdə Fələstindən, həm də XIX əsrin

əvvəllərində Rusiya və Ermənistanda ayrı-seçkiliyə məruz qalaraq zülm görən yəhudilər həmin ölkələrdən buraya pənah gətirmişlər (Orucov 2012, 41-47).

Bir-birlərindən inanclarına, mədəniyyətlərinə və mənsubiyyətlərinə görə fərqlənən tayfa və xalqların bir ərazidə vətənləri saydıqları torpaqda birgə əmin-amanlıq şəraitində yaşamaları, artıq labüd idi. "Parçala və hökmranlıq et" şüarı ilə buraya hücum edən acgöz düşmənlərimiz vaxtaşırı məqsədli şəkildə din və etnik zəmində münaqişə ocaqları yaratmış, millətimizi süni xaos mühitinə qərq etmiş, torpaqlarımızı bölüb idarə etməyə çalışmışlar.

Tariximizin müəyyən dövrlərində zaman-zaman bu ənənəni çalxalamaq istəyən xarici qüvvələr peyda olurdular. Məsələyə tarixi kontekstdən nəzər salsaq görə bilərik ki, Azərbaycan milli və bəşəri dəyərlərə hər zaman böyük əhəmiyyət vermişdir. Vətənimizdə mövcud olan dini-mənəvi irslər hörmətlə, müxtəlif xalqların mədəniyyətləri ehtiramla, onların etiqadları anlayışla qarşılanmışdır. Hələ "tolerantlıq və multikulturalizm" terminləri elmdə mövcud olmadığı bir zamanda, Azərbaycan ərazisində yaşayan xalqlar həmin qayda-qanunlara uyğun şəkildə birgə yaşamağı bacarmışdılar. Belə ki, Azərbaycanı öz vətənləri bilən millətlərin əksər hissəsi etnik və dini müxtəlifliyi sosial və iqtisadi inkişafa maneçilik yaradan amillər və zəiflik kimi deyil, əksinə, ölkənin milli sərvəti, var-dövləti və gücü kimi qəbul edirdilər.

**Heydər Əliyevin din siyasəti**

Bu ənənələrin indiyə qədər yüksək səviyyədə qalması dövlət–din münasibətlərinin təməlini qoyan Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır. O, həmişə xalqının müxtəlifliyini qürur mənbəyi kimi görürdü. Azərbaycan min bir əziyyətə dözərək, hüquqları tapdalanaraq, çoxlu şəhid verərək, sonda ateist rejimin təsirindən çıxıb, müstəqilliyini qazananda müxtəlif din mənsubları arasında qardaşlıq və dostluq əlaqələrinin möhkəmlənməsi üçün Heydər Əliyev dinin müxtəlif maraqlı tərəflərin əllərində alətə çevrilməməsi naminə Vətənində sülhün daimi olması uğrunda fədakarlıq göstərmişdir. O, ilk növbədə, din siyasətinin uğurlu alınması üçün rəsmi dayaqlarını formalaşdırmağa çalışdı, yəni qanunvericilik bazasını yaratdı, hər zaman bu məsələni diqqətində saxladı. Habelə insan hüquqlarının qorunmasını beynəlxalq normalara uyğunlaşdıraraq, 1992-ci ildə dini etiqad və vicdan azadlığı haqqında qanunun qəbul edilməsinə nail oldu (AR Konstitusiyası 1999, md. 4, 4). Bu qanunu 1996 və 1997-ci illərdə daha da təkmilləşdirərək, insanların dini dəyərlərini qoruyub-saxlamaqla inkişafına imkan verdi (Nuriyeva 2019, 499). Beləliklə, dini ədəbiyyat və dini əşyalar yalnız xüsusi mağazalarda satılmaqla məhdudlaşdırıldı və ölkəyə qanunsuz gətirilən zərərli dini ədəbiyyat və dini əşyaların sayının azalması ilə nəticələndi (Bəhrəmova 2021, 153).

Heydər Əliyev Qurani-Kərimin "*Əgər Rəbbin istəsəydi, yer üzündə olanların hamısı iman gətirərdi. İnsanları iman gətirməyə sənmi məcbur edəcəksən?!*" (Qurani-Kərim, "Yunus", 10/99) ayəsini əsas tutaraq, Azərbaycanda dini təhlükəsizliyi təmin etmək məqsədilə növbəti addımında müvafiq qanunun I maddəsini "*Dini inancların, dini həyat tərzinin və ibadətlərin məcbur etdirməklə və ya insanlar arasında nifaq salmaq məqsədilə təbliği, dini inanca məcbur etdirmək qadağandır*" yaratdı. Sovet İttifaqının dağılması, sərhədlərin açılması və söz azadlığının yaranması nəticəsində ölkəmizə sürətli şəkildə axın edən müxtəlif din mənsublarının fəaliyyətinin çoxalması ilə dini dözümlülük ənənələrinin qorunmasına ehtiyac vardı. Belə bir şəraitdə ortalıqda dini sahədə boşluğun olmasını sezib, ölkəmizə xas olmayan təriqətlərin və qeyri-ənənəvi dini cərəyanlardan əmələ gəlmiş sektaların ictimaiyyət içərisinə nüfuzu, insanların şüuruna və qəlbinə fərqli yollarla girməsi hallarının artmağa başladığını görən Ulu Öndərin 1993-cü ildə xalqın təkidi ilə hakimiyyətə gəldikdən sonra gördüyü ilk işlərdən biri dini konfessiyalara qanun qarşısında bərabər və eyni status verməsi idi.

Ziddiyyətli prosesin şahidi olan milli-mənəvi dəyərlərin hamisinin növbəti addımı qanunvericilikdə müvafiq aktların qəbul olunması ilə nəzarəti gücləndirərək, dini qurumları qeydiyyata aldırması oldu ki, bu da 2001-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin meydana gəlməsi və onun vasitəsilə ölkədə dini təhlükəsizliyin təmin edilməsi oldu (İsmayılova 2002, 5). Dini Komitənin əsas vəzifələri – dini etiqad azadlığını təmin etmək, dünyəvi dövlətçilik prinsipini mühafizə etmək, dini etiqadda həddi aşmağın, dini fanatizmin və zorakılığın qarşısını almaq oldu (Əliyev 2004, 9).

Azərbaycan sekulyar dövlət olduğundan, din dövlətdən ayrıdır, lakin dövlət dini milli sərvətin tərkib hissəsi kimi qəbul edərək, multikulturalizm siyasəti ilə etnik, mədəni və dini müxtəlifliyi tənzimləyir. Dövlət tərəfindən bunun üçün mədəni plüralizmin tətbiqi, marjinal mədəni qrupların sosiallaşması üçün maneələrin aradan qaldırılması və fərqli mədəniyyətlərin inkişafını dəstəkləməsi kimi tədbirlər həyata keçirilmişdir. Düşünülmüş və müdrik siyasəti ilə Ulu Öndər yeni qurulmuş müstəqil dövlətin qloballaşma şəraitində atdığı ilk addımlarında mədəni dəyərlərin demorkasiyasına və bərabərhüquqluluğuna xüsusi diqqət ayırdı. Nəticədə bu, millətlərarası münaqişələrin, ayrı-seçkiliyin, konfessiyalararası konfliktlərin və parçalanmanın qarşısını almaq naminə Azərbaycanda yaşayan millətlər və xalqlar üçün atılan ən optimal addım oldu.

**Heydər Əliyevin dialoq metodu**

Müasir dövrdə dünya ölkələrini müşahidə etsək, islamofobiya, ksenofobiya, antisemitizm, terrorizm, şovinizm, separatçılıq və digər hallarda din motivlərini siyasətə qataraq onlardan sui-istifadə edən bir sıra münaqişələr görə bilərik. İnsanları bir-birinə qarşı qoyan həmin nifrət ocaqları sivilizasiyanın məhvolma təhlükəsini yaradaraq, bəşəriyyətdə humanizmi, empatiyanı, xoşgörünü və həmrəylik ruhunu məhv edir. Halbuki bütün peyğəmbərlərin gətirdiyi iman əsaslarının ümumi xüsusiyyətlərindən ən əsası insan sevgisi, qarşılıqlı hörmət və gözəl əxlaqdır. Qloballaşma və inteqrasiya proseslərinin sürətli bir şəkildə irəliləyən mühitdə bu cür hadisələri idarə etməyi öyrənmək üçün qəbul olunan qanunların ardından ümumi dil tapılsın deyə, Ulu Öndər dinlərarası dialoqların keçirilməsinə qərar verdi. Dahi siyasətçinin illəröncə Azərbaycanda keçirdiyi mədəniyyətlərarası dialoqlara və multikultural modelə nəzər salsaq görərik ki, o, tolerantlığı və dini dözümlülüyü hakim mövqeyə qoymaqla, bu sahəyə xüsusi diqqət ayıraraq dinlərarası və konfessiyalararası dialoq və əməkdaşlığı prioritet məsələ kimi görüb, bunun reallaşması üçün münbit şərait yaratmış və müəyyən şərtlər formalaşdırmışdır.

Bu istiqamətdə ateizmin tüğyan etdiyi dövrdə dağıdılan məbədlər, sinaqoqlar, kilsələr, ocaq və pirlər yenidən inşa və ya bərpa olundu, bağlananlar isə təmir olunandan sonra ibadət edənlərin üzünə açıldı. Bundan əlavə, vətəndaşların din sahəsində olan boşluğu doldurmaq, cahilliyi ortadan qaldırmaq, ayrı-seçkilik və pərən-pərənlik salan xarici təsirləri azaltmaq, dini təhsildə yerli kadrlar hazırlamaq və xalqı sağlam qaynaqlar vasitəsilə maarifləndirmək məqsədilə televiziyada dini verilişlər açıldı, dini təhsil verən ali təhsil müəssisələri yaradıldı, dini kitablar nəşr olundu. Daim xalqının rifahını və gələcəyini düşünən Heydər Əliyev bilirdi ki, nəinki başqa dinləri, hətta öz dinindən agah olmayan, onun əsaslarını və prinsiplərini bilməyənlər vasitəsilə məkrli qüvvələr dövləti zəiflətmək niyyəti ilə daxildə qarşıdurma yaratmaq fürsətlərindən istifadə edə bilərlər və edəcəklər də (Səmədov 2009, 50). Məhz bu məqsədlə dahi şəxsiyyət 1997-ci ildə ölkəmizdə xarici dini missionerlərin pozuculuq fəaliyyətini qadağan edən xüsusi sərəncam imzadı (Nuriyeva 2019, 519; Bəhrəmova 2021, 118).

Ümumiyyətlə, hər dinin ilahi qaynaqlara söykəndiyini bildiyimiz təqdirdə, onu təbliğ etmək əhəmiyyətlidir. Dinlərin təbliği vacib məsələdir. Belə ki, seçdiyi üslub sayəsində insanlarda ikrah hissi

oyadaraq dindən imtina edildiyinə görə, həmçinin reallığı gizlədib insanları öz mənfəətləri naminə idarə etmək üçün onlardan istifadə olunduqda dinin təbliği əhəmiyyətlidir. Nəticədə belə çıxır ki, inanclar insan psixologiyası üçün nə qədər zəruri olsa da, din siyasətə qatıldığı an düşmənlərin əlində bir silaha çevrilir, cəmiyyət üçün asanlıqla təhlükə mənbəyinə çevrilir. Bunun bariz nümunələrini hazırda bir sıra ölkələrdə izləyirik.

Ümummilli Liderin təşəbbüsü ilə Azərbaycanda təşkil olunan, 1992-ci ildən etibarən “Üç dinin forumu” fəaliyyət göstərir. Heydər Əliyev İslam Konfransı Təşkilatına üzv olaraq müsəlman ölkələri ilə əməkdaşlıq yaratmış və 1994-cü ildə Mərakeşin Kasablanka şəhərində keçirilən zirvə toplantısında iştirak etmişdir. Həmin ildə İstanbulda “Sülh və səbir” beynəlxalq dini konfransda “*Azərbaycan çoxmillətli dövlətdir. Respublikamızda bir çox millətlər əsrlərboyu birlikdə yaşayırlar. Bildiyiniz kimi, Azərbaycanda İslam dini ilə yanaşı, Xristianlıq və İudaizm dinləri də var və onlar bir-biri ilə çox mehriban şəraitdə fəaliyyət göstərirlər. Biz bunu bəyan etmişik. Azərbaycanın Prezidenti kimi, mən dəfələrlə qeyd etmişəm ki, ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq və Azərbaycan vətəndaşlarının din, dil mənsubiyyətindən və siyasi baxışlarından asılı olaraq bir-biri ilə münaqişəyə girməsinə gələcəkdə də yol verməyəcəyik*”, – söyləyərək, qəti bir bəyanatla çıxış etmişdir. Bunun əyani təsdiqi olaraq o, daim ölkənin din xadimləri ilə görüşlər keçirir və müxtəlif dinlərin bayramlarında onların mənsublarını təbrik edirdi.

Əhali sayının artması və onun miqrasiyası nəticəsində ksenofobiyanın və ekstremizmin qarşısını almaq məqsədilə BMT Baş Assambleyası 1997-ci ildə noyabrın 16-nı Beynəlxalq Tolerantlıq Günü kimi qeyd etməyi irəli sürmüşdür. Regionumuzda bugünü ilk qeyd edən də Azərbaycan oldu. Bununla bağlı 1999-cu ildə təşkil olunmuş tədbirdə ümummilli lider Heydər Əliyev ölkəmizdəki dini konfessiyaların başçıları qarşısında çıxış edib söyləmişdir: “*Əlbəttə, Azərbaycanda mövcud olan millətlərarası, dinlərarası etnik vəziyyət yüksək qiymətə layiqdir. Bu, hamının – həm Azərbaycanlıların, həm rusların, həm ukrayınların, həm yəhudilərin, digər millətlərdən olan insanların, o cümlədən bizim dini konfessiyaların – Azərbaycanda başlıca dinimiz olan İslam dinini, xristian-pravoslav, yəhudi dinlərinin səyləri ilə əldə edilmişdir*” (Bəhrəmova 2021, 105). Bu görüş gələcəkdə bir ənənəyə çevrilmək üçün zəmin hazırlamış, liderimizin və xalqımızın tolerantlıq prinsiplərinə münasibətini nümayiş etdirmiş, dini məsələlərin həllində ortaq nöqtələrin tapılması, müxtəlif din mənsubları arasında əməkdaşlığın genişlənməsi və onlar arasında etimad hissinin güclənməsi işinə töhfə vermişdir. Bu tədbir, həmçinin beynəlxalq təşkilatların və media şirkətlərinin bu prosesə cəlb olunması cəmiyyətlərdə və ölkələrdə dinlərarası dialoqların, sosial, mədəni, iqtisadi əlaqələrinn səviyyəsini yüksəltmək üçün təşkil olunmuşdur. Fərqli düşüncələrə sahib insanlar arasında ortaq məxrəcə gəlmələri naminə aparılan dialoq ideyası milli sərvətimizin əsas resurslarından birinə çevrilmişdir.

Bundan sonra Ulu Öndərin təşəbbüsü ilə 1998-ci ildə Bakıda “İslam mədəniyyəti Qafqazda” mövzusunda beynəlxalq simpozium keçirilmişdir (Səmədov 2009, 26). Həmin tədbirdə H.Əliyev bu sözlərlə çıxış etmişdir: “*Dinə, dinin mənəvi-əxlaqi dəyərlərinin təbliğinə, bu dəyərlərin yardımıyla insanlara vətənsevərlik və dözüm duyğularının aşılanmasına dövlətin də ehtiyacı var. Biz milli-mənəvi dəyərlərimizi dini dəyərlərdən ayrı düşünmürük... Dindən siyasi proseslərdə istifadə olunma cəhdlərinə qarşı ciddi mübarizə edilməlidir. Din siyasi və ideoloji mübarizələrdən kənarda qalmalıdır*” (ARDQİÜDK-nın Bülleteni 2004, 2). Elə həmin ildə “Müasirlik və dini-mənəvi dəyərlər” mövzusundan keçirilən beynəlxalq konfransda da *“...Dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik*”, – deyə söyləmişdir (Qurbanlı 2019, 82).

Ümumiyyətlə, Ulu Öndər İslamı xalqımızın birləşdirici amili kimi dəyərləndirmiş, fundamentalizmə və fanatizmə yol verilməməsinə, onların bütün qaynaqlarının kökündən məhv edilməsinə çağırmışdır. Bu istiqamətdə 2002-ci ildə “Demokratik cəmiyyətdə dini və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması” mövzusunda ATƏT-in Bakı konfransı da təşkil olunmuşdur (Nuriyeva 2019, 518).

Ümummilli Liderin gördüyü işlər nəticəsində, ənənəyə sadiq qalaraq, 2004-cü ildə Azərbaycanın paytaxtında dinlərarası dialoq keçirilmişdir. Roma Papası II İohan Pavel, Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri Şeyxülislam Allahşükür Paşazadə, Bakı və Xəzər Rus provaslav kilsəsinin yepiskopu Aleksandr İşein, Dağ yəhudiləri dini icmasının sədri Semen İxilov və digər nüfuz sahibi olan insanlar bu tədbirdə iştirak etmək üçün Bakıda toplaşdılar. Bundan əlavə, uzaqgörən siyasətçinin qoyduğu irsin davamı olaraq qlobal hərəkata çevrilən “Bakı Prosesi” Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, Bakı Beynəlxalq Humanitar Forumu, dini tolerantlıq modelinə həsr olunmuş beynəlxalq konfranslar, eləcə də Dünya Dini Liderlərinin Sammiti və Birləşmiş Millətlər Təşkilatı Sivilizasiyalar Alyansının Qlobal Forumu, 2016-cı ilin “Multikulturalizm İli” və 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan edilməsi milli-mənəvi dəyərlərin təbliğində çox böyük və danılmaz töhfələr vermişdir (Qurbanlı 2019, 94-95).

**Nəticə**

Bütün yuxarıda qeyd olunanların nəticəsi olaraq, “ot kökü üstə bitər” deyiminə rəğmən, Ulu Öndər böyüklüyünü tariximizə dəyər verib, onu qorumağa çalışıb, 2003-cü ildə Alban-udi dini icmasını dövlət qeydiyyatına almaqda da görürük. O, Rusiya sinodunun qərarı ilə ermənilərin öz adlarına çıxarmaq istədikləri xristian məbədlərini (Байпаков 2018, 229) Udi icmasına geri qaytardı. Habelə dahi siyasətçinin təşəbbüsü ilə etnik azlıqların, xristian və yəhudi azərbaycanlılarının öz dillərində milli-mədəni irslərini öyrənmək üçün Azərbaycanla quru sərhədi olan qonşu ölkələrin heç birində mövcud olmayan şərait və imkanlar yaratdı. Qeyd olunanların hamısı uzaqgörən siyasətin, xalqına olan qayğının və əsrlərboyu bu torpaqlarda yaşayan, təkmilləşən tolerantlıq ənənəsinə verilən hörmətin və qiymətin təzahürü idi. Ulu Öndər qloballaşan dünyaya Azərbaycanın da inteqrasiyası prosesində milli-mənəvi dəyərlərimizdən imtina etməyərək, əksinə, onları yüksəkdə tutmaqla, xarici arenada təbliği üçün əlindən gələni etmiş, unikallığı və özünəməxsusluğu qoruyaraq, ümumi mədəniyyətdə tanınmasında rol oynamışdır.

İstər Qərbin, istər Şərqin dəyərlərini birləşdirən Azərbaycanın multikulturalizm modeli dünya ölkələri üçün birgəyaşayışın və dini dözümlülüyün mövcud olduğu nümunəyə çevrilmişdir. Fikrimcə, ölkəmizdə mövcud olan tolerantlıq fenomeni və dialoq ideyası xalqımızın dözümlülüyə, həmrəyliyə, humanizmə, sülhpərvərliyə, birgəyaşayış harmoniyasına və dövlətçiliyə əsaslanmış bütün milli-mənəvi dəyərlərin, inancların, həyat tərzlərinin və adət-ənənələrin oxşar vəsflərinə istiqamətlənmiş ideoloji refleksdir. Əminliklə demək olar ki, ulu öndər Heydər Əliyevin irəli sürdüyü din təhlükəsizliyini əldə etmək uğrunda dialoqların keçirilməsi ideyası, həm də milli bir strategiyaya çevrildi. Habelə o, mədəni və dini dəyərlərin düzgün mənbələr əsasında təbliğinin inkişafında ölkəmizin dini təhlükəsizliyinin bərpası modelinin siyasi və mənəvi memarı oldu. Ümummilli Lider “tolerantlıq” məfhumunu bu cür açıqlamışdır: “*Tolerantlıq həm insani münasibətlərin, həm insan səviyyəsində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyü deyil, həm də bir-birinin adətinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərinə dözümlülük deməkdir*” (Əliyev 1999, 154). Heydər Əliyev gələcək nəslin hələ uşaqlıq dövründən dini-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasının tərəfdarı idi və bunun təşkili üçün gənclərə doğru şəkildə dini mənimsətməyi

din siyasətinin prioritet məsələsi sayırdı (Bəhrəmova 2021, 112-114). Ümummilli Lider 2005-ci ildə ilk dəfə olaraq sülhün, tolerantlığın, mənəvi dəyərlərin qorunub-saxlanılması və inkişafı istiqamətində böyük xidmətlərinə görə, "Şeyxülisalm ordeni"nə layiq görülmüşdür.

Dünyada baş verən qütbləşmənin və gərginliyin artması proseslərini analiz etsək görə bilərik ki, sivilizasiyamızın qorunmasında yeganə çıxış yolu Ümummilli Liderin tutduğu qarşılıqlı anlayış və hörmət əsasında təşkil olunan mədəniyyətlərarası, dinlərarası və konfessiyalararası dialoq və əməkdaşlıq siyasətinin aparılmasıdır. Praktik şəkildə bu siyasətin fəlsəfəsinin nəticəsini polietnik ölkəmizdə dini icmaların bərabər hüquqlara sahib olmalarında, ekstremizm təhlükəsi şəraitində dini təşkilatlara kənardan gələn təsirlərin qarşısının alınmasında, radikal ideyaların təbliğinə şəraitin yaradılmamasında (AR Konstitusiyası 1994, md. 1, 4), dini ədəbiyyatların nəşrinə və idxalına nəzarət edilməsində, müxtəlif dinlərin məbədlərinin bərpa olunması və yenilərinin inşasında, dövlət səviyyəsində dinlərarası dialoqların keçirilməsində müşahidə edə bilirik.

## ƏDƏBİYYAT


ARDQİÜDK. (2004). Azərbaycan Respublikasında din-dövlət münasibətlərini tənzimləyən rəsmi sənədlər. Heydər Əliyevin siyasi irsindən. № 12. Bakı.

AR Konstitusiyası. (1994). Bakı: Azərnəşr. (96 səh.).

Байпаков К.М., Терновая Г.А. (Казахстан), Кольченко В.А. (Кыргызстан), Грицина А.А. (Узбекистан), Халилов М.Дж., Алышов Н.А. (Азербайджан). (2018). Религии Центральной Азии и Азербайджана. Том IV. Христианство. Самарканд: МИЦАИ. (296 стр.).

Bəhrəmova Sevil. (2021). Heydər Əliyev və Azərbaycan Respublikasında din siyasəti. Bakı: "Avropa" nəşriyyatı. (231 səh.).

Əliyev Heydər. (1999). Dinimiz xalqımızın milli-mənəvi sərvətidir. Bakı: Əbilov, Zeynalov və oğulları. (165 səh.).

Əliyev Rafiq. (2004). Bakı: Dövlət və Din. Çıxışlar və məqalələr toplusu. Bakı: Avropa. (96 səh.).

Əli-zadə Aydın. (2007). Xristianlıq. Tarix və fəlsəfə. Bakı: Əbilov, Zeynalov və oğulları. (172 səh.).

Əlizadə Anar. (2016). Azərbaycanda xristianlıq. Keçmişdən bu günə. Bakı: Elm və təhsil. (379 səh).

İsmayılova V. (2002). Azərbaycan ayrıseçkiliyə qarşıdır. Bakı: "Azərbaycan" qəzeti, 30 sentyabr. (5-ci səh.).

Qurbanlı Mübariz. (2019). Din və siyasət. Bakı: Tuna. (115 səh.).

Multikulturalizmə giriş. Ali məktəblər üçün dərslik. (2019). Bakı: Şərq Qərb. (431 səh.).

Nuriyeva İradə. (2019). Azərbaycan tarixi (ən qədim dövrlərdən zəmanəmizədək). Bakı: "Elm və təhsil". (624 səh.).

Orucov Hidayət. (2012). Azərbaycanda din ən qədim dövrdən bu günədək. Bakı: İdrak İB. (388 səh.).

Səmədov Elsevər. (2009). Azərbaycanda din-dövlət münasibətləri və dni təhsilin formalaşması. Bakı. (170 səh.).

## HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ

***fil.f.d. Aynur Səfərli,***
Daxili İşlər Nazirliyi Polis Akademiyası
Dil hazırlığı kafedrasının müəllimi,
polis baş leytenantı
seferli_1988@bk.ru

### XÜLASƏ

Məqalədə ulu öndər Heydər Əliyevin gənclərə qayğısından bəhs olunub. H.Əliyevin Azərbaycan gəncliyi ilə bağlı fikirləri də araşdırmada yer alıb. Ümummilli Liderin gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratması, bu siyasətin davamı olaraq, 1996-cı il yanvarın 26-da imzaladığı Sərəncamla həmin ilin fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsinə rəvac verməsi H.Əliyevin Azərbaycan gəncliyinə olan diqqət və qayğısının ən bariz nümunələrindən biridir. Müvafiq tarixdə gənclərin I forumu keçirildi. Forumda həmişəyaşar rəhbərimiz gənclər və idman siyasəti sahəsində görülən işlərdən, gənclik qarşısında böyük məsuliyyət dayandığından danışdı, Azərbaycan gəncliyinin daha uğurlu sabahına inandığını vurğuladı.

Ümummilli lider Heydər Əliyev və onun davamçısı, müzəffər Ali Baş Komandan İlham Əliyevin gənclər siyasətinin əsas prinsiplərindən biri millətinə və dövlətinə sadiq bir gənc nəsil yetişdirmək idi ki, 44 günlük Vətən nüharibəsi bu məqsədin hasil olduğunu göstərdi.

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan gəncliyi, gənclər siyasəti, müzəffər Ali Baş Komandan.*

## HEYDAR ALIYEV AND THE YOUTH OF AZERBAIJAN

***PhD Aynur Safarli***

### ABSTRACT

The article covers the care of the great leader Heydar Aliyev for the youth. The study also shows H.Aliyev's reflections on the youth of Azerbaijan. Establishment of the Ministry of Youth and Sports by the National Leader on July 26, 1994 to bring up the younger generation in a structured manner and the promotion of the 1st Youth Forum of the Republic of Azerbaijan to be held on February 2 of the same year by an Order signed on January 26, 1996 as a continuity of this policy are among the prime examples of H. Aliyev's attention and care for the youth of Azerbaijan. The 1st Youth Forum was held on the date specified. At the forum, our perpetual leader spoke about the work done in the field of youth and sports policy and the young people having a great responsibility, stressed his assurance of an even more successful future for Azerbaijani youth.

One of the main principles of the youth policy of National Leader Heydar Aliyev and his successor, the victorious Supreme Commander Ilham Aliyev, was to raise the younger generation loyal to their nation and state, and the 44-day Patriotic War has showed that this goal had been achieved.

***Keywords:*** *Heydar Aliyev, Azerbaijani Youth, Youth Policy, Victorious Supreme Commander*

## ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАНСКАЯ МОЛОДЕЖЬ

***д.ф. по филологии Айнур Сафарли***

## РЕЗЮМЕ

Статья повествует о заботе великого лидера Гейдара Алиева о молодежи. В исследовании также были отражены размышления Г. Алиева об азербайджанской молодежи. Учреждение общенациональным лидером 26 июля 1994 года Министерства молодежи и спорта для воспитания подрастающего поколения в организованной форме и содействие проведению первого форума молодежи Азербайджанской Республики 2 февраля того же года Приказом, подписанным 26 января 1996 года в продолжение этой политики, являются одними из ярчайших примеров внимания Г. Алиева к азербайджанской молодежи и заботы о ней. В назначенную дату состоялся I Молодежный форум. На форуме наш вечный лидер рассказал о работе, проделанной в области молодежной и спортивной политики, о том, что перед молодежью стоит большая ответственность, подчеркнул, что верит в еще более успешное будущее азербайджанской молодежи.

Одним из основных принципов молодежной политики общенационального лидера Гейдара Алиева и его преемника, победоносного Верховного главнокомандующего Ильхама Алиева было воспитание молодого поколения верным своей нации и государству, и 44-дневная Отечественная война показала, что эта цель достигнута.

***Ключевые слова:*** *Гейдар Алиев, азербайджанская молодежь, молодежная политика, победоносный Верховный главнокомандующий.*

***Heydər Əliyev:*** *"Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir"*

## Giriş

**Gənclik hər bir ölkənin gələcəyinin təməlidir. Gəncliyin yüksək intellektual biliyə, sağlam ruh və bədənə malik olması, mənəvi və milli dəyərlərə sədaqət ruhunda tərbiyə edilməsi milli prioritet istiqamətlərindən sayılır.** Ölkə siyasətində önəmli yer tutan məsələlərdən biri də gənc nəslin düzgün yetişdirilməsidir. **Ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır.** *"Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir. Çünki Azərbaycan Prezidenti kimi mən də bu gün Azərbaycanın böyük gələcəyi haqqında düşünürəm. Azərbaycanın gələcəyi isə Azərbaycanın*

*gənclərindən və uşaqlarından asılıdır"* (Quliyev 2022, 3), – **söyləyən** Ümummilli Lider **daim Azərbaycanın gələcəyi haqqında düşünürdü, gənc nəslin inkişafına davamlı qayğı göstərirdi.**

**Heydər Əliyevin gənclər siyasəti: gənclərin I respublika forumu**

Azərbaycan gənclərinin bütün sahələrdə özlərini doğrultmaları, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət gənclər siyasətinin nəticəsidir. Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həll yolları da inkişaf etməyə başladı. Nəticədə, ümummilli liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Bu siyasətin davamı olaraq, 1996-cı il yanvarın 26-da ulu öndər Heydər Əliyevin Sərəncamı ilə fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikası qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi, onlarla işin əhəmiyyətli dərəcədə canlanmasına səbəb oldu. Gənclərin I forumunda gənclər və idman siyasəti sahəsində görülən işlərdən, gənclik qarşısında böyük məsuliyyət dayandığından danışan ulu öndər Heydər Əliyev Azərbaycan gəncliyinin daha uğurlu sabahına inandığını vurğuladı. Ümummilli lider Heydər Əliyev gənclərimizə həmişə böyük ümidlər bəsləyir və dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Məhz həyata keçirilən məqsədyönlü siyasətin nəticəsidir ki, Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənclər formalaşırlar. Azərbaycan gəncləri gündən-günə ölkənin ictimai-siyasi həyatında daha böyük rol oynayırlar. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəal fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Məhz dövlətin gənclərə dəstək və diqqət göstərməsi nəticəsində Azərbaycan gəncliyində özünə, öz gücünə, istedadına inam hissi artırıb. Hər il olduğu kimi, ötən ildə də gənclərimiz iştirak etdikləri beynəlxalq olimpiadalarda və idman yarışlarında yeni-yeni qələbələrlə ölkəmizin şərəfini ucaldıblar. Ölkəmiz, artıq kifayət qədər inkişaf edib: biz ən mühüm, strateji beynəlxalq tədbirlərin iştirakçısından təşkilatçısına çevrilmişik. Ölkəmizin iqtisadi və siyasi gücü gün-gündən artmaqdadır. Belə olan təqdirdə, ölkəmizə qarşı informasiya terrorunun baş verməsi qaçılmazdır. Belə şəraitdə gənclərimiz yeni internet və sosial medianın mümkün texniki imkanlarına yaxşı bələd olmalı və ermənipərəst qüvvələrin bütün informasiya təxribatlarına layiqli cavab verməlidirlər.

Ulu Öndərin gəncliyə və gənclərə etimadı bu gün artıq öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə böyük diqqətin nəticəsidir. Dövlətimizin başçısının 2007-ci il 16 aprel tarixli Sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil üzrə Dövlət Proqramı" bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradıb. Bu proqram çərçivəsində minlərlə gənc dünyanın ən nüfuzlu təhsil ocaqlarında oxuyur. Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi, gənclər siyasətinin bütün istiqamətləri üzrə müvafiq dövlət proqramının səmərəli həyata keçirilməsi, gənc istedadlara dövlət qayğısının artırılması, elm, təhsil, iqtisadiyyat, mədəniyyət, dövlət idarəçiliyi və digər

sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsi məqsədilə Prezident İlham Əliyev tərəfindən 2007-ci il "Gənclər İli" elan edildi. Azərbaycanın gənclər siyasətində idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasına da xüsusi diqqət yetirilir. Prezident İlham Əliyevin mətin iradəsi və böyük səyləri nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib. Respublikamızda çoxlu sayda olimpiya idman komplekslərinin fəaliyyət göstərməsi, ölkəmizin nüfuzlu beynəlxalq idman yarışlarına ev sahibliyi etməsi, idmançılarımızın olimpiya və dünya çempionatlarında uğurlu çıxışları deyilənlərə sübutdur. Ulu öndər Heydər Əliyevin vaxtilə gəncliyə və gənclərə qayğısının nəticəsidir ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir.

Azərbaycan gəncliyi bu diqqət və qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk edir və Prezident İlham Əliyevin müəyyənləşdirdiyi strateji vəzifələrin uğurla həyata keçirilməsinə, respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışır. Prezidentin 2011-ci il 7 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı", 2011-ci il 19 dekabr tarixli Fərmanı ilə Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi yanında Gənclər Fondunun yaradılması (https://mod.gov.az/az/pre/25662.html) əsası Ulu Öndər tərəfindən qoyulmuş gənclər siyasətinin elmi-nəzəri əsaslara bağlılığının, əməli nəticəliliyinin, davamlılığının daha bir əyani sübutudur.

Bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan Azərbaycan Ordusu sıralarında Vətənin müdafiəsi kimi müqəddəs bir vəzifəni şərəflə yerinə yetirən şəxsi heyətin böyük əksəriyyətini gənclər təşkil edirlər. Azərbaycan gənclərinə gün-gündən artan dövlət qayğısı nəticəsində bu gün orduda vətənpərvər, mənəviyyatca saf, fiziki cəhətdən sağlam gənclər xidmət edirlər. Aprel döyüşləri (2016-cı il) və Vətən müharibəsində təmas xəttində düşmənin hər cür təxribatına inamla cavab verən, bizi Azərbaycanın döyünən ürəyi olan Qarabağa qovuşduran Azərbaycan əsgərinin hər an, hər dəqiqə xalqın dəstəyini hiss etməsi, gənclərimizin bir nəfər kimi Vətən torpağının müdafiəsi uğrunda mübarizəyə hazır olduğunu əyani şəkildə nümayiş etdirməsi – gənclərə münasibətdə Heydər Əliyev kursunun, İlham Əliyev siyasətinin təntənəsidir. Göründüyü kimi, yürüdülən gənclər siyasətinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri cəmiyyətin inkişafında, sosial təbəqə kimi demokratikləşmə prosesində fəal iştirak edir, mədəniyyət, incəsənət, iqtisadiyyat və digər sahələrdə nailiyyətlər qazanır, dövlətçiliyin möhkəmləndirilməsi prosesində yaxından iştirak edirlər. Azərbaycanda yüksək intellektual səviyyəyə, vətənpərvərlik hissinə, milli düşüncəyə malik gənc nəsil formalaşmasının nəticəsidir ki, Azərbaycan gənclərinin ölkənin ictimai-siyasi həyatında rolu gün-gündən artır. Hazırda respublikada mövcud olan yüzlərlə qeyri-hökumət və gənclər təşkilatlarının fəaliyyəti dövlətin yaratdığı şərait sayəsində mümkün olub. Ulu öndər Heydər Əliyev hələ 1969–1982-ci illərdə Azərbaycana birinci rəhbərliyi dövründə gənclər siyasətinin əsaslarını yaratmışdı. Həmin dövrdə 15000-dən artıq azərbaycanlı gənc SSRİ-nin müxtəlif nüfuzlu universitetlərində təhsil almaq üçün göndərilmişdi. 1982–1985-ci illər ərzində bu say 3500-ə qədər çatmışdı. Ölkə daxilində də gənc nəslin yetişdirilməsi istiqamətində işlər ən yüksək şəkildə davam etdirilirdi. Təhsil infrastrukturunun yenilənməsi, hərbi liseyin fəaliyyətə başlaması, ali və orta ixtisas təhsil müəssisələrində müxtəlif təyinatlı yeni ixtisasların açılması, idman infrastrukturunun yenidən qurulması gələcək Azərbaycan gəncliyinin formalaşmasına yönəlmiş mühüm addımlardan idi. Hələ keçən əsrin 70-80-ci illərində müdrik rəhbərin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin, Moskva şəhəri də daxil olmaqla, aparıcı ali məktəblərinə, müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərildilər. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki,

1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə 1500-dən artıq azərbaycanlı gənc bu qayğı ilə əhatə olundu. Məhz həmin gənclər sonradan ali təhsilli mütəxəssis kimi ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrində bacarıqlı kadr kimi fəaliyyətə başladılar. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Gənclər Sankt-Peterburqda, Kiyevdə, Xarkovda, Minskdə təhsil alırdılar. Onlar Azərbaycan Respublikasının daxil olacağı yeni dövrün problemlərini həll etməli idilər.

Ulu öndər Heydər Əliyevin gənclər siyasəti 5 mühüm istiqaməti ehtiva edirdi:

1) milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək;

2) gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək;

3) gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək;

4) gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq;

5) Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq (Ağaşahqızı 2022, 2).

Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir. Bu ənənənin kökləri tarixin dərinliklərinə gedib çıxır: Babil hökmdarı II Novuxodonosurun (e. ə. 586-cı il) Yerusəlimi zəbt etməsi nəticəsində talan olmuş İudeya çarlığından qaçan yəhudi köçkünləri Azərbaycan torpağında özlərinə sığınacaq tapmışlar. Tarixi mənbələrə əsasən, o vaxtlar Babildə 40 minə qədər əsir var idi. Eramızın birinci yüzilliyinin ortalarında Xristianlığın ilk ardıcılları Azərbaycana pənah gətirmiş və sonradan burada yaranan Alban aftokefal kilsəsinin əsasını qoymuşlar. İslamın Azərbaycana gəlişi ilə dini dözümlülük ənənələri daha da möhkəmlənmişdir. Müsəlman tolerantlığının əsasını Qurani-Kərimin surə və ayələri təşkil edir: “Dində məcburiyyət yoxdur”. Tarixçilərin dediklərinə görə, VII-VIII əsrlərdə müsəlmanlar Yəhudilik, Xristianlıq və Zərdüştiliyin tərəfdarlarına qarşı ehtiram və dözümlülük göstərmişlər. Azərbaycan ərazisində yaşayan çoxsaylı etnik və dini qruplar arasında möhkəm əlaqələrin formalaşmasında onların tale ümumiliyi amili də böyük rol oynamışdır. Tarixboyu Azərbaycanda yaşayan xalqlar dəfələrlə qüdrətli dövlətlərdən asılı vəziyyətə düşmüş və yaranmış şərait onları, dünyagörüşlərindəki fərqlərə baxmayaraq, yaxınlaşmağa vadar etmişdir.

Sovet İttifaqının dağılması regionda dini dözümlülük ənənələri üçün əsl sınağa çevrildi. Bu proseslər nəticəsində keçmiş müttəfiq respublikalarının xalqları müstəqilliklə yanaşı, əsl dini etiqad azadlığı da əldə etdilər. Azərbaycandakı mövcud tolerantlığın əsasları üçün ən böyük təhlükəni 1990-cı illərinin əvvəllərindən başlayaraq, 30 ilə yaxın dövr ərzində minlərlə dinc sakinin ölümünə və bir milyondan artıq soydaşımızın doğma yurdlarından didərgin düşməsinə səbəb olan erməni təcavüzü yaratmışdır. Azərbaycan–Ermənistan Dağlıq Qarabağ münaqişəsi dini zəmində baş verməsə də, Ermənistanın dini lideri I Vazgen, praktiki olaraq, separatçı hərəkatı qızışdıran şəxslərdən biri olmuşdur. Barışmaz erməni separatizminin ideoloqları hər imkandan istifadə edərək, beynəlxalq aləmdə belə bir mif təlqin etməyə çalışırdılar ki, guya Azərbaycandan "islam təhlükəsi" gözlənilir. Digər tərəfdən, Azərbaycanda anti-müharibə və hətta ermənipərəst meyillərin yayılması üçün bəzi qüvvələr respublikanın müsəlman əhalisinin xristianlaşdırılmasından istifadə edirdilər. Şübhəsiz ki, belə hərəkətlər dinlərarası dialoqun möhkəmlənməsinə xidmət etmirdi. Bu hadisələr respublikadakı dini konfessiyalar arasında olan münasibətlərə həlledici mənfi təsir göstərə bilmədi. Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu münasibətlər daha da yaxşılaşdı [14] (Əziz Mustafa Zaman.-2015.-19 mart.-S.13).

**Heydər Əliyev şəxsiyyəti multikultral tolrerant dəyərlər işığında**

"İslam sivilizasiyası Qafqazda" mövzusunda beynəlxalq simpoziumda Azərbaycan Prezidenti Heydər Əliyev demişdir: "Dünyada bir çox böyük dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir. Bu, tarixboyu Azərbaycanda da, Qafqazda da öz əksini tapıbdır. Azərbaycanda İslam dini ilə yanaşı, Xristian dini də, Yəhudi dini də əsrlərboyu yaşayıb və indi də yaşayır. Qafqazda da bu mənzərə var. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, o dinlərin bəzən kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar!" [5] ("Azərbaycan" qəzeti, 10 dekabr 1998-ci il).

Elmi ədəbiyyatlarda dini və milli müxtəliliyin etirafı və ona hörmətlə yanaşılması kimi şərh edilən "tolerantlıq" ilk dəfə Orta əsrlərdə yaranmış və əxlaqi fəzilət, qeyri-xristian, yaxud bidətçi ehkam, ayin, inancların etirafı kimi nəzərdən keçirilmişdir.

Mədəniyyətin mühüm elementi, vətəndaş cəmiyyətinin əsas əxlaqi prinsipi olan tolerantlıq bu gün müxtəlif inanc, mədəni ənənə, siyasi məslək daşıyıcısı olan insanların ictimai vəhdətləşməsinin zəruri şərti kimi etiraf olunur. Eyni zamanda, təcrübə göstərir ki, mütləq dözümlülük də öz növbəsində, özbaşınalıq və zorakılığa yol açır. Buna görə də heç bir halda tolerantlıq şərə fürsət verməyə çevrilməməlidir.

Azərbaycana gəldikdə isə qeyd etmək lazımdır ki, ölkəmiz tarixən milli və dini baxımdan həmişə tolerant bir ölkə olmuşdur. Azərbaycan xalqının tolerant bir xalq olduğunu, həm tarixi mənbələr, həm də müxtəlif vaxtlarda ölkəmizə gələn xarici qonaqlar təsdiq etmişlər. Bu gün də bu belədir. Azərbaycanda tarixən çoxsaylı etnosların və müxtəlif dinlərin nümayəndələri birlikdə yaşamışlar (zaman-zaman azərbaycanlılara qarşı qaldırdıqları torpaq iddiaları ucbatından ermənilər istisnadır). Ölkəmizdə dini və milli tolerantlığın tarixən mövcud olduğunu və bu tolerantlığın indiyə kimi qorunub-saxlanılmasında Azərbaycan xalqının və İslam dininin misilsiz rol oynadığını vurğulayan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu fikri belə şərh etmişdir: "Tarixən dünya dinlərinin yayıldığı və dinc yanaşı fəaliyyət

göstərdiyi qədim Azərbaycan torpağında yüz illərlə qarşılıqlı etimada və hörmətə əsaslanan mütərəqqi milli-mədəni və dini münasibətlər sistemi formalaşmışdır. Diqqətəlayiq faktdır ki, ölkəmizdə həmişə yüksək tolerantlıq mühiti hökm sürmüş, heç vaxt milli və dini zəmində ayrı-seçkilik və qarşıdurma halları baş verməmişdir. Ayrı-ayrı etiqad və inanclara malik etnosların əsrlərlə əmin-amanlıq şəraitində yaşamasında, etnik-mədəni müxtəlifliyin günümüzədək qorunub-saxlanmasında Azərbaycan xalqının və İslam dininin misilsiz tarixi rolu danılmazdır".

İslam dinini Azərbaycan xalqının milli-mənəvi sərvəti hesab edən ulu öndər Heydər Əliyev İslamın insanları paklığa, sağlığa çağırdığını vurğulamışdır. Heydər Əliyev 26 avqust 1994-cü il tarixində Mövlud bayramı münasibətilə Təzəpir məscidində təşkil olunmuş təntənəli mərasimdə dindarlar qarşısında çıxış edərkən İslam dininin tərbiyəvi əhəmiyyətindən bəhs edərkən demişdir: "İslam dini həmişə insanları sağlığa, təmizliyə, ülvi mənəviyyata dəvət etmişdir. Qurani-Kərim insanları düzlük, mənəvi paklıq ruhunda tərbiyə edir. Müstəqil Azərbaycan Respublikasının bu ağır, çox çətin, keşməkeşli dövründə bütün bunların bizdən ötrü böyük əhəmiyyəti var". Öz çıxışında insanların mənəvi tərbiyəsinin əhəmiyyətini xüsusi qeyd edən Heydər Əliyev göstərmişdir: "Mənəviyyatımız nə qədər yüksək olarsa, biz insanlarda, hər bir azərbaycanlıda, müsəlmanda Vətənə, öz amallarına sədaqət, mənəvi sağlıq əhval-ruhiyyəsi tərbiyə edə bilsək, Azərbaycan bu ağır böhran dövründən, çətinliklərdən tezliklə və müvəffəqiyyətlə çıxacaqdır" [15] (Heydər Əliyev və İslam həmrəyliyi , "Xalq qəzeti").

İslamın Qafqazda yayılmasının bölgə xalqlarının həyatındakı sosiomədəni əhəmiyyətini şərh edən Ulu Öndər demişdir: "Azərbaycanda İslam dini VII əsrdən yayılıb və Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edir. Bizim çoxəsrlik İslam dövrü tariximiz zəngindir. Bu gün iftixar hissi ilə deyirik ki, Azərbaycan İslam mədəniyyəti, İslam dini ilə bağlı olan dahi insanları – Nizami, Füzuli, Nəsimi, Tusi, Qətran Təbrizi və bir çox digər böyük şəxsiyyətləri dünya sivilizasiyasına böyük töhfələr vermiş və İslam mədəniyyətini zənginləşdirmişdir. Biz bunlarla fəxr edirik. Biz azərbaycanlılar öz tariximizlə, milli-mənəvi dəyərlərimizlə fəxr edirik, öz doğma Ana dilimizlə fəxr edirik. Bunlar hamısı bizim milli mənəviyyatımız, milli-mənəvi dəyərlərimizdir. Bunlara görə də biz İslam dininə, İslam mədəniyyətinə mənsub olmağımızla da fəxr edirik" [5] ("Azərbaycan" qəzeti, 10 dekabr 1998-ci il).

Ulu Öndər islamşünaslığın bir elm kimi Azərbaycanda dərindən araşdırılmasını genişləndirməyi irəli sürürdü. Sovet hakimiyyəti illərində respublikamızda islamşünas alimlərin az olduğunu, bu elmin tədqiqinə diqqət yetirilmədiyini, islamşünaslıq elminin zəif inkişaf etməsinin səbəblərini sosial-ideoloji və siyasi şərtlərlə əsaslandıran Ümummilli Lider deyirdi: "Sovet hakimiyyəti illərində Azərbaycanın özündə, demək olar ki, islamşünaslar çox az idi, bəlkə də yox idi. Bunun da səbəbini sizə deyim. Məsələn, keçmiş Sovetlər İttifaqında islamşünaslar, əsasən, Moskvada idilər. İslama mən dediyim həmin, kommunist ideologiyası tərəfindən o qədər mənfi münasibət var idi ki, İslama mənsub olan alimlərin özləri islamşünaslıqla məşğul olmaqdan çəkinirdilər, qorxurdular. Digər tərəfdən də hesab edirdilər ki, bu, dünya elmi üçün o qədər də əhəmiyyətli bir sahə deyildir, yaxşı olar ki, başqa bir sahə ilə məşğul olsunlar".

Dövlət–din münasibətlərinin düzgün tənzimləndiyi Azərbaycanın bu sahədə digər ölkələrə nümunə ola biləcəyini irəli sürən Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Heydər Əliyevin dövlət–din münasibətlərinin tənzimlənməsi sahəsindəki rolundan bəhs edərək demişdir: "Heydər Əliyev həzrətlərinin əsasını qoyduğu dövlət-din münasibətləri özünəməxsus bir örnək kimi təkcə bizim ölkə üçün deyil, bütün dünya üçün nümunə ola bilər. Bizim bu gün bir araya gəlməkdə əsas məqsədimiz Azərbaycan gerçəkliklərini öyrənmək və yaymaqdır. İnşallah, bu ali məqsədə birlikdə nail olacağıq" [6] (Heydər Əliev və Azərbaanda din siyasəti: gerçəkliklər və perspektivlər. Bakı 2007 səh.23).

Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi dövrdə xalqımızın multikultural və tolerantlıq ənənələrinin dövlət tərəfindən qorunması sahəsində çox vacib addımlar atıb. Bunun nəticəsidir ki, Azərbaycan Respublikasının Konstitusiyasında multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq prinsipləri aydın şəkildə öz əksini tapıb.

Ümummilli lider Heydər Əliyev multikulturalizm və tolerantlıq siyasətini respublikamızın demokratik inkişafında mühüm amil hesab edib. O, ölkə ərazisində yaşayan bütün milli azlıqların hüquq və azadlıqlarına, etnik mədəniyyətə və müxtəlif dinlərə məxsus insanların dini və mədəni dəyərlərinin qorunmasına həmişə əsas insan hüquq və azadlıqlarının tərkib hissəsi kimi yanaşıb. Dahi şəxsiyyət bu səbəbdən də xalqımızın, cəmiyyətimizin, bütövlükdə Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən multikulturalizmin əsas mənəvi bazası hesab olunan azərbaycançılığı milli ideologiya səviyyəsinə qaldırıb. Etnik millətçiliyə qarşı qoyulmuş azərbaycançılıq ideologiyası dinindən, dilindən, milli mənsubiyyətindən, irqindən asılı olmayaraq, bütün ölkə vətəndaşlarının birliyinin təmin olunmasına xidmət edir.

Ulu Öndərin 1994-cü ildə "Təzəpir" məscidində dediyi sözlər bu baxımdan xüsusi önəm daşıyır: "İslam dini başqa dinlərə qarşı heç vaxt düşmən olmayıb. Çünki bu ayinlərin hamısı Allahdan gəlir. Azərbaycanda müsəlmanlarla yanaşı başqa dinlərə etiqad edən adamlar da yaşayır. Onlar da Azərbaycanın bərabər hüquqlu vətəndaşlarıdır. Çalışmalıyıq ki, dini, milli mənsubiyyətindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşları eyni hüquqlu olsunlar və onların hamısının birliyini, vəhdətini təşkil edək. Bu da Allah-Taalanın buyuruğu, bizim yolumuzdur" [15].

Xalqımızın böyük oğlu Heydər Əliyev azərbaycanlılara məxsus insanpərvərlik, tolerantlıq kimi yüksək məziyyətlər zəminində ölkəmizdə milli-dini ayrıseçkilik, dözümsüzlük hallarının baş verməsinin mümkünsüz olduğunu dönə-dönə bəyan edib. Onun xarici ölkələrə səfərlərində, görüşlərində, qərar və sərəncamlarında bu məsələ daim qabarıq şəkildə qeyd olunub. Dünyamızda baş verən proseslər – terror, radikallıq, ekstremizm hallarının güclənməsi bu gün din sahəsinə daha həssas yanaşılmasını tələb edir. Odur ki, ulu öndər Heydər Əliyevin dövlət–din münasibətləri, milli-mənəvi dəyərlərin qorunması, təbliğ olunması, tarixi-dini abidələrin bərpası, multikulturalizm və dinlərarası dialoqun təşviqi sahəsində zəngin təcrübəsinə zəruri ehtiyac yaranıb. Heydər Əliyev irsinin öyrənilməsi və təbliği dünya ölkələrinə də bu mənada böyük fayda verə bilər. Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında xalqımızın multikultural, tolerantlıq dəyərlərinin qorunub mühafizə olunması, həyata keçirilməsi sahəsində müdrik siyasəti onun layiqli siyasi varisi, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Multikulturalizmi Azərbaycanın dövlət siyasəti, xalqımızın həyat tərzi kimi dəyərləndirən dövlət başçısı bu siyasətin reallaşmasında BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər mötəbər beynəlxalq təşkilatlarla əməkdaşlığa mühüm əhəmiyyət verir. Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində ölkəmizin həmin nüfuzlu beynəlxalq qurumlar tərəfindən milli azlıqların hüquq və azadlıqlarının müdafiəsi əlaqədar qəbul edilmiş konvensiyalara qoşulması istiqamətində ciddi addımlar atılır. Ölkə rəhbərinin təşəbbüsü və iştirakı ilə 2011-ci ildən başlayaraq, Vətənimizin paytaxtı Bakı şəhərində müntəzəm keçirilən Beynəlxalq Humanitar Forum bu sahədə əhəmiyyətli rol oynayır. Son illər respublikamızda təşkil olunan beynəlxalq musiqi, mədəniyyət və idman tədbirləri, xüsusilə Birinci Avropa Oyunları xalqımızın multikultural, tolerantlıq ənənələrinin təntənəsini bir daha təkrar nümayiş etdirdi. Xalqımızın multikultural və tolerantlıq ənənələrinin qorunub-saxlanılması və geniş təbliğ edilməsi sahəsində Heydər Əliyev Fondu tərəfindən də son dərəcə əhəmiyyətli layihələrin həyata keçirildiyini xüsusi qeyd etmək olar. Bu gün Heydər Əliyev Fondu mədəniyyətlərarası əlaqələrin möhkəmləndirilməsi

istiqamətində möhtəşəm işlər aparır. Bu sahədə Fondun prezidenti YUNESKO və İSESKO-nun xoş-məramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın əvəzsiz xidmətləri var [1] (Azərbaycan Multi-kulturalizmi. Biblioqrafiya. B-2016).

Qeyd edək ki, Azərbaycan polietnik dövlətdir. Burada xalq dövləti təşkil edən etnosdan – Azərbay-can türklərindən və milli azlıqlardan təşkil olunub. Bu millətlərin tarixən Azərbaycandan başqa vətənləri olmayıb və buna görə də Azərbaycan türkləri ilə birlikdə vahid polietnik Azərbaycan millətinin nü-mayəndələri hesab olunurlar. Onlardan başqa ölkəmizdə ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar yaşayırlar ki, bu milli azlıqların hər birinin müvafiq olaraq tarixi vətəni var və bununla belə, Azərbaycan ərazisində yaşayan milli azlıqlara aiddirlər. Onlar da Azərbaycan Respubli-kasının tamhüquqlu vətəndaşları olaraq bütün hüquqlardan istifadə edirlər. Bakı şəhərində iyirmidən artıq müxtəlif mədəni icma fəaliyyət göstərir. Bunların arasında rusların, ukraynalıların, kürdlərin, lakların, ləz-gilərin, slavyanların, tatların, tatarların, gürcülərin, ingiloyların, talışların, avarların, Ahıska türklərinin, Avropa, dağ, gürcü yəhudilərinin, alman və yunanların cəmiyyətləri daha fəaldır. Bu gün ölkəmizin istənilən bölgəsində, etnik azlıqların yığcam yaşadıqları ərazilərdə belə icmalar fəaliyyət göstərir. Onların hər biri öz maddi-mənəvi mədəniyyətlərini, dillərini, tarixlərini, yaddaşlarını, mentalitetlərini, etnik özü-nüdərketmə və etnopsixologiyalarını qoruyub-saxlayan unikal xüsusiyyətlərin daşıyıcılarıdır. Bunlara mi-sal olaraq, Azərbaycanda dağ yəhudilərinin məskəni Qırmızı Sloboda, rus-malakanların yaşadıqları İva-novka, udinlərin Nic, öz dili, özünəməxsus adət və ənənələri ilə məşhur Xınalıq kəndini və eləcə də başqa milli azlıqların yaşadıqları onlarca belə məskənləri göstərmək mümkündür. Onların hamısı Azərbaycan cəmiyyətinin ayrılmaz hissəsidir. Etnik azlıqlara yerli əhali ilə bərabər mədəni hüquqlar və ölkənin mədəni irsindən istifadə hüququ verilib. Bu hüquq etnik azlıqlara imkan verir ki, kompakt yaşadıqları yerlərdə ümumtəhsil məktəblərinin ibtidai siniflərində doğma dillərində təhsil alsınlar. Bunun üçün dövlət tərəfindən müvafiq dillərdə tədris proqramları və dərs vəsaitləri, folklor və şeir məcmuələri, bədii ədəbiy-yat nəşr olunur. Ölkəmizdə etnik azlıqların dillərində qəzet və jurnallar nəşr olunur, milli teatrları və bədii özfəaliyyət kollektivləri fəaliyyət göstərir. Ölkəmizdə mövcud olan multikultural mühit imkan verir ki, azsaylı xalqlar və etnik qruplar adət-ənənələrini, maddi- mənəvi mədəniyyətlərini qoruyub inkişaf etdir-sinlər.

Müasir Azərbaycan dövlət–din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlman-ların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir. Belə ki, 1920-ci ildə bağlanmış Jen Mironosets baş kilsəsinin binası 1991-ci ildə Rus pravoslav kilsəsinə verilmişdir. Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi 27 may 2001-ci il tarixində bu məbədi müqəddəs elan etmiş və ona "Baş kafedral kilsə" statusu vermişdir. Bundan başqa, 1999-2001-ci illərdə paytaxtda digər pravoslav məbədi – Müqəddəs Məryəmin miladı baş kilsəsi bərpa olunmuşdur.

Ölkəmizin katolik icması da dövlətin qayğısından kənarda qalmayıb. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra katolik icması yenidən fəaliyyətini bərpa edə bildi. 2 aprel 1999-cu ildə Bakı şəhəri Roma Katolik dini icması dövlət qeydiyyatına alındı. Həmçinin ümummilli lider Heydər Əliyevin göstərişi ilə Bakıda katolik kilsəsinin inşası üçün ərazi ayrıldı. Nəticədə, 2007-ci ildə ölkə pay-taxtının ən gözəgəlimli yerində Məryəm ananın şərəfinə katolik kilsə ucaldıldı, 2011-ci ildə isə "Azərbay-can Respublikasında Katolik kilsəsinin apostol prefekturası" dini qurumu dövlət qeydiyyatından keçdi [12] (Heydər Əliyev siyasəti: tolerantlıq. Bakı, Elm və təhsil 2015 səh.: 112).

Respublikamızda katoliklik, mənsublarının sayına görə, pravoslav və protestantlıqdan sonra gəlir. Ölkəmizdə katolik icma kiçik olsa da, ictimai həyatda fəal iştirak edir, geniş xeyriyyə fəaliyyəti ilə məşğul olur. Azərbaycan Respublikasında Katolik kilsəsinin apostol prefekturasının nəzdində Tereza ana adına kimsəsizlər üçün sığınacaq evi, "Məryəm" tədris mərkəzi və digər xeyriyyə təsisatları fəaliyyət göstərir. Hazırda Bakı və Azərbaycan Yeparxiyasının tabeliyində səkkiz ibadət yeri (5 kilsə, 2 kiçik kilsə, 1 dua evi) fəaliyyət göstərir. Onlardan dördü Bakı şəhərində, digərləri isə Gəncə, Sumqayıt, Xaçmaz və Lənkəranda yerləşir. Respublikada qədim ənənələrə malik olan yəhudi icmasının mədəni irsi də dövlətin qayğısı ilə əhatə olunur. Respublikada 1990-cı ildən "Azərbaycan-İsrail" Dostluq Cəmiyyəti, habelə "Soxnut" Cəmiyyəti fəaliyyət göstərir. Azərbaycandakı yəhudilərə göstərilən ehtiramdan söhbət açarkən, Quba rayonundakı Qırmızıqəsəbəni qeyd etmək lazımdır. Bu qəsəbə postsovet məkanında dağ yəhudilərinin yığcam yaşadıqları yer hesab olunur. Qudyalçayın sol sahilində yerləşən Qırmızıqəsəbə XVIII əsrdə Quba xanlığı dövründə salınmışdır. Əvvəllər "Yəhudi qəsəbəsi" adlanan sözügedən yaşayış məntəqəsi, hətta bir vaxtlar "Qafqazın Yerusəlimi" kimi də məşhurlaşmışdı [2] (Azərbaycan multikulturalizmi: Ali məktəblər üçün dərslik. – Bakı: BBMM, 2017. – səh.: 341).

Müasir Azərbaycandakı yəhudilərin vəziyyətinə gəlincə, qeyd etmək lazımdır ki, onlar, əsasən, Bakı, Gəncə, Sumqayıt şəhərlərində, həmçinin Quba və Oğuz rayonlarında yaşayırlar. Hazırda ölkəmizdə mövcud olan yəhudi icmaları Azərbaycan dövlətinin diqqət və qayğısı ilə əhatə olunmuşdur. Bunun bariz nümunəsi dövlət başçısı cənab İlham Əliyevin təşəbbüsü və dəstəyi sayəsində Bakı şəhəri Dağ yəhudiləri dini icması üçün yeni sinaqoqun tikilməsidir. 2010-cu ildə təməli qoyulan həmin sinaqoq 2011-ci ilin aprel ayında dindarların istifadəsinə verilmişdir. Eyni zamanda, hər il yəhudi xalqının yeni ili – Roşhaşana bayramı münasibətilə Azərbaycan Respublikasının Prezidenti ölkəmizdəki yəhudi icmasına təbrik ünvanlayır. Bakıda yaşayan yəhudi uşaqlar üçün "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində Heydər Əliyev Fondu və "Or-Avner" Beynəlxalq Fondu tərəfindən "Xabad-Or-Avner" Təhsil Mərkəzi inşa olunmuşdur. Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın iştirakı ilə 2007-ci il mayın 31-də həmin mərkəzin təməlqoyma mərasimi keçirilmişdir. Təhsil Mərkəzinin tikintisi 2010-cu ildə başa çatmışdır. Azərbaycan Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva, eləcə də MDB Yəhudi İcmaları Federasiyasının və "Or-Avner" Beynəlxalq Fondunun prezidenti Lev Levayev 2010-cu il oktyabrın 4-də Təhsil Mərkəzinin açılışında iştirak etmişlər.Bundan başqa, Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsində, habelə Ağabəy Novruzbəyli adına 46 nömrəli tam orta məktəbin rus bölməsinin nəzdində yəhudimənşəli uşaqlardan ibarət olan siniflərdə ibri dili tədris olunur. Onu da qeyd edək ki, Azərbaycanda yəhudi icmaları ictimai həyatda fəal iştirak edirlər. Respublikada Azərbaycan–İsrail Dostluğu Cəmiyyəti, "Soxnut" Yəhudi Agentliyi, "Coynt", "Vaad-L-Xatzola" kimi iri yəhudi xeyriyyə təşkilatları, Azərbaycan Yəhudi Qadınlarının Humanitar Assosiasiyası, yəhudi dini məktəbləri (iyeşivalar), "Azərbaycan–İsrail" Mədəni Əlaqələr Cəmiyyəti, "Xava" Qadın Cəmiyyəti və digər yəhudi qeyri-hökumət təşkilatları fəaliyyət göstərir. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi saytında verilən məlumata əsasən, respublika ərazisində yeddi sinaqoq və səkkiz yəhudi dini icması fəaliyyət göstərir.

Beləliklə, müasir dövrdə Azərbaycanda yəhudilər antisemitizmdən uzaq, tolerant mühitdə yaşayırlar. Bu isə təsadüfi deyildir. Bütün tarixi dövrlərdə yəhudilər ölkəmizdə özlərini böyük bir ailənin bərabərhüquqlu üzvü kimi hiss etmiş, dünyada antisemitizmin tüğyan etdiyi dövrlərdə belə Azərbaycan xalqı onlara yad münasibət göstərməmiş, əksinə, yəhudimənşəli həmvətənlərimiz dostluq, həmrəylik, qarşılıqlı anlaşma şəraitində yaşamışlar.

Bütün bunlar onu deməyə əsas verir ki, milli azlıqların qorunması Azərbaycan rəhbərliyinin apardığı siyasətin əsas istiqamətlərindən biridir. Bunun nəticəsidir ki, Azərbaycanda Əsas Qanunun və qanunların verdiyi bərabər hüquqlar və imkanlardan istifadə edərək, müxtəlif millətlərin nümayəndələri cəmiyyətin ayrı-ayrı sahələrində məhsuldar işləyərək, ölkənin inkişafına layiqli töhfələr verirlər.

Milli azlıqlar, həm də Azərbaycan Respublikasının hökumətində və digər dövlət strukturlarında təmsil olunurlar. Respublikanın milli parlamenti – Milli Məclisdə ölkənin bir sıra etnik azlıqları, o cümlədən rus, ləzgi, tat, talış və başqaları öz nümayəndələri ilə təmsil olunublar. Ölkə Prezidenti İlham Əliyevlə yanaşı, ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da multikulturalizmin Azərbaycan modelinin reallaşması istiqamətində mühüm işlər həyata keçirir. Mehriban xanımın rəhbərliyi və dəstəyi ilə Heydər Əliyev Fondu özünün beynəlxalq fəaliyyətində çoxsaylı layihələr həyata keçirir, bununla da Azərbaycan multikulturalizminin üstünlüklərini bütün dünyaya əyani şəkildə təbliğ edir. Onu da qeyd etmək lazımdır ki, Heydər Əliyev Fondunun "Azərbaycan – tolerantlıq məkanı" layihəsi çərçivəsində həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda həyata keçirdiyi tədbir və layihələr beynəlxalq ictimaiyyət tərəfindən də rəğbətlə qarşılanır [4] (Azərbaycanda dini və milli tolerantlıq. Azadlıq. - 2010. - 20 oktyabr. - 13).

Bu da məlumdur ki, Azərbaycanın həyatımızın bütün sahələrində, o cümlədən İslam həmrəyliyi, multikulturalizm, tolerantlıq, dini və milli özünəgüvəni bəzi dairələr tərəfindən hər zaman qısqanclıq və narahatlıqla qarşılanır. Buna görə də onlar respublikamızın müsbət beynəlxalq imicinin və uğurlarının üzərinə kölgə salmaq məqsədilə bütün çirkin metodlardan istifadə etməyə cəhd edirlər. Bəzi bizi sevməyən, uğurlarımıza qısqanclıqla yanaşan qüvvələrin əlində alətə çevrilən bu qruplar ayrı-ayrı media orqanlarında və sosial şəbəkələrdə Azərbaycana qarşı qarayaxma kampaniyası aparmaqla, ölkəmizin beynəlxalq imicinə zərbə vurmağa çalışırlar. Ölkəmizdə mövcud olan multikultural mühit göstərir ki, bu cəhdlər əbəsdir. Azərbaycan müstəqil, milli maraqlara əsaslanan məkandır. Dövlətimizin müstəqil siyasətinə, bu inkişaf yolunda irəliləməsinə təsir etmək mümkün deyil.

Bütün bu işlərin davamlılığı üçün dini maarifləndirmə istiqamətində də fəaliyyətin gücləndirilməsinə ehtiyac yaranır. Görürük ki, dini sahədə ortaya çıxan əksər problemlərin kökündə dini savadsızlıq, İslamın olduğu kimi təqdim edilməməsi dayanır. Bu səbəbdən, Azərbaycan dövləti milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işinə xüsusi diqqət ayırır. Dini maarifləndirmə düzgün aparıldığı zaman təhlükəsizlik və ictimai-siyasi sabitlik təmin olunur, tolerantlıq ənənələrinin inkişafına təkan verilir, dini zəmindəki ziddiyyətlərin, dövlətlər və xalqlar arasındakı qarşıdurmaların qarşısı alınır.

Araşdırmalar göstərir ki, son illərdə, xüsusən İslamın tarixi mahiyyəti, dünya mədəniyyət tarixində oynadığı rol, onun bəşər sivilizasiyasına verdiyi töhfələr beynəlxalq miqyasda keçirilən elmi konfransların və simpoziumların müzakirə obyektinə çevrilmişdir.

Milli-mənəvi dəyərlərimizin qorunması və tarixi dini abidələrin bərpası prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı – Azərbaycan" çərçivəsində də çoxsaylı layihələr həyata keçirilməkdədir.

Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də ümumdünya mədəni irsinin qorunmasına, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Fondun layihələrindən biri olan "Azərbaycan – tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva

edir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombanın bərpasında əhəmiyyətili işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir. Bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o`Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

Hazırda Heydər Əliyev Fondu işğaldan azad olunan ərazilərimizdə ermənilər tərəfindən dağıdılan dini abidələr, məscidlərin bərpasına dair layihə üzrə işlərə başlayıb. Qarabağ ərazisində Azərbaycan xalqının milli sərvəti olan dini abidələrin, məscidlərin bərpası üzrə layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası və yenidən qurulması həyata keçirilir. Azərbaycanda tolerantlıq, multikulturalizm, dinlər və mədəniyyətlərarası dialoq sahəsində müxtəlif tərəflərin bir araya gəlməsi istiqamətində kifayət qədər tədbirlər həyata keçirilir. Azərbaycan son onillərdə bu sahədə onlarca beynəlxalq və regional konfrans, forum və simpoziumlara ev sahibliyi edib. Fəxrlə deyə bilərik ki, beynəlxalq aləmdə Bakı şəhəri ilə bağlı iki ifadə tez-tez işlədilir: mədəniyyətlərarası dialoq üzrə Bakı prosesi və tolerantlığın təşviqi üzrə Bakı prosesi.

**Nəticə**

Bunlardan əlavə, Azərbaycan tolerantlıq və multikulturalizm sahəsində təcrübəsini yaymaq və təbliğ etmək, eləcə də bu dəyərləri beynəlxalq aləmdə təşviq etmək məqsədilə nüfuzlu təşkilatlarla, o cümlədən BMT, UNESCO, ISESCO, ATƏT və digər qurumlarla yaxından əməkdaşlıq edir. Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, fərqli dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Multikulturalizm Azərbaycanda geniş vüsət alır, inkişaf edir, respublika ictimaiyyəti, dini icmalar tərəfindən bu istiqamətə daim möhkəm dəstək verilir. Bu ideyalar ölkəmizin təhlükəsizliyi sahəsində də önəmli rol oynayır. Bunun nəticəsidir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2016-cı il Azərbaycanda "Multikulturalizm İli" elan olunub. Cəsarətlə deyə bilərik ki, hazırkı şəraitdə Azərbaycan Respublikası özünün multikulturalizm və tolerantlıq siyasəti, bu sahədə qazandığı nailiyyətlərə görə dünya dövlətlərinə, o cümlədən Qərb ölkələrinə nümunə hesab edilə bilər.

Respublikanın vətəndaşları hər bir sahədə – siyasətdə, iqtisadiyyatda, təhsildə, mədəni həyatda bir çalışır, böyük uğurlara imza atırlar. Xalqımızın birgə səyi, əməyi nəticəsində ölkəmiz gündən-günə inkişaf edir, daha da çiçəklənir.

Əlbəttə, bütün bunların əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş multikulturalizm və tolerantlıq siyasətinin, xalqımızın multikultural və tolerant ənənələrinin məntiqi nəticəsidir.

## ƏDƏBİYYAT


1. Azərbaycan Multikulturalizmi. Biblioqrafiya.B-2016.
2. Azərbaycan multikulturalizmi: Ali məktəblər üçün dərslik. – Bakı: BBMM, 2017. - 416 səh
3. Abdullayev Kamal. Azərbaycan multikulturaliziminin siyasi banisi.Azərbaycan2015.-1 may.-№92.-S.3.
4. Azərbaycanda dini və milli tolerantlıq .Azadlıq.- 2010.- 20 oktyabr.- 13
5. "Azərbaycan" qəzeti, 10 dekabr 1998-ci il "İslam sivilizasiyası Qafqazda" mövzusunda Beynəlxalq simpoziumda Azərbaycan Prezidenti Heydər Əliyevin çıxışı 9 dekabr 1998
6. Heydər Əliev və Azərbaanda din siyasəti:Gerçəkliklər və perspektivlər.Bakı 2007 399 s
7. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı.2002. ―Azərbaycan Universiteti‖ nəşriyyatı. 2002. 232 səh
8. Əliyev H. Dünya azərbaycanlılarının l qurultayında çıxış. ―Azərbaycan‖ qəzeti, 2001-ci il, 10 oktyabr.
9. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. (onuncu kitab) B., Azərnəşr, 2002, səh 135.
10. Əliyev V. Ümummilli lider Heydər Əliyevin milli siyasətində multikulturalizm faktoru-XXI əsrdə Azərbaycanı sivilizasiyalararası dialoq mərkəzinə aparan yol. ‘‘Heydər Əliyev və multikultural dəyərlər‖ mövzusunda keçirilən konfransın materialları, Bakı, Azərnəşr, 2016, 616 s.
11. Prezident İlham Əliyevin UNESCO Baş Konfransmın 38-ci sessiyasının Liderbr Forumunda çıxışı.www/president.az
12. Heydər Əliyev Siyasəti:Tolerantlıq.Bakı,Elm və təhsil 2015 səh 504
13. http://multikulturalizm.gov.az/post/1588/azerbaycan-multikulturalizmi-ve-heyder-eliyev.html
14. http://www.anl.az/down/meqale/zaman/2015/mart/427059.htm
15. https://qarabaginfo.az/gundem/13049-heydr-liyev-irsi-azrbaycanda-dovlt-din-munasibtlri.html#sel=3:1,3:5

# İSLAM BAXIŞINDA DİNLƏRARASI DİALOQUN MƏNƏVİ ƏSASLARI

***i.f.d. Əfzələddin Rəhimli***
rahimli80@mail.ru

## XÜLASƏ

Qloballaşma – mənfi cəhətləri ilə yanaşı, bəzi müsbət xüsusiyyətlərə də malikdir. Buna dinlərarası dialoqu misal göstərmək olar. Bu dialoq insanları dözümsüzlükdən tolerantlığa, qınamaqdan anlayışa, düşmənçilikdən humanizmə, rəqabətdən birliyə, ədavətdən barışığa və xaosdan əmin-amanlığa sövq edir. Dini ilahi həyat fəlsəfəsi və baxış tərzi kimi nəzərdən keçirsək, onun mahiyyətinin sevgi və anlayış əsaslı olmasına diqqət etsək, dinlərarası dialoqu onun mahiyyətinin tələbi olaraq anlamaq mümkündür. Bu dialoqun məqsədi ixtilafları kənara qoymaq, ortaq və müştərək məqamlarda razılaşmaq və mümkün olduğu qədər daha da yaxınlaşmaqdır.

İslam dini digər ilahi dinlərin davamçıları ilə münaqişə və çəkişmələrdən uzaq qalmağı prioritet görür. Qurani-Kərim dinlərarası dialoqun təəssübkeşlikdən uzaq elmi və humanist əsaslarla davam etdirilməsinin zəruriliyini vurğulayır. İslam dini səmavi dinlərin mənəvi kamilliyə gedən yolda eyni yolun yolçusu olduğunu vurğulayır. Onları, sanki bir atanın övladları sayır. Hamısının Allahın ailəsi olduğunu xatırladır. İslam dini səmavi dinlərin ardıcıllarının vahid və ortaq dəyərlərə sahib olduqlarına diqqət çəkir. Bu dində dinlərarası dialoqun təməl ideologiyasını sevgi və anlayış kimi humanist ideyalar təşkil edir. Belə nəticəyə gəlirik ki, əslində, düzgün baxış tərzinin və bəyənilmiş rəftarın özü elə ən səmimi dialoqdur. Həmçinin bu sahədə atılan ən humanist addımlardan biri də idarəçilik sistemində müxtəlif dinlərin davamçılarına qarşı göstərilən ədalətli davranışdır. Dinlərarası dialoqda elmi dialoq özünəməxsus əhəmiyyətə malikdir. Belə ki, müxtəlif dinlərin nümayəndələri arasında elm sahiblərinin bu sahədə həmkarlığı strateji əhəmiyyət daşıyır.

***Açar sözlər:*** *qloballaşma, dinlər, dialoq, İslam, mənəvi.*

# THE SPIRITUAL GROUNDS OF INTERRELIGIOUS DIALOGUE IN THE ISLAMIC WORLDVIEW

***PhD Afzaladdin Rahimli***

## ABSTRACT

Along with the disadvantages, globalization has some virtues. And interfaith dialogue is one of them. This dialogue causes people to replace intolerance with tolerance, condemnation with understanding, hostility with humanism, competition with unity, opposition with reconciliation, and chaos with peace. If we consider religion as a philosophy and a view of Divine life, paying attention to the fact that love and understanding underlie its essence, then we can understand the interfaith dialogue as a requirement of its

essence. The purpose of this dialogue is to put aside differences, come to an agreement on common issues and become as close as possible.

Islam considers it a priority to refrain from conflicts and discord with adepts of other divine religions. The Quran emphasizes the need to continue interreligious dialogue on a scientific and humanistic basis, avoiding the fanaticism. Islam stresses that the heavenly religions are the "guides" of the same path to spiritual perfection. It considers them children of the same father. It reminds us that everyone is part of the family of the Almighty. Islam draws attention to the fact that the followers of the heavenly religions have common values. In this religion, humanistic ideas such as love and understanding form the main ideology of interfaith dialogue. We come to the conclusion that in fact, the right view and a kind attitude are a sincere dialogue in themselves. Also, one of the most humane steps taken in this area is the fair treatment of followers of various religions in the government system. The scientific dialogue is of particular importance in the interreligious dialogue. Thus, cooperation in this area between representatives of different religions is of strategic importance.

***Keywords:*** *Globalization, Religions, Dialogue, Islam, Spiritual*

## ДУХОВНЫЕ ОСНОВЫ МЕЖРЕЛИГИОЗНОГО ДИАЛОГА В ИСЛАМСКОМ МИРОВОЗЗРЕНИИ

***д.ф. по теологии Афзаладдин Рагимли***

### РЕЗЮМЕ

Наряду с недостатками, глобализация имеет и некоторые положительные черты. Примером может служить межконфессиональный диалог. Этот диалог заставляет людей переходить от нетерпимости к толерантности, от осуждения к пониманию, от враждебности к гуманизму, от конкуренции к единству, от вражды к примирению и от хаоса к миру. Если рассматривать религию как философию и взгляд на Божественную жизнь, обращая внимание на то, что ее сущность основана на любви и понимании, то можно понять межконфессиональный диалог как требование ее сущности. Цель этого диалога – отложить в сторону разногласия, прийти к согласию по общим вопросам и стать как можно ближе.

Ислам считает приоритетом воздержание от конфликтов и раздоров с последователями других божественных религий. Коран подчеркивает необходимость продолжения межрелигиозного диалога на научной и гуманистической основе, далекой от фанатизма. Ислам отмечает, что небесные религии являются проводниками того же пути к духовному совершенству. Он считает их детьми одного отца. Он напоминает нам, что все являются частью семьи Всевышнего. Ислам обращает внимание на то, что последователи небесных религий имеют единые и общие ценности. В этой религии гуманистические идеи, такие как любовь и понимание, составляют основную идеологию межконфессионального диалога. Мы приходим к выводу, что на самом деле правильный взгляд и доброе отношение сами по себе являются искренним диалогом. Также одним из самых

гуманных шагов, предпринятых в этой области, является справедливое отношение к последователям различных религий в системе управления. Особое значение в межрелигиозном диалоге имеет научный диалог. Таким образом, стратегическое значение имеет сотрудничество в этой области между представителями различных религий.

***Ключевые слова:*** *глобализация, религии, диалог, ислам, духовный.*

**Giriş**

Qloballaşma nəticəsində dinlərarası dialoq üçün daha uyğun bir mühit formalaşmışdır. "Dinləra-rası dialoq" anlayışının, əslində, dünya üzərindəki dini müxtəlifliyin fərqində olunmasının bir nəticəsi kimi ortaya çıxdığını söyləmək mümkündür. Onun ən əhəmiyyətli faydası insanları dözümsüzlükdən tolerantlığa, qınamaqdan anlayışa, düşmənçilikdən humanizmə, rəqabətdən birliyə, ədavətdən barışığa və xaosdan əmin-amanlığa sövq etməsidir.

Əslində, dinlərarası dialoq hər bir dinin mənəvi mahiyyətinin tələbi olaraq ortaya qoyulmalıdır. Din həyat fəlsəfəsi və baxış tərzidir. İnancdan qaynaqlanan düşüncə formasının əmələ yansımasıdır. İnsan mənəviyyatının təməli və özəyini təşkil edən dini inancların dialoq meyilli olması onun mənəvi ruhunun çalarlarında mövcuddur. Pak mənəviyyatın mahiyyəti sevgi və anlayış əsaslıdır. Əsasında sevgi və anlayış dayanmışsa, deməli, dinlərarası dialoq nəinki ona zidd və yad deyil, əsl həqiqətdə onun təbiətinin tələbidir.

**İslam baxımından dinlərarası dialoqun mahiyyəti**

Dialoq səmavi dinlərin alim və tərəfdarlarının öz etiqadlarından üz döndərib, o biri dinə iman gətirməsi deyildir. Dinlərarası dialoqun hədəfi bir-birlərini vasitələrlə deyil, yaxından tanımaqdır. Vasitələrlə olan tanışlıqda şayiələr və yanlış bilgilər anlaşılmazlıqlara yol aça bilir. Bu dialoqun məqsədi, həmçinin ixtilafları kənara qoymaq, ortaq və müştərək məqamlarda razılaşmaq və mümkün olduğu qədər daha da yaxınlaşmaqdır.

***Birinci məqamda*** İslam dini digər ilahi dinlərin ardıcılları ilə münaqişə və çəkişmələrdən uzaq qalmağı prioritet görür. Bunun təkcə dinimizdə deyil, digər səmavi dinlərin müqəddəs kitablarında vurğulandığına işarə edir. Qurani-Kərimin məntiqinə əsasən, bütün ilahi dinlərdə insanlar arasında vəhdət və birliyi qorumaq, həmçinin təfriqədən uzaq qalmaq önəmli məsələlərdən biridir. Müqəddəs kitabımıza görə, Musa Tur dağına getdiyi zaman Samirinin hiyləsi ilə yəhudi qövmü yenidən bütpərəst olur. Harun onlara öyüd-nəsihətlər verib bununla kifayətlənir və fiziki olaraq maneə yaratmır. Həzrət Musa Tur dağından döndükdən sonra, ona nə üçün fiziki olaraq yəhudi qövmünün bütpərəst olmasına maneçilik törətmədiyini soruşduqda, Harunun cavabı belə olur: "Doğrusu, sənin "İsrailoğulları arasına ayrılıq saldın, sözümə baxmadın!" – deyəcəyindən qorxdum" ("Taha", 94).

Qurani-Kərimin məntiqindən belə anlayırıq ki, təfriqə və münaqişələr qorxuludur, təhlükəli nəticələrə malikdir, çünki pozucu və dağıdıcıdır. Mümkün qədər bundan uzaq qalmaq zəruridir.

Bu cavaba Musa qane olur və onunla razılaşır. Əslində, bu elə Həzrət Musanın ondan ayrıldığı zaman verdiyi göstərişə uyğun bir addım idi. O, Tur dağına gedərkən Haruna tapşırmışdı: "Sən tayfam içində mənim xəlifəm ol, (camaatı) islah etməyə çalış və (yer üzündə) fitnə-fəsad törədənlərin yolu ilə getmə!" ("Əraf", 142).

Deməli, münaqişə yaratmaq, yolunu azmışların qarşısında susmaqdan daha təhlükəlidir. Çünki bu, fitnəyə, fəsada səbəbdir. Məhz buna görə idi ki, Harun münaqişə və təfriqə yaratmağın fəsadlarını öncədən müşahidə etdiyi üçün fiziki olaraq onların qarşısında dayanmadı. Bu, müqəddəs kitabımızın vəhdətyönlü birinci mərhələdə qərarlaşan addımıdır. Yəni, ilk növbədə, münaqişədən uzaq durulmalıdır.

***İkinci məqamda*** Qurani-Kərim səmavi dinlərin ruhunun vahid çalarlara malik olduğuna diqqət çəkir, ixtilaflı məsələlər üzərində mərkəzləşməyin absurd olduğunu vurğulayır. Dinlərarası dialoqun təəssübkeşlikdən uzaq elmi və humanist əsaslarla davam etdirilməsinin zəruriliyini vurğulayır.

Qurani-Kərim yəhudilərlə xristianların bir-birlərinə tənə vuraraq, Allah yolundan uzaq və yanlış olduqlarını söyləmələrini sərt şəkildə tənqid edir, onlara müştərək məqamları nəzərə almaları tövsiyə edir: "Yəhudilər dedilər: "Xaçpərəstlər (dində düzgün və mötəbər) bir şeyə istinad etmirlər". Xaçpərəstlər də "Yəhudilər (dində düzgün və mötəbər) bir şeyə istinad etmirlər", – söylədilər. Halbuki onların hər ikisi kitab (Tövrat və İncil) oxuyur. (Kitab əhli olmayan və yazıb-oxumaq) bilməyənlər də onlar kimi danışdılar. Allah onların aralarındakı bu ixtilafın hökmünü Qiyamət Günü verəcəkdir!" ("Bəqərə", 113).

Qeyd olunduğu kimi, səmavi kitablar bəxş olunmuş iki dinin alimləri Tövrat və İncildə mövcud olan ortaq inancları görməzdən gələrək, qarşılıqlı şəkildə bir-birlərini ittiham edirlər. Əslində isə elm əhli və lider şəxslər təəssübkeşliyi kənara qoyub, müştərək məqamlara diqqət yönəldib, birlikdə həmrəylik ruhunda səmimi dialoqa girməlidirlər.

Burada başqa bir əhəmiyyətli nöqtə budur ki, ayədə alimlərin məlumatsız kütlə kimi kor-koranə davranmaları tənqid edilir və bunun yolverilməz olduğu vurğulanır.

Digər bir məsələ isə ayənin sonunda hər iki din nümayəndəsinin Allah-Taala tərəfindən danlandıqdan sonra, ciddi şəkildə təhdid edilməsidir. Sağlam dialoq və birlik yönündə addımlamadıqları təqdirdə, Qiyamət Günü hər iki tərəfin cəzalana biləcəyinin buyurulması da buna işarədir.

***Üçüncü məqamda*** İslam dini səmavi dinlərin mənəvi kamilliyə ucalan yolda eyni yolun yolçusu olduqlarını vurğulayır. Onları, sanki bir atanın övladları sayır. Hamısının Allahın ailəsi olduğunu xatırladır. Belə ki, Allah-Taalanın nəvazişinin onların hər birinə aid ediləcəyini bildirir. "Nəvaziş" dedikdə, behişt mükafatını nəzərdə tuturam. Ümumiyyətlə, çox əhəmiyyət daşıyan bir amildir ki, Qurani-Kərimin məntiqində qurtuluş və xilas təkcə hansısa səmavi dinin davamçılarına məxsus edilməyib. Əksinə, Quran bu təfəkkür tərzinin əleyhinə çıxır. Müqəddəs kitabımızda oxuyuruq: "(Yəhudilər və xaçpərəstlər) dedilər: "Cənnətə yəhudilərdən və xaçpərəstlərdən başqası girməyəcək!". Bu, ancaq onların xülyalarıdır. (Ya Rəsulum!) Onlara söylə: Əgər (bu sözü) doğru deyirsinizsə, dəlilinizi gətirin!" ("Bəqərə", 111).

Quran qurtuluş və nicatın səmavi dinlərin davamçılarının saleh və gözəl əməllərinə bağlı olduğu üzərində dayanır. Bu, İslam, yaxud yəhudi, xristian dini ilə məhdudlaşdırılmır. Buyurulur: "(Xeyr, onların dediyi kimi deyil), əksinə, yaxşı işlər görüb özlərini Allaha təslim edənlərin Rəbbi yanında mükafatı (əvəzi) vardır. Onların (axirətdə) heç bir qorxusu yoxdur və onlar qəm-qüssə görməzlər" ("Bəqərə", 112).

İslam dini digər səmavi dinlərin saleheməlli davamçılarını cənnət əhli sayır. Bu, qarşılıqlı sağlam dialoq və etibarın yaranması üçün diqqət çəkiləcək ən gözəl məqamdır. Quranda oxuyuruq: "İman gətirənlərdən (müsəlmanlardan), musəvi (yəhudi), isəvi (xristian) və sabiilərdən Allaha, axirət gününə (sədaqətlə) inanıb yaxşı iş görənlərin mükafatları Rəbbinin yanındadır. (Qiyamət günü) onların nə bir qorxusu olar, nə də onlar bir qəm-qüssə görərlər" ("Bəqərə", 62).

Yaxud buyurulur: "Şübhəsiz ki, iman gətirənlərdən, yəhudilərdən, sabiilərdən və xaçpərəstlərdən Allaha və axirət gününə inanıb yaxşı iş görənlərin heç bir qorxusu yoxdur və onlar qəm-qüssə də görməzlər!" ("Maidə", 69).

***Dördüncü məqam budur ki,*** İslam dini səmavi dinlərin ardıcıllarının vahid və ortaq dəyərlərə sahib olduqlarına diqqət çəkir. Bunlar – Allaha inam, tövhid inancı, peyğəmbərlərə və axirət gününə inam, əxlaqi dəyərlərdən ibarətdir.

Qurani-Kərimdə buyurulur: "(Ya Rəsulum!) söylə: "Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan (fərqi olmayan) bir kəlməyə tərəf gəlin! (O kəlmə budur: ) "Allahdan başqasına ibadət etməyək..." ("Ali-İmran", 54).

**İslam baxımından sağlam dialoqun əsasları**

"Dialoq" dedikdə məqsəd, əslində, ünsiyyətdir. Əgər ümumi tərif veriləcəksə, ünsiyyət, ən azı, iki şəxs arasında sözlə dialoq və ya şifahi olmayan mesajlar vasitəsilə məlumatın, duyğuların və düşüncələrin ötürülməsi prosesi, digər şəxsin və ya şəxslərin bu ötürülən məlumatla bağlı məna axtarmaq səyi kimi ifadə edilə bilər (Berger, C. R., & Calabrese, R. J. (1974). 1(2), pg.112).

Bunu nəzərdə alaraq dinlərarası dialoqu bir neçə sahəyə ayırmaq mümkündür:

**1. İdeoloji dialoq**

"İdeoloji dialoq" adlandırdığımız mövzu, əslində, dialoqun təməl ideologiyasıdır. İslamda dinlərarası dialoqun təməl ideologiyasını sevgi və anlayış kimi humanist ideyalar təşkil edir. Aləmlərin Rəbbinə olan sevgi bütün varlıqların fitrətində yer almışdır. Əslində, ilahi gözəllik bütün varlığın ona doğru hərəkətinə səbəb olur. İlahi filosofların fikrincə, kainatdakı bütün hərəkətlər, hətta təbii aləmin bütün vücudunu vahid bir hərəkətə çevirən də Uca Yaradanın gözəlliyinə olan məhəbbətin və sevginin məhsuludur. İnsan fitri olaraq gözəllik sevgisinə sahibdir. Bu ona məhz sonsuz gözəlliyə, Allah-Taalaya olan eşqini xatırladır. Bütün sevgilərdə, sanki, bir növ, əsl gözəlliyin sahibinə olan eşq axtarılır.

Doğrusu, Allahın yaratdıqlarına olan sevgisinin inikası yaradılmışarın Ona olan sevgisidir. Qurani-Kərim və hədislərdə Allahın sevgisini anlatmaq üçün "hubb," "rəhmət," "lütf" və "rəfət" köklərindən gələn feil və sifətlər istifadə edilmişdir.

Əslində, Allahın qullarına olan sevgisi, istər zaman baxımından, istərsə də əsliyyət aspektindən bəndələrinin Allaha olan sevgisini qabaqlayır. Allah bəndələrinə olan sevgisi nəticəsində onları yaratmış, dünyaya göndərmiş və görkəmli məxluqlar etmişdir. Allah-Taala insanı başqa varlıqlardan üstün etmək üçün ona üç nemət vermişdir:

1. İlahi sifətlər (gözəl xüsusiyyətlər).
2. İlahi əmanət və ya öhdəlik (məsuliyyət hissi, laqeyd olmamaq).
3. İlahi təmsilçilik (inkişaf və tərəqqi).

Sözügedən hər üç nemətin təməlində isə sevgi dayanır. İslam sevgiyə ən çox əhəmiyyət verən dindir. Necə ki, Həzrət Məhəmməd (s) buyurur: "Din sevgidir, sevgi də elə dindir" (Məclisi, 1403. h.q. 66\ 238).

Əslində, İslam sevgi dinidir. Buna görə İslam sivilizasiyası sevgi sivilizasiyasıdır. Müsəlman cəmiyyəti də bir sevgi cəmiyyətidir. Həzrət Cəfər Sadiq (ə) ondan "Dində sevgi varmı?" – deyə soruşulduqda buyurur: "Din sevgidən başqa bir şeydirmi?" (Məclisi, 1403. h.q. 27/95; İbn Babəveyh. 1414. h.q. 21\74).

Elə buna görədir ki, İslam sevgisiz imanı qəbul etmir. Bütün əməllərin təməlində Allah sevgisi və onun tələbi olaraq varlığa – insan və digər canlılara olan) sevgi dayanır. Dinimizdə Allah-insan, insan-insan və insan-digər canlılarla münasibətlər sevgiyə söykənməklə qurulmuşdur. Bu səbəbdən də, insanı bütün davranışlarında və münasibətlərində sevgi və mərhəməti əks etdirməyə təşviq etmişdir. Bir sözlə,

bəndə Yaradanı sevir. Yaradana görə Onun yaratdıqlarını da sevir. Allah bəndələrinin sevilməsindən məmnundur. Bunun nəticəsində sevgi cəmiyyəti və sevgi sivilizasiyası yaranır.

"Rəhmət" kəlməsi də sevgini ifadə edir. Rəhmət – sevginin əməl üzərinə əks olunmuş, lütf və ehsana dönmüş halıdır. Rəhmət – sevgi və xidmətin birgə məhsulu, lütf və ehsandır. Allah-Taala Rəhman və Rəhimdir, insanlara sevgisi daim bununla təcəlli edir. Siz diqqət edin ki, dini göstərişlər tam bunun üzərində qurulub. Qurani-Kərim surələrinin "Rəhimli və mərhəmətli Allahın adı ilə" başlaması da elə bu ideya üzərində köklənib. Bütün işlərinizin "Bismilləhir-Rəhmanir-Rahim ilə başlayın", – deyə buyurulması da Allahı sevən şəxsin bütün əməllərini insanlığa olan sevgi ilə başlamasını təmin etmək üçündür. Hər bir əməlini "Bismilləhir-Rəhmanir-Rahim" ilə başlayan şəxs sevgi və rəhmətlə addım atmalıdır. Məhz buna görədir ki, "Bismillər-Rəhmanir-Rahim demədən görülən bütün işlər yarımçıq və naqis sayılır", – deyə buyurulur. Sevgisiz, mərhəmətsiz görülən işlər, atılan addımlar kamil deyil, tamamlanmamış və süsttəməlli sayılır.

Allahın Peyğəmbəri (s) "Allah-Taala göyləri və yeri yaratdığı gün hər biri yerlə-göy arasındakı məsafə qədər olan yüz rəhmət yaratdı. Sonra rəhmətlərdən birini Yer üzünə endirdi və həmin rəhmətin səbəbinə yaradılmışlar bir-birinə rəhim edir, ana öz balasına məhəbbət bəsləyir, quşlar və heyvanlar su içir, insanlar bir yerdə yaşayırlar" (Hindi. 1397. h.q. 124).

Əslində, dinimiz insanın dəyərli olduğunu və əsl inancın əməllərdə təzahürünü önə çəkir. Necə ki, Peyğəmbərimiz (s) buyurur: "Sizin Allahınız birdir və atanız (Həzrət Adəm) da birdir. Hamınız Adəmdən və o da torpaqdan yaranıb" (İbn Şöbə. 1404. h.q. 29).

Başqa bir hədisdə isə qeyd edir: "İnsanların hamısını Allah yaradır və Onun ailəsi sayılır. Allah dərgahında onların ən sevimlisi isə başqalarına ən faydalı olanıdır" (Kuleyni. 1401. h.q. 2/164).

İnsanlara faydalı olmaq üçün isə ilk növbədə, onları sevmək lazımdır. Sevdiyimiz şəxsə qarşı anlayışlı ola bilərik. Onunla uyğun şəkildə dialoq apara və ünsiyyət qura bilərik.

## 2. Fərdi ünsiyyət dialoqu

Yuxarıda qeyd edilənlərdən aydın olur ki, sevgi və empatiya İslam dininin dinlərarası dialoqa verdiyi önəm, onun təbiətinin və mahiyyətinin tələbidir. Bunu aydın şəkildə İslam dininin görkəmli şəxsiyyətlərinin nümunəvi rəftarlarında da müşahidə edə bilərik. İlk növbədə, baxış tərzi sağlam və rəftar gözəl olmalıdır ki, sonrakı mərhələdə dialoqa zəmin hazırlansın. Belə nəticəyə gəlirik ki, əslində, düzgün baxış tərzinin və bəyənilmiş rəftarın özü elə ən səmimi dialoqdur. Qarşı tərəflə dialoq təkcə söz və kəlmələrin birləşməsindən əmələ gələn cümlələrlə qurulmur. Burada bir neçə nümunəyə işarə edək.

– Cabir ibn Abdullah deyir: "Yanımızdan bir cənazə aparırdılar. Həzrət Peyğəmbər (s) ehtiram əlaməti olaraq ayağa qalxdı. Biz də belə etdik, amma soruşduq: "Ey Allahın Peyğəmbəri, bu, yəhudi cənazəsidir. Nə üçün ayağa qalxdınız?". Buyurdu: "İnsan deyilmi? Nə zaman cənazə görsən, hörmət əlaməti olaraq ayağa qalx. Meyitə hansı dinə, millətə mənsubluğundan asılı olmayaraq hər kəs hörmət etməlidir, onların hesabı Allahın yanındadır (bizim deyil)" (Buxari, 1401: 2/87; təsdiqləyən digər mənbələr: Məclisi, 1403. h.q. 21\109; Təbərani. 1399. h.q. 3\ 83; Qurtubi. 1405. h.q. 5\ 3487).

– Həzrət Əli (ə) yəhudi qadının xalxal və zinət əşyalarını zorla mənimsəyən şəxslərə müsəlmanların laqeyd qalmasına hiddətlənərək buyurmuşdu: "Əgər müsəlman kişi bu hadisəni eşidib qəmqüssədən ölərsə, ona nöqsan deyil. Mənə görə isə ölüm bundan daha layiqlidir. Nə qədər də heyrətli və təəccüblüdür!" (Şərif Rəzi. 1378. h.ş. xütbə 27).

Bu nümunələr insanlığa sevgi və şəfqətdolu ülgülərdir. Doğrusu, sevgi bağları, mərhəmət, etibar və güvən olduğu yerdə dialoq artıq baş tutmuş sayılır.

### 3. İdarəçilik sistemindəki dialoq

Bu sahədə atılan ən humanist addımlardan biri idarəçilik sistemində müxtəlif dinlərin davamçılarına qarşı göstərilən ədalətli davranışdır. Onların hüquqlarına riayət etmək və inanclarına hörmətlə davranmaqdır.

– Həzrət Məhəmməd (s) hicrətin ikinci ilinin məhərrəm ayında Məscidun-Nəbidə xaçpərəstlərlə müsəlmanlar arasındakı əlaqələrin tənzimlənməsi haqqında fərman tərtib etdi. Həzrət Əli (ə) onu qələmə almışdır. Sənəd dəri üzərində kufi xətlə yazılıb və Peyğəmbərin əl izi ilə təsdiqlənib. Tarixçilər bu əhdnamənin oxşarının Sinay yarımadasında yerləşən xristian məbədi və oranın rahibləri ilə bağlanmasını da qeyd etmişlər. Belə ki, Sinaydakı monastırın nümayəndələri 620-ci ildə Məhəmməd peyğəmbərlə görüşərək, ondan toxunulmazıq və təhlükəsizliklə bağlı fərman tərtib etməsini xahiş ediblər.

Həmin yazıda deyilir: "Rəhimli və mərhəmətli Allahın adı ilə! Allahın elçisi Məhəmməd tərəfindən yazılan bu fərman buna görə tərtib edilir ki, onun davamçıları bu sahədə özlərinə bəhanə axtarmasınlar. Mən bu fərmanı Şərqin və Qərbin, yaxında, uzaq torpaqlarda yaşayan xristianlar üçün yazdırdım. Bu sənəd hazırda yaşayan, onlardan sonra yaşayacaq, istər ərəb olsun, istərsə də əcəm, bizim şəxsən tanıdığımız və tanımadığımız xristianlar üçündür. Bu fərmanı pozan, qarşı çıxan şəxs Allahın dinini məsxərəyə qoymuşdur və o, istər hökmdar olsun, istər adi müsəlman, Allahla əhdini pozmuş sayılır, vədinə xilaf çıxmış sayılır. Bununla da Allahın qəzəbinə tuş gələcək. Mən rahibləri düşmənləri tərəfindən hər hansı təqibdən, əzabdan və təqibdən mühafizə edirəm. Onların özlərini və mülklərini müdafiə etmək hüquqları var və onları kimsə zorla məcbur edə bilməz. Heç bir yepiskop öz yeparxiyasından, keşiş məbədindən qovulmayacaq, zəvvarlar öz sitayiş yollarında əngəllə qarşılaşmayacaqlar. Heç bir kilsə və digər xristian məbədləri, xristianların ticarət mərkəzləri dağıdılmamalı, qarətə və məhvə məruz qalmayacaq. Kilsə və məbəddən heç bir mal mənimsənərək məscidə və müsəlmanların evlərinə daxil olmayacaqdır. Bu qadağanı pozan istənilən müsəlman Allaha və onun Peyğəmbərinə qarşı çıxmış sayılır. Rahiblər və yepiskoplar üçün vergi və ya rüsum yoxdur. Harada olurlarsa-olsunlar, mən onları qoruyacağam. Meşədə, çay kənarında, Qərbdə, Şərqdə, Şimalda, Cənubda yaşamasından asılı olmayaraq, yepiskop və rahiblər vergidən azaddırlar. Bundan sonra onlar mənim bu vədimin mühafizəsindədirlər. Dağlarda və mübarək məkanlarda ibadət edənlər də bu qəbildəndirlər. Onların əkin sahələrindən, məhsullarından xərac və zəkat almayın... Onlarla yaxşı rəftar edin... Onlara zəruri olan bütün yardım ediləcək. Onlar hərbi mükəlləfiyyətə məcbur deyillər, bundan sonra müsəlmanların müdafiəsi altında yaşayacaqlar. Harada məskunlaşmasından asılı olmayaraq, narahatlıqdan və nigaranlıqdan uzaq, əmin-amanlı və mehriban mühitdə qərarlaşacaqlar. Hər kim Allahın əhdi ilə müxalif olarsa və ona zidd hərəkət edərsə, Allahın əhdi ilə müxalif olmuş və Allah Rəsuluna qarşı çıxmışdır. Bu sənədin göstərişlərini Qiyamət Gününə qədər heç kim poza bilməz. Allahın elçisi Məhəmməd!" (İbn Hişam, 1904 h.1. 2/902).

Sənəddə şahidlik edən səhabələrin adları da qeyd olunub: Əli ibn Əbu Talib, Əbu Bəkr ibn Əbu Kahaf, Ömər ibn Xəttab, Osman ibn Əffan, Əbül Vərda, Abdullah ibn Məsud, Abbas ibn Əbdül Mütəllib, Fədl ibn Abbas, Zübeyr ibn Avam, Təlhə ibn Abdullah, Səid ibn Maaz, Səid ibn Übeydə, Sabit ibn Kays, Zeyd ibn Sabit, Əbu Hənifə ibn Anin, Həşim ibn Übeydə, Haris ibn Sabit, Əbdüləzim ibn Həsən, Müəzzəl ibn Qüreyş, Abdullah ibn Anry, Əmir ibn Bəşir və başqaları.

Sultan Səlim 1517-ci ildə Misirə daxil olan zaman bu yazının əslini özü ilə İstanbula gətirmişdir. Hazırda orada muzeydə qorunur.

– Həzrət Əli (ə) buyurur: "And olsun Allaha, əgər məhkəmə kürsüsündə otursam, Tövratın davamçıları arasında onların Tövratları, İncil davamçılarına İncil, Zəbur davamçılarına Zəbur və Quran davamçılarına isə Quran əsasında hökm çıxararam..." (Mufid. 1414 h.q. 1/35).

Sözsüz ki, bunu idarəçilik sistemində başqa dinlərin davamçılarının inanclarına qoyulan ən təqdirəlayiq və ədalətli yanaşma adlandırmaq olar.

– İslam xilafətində yaşayan qeyri-müsəlmanların malı-canı və iffəti də müsəlmanlar kimi hifz olunmuşdur. Həzrət Əlinin (ə) Misirə rəhbər təyin etdiyi Malik Əştərə yazdığı "İnsanlarla mehriban davran! Onlar sənin ya dində qardaşın, ya insaniyyətdə qardaşındır!" – kəlamı buna açıq-aşkar sübutdur (Şərif Rəzi. 1378. h.ş. məktub 53).

## 4. Elmi dialoq

Dinlərarası dialoqda elmi dialoq özünəməxsus əhəmiyyətə malikdir. Belə ki, müxtəlif dinlərin nümayəndələri arasında elm sahiblərinin bu sahədə həmkarlığı strateji əhəmiyyət daşıyır. Qeyd edək ki, İslam baxımından elmi dialoqun özünəməxsus şərtləri mövcuddur ki, onların bəzilərinə işarə edirik:

### *a) Doğmalıq*

İslam dini elmi müzakirələrdə, ilk növbədə, qarşı tərəfə yad münasibət bəsləməməyi və ona qucaq açmağı tövsiyə edir. Buna ən gözəl ülgü Həzrət Peyğəmbərimizin (s) xaçpərəstlərlə rəftarıdır. Belə ki, bir zamanlar Nəcran məsihilərindən bir qrup nümayəndə Allahın elçisi (s) ilə dini-elmi müzakirə üçün Mədinəyə gəldi. Onlar rahat şəkildə Məscidun-Nəbiyə daxil olub əllərindəki zəngləri çaldılar, sonra ibadətlə məşğul oldular. Müsəlmanlar məscidə qızıl xaçlarla daxil olan və zəng çalan xristianların ibadətlə məşğul olmasına heyrətlənib, onlara etiraz etmək istədikdə Peyğəmbər (s) buna icazə vermədi və buyurdu: "Onları rahat buraxın, hər qövmün öz ibadət tərzi və adəti var". Xristianlar da maneəsiz şəkildə məsciddə öz ibadətlərini icra etdilər (Şafei. 1427 h.q. 3/239).

Qurani-Kərim insanlarla gözəl danışmağı əmr edir və bu barədə ibrətli məsəllər çəkir:

"İnsanlarla xoş danışın!" ("Bəqərə", 83).

"Allahın necə bir məsəl çəkdiyini görmürsənmi? Xoş (pak) bir söz kökü yerdə möhkəm olub, budaqları göyə ucalan gözəl bir ağac kimidir. O (ağac) Rəbbinin izni ilə bəhrəsini hər vaxt verər. Allah insanlar üçün belə misallar çəkir ki, düşünüb ibrət alsınlar" ("İbrahim", 24-25).

"(Ya Rəsulum!) Onlarla ən gözəl surətdə mücadilə (cədəl üslubu ilə müzakirə) et" ("Nəhl", 125).

### *b) Məntiq əsaslı olmaq*

İslam dininin ən üstün cəhətlərindən biri də arqument və məntiqə əsaslanmasıdır. Dinimiz hər bir mövzuda söhbət açarkən, onu möhkəm dəlillər və sübutlarla bəyan etmişdir. Qurani-Kərimin çoxlu ayələrində müxtəlif səthlərdə və cürbəcür mövzularda məntiqi arqumentlər, elmi sübutlardan söhbət açılır. Belə ki, müqəddəs kitabımız daim insanları ağıl və məntiqə dəvət edir, özü də dəlil-sübut və məntiq əsasında hökm edir. Qurani-Kərimdə bu barədə çoxsaylı ayələr mövcuddur:

"(Ya Rəsulum!) Onlara söylə: "Əgər (bu sözü) doğru deyirsinizsə, dəlilinizi gətirin!" ("Bəqərə", 111).

"(Ya Rəsulum!) De: (Etdiyiniz əməlin düzgünlüyünü sübut edən) dəlilinizi gətirin" ("Ənbiya", 24).

Dinimiz məntiqi dəlil-sübutlara o qədər əhəmiyyət verir ki, hətta Qiyamət Günü belə, Allah-Taala bəndələrindən etiqadlarını və əməllərini məntiqlə əsaslandırmasını tələb edəcəkdir. Bunun mənası isə belədir: bütün etiqadların və rəftarların kökünü məntiq və arqumentlər təşkil edir. Əgər belə olmasaydı, inanc və əməllərin sorğu-sualı zamanı məntiqi dəlil-sübut tələb edilməzdi.

"(Qiyamət Günü) tutarlı dəlilinizi gətirin!" – deyəcəyik. Onlar haqqın yalnız Allaha məxsus olduğunu biləcəklər" ("Qəsəs", 75).

Deməli, dialoq məntiqlə bəyan edilməli, dəlillərə əsaslanmalıdır. Necə ki, İslam Peyğəmbəri (s) Allah adından söylədiyi bütün kəlamların məntiqli və dəlil-sübuta malik olduğunu buyurur: "De: Mən Rəbbimdən açıq-aydın bir dəlilə istinad edirəm" ("Ənam", 57).

Dolğun və dəqiq məntiqi arqumentlərə, dəlillərə əsaslanan hər bir kəlam onun bihudə və puç olmadığından xəbər verir, ali hədəfə və nəticəyə malik olduğunu çatdırır. Dialoq edən şəxs bilməlidir ki, insanlara hədə-qorxu gəlmək, danlamaq mənasızdır. Şübhələr varsa, deməli, məntiqi cavabları da mövcuddur. Bəşəriyyətə təqdim olunan əbədi və kamil din bunları məntiqi əsaslarla cavablandırmağa qadirdir.

***c) Təmkinli və aram olmaq***

Dialoqun bəyanı təmkinli və aram olmalıdır. Söhbət edən şəxs emosiyalarını cilovlamağı bacarmalıdır. Şəxsin dini hissləri və təəssübü hissiyyatdolu diskussiyaya səbəb olmamalıdır. Qurani-Kərimdə Həzrət Musaya (ə) buyurulan gözəl bir ibrət vardır. Ona tanrılıq iddiasında olan və zülmünün həddi-hüdudu olmayan Fironu belə dinə dəvət etməsi göndərildikdə, mehribanlıqla və aram şəkildə söhbət etməsi göstəriş verildi: "Onunla yumşaq danışın. Bəlkə öyüd-nəsihəti qəbul etsin, yaxud (Rəbbindən) qorxsun!" ("Taha", 43-44).

Müzakirə əxlaqi normalara tam şəkildə cavab verməlidir. Əsəblərini cilovlamağı bacarmayan və emosiyalarına məğlub olan şəxslərin elmi səlahiyyəti nə qədər yüksək həddə olsa da, müzakirələrdən uzaq durmalıdır. Belə müzakirələrin hörmətsizlik, təhdid, təzyiq və digər xoşagəlməz rəftarlarla dolu olması qaçılmazdır.

Dinimiz buyurur ki, qarşı tərəfdə kimin hansı əqidəyə qulluq etməsindən asılı olmayaraq, elmi-dini müzakirələr zamanı yüksək dözüm, əxlaqi gözəlliklər nümayiş etdirməliyik. Münazirə zamanı məhəbbət, hörmət, insaf, ədalət və digər ali-əxlaqi keyfiyyətlərə riayət edilməlidir. Həmçinin elmi-dini müzakirə zamanı müxalif tərəfin azad şəkildə öz sözünü bəyan etməsinə tam şərait yaradılmalıdır.

***d) Şəffaf olmaq***

Dialoq şəffaf olmalıdır. Allah-Taala dinini insanlara asan şəkildə bəyan edir ki, onlar daha rahat şəkildə bəhrələnsinlər. Peyğəmbərimiz (ə) insanlarla asan və sadə şəkildə danışır ki, onu gözəl anlaya bilsinlər. Müqəddəs kitabımızın bünövrəsi məhz bunun üzərində qurulmuşdur. Qurani-Kərimdə bu barədə çoxsaylı ayələr mövcuddur:

"Biz onu (Quranı) ümmətin üçün ancaq sənin dilinlə asanlaşdırdıq ki, anlayıb öyüd-nəsihət qəbul etsinlər!" ("Duxan", 58).

"(Musa) dedi: "Ey Rəbbim! Köksümü açıb genişlət; işimi yüngülləşdir; dilimdəki düyünü aç (pəltəkliyimi götür) ki, sözümü yaxşı anlasınlar!" ("Taha", 25-28).

"Elə bəlağətli danış ki, qəlblərinə yatsın" ("Nisa", 63).

Bəyanın bəlağətli olması budur ki, danışılması səlis, başa düşülməsi isə asan olsun (Qürərül-hikəm, hədis 1881). Xüsusi nəzm-intizama malik olsun, faydalı mətləbləri özündə cəmləsin, aydın şəkildə bəyan

etsin. Sözün gözəlliyi, dolğun mənaları eşidənləri özünə cəzb etsin. Bəlağətdə birbaşa fayda, füsunkarlıq, gözəllik qərarlaşmışdır.

***e) Təəssübkeşlikdən uzaq və sədaqətli olmaq***

Əgər müzakirədən əvvəl müqabilinizdəki şəxsin haqq sözlərini, məntiqi dəlillərini qəbul etməməyi qarşınıza məqsəd qoymusunuzsa, bu müzakirəni başlamamışdan öncə bitirin. Bu dialoqda sədaqət yoxdur. Bu, dini təəssüb olsa belə, ifrat və radikallıq yaratdığı üçün münaqişələr və mübahisələr doğurduğuna görə, artıq şeytanın vəsvəsələrinə xidmət etmiş sayılacaqdır.

"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz söyləyin!" ("Əhzab", 70).

**Nəticə**

Qeyd edilənlərdən belə nəticəyə gəlmək olar ki, dinlərarası dialoq dünyada sülhün, sabitliyin, mədəni inkişafın və sağlam sosial əlaqələrin əsaslarından biri hesab edilir. Onu əldə etmək üçün bir sıra ideoloji amillərə və etik qaydalara riayət etmək lazımdırsa. Əslində, buna daha keyfiyyətli şəkildə nail olmaq üçün ona maneçilik yaradan amilləri də nəzərdən qaçırmaq lazım deyildir. Buna görə də həmin amillərlə yanaşı və buna paralel olaraq, dinlərarası qarşıdurmaların səbəblərini araşdırmaq gərəkdir. Müxtəlif dinlərin davamçıları arasında tarixboyu qarşıdurmalar yaranmışdır. Bunun əsasında bir neçə amil dayanır:

***Məlumatsızlıq.*** Diqqətlə araşdırdıqda, dinlərarası dialoqdan uzaq qalmağın kökündə kifayət qədər qarşılıqlı tanışlığın, agahlığın və məlumatın olmamasının dayandığını görürük. Bütün anlaşılmazlıqlar da buradan vücuda gəlir. Həzrət Əlinin (ə) buyurduğu kimi, "İnsanlar bilmədikləri, anlamadıqları hər bir şeyin düşmənidir". Cəhalət küt bıçaq kimidir, kəsə bilmədikcə insan övladı inadkarlıq edər, kəsmək üçün əlləşib-vuruşar. Tanımadığı bir şeyi özünə təhlükə görər, mübarizə aparar, onunla dialoqdan qaçar.

***Şayiələr.*** Bu sahədə şayiələrin də rolu böyükdür. Təbii ki, kimisə kiminsə gözündə bədnam etsən, ona qarşı düşmən, kinli olar, bilib-bilmədən onu özünə və başqalarına təhlükə görər. Onun da tərkibində cəhalət və məlumatsızlıq dayanır. Qaranlığa olan qorxumuzun səbəbi də elə budur. Nə baş verəcəyindən xəbərsiz olduğumuz üçün zülmətdən qorxuruq.

***Dini komfort sahəsi.*** Dinlərarası dialoqda maneələrdən bir də dini komfort sahəsindən kənara çıxa bilməməkdir. İnsan bildiyi və vərdiş etdiklərinin xaricinə çıxmağa alışmadığı üçün buna müsbət yanaşmır. Burada iki amil önəm daşıyır:

– birinci amil; insan zehni yorulur və yeni məsuliyyətlər qəbul etmək istəmir. Empatiya qarşı tərəfi anlamaqdır. Onu anlamaq isə səy və zəhmət tələb edir. Bəzi insanlar bunun üçün çalışmırlar. Onlar üçün öz təfəkkürlərini ətraflarına hördükləri hasarın daxilində "həbs edib qorumaq" daha asandır;

– ikinci amil; etibar və güvən itir. Əslində, bunu əldə etmək üçün sadəcə, gözəl düşünmək və pozitiv baxışın olması kifayətdir. Ən azından, insan həyatda təcrübə etdiyi bir çox uğurlara göstərdiyi səyləri nəzərdə alıb, dinlərarası dialoq üçün də addım atmalıdır.

***Mənfəətlər.*** Bəzi şəxslərin mənfəətləri dinlərarası dialoqun varlığı ilə toqquşa bilir. Belə bir münbit şəraitin yaranması iqtisadi-siyasi-ictimai və digər sahələrdə onların görüşləri ilə ziddiyyət təşkil etdikdə, bu şəxslər hansı yolla olur-olsun dinlərarası yaxınlaşmanın və anlaşmanın əleyhinə çıxış edə bilirlər. Hələ çox qədim zamanlarda bu sahədə ciddi sui-istifadələr də olmuşdur.

***Eqo savaşları.*** Dinlərarası dialoqun ən böyük maneəsi bəlkə də elə eqoizmdir. Belə bir məqamda müəyyən tərəfin, bəzən də hər iki görüş sahibinin təkəbbürü nəticəsində lazım olan yaxınlıq və səmimiyyət

əldə edilmir. Onlar ya bir masa arxasında əyləşə bilmirlər, yaxud əyləşdikdə belə, fiziki cəhətdən yaxın məsafədə olsalar da, mənəvi baxımdan bir-birlərinə çox yaddırlar.

Sözügedən maneələri diqqətdə saxlayaraq, dinlərarası dialoqa öz töhfəmizi verə bilərik.

**ƏDƏBİYYAT**


Qurani-Kərim

Berger, C. R., & Calabrese, R. J. (1974), Some explorations in initial interaction and beyond: Toward a developmental theory of interpersonal communication. Human communication research, 1(2), pg.112

Əbulfərəc Nuruddin Şafei, (1427 h.q.), Sirətul-hələbiyyə, Darül-kukubil-elmiyyə, Beyrut, Lobnan

Əbu Abdullah Bağdadi Şeyx Mufid, (1414 h. q.), Əl-İrşad, Darul-Mufid, 420

Əli Müttəqi ibn Hisamuddin Hindi, (1397 h.q.), Kənzül-ümmal fi sünnətil-əqval vəl-əfaal, təshih: Səfvətüs-Səqqa, Beyrut, Məktəbətüt-türasil-islami, birinci çap.

Həsən ibn Əli Hərrani(İbn Şöbə), (1404 h.q.), Tuhəfül-üqul ən Ali-Rəsul, tədqiq: Əli Əkbər Qəffari, Qum, Nəşrül-islami müəssisəsi, ikinci çap.

İbn Hişam, Əbdülməlik, (1409 h.q.), “Əs-Sirətun-Nəbəviyyə”, Beyrut, Darul-kitabul-ərəbi.

Məhəmməd ibn Hüseyn Musəvi (Şərif Rəzi), (1378 h.q.), Nəhcül-bəlağə, mütərcim: Seyyid Cəfər Şəhidi, Tehran, dördüncü çap.

Məhəmmədbaqir ibn Məhəmmədtəqi Məclisi (Əllamə Məclisi), (1403 h.q.), Biharül-ənvar, Beyrut, Vəfa müəssisəsi, ikinci çap.

Məhəmməd ibn Əli ibn Babəveyh Qummi, (1414 h.q.), Xisal, Qum, Nəşrül-islami müəssisəsi, dördüncü çap.

Məhəmməd ibnYəqub Kuleyni Razi, (1401 h.q.), Əl-Kafi, tədqiq: Əli Əkbər Qəffari, Beyrut, Darüs-səb və Darüt-təarüf, dördüncü çap.

Məhəmməd ibn İsmayıl Buxari, (1410 h.q.), Səhihi-Buxari, tədqiq: Mustafa Dib əl-Bəğa, Beyrut, Dari-ibn Kəsir, dördüncü çap.

Məhəmməd ibn Əhçəd Ənsari Qurtubi, (1405 h.q.), Təfsiri-Qurtubi (Cameüil-əhkamil-Quran), tədqiq: Məhəmməd ibn Əbdür-rəhman əl-Mərəşili, Beyrut, Daru-ehyait-turasil-ərəbi, ikinci çap.

Süleyman ibn Əhməd Ləxmi Təbərani, (1399 h.q.), Əl-möcəmül-kəbir, tədqiq: Həmdi Əbdül-məcid Sələfi, Beyrut, Darü-ehyaüt-türasil-ərəbi, ikinci çap.

# FRANSADA DÖVLƏT–DİN MÜNASİBƏTLƏRİNİN TARİXİ

***Şəfa Əbdürrəhimova,***
Azərbaycan Dillər Universiteti Regionşünaslıq kafedrasının baş müəllimi,
Azərbaycan Milli Elmlər Akademiyası A.A.Bakıxanov adına
Tarix İnstitutunun dissertantı
chafouniya85@yahoo.fr

## XÜLASƏ

Məqalədə dünyəvi dövlət kimi tanınan Fransada dinin, xüsusilə papa hakimiyyətinin tarixin müxtəlif dövrlərində dövlətin idarə edilməsinə təsirindən bəhs olunur. Fransa tarixinə nəzər saldıqda, dövlət və din münasibətlərinin mürəkkəb və qarışıq bir mərhələ keçdiyinin şahidi olarıq. Ənənəvi katolik dövləti olan Fransada dövlət–din münasibətləri Fransa Kralı I Xlodvikin hakimiyyəti illərindən müasir dövrümüzədək uzun bir dövr keçmişdir. Məqalədə haqqında bəhs olunan hadisələr – Fransa ərazisində Xristianlıq dininin dövlət səviyyəsində qəbul olunmasından 1905-ci il qanunu ilə dinin dövlətdən rəsmi şəkildə ayrılmasına qədərki dövrü əhatə edir. Yazıda Xristianlığın katolik qolunun üstünlük təşkil etdiyi Fransada qeyri-katoliklərə qarşı hakimiyyətin amansız siyasətindən, tarixə "Müqəddəs Varfolomey gecəsi" kimi düşmüş protestantların kütləvi qırğınından, həmçinin onlara qarşı dövlət siyasətinin XVI əsrin sonlarına doğru yumşaldıldığından, lakin bu siyasətin o qədər də uzun çəkmədiyindən danışılır.

Ümumiyyətlə, dünya dinləri arasında Xristianlığın katolik qolu, xüsusilə də papalar dövlətlərin siyasətlərinə müdaxilə etməyə meyilli olmuş, həmin dövrün ən nüfuzlu krallarının rəsmi hakimiyyətlərinin tanınmasında söz sahibi olmuşlar. Təsadüfi deyil ki, istər Böyük Karlın, istərsə də Napoleon Bonapartın imperator elan olunmasını Roma papası təsdiq etmiş və onlara imperator tacını məhz o təqdim etmişdir. Qeyd edək ki, papa hakimiyyəti heç də həmişə bütün krallar tərəfindən rəğbətlə qarşılanmamışdır. Fransa Kralı IV Gözəl Filip 1306-cı il sazişi ilə Roma papası VIII Bonifasinin mərkəzi hakimiyyətə qarışmasına son qoymuş və 1309-cu ildə onun hakimiyyətini Avinyon şəhəri ilə məhdudlaşdırmışdı. Papalar 70 il ərzində həmin şəhərdə məhdud hakimiyyətlərini davam etdirmişlər.

Nəhayət, 1905-ci ildə Fransada din və dövlət arasında münasibətlər kəskin şəkildə dəyişmişdir. Dövlət 1905-ci il 9 dekabr qanunu ilə artıq heç bir dinin xüsusi olaraq tanınmasına və yayılmasına vəsait ayırmır.

***Açar sözlər:*** *Fransa, din, dövlət, hakimiyyət, Roma papası.*

## THE HISTORY OF STATE-RELIGIOUS RELATIONS IN FRANCE

***Shafa Abdurrahimova***

## ABSTRACT

The article examines the influence of religion, in particular the Vatican, on the governance in France, known as the secular state, in different periods of history. Looking back at the history of France, we see that the relations between the state and religion has gone through a difficult and conflicted path. The state-religious relations in France, being a traditionally Catholic state, have gone through a long period from the reign of King Clovis I to the present day. The events indicated in the article cover the period from the adoption of Christianity in France at the state level to the official separation of religion from the state by

the 1905 law. The article tells about the ruthless policy of the authorities against non-Catholics in France, where the Catholic branch of Christianity prevailed, the massacre of Protestants, known as "St. Bartholomew's Night", as well as the short-term softening of state policy towards them by the end of the 16th century.

In general, representatives of the Catholic branch of Christianity, in particular the papacy, tended to interfere with the politics, having the say in recognizing the official authority of the dominant kings of the time. It is no coincidence that the proclamation of Charlemagne or Napoleon Bonaparte as emperors was confirmed by the pontiffs, and it was they who crowned them. It should be noted that the Vatican was not always welcomed by kings. The King of France, Philip IV the Handsome, put an end to the interference of Pope Boniface VIII with the central government by a treaty of 1306 and in 1309 limited his power to the city of Avignon. The papacy continued to have limited power in this city for 70 years.

Finally, in 1905, the relations between religion and state took a twist in France. The State no longer allocates funds for the recognition and dissemination of any religion by the law of December 9, 1905.

***Keywords:*** *France, Religion, State, Government, Pope*

## ИСТОРИЯ ГОСУДАРСТВЕННО-РЕЛИГИОЗНЫХ ОТНОШЕНИЙ ВО ФРАНЦИИ

***Шафа Абдуррагимова***

### РЕЗЮМЕ

В статье рассматривается влияние религии, в частности папской власти, на управление государством во Франции, известной как светское государство, в разные периоды истории. Оглядываясь назад на историю Франции, мы видим, что отношения государства и религии прошли сложный и запутанный путь. Государственно-религиозные отношения во Франции, традиционно католическом государстве, прошли долгий период со времен правления короля Франции Хлодвига I до наших дней. События, о которых идет речь в статье, охватывают период от принятия христианства на территории Франции на государственном уровне до официального отделения религии от государства законом 1905 года. В статье рассказывается о безжалостной политике властей против некатоликов во Франции, где господствовала католическая ветвь христианства, о массовом убийстве протестантов, вошедшем в историю как «Варфоломеевская ночь», а также о кратковременном смягчении государственной политики в отношении них к концу XVI века.

В целом представители католической ветви христианства и в частности папы имели склонность вмешиваться в политику государств, обладая правом голоса в признании официальной власти наиболее влиятельных королей того времени. Не случайно провозглашение Карла Великого или Наполеона Бонапарта императорами было подтверждено римскими папами, и именно они вручали им императорскую корону. Следует отметить, что папская власть не всегда радушно принималась королями. Король Франции Филипп IV Красивый договором 1306 года положил конец вмешательству папы Бонифация VIII в центральную власть и в 1309 году ограничил его власть городом Авиньоном. Папы продолжали иметь ограниченную власть в этом городе в течение 70 лет.

Наконец, в 1905 году во Франции резко изменились отношения между религией и государством. Государство больше не выделяет средства на конкретное признание и распространение какой-либо религии законом от 9 декабря 1905 года.

***Ключевые слова:*** *Франция, религия, государство, власть, Папа Римский.*

## Giriş

"Dini dövlət", "dinsiz dövlət" ifadələri doğru deyildir. "Dini inanclar" və ya "dinsizlik" birbaşa insanlarla əlaqəli anlayışdır; hansısa dinə mənsub olduğunu insan özü təyin edir. Buna görə də heç kəs din mövzusunda dövlətə aid bir təşkilat və ya quruluş adından çıxış edə bilməz. Hər hansı dövlət daxilində hər kəsin inancı, düşüncəsi eyni deyildir. Bir şəxs dövlət adından dini mövzuda danışarsa, öz inancını dövlətin təşkilat və ya quruluşuna mənsub şəxslərin inancı kimi göstərmiş olur və belə bir hüquq heç kəsə verilməmişdir.

Dövlət bir təşkilatdır; təşkilatların isə deyil, insanların dini olur. Dövlət namaz qılmır, oruc tutmur və axirətlə əlaqəli heç bir narahatlıq hiss etmir. Dövlət kimi digər təşkilat və quruluşların da dini yoxdur. Dövlət siyasi struktura malik olan, sərhədləri daxilində bu və ya digər dinə mənsub, yaxud hər hansı dini inancı olmayan insanların, ümumilikdə xalqın idarəolunma formasını müəyyənləşdirən, sosial proseslərin tənzimlənməsini təmin edən xüsusi təsisatdır (Bayındır 2014, 3).

Ümumiyyətlə, dövlət-din münasibətləri digər ictimai qurumlarda olduğu kimi, həm cəmiyyətin tarixi ənənələrinin, həm də rasional şəkildə təşkil olunmuş və demokratik cəhətdən legitimləşdirilmiş dövlət ənənələrinin ayrılmaz komponentidir (Qənbərov 2017, 23). Fransa tarixinə nəzər salsaq, dövlət–din münasibətlərinin necə mürəkkəb və qarışıq bir dövrdən keçdiyinin şahidi oluruq. Ənənəvi katolik dövləti olan Fransada dövlət–din münasibətləri Fransa kralı I Xlodviqin hakimiyyəti illərindən müasir dövrümüzədək kəskin şəkildə dəyişmişdir.

## Fransada Xristianlığın yayılması

Fransızların katolik kilsəsi ilə sıx əlaqəsinin tarixi V əsrə gedib-çıxır. Frankların kralı I Xlodviq 496-cı ildə Müqəddəs Remigius tərəfindən xaç suyuna salındıqdan sonra, bütün təbəələri ilə birlikdə katolik kilsəsinin nümayəndəsinə çevrilir. Xristianlıq tarixində ilk dəfə bir kral bütün təbəələri ilə birlikdə Xristianlığı qəbul edib kilsənin nümayəndəsinə çevrildiyinə görə, katolik kilsəsi Xlodviqi "kilsənin yeganə övladı", Fransanı isə "kilsənin böyük qızı" elan edir (Winter 2008, 60). Beləliklə, I Xlodviq xristian dinini qəbul edən ilk frank kralı kimi tarixə düşmüşdür.

Katolisizm V əsrdən etibarən Fransanın rəsmi dininə çevrilmiş, krallıqla papalıq bir-birindən asılı olan iki qurum olmuşdur. Katolik kilsəsi bu baxımdan fransız krallarını "ən yaxşı xristian əlahəzrətləri", fransız xalqını isə "Tanrı tərəfindən seçilmiş bir xalq" kimi dəyərləndirmişdir (Burleigh 2005, 23).

Karl Martel VIII əsrdə benefisi (Qədim Romada imtiyaz növü, məsələn: imperiya dövründə müxtəlif vergi imtiyazları, imperatorların bəxşişi və s.) islahatı həyata keçirdi. O, çoxlu benefisi paylatdırırdı. Bunun üçün Torpaq bəxşişi fondu yaratmaq məqsədilə qiyamçı sahibkarların torpaqları müsadirə olunurdu. Bu torpaqlar tükəndiyi zaman isə kral kilsə ərazilərini müsadirə etdirməyə başladı. Karl Martelin dövründə kilsə, sadəcə, hakimiyyəti möhkəmləndirmək vasitəsi hesab edilirdi.

Benefisi islahatı Frank dövlətinin siyasi süqutuna təsir göstərdi. Karl Martelin oğlu Gödək Pepən atasının hakimiyyəti dövründə kilsə torpaqlarının müsadirə olunması nəticəsində kilsə ilə kəskinləşən münasibətləri qaydasına qoydu. Benefisi olaraq paylanılmış bütün kilsə torpaqları kilsə mülkiyyəti hesab edildi. Benefisi sahibləri kilsəyə müəyyən ödəniş verməli, yalnız dövlətə hərbi xidmət göstərməli idilər. Kralın icazəsi olmadan kilsə onların torpağını ala bilməzdi. Bu dövrdə lanqabordlar tərəfindən sıxışdırılmış papa frankların köməyinə ümid bağlayırdı. Nəticədə, 751-ci ildə papanın razılığı ilə Suassonda keçirilən yığıncaqda Pepən rəsmi olaraq frankların kralı elan edildi.

Frank kralı Böyük Karlın hakimiyyəti illərində müxalifətdə olan Roma əyanlarının ona qarşı mübarizəsindən qorxan zəif və iradəsiz papa III Lev kralın yanına qaçmış və ona sığınmışdı. Papa 800-cü ilin sonunda kralın başına qızıldan imperator tacı qoymuşdu (1804-cü ildə Fransada referendumun nəticəsinə müvafiq olaraq imperator adını alan Napoleonun da tacqoyma mərasimində Romadan Parisə gəlmiş papa iştirak etmişdi). Elə həmin ərəfələrdə öz hakimiyyətini möhkəmləndirmək məqsədilə Böyük Karl baş yepiskopların səlahiyyətlərini genişləndirmiş və beləliklə, onlar nəinki papanın, həmçinin kralın təyin olunmasında da mühüm rola malik olmuşdular (Orucov 2017, 17-23). Əvəzində kral da kilsənin yuxarı instansiyalarında söz sahibi olmuşdu. Karlın xristianlığa verdiyi ən böyük töhfə imperiyanın şimalında və şərqində olan bütpərəst tayfalara bu dini qəbul etdirməsi olmuşdu. Bununla da, bu tayfalardan olan saksonlar zorla xristianlaşdırılmışdılar.

Fransa tarixində kilsəyə qarşı aparılmış mübarizələrə tez-tez rast gəlinir. Kilsənin dövlət üzərindəki hakimiyyətini məhdudlaşdırma cəhdləri XIV əsrdən özünü göstərmişdir (Tövfiqi 2013, 195-201). Xristianlığın katolik məzhəbinin rəhbəri hesab edilən papalar Fransada tarixboyu mərkəzi hakimiyyətə meyilli olub, dövlətin idarə olunması işlərinə müdaxilə etmişlər.

## Fransada papa hakimiyyətinin məhdudlaşdırılması

Fransa Kralı IV Gözəl Filip Şampan və Navarranı, o cümlədən Lil və Lion şəhərlərini kral torpaqlarına birləşdirərək, ölkəni güclü monarxiyalı feodal dövlətinə çevirmişdi. Bu da nəticə etibarilə Müqəddəs Roma İmperiyası üzərində qələbə çalmış, Avropa dövlətlərinin işlərinə müdaxilə etməkdən çəkinməyən, Avropada və bütün dünyada allahlıq iddiasına düşən papa ilə toqquşmasına səbəb olmuşdu. Bununla da kralın papalıqla mübarizə dövrü başlanmış oldu. IV Filip kilsə torpaqlarına vergi qoymuş, bu da kralla Roma papası arasında münaqişəyə səbəb olmuşdu. Kralın səfiri Romada papanın qəsrinə daxil olub onu təhqir etmişdi. Nəticədə, papanın nüfuzu zəifləmiş, kral hakimiyyəti isə əksinə, güclənmişdi.

Papa VIII Bonifas ilə kral arasında 1296-cı ildə açıq mübarizə baş verdi. Papa dini hakimiyyətin dünyəvi hakimiyyətdən üstün olması iddiası ilə çıxış edirdi. O, təsdiq edirdi ki, papalar kral üzərində hakimdirlər. Fransada isə kral hakimiyyəti artıq möhkəmlənmişdi. IV Filip papanı devirmək üçün İtaliyaya casuslar göndərmişdi. Bonifas isə öz növbəsində, 1296-cı ildə kübarlara, o cümlədən hökmdarlara ruhanilərə hər hansı bir verginin qoyulmasını, ruhanilərə isə papanın razılığı olmadan istənilən ödəmənin olunmasını qadağan etmişdi (Tövfiqi 2013, 195-201). Bu qadağa monarxın səlahiyyətlərinə zərbə vurmuş olurdu.

1302-ci ilin aprelində tarixdə ilk dəfə IV Filip tərəfindən Parisdə Baş ştatlar çağırılır. Kral papaya qarşı mübarizədə silklərə arxalanırdı. Baş ştatlar ruhani, zadəgan və varlı şəhərlilərin nümayəndələrinin iştirakı ilə təşkil olunurdu. Nəticədə, papanın böyüklük iddiası kral hakimiyyəti ilə mübarizədə məğlubiyyətə uğrayır. IV Filipin VIII Bonifas ilə mübarizəsinin mümkün nəticəsi ondan ibarət oldu ki, kral ilk dəfə olaraq papadan yüksəkdə duran Ümumdünya Kilsə Məclisini çağırmaqla, papanın fəaliyyətinə baxılmasına cəhd etdi.

1306-cı il sazişi ilə IV Gözəl Filip Roma papası VIII Bonifasın mərkəzi hakimiyyətə qarışmasına son qoydu. Papanın qərargahı 1309-cu ildə İtaliyanın Roma şəhərindən Fransanın Avinyonuna köçürüldü və bu vəziyyət 1377-ci ilədək, yəni təxminən, yetmiş il davam etdi. Burada 1309-1377-ci illər arasında səkkiz fransız papası xidmət etmişdir. Bu hadisəni yəhudilərin eradan əvvəl VI əsrdə Babilistandan qovulmasına bənzədərək, "Papaların babilsayağı qovulması" adlandırırdılar (Tövfiqi 2013, 200).

Kral IV Filipdən bəhs edərkən tampliyerlər (Orta əsrlərdə ruhani–cəngavər cəmiyyəti) ordeninin ləğvi prosesini də unutmaq olmaz. Filipin əmrinə əsasən, 1307-ci ildə Fransadan olan Tampliyerlər ordeninin bütün üzvləri bir gündə həbs edildilər (Route des Templiers). Onları xaçı təhqir etməkdə, bütpərəstlikdə və əxlaqsızlıqda təqsirləndirirdilər. Filip tampliyerlər haqqında camaat arasında gəzən şayiələrin çoxuna inanırdı (onları kübarlıq və lovğalıqda, qaranlıq və pis işlərdə təqsirləndirirdilər). Bununla belə, kralın bu qərarının yerinə yetirilməsində pul çox böyük rol oynadı. Bəzi söz-söhbətlərə görə, Gözəl Filip bu varlı ordendən böyük məbləğdə borc pul götürmüşdü.

Papa V Kliment 1311-ci ilin oktyabrında Vyanada Ümumdünya Kilsə Məclisi çağırtdırır. Burada fransız sarayının təsiri ilə Tampliyerlər ordeninin ləğv, əmlaklarının isə müsadirə edilməsi haqqında qanun qəbul edilir. 1312-ci ilin aprelində qanun həyata keçirilir. Əvvəlcə belə qərara gəlinir ki, müsadirə olunmuş ordenin əmlakı yeni xaç yürüşləri keçirmək üçün digər ordenə verilsin. Bu əmlakın çox böyük hissəsi isə Filipə və digər keşişlərə çatmış, bunlar isə öz növbəsində, ərazilərində Tampliyerlər ordeninin fəaliyyətini qadağan etmiş, onların var-dövləti ilə yaşamağa başlamışdılar.

IV Filip hakimiyyətinin son illərində Fransa Avropada ən möhtəşəm imperiyalardan birinə çevrilmiş, papa hakimiyyəti isə öz gücünü itirmişdi.

**Müqəddəs Varfolomey gecəsi, protestantların kütləvi qırğını**

Fransada dövlət–kilsə ittifaqının pozulması Avropada inkişaf edən islahat, sonrakı mərhələdə isə protestantizmlə ortaya çıxdı. Kalvinizm hərəkatının Fransa cəmiyyətinə təsiri bir tərəfdən, kilsə ilə dövlətin yaxınlaşmasını gücləndirir, digər tərəfdən, bu ittifaqa qarşı qəzəb və nifrətə yol açırdı.

Kralla papa arasında 1516-cı ildə protestantizm təhlükəsinə qarşı konkordat imzalandı və Fransa kralına "müqəddəs qanun" qəbul etmək səlahiyyəti verilərək krallıq gücləndirildi. Bundan əlavə, krallıq katolik kilsəsinin adından çıxış edərək, protestantlara qarşı şiddətli və hətta qanlı tədbirlər gördü.

Fransada 1562-1598-ci illər arasında səkkiz dini müharibə baş vermiş və dövlət bu müharibələrdə katolik kilsəsinin tərəfində olmuşdu. Bu müharibələrdən ən yaddaqalanı din və dövlət münasibətlərinin ən kəskin olduğu XVI əsrin 70-ci illərində baş vermişdir. Bu, tarixdə "Varfolomey gecəsi" adı ilə tanınan qətliamdır.

1572-ci il 18 avqust tarixində keçirilmiş möhtəşəm toy mərasimi və hügenotların kral əyanları arasında olması katolikləri xeyli qəzəbləndirmişdi. Kralın bacısının toyunda iştirak etmək üçün Parisə çoxlu sayda qonaq toplaşmışdı. Onların arasında Fransanın katolik kilsəsinə qarşı çıxan protestant zadəganlar, dini rəhbərlər də var idi. Əksəriyyət isə öz ailəsi və uşaqları ilə birlikdə gəlmişdi. Hadisələr sürətlə inkişaf etmiş, 22 avqustda admiral Kolinyiyə qarşı sui-qəsd təşkil olunmuşdu. Fanatik katolik və böyük nüfuz sahibi hersoq Henrix de Giz həmin əməliyyatın rəhbəri idi. Protestant zadəganları kraldan hersoqun cəzalandırılmasını tələb edirdilər. Yeni müharibənin başlanmasından ehtiyat edən hügenotlar Parisdən çıxırdılar. Yaranmış vəziyyətdən istifadə etmək qərarına gələn kralın anası hökmdarı yeni vətəndaş müharibəsinin qarşısını almaq məqsədilə protestant başçılarının öldürülməsinin zəruri olduğuna inandıra bilmişdi. Bu planın həyata keçirilməsi üçün Müqəddəs Varfolomey günü, yəni 1572-ci il avqustun 24-ü seçilmişdi. Həmin gün şəhər qapıları bağlanmış və hərbi dəstələr hazır vəziyyətə gətirilmişdi. Kral ordusu gecə ikən

silahlandırılmış və protestantlar olan evlərin qapılarına əvvəlcədən tabaşirlə ağ xaç işarəsi çəkilmişdi (Rəsulzadə 1919). Sui-qəsdçilər öncə yaralı admiralın otağına daxil olub onu və mühafizəçisini öldürmüş, sonra isə kilsə zənglərinin çalınması ilə şəhər əhalisi protestantları qətlə yetirməyə çağırılmışdı. Azğınlaşmış əhali protestantların əvvəlcədən tabaşirlə işarələnmiş evlərinə girib onları eyvandan küçəyə atmış, qadınlara təcavüz etmiş, soyğunçuluqla məşğul olmuşdu. Qadın-uşaq demədən hər kəs öldürülmüş, heç kimə mərhəmət edilməmişdi. Bu qətliam, təqribən, bir həftə davam etmiş, küçələr qana boyanmışdır. Tarixçi Jül Mişelin sözləri ilə desək, "Varfolomey gecəsi, sadəcə, bir gecə deyildi, o, bir mövsüm idi" (Jouanna 2007, 5). Parisdə başlanmış bu qırğın daha sonra kralın xeyir-duası ilə ölkənin digər əyalətlərini də əhatə edərək, minlərlə dinc əhalinin – kişi, qadın və uşaqların öldürülməsi ilə nəticələnmişdi. Varfolomey gecəsi qurbanlarının sayı barədə yekdil fikir yoxdur. Hesab edilir ki, Parisdə, təqribən, 3 000, bütün Fransada isə 10 000 ilə 50 000 arasında protestant qətl edilmişdi. Xristianlığın katolik məzhəbindən olanların hakimiyyəti illərində digər dinlərə, xüsusilə protestantlara qarşı baş tutmuş bu qırğın zamanı katoliklər nəinki protestantları, hətta bütün qeyri-katolikləri gecə vaxtı elə yatdıqları yerdəcə və ya küçələrdəcə qətlə yetirmişdilər. Həmin dövrdə Fransada baş vermiş bu faciə katolik dünyasında rəğbətlə qarşılanmış, Roma papası XIII Qriqori bu hadisəni alqışlayaraq, Vatikanda fişəng atılmasını və medalların təsis olunmasını əmr etmişdir. Roma papası II İohan Pavel idsə 425 il sonra rəsmi şəkildə Varfolomey qətliamını qınamışdır (Jouanna 2007, 17).

Tarixdə dini zəmində baş vermiş bu hadisə "Varfolomey gecəsi" adını almış, yalnız Fransanın deyil, bütün Avropanın tarixində silinməz bir ləkəyə çevrilmişdir. Bu kimi din və məzhəb zəminində yaranmış faciələrin təkrar baş verməməsi üçün onların yad edilməsi və öyrənilməsi zəruridir. Məhz belə qanlı tarixi hadisələr dar məzhəb düşüncəsinə mənsub kəslərin müəyyən mənafelər naminə təhlükəli vasitəyə çevrilə və silaha sarıla biləcəyini, günahsız insan qanının axıdılmasına səbəb olacağını göstərir.

Fransa tarixindəki bu mühüm epizod son nəticədə müəmmalı görünür və ona yenidən baxmaq, xüsusən də hadisənin mahiyyətini anlamağa çalışmaq lazımdır. Bu hadisə bir çox tarixi araşdırmaların mövzusu olmuş, bu dəhşətli gecə barədə filmlər çəkilmiş və bədii əsərlər yazılmışdır. "Varfolomey gecəsi" ifadəsi bir çox xalqların dilinə daxil olub mənfi çalar qazanmış və müqavimətə gücü çatmayan günahsız insanların kütləvi halda qətlə yetirilməsi mənasını almışdır.

Fransada protestantların ovu IV Henrinin 1598-ci ildə Nant fərmanını imzalaması ilə başa çatır. Bu razılaşmaya əsasən, kalvinizm və protestantlıq məzhəblərinin sahiblərinə geniş hüquqlar verilmişdi. IV Henrinin birbaşa dəstəyi ilə hazırlanan razılaşma Fransada din sahəsində həyata keçirilən ən böyük islahatlardan hesab olunurdu. Kral XIV Lüdoviq tərəfindən isə 1685-ci ildə Nant fərmanı ləğv edilir (Winter 2008, 61-63), protestantlıq yenidən qeyri-qanuni din elan olunur və ona qarşı mübarizə aparılmağa başlanılır.

### Fransada hakimiyyətin idarə olunmasında kardinalların rolu

Fransada tarixən fransız kilsəsinin nüfuzlu üzvləri hesab edilən kardinallar kralın naziri təyin olunurdular. Bu ənənə Fransa inqilabına qədər davam etmişdir (Çaha 2011, 31). Kardinal Rişelye 1624-cü ildə XIII Lüdoviqin birinci naziri təyin olunur. O, Fransanı idarə edir, mərkəzi hakimiyyətə qarşı çıxan adlı-sanlı adamları aradan götürür, onlara divan tuturdu. Krala qarşı çıxan və qəsrlərdə gizlənən feodalların qəsrini xarabaya çevirirdi. Feodallar, hətta kralın anası, həyat yoldaşı, qardaşı ona qarşı sui-qəsd təşkil etmişdilər. Rişelye qətiyyəti ilə seçilirdi, məhz onun kardinallığı dövründə zadəganlar arasında duel (zadəganların təkbətək vuruşması) qadağan olunmuşdu. Rişelye Fransada feodal əyanlarının müqavimətini qırıb onları mərkəzi hakimiyyətə tabe etmiş və hakimiyyəti möhkəmləndirmişdi.

Rişelyenin ölümündən sonra onun yerinə vəsiyyət etdiyi kimi, kardinal Mazarin təyin olunur. Mazarinin krallığı idarə etməsi, əsasən, XIV Lüdoviq dövrünə təsadüf edir. Mazarinin ölümündən sonra kral, artıq həddi-büluğa çatdığını və krallığı özü idarə etmək iqtidarında olduğunu bildirir. Həmin dövr üçün bu, təəccüblü görünsə də (yəni kralın dövləti idarə etməyə şəxsən maraq göstərməsi), zamanla adi hala çevrilir.

Fransada XVIII əsrin 20-ci illərindən, daha dəqiq desək, 1726-cı ildən başlayaraq, hökuməti kardinal Flöri idarə edir. O, krallığın varlanması üçün əlindən gələni edir: pulu stabilləşdirir, dəniz ticarətini inkişaf etdirir, dənli bitkilərin istehsalına şərait yaradır, yol şəbəkəsinin vacibliyini artırır. Daxildə sülhün qorunmasına can atan Flöri kral hakimiyyətinə qarşı çıxan parlamentarilərin hərəkatının qarşısını almağa çalışır. Bundan başqa, kardinal Fransa üçün təhlükə yaradan müharibələrin də qarşısını alır.

Fransada burjua inqilabından sonra – 1789-cu ildən başlayaraq, dövlətin idarə olunmasında kəskin dönüşlər baş verir. Belə ki, 1792-ci il konstitusiyasının qəbulunu dövlətin dünyəviləşməsinə istiqamətlənmiş addımlardan biri kimi qəbul etmək mümkündür. Papanın siyasi qüdrəti illərboyu davam edən sakitlikdən sonra, artıq zəifləməyə başlamışdı. Fransa və İtaliyanı idarə edən şəxslər hərbi yolla və ümumi fikrə arxalanaraq papaların saraylarını, imarətlərini və mülklərini müsadirə etmişdilər.

Fransada XIX əsrin əvvəllərində dövlət–din münasibətlərinə nəzər yetirsək, Napoleon Bonapartın öz hakimiyyəti dövründə yaranmış xaos və qarışıqlığa son qoymaq məqsədilə 1801-ci ildə katolik kilsəsi ilə müqavilə imzaladığının şahidi olarıq. Bu razılaşmaya görə dövlət din xadimlərinin maaşlarını ödəyəcək və onların təyinatında söz sahibi olacaqdı. Napoleon isə özünə lazım olan taxt-taca yiyələndikdən sonra, 1806-cı ildə papanı hakimiyyətdən qovdu, onun bütün mülklərini, imarətlərini müsadirə etdi.

Dövlət və din arasında münasibətlər XIX əsrin sonlarından zəifləməyə doğru gedirdi. Fransanın təhsil naziri olan Jül Ferri 1870-ci ildə təhsildə dünyəviləşməyi, pulsuz, dünyəvi və məcburi məktəb formalaşdırmağı təklif etmişdi.

Fransada 1905-ci ildə isə din və dövlət arasındakı münasibətlər kəskin şəkildə dəyişdi. Beləliklə, 1905-ci il 9 dekabr qanunu ilə dövlət artıq heç bir dinin xüsusi olaraq tanınmasına və yayılmasına maliyyə dəstəyi göstərməyəcəkdi (vie publique). Həmin dövr üçün 1905-ci il qanunu cəmiyyətdə birmənalı qarşılanmadı. Xüsusilə Roma papası, Fransa Katolik kilsəsi və onun tərəfdarları bu qanunun tam əleyhinə idilər.

Papa XI Piy və İtaliya hökuməti arasında 1929-cu ildə Latran sazişi imzalandı. Papa hökumətinin Vatikanın ixtiyarında qalması ilə Romanın bu sahədə üzləşdiyi problemlər öz həllini tapdı və dinin siyasətdən ayrılması Avropada da rəsmiləşdi (Tövfiqi 2013, 201).

**Nəticə**

Beləliklə, müasir dövrdə Fransa dövlətinin dünyəvi xarakteri, rəsmi dinin olmaması vətəndaşlar üçün istənilən din azadlığının və ya heç bir dinə itaət etməmənin tanınması deməkdir. Bu konstitusiya prinsipi, yuxarıda da qeyd etdiyimiz kimi, hələ 1905-ci il tarixli dövlətin kilsədən ayrılması qanunu ilə müəyyən edilmişdir: "Respublika vicdan azadlığını təmin edir. O, ictimai nizama riayət etmək məqsədilə müəyyənləşdirilən yeganə məhdudlaşdırmaya əməl edilməsi ilə dini cərəyanların azadlığına zəmanət verir. Respublika heç bir kilsəni tanımır və ona köməklik göstərmir, xidmətlərinə əməkhaqqı ödəmir. Cinayət məcəlləsi mülki nikah bağlanana qədər nikah adətini həyata keçirməyə görə din xadimlərinin məsuliyyətini nəzərdə tutur" (vie publique). Hazırkı konstitusiyanın I maddəsinin və 1946-cı il konstitusiyasının preampluasından çıxış edərək, həmin müddəalara ölkə vətəndaşlarının dinindən, bərabərliyindən asılı olmayaraq, qanunun inkişafı kimi baxıla bilər. Deyilənlər, eyni zamanda, dövlətə onun ərazisində fəaliyyətdə olan kilsələrlə münasibətlər qurmağı qadağan etmir. Məsələn, Elzas-Lotaringiya ərazisində,

ənənəvi olaraq, Vatikandakı Müqəddəs taxt-tacla bağlı olan konkordatlar fəaliyyət göstərir. Dənizarxası Qviana departamentində dövlətin kilsədən ayrılması tanınmır.

Bununla da belə nəticəyə gəlirik ki, Fransada dövlətin dünyəvi xarakter daşıması, rəsmi dinin olmaması vətəndaşlar üçün istənilən din azadlığının və ya heç bir dinə itaət etməmənin tanınması deməkdir.

## ƏDƏBİYYAT


1. Bayındır Əbdüləziz. (2014). Din və dövlət münasibətləri, teokratiya və sekulyarizm. İstanbul: Süleymaniye vakfı yayınları. (124 səh.)
2. Burleigh Michael. (2005). Earthly Powers: The Clash of Religion and Politics in Europe, from the French Revolution to the Great War. New York: Harper Publishers. (560 p.)
3. Çaha Ömer. (2011). Fransız lâikliğinde yeni evre: Kato-laisizmden islâm karşıtlığına laikliğin Fransa'daki evrimi // – Fatih Üniversitesi, Siyaset Bilimi ve Kamu yönetimi Bölümü, №63. (səh. 29-58).
4. Des croyances et pratiques religieuses en déclin en France. (9 nov. 2021). (Centre d'observation de la société). https://www.observationsociete.fr/modes-de-vie/des-croyances-et-pratiques-religieuses-en-declin-en-france/
5. Enyedi Zsolt, Madeley Jhon. (2003). Church and State in Contemporary Europe: The Chimera of Neu trality. London: Frank Cass. (245 p.)
6. Jouanna Arlette. (2007). La Saint Barthelemy, Les mysteres d'un crime d'Etat. Paris: Gallimard. (411 p.)
7. Qənbərov Asəf. (mart-aprel 2017). Dövlət-din münasibətləri : fərqli modellər və siyasətlər. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı. Dövlət və Din - № 02 (49). (səh.22-29). https://www.elibrary.az/docs/jurnal/jrn2017_178.pdf
8. L'histoire des templiers: (Route des Templiers) [Ressource électronique] / URL: https://www.templars-route.eu/fr/ordre-du-temple/histoire-templiers/
9. Orucov Telman. (2017). Göy qübbəsinə işıq salanlar. II cild. Bəşər səmasına yüksələnlər. https://azkurs.org/beser-semasna-yukselenler.html 2017. (211 səh.)
10. République Française. (Vie publique) (19 février 2021). L'essentiel de la loi du 9 décembre 1905 de séparation des Églises et de l'État: [Ressource électronique] URL: https://www.vie-publique.fr/fiches/271400-la-loi-du-9-decembre-1905-de-separation-des-eglises-et-de-letat
11. RƏSULZADƏ Məhəmməd Əmin. (2 aprel 1919). "Azərbaycan" qəzeti. N148. https://genderi.org/varfolomey-gecesi-1572-ci-il-avqustun-24-ne-kecen-gece-muqedde.html#M.%C6%8F.R%C6%8FSULZAD%C6%8F_%E2%80%9CAz%C9%99rbaycan%E2%80%9D_q%C9%99zeti,_2_aprel_1919,_N148
12. Tövfiqi Hüseyn. (2013). Böyük dinlərlə tanışlıq. Bakı: Xəzər Universiteti Nəşriyyatı. (362 səh.)
13. Winter Bronwyn. (2008). Hijab and the Republic: uncovering the french headscarf debate. New York: Syracuse University Press. (420 p.)

**UOT 1:001.92**

**DÖVLƏT VƏ DİN MÜNASİBƏTLƏRİNİN TARİXİ ASPEKTLƏRİ**

***Rəhim Həsənov,***
Azərbaycan Dövlət Mədəniyyət və
İncəsənət Universitetinin müəllimi,
Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya
İnstitutunun doktorantı
hesenli.82@inbox.ru
https://orcid.org/0000-0001-5104-9582

**XÜLASƏ**

Din hər bir sivilizasiyaya xas olan universal hadisədir. Din meydana gəldiyi dövrdən etibarən insanların həyatına, düşüncə tərzinə ciddi təsir göstərir. Dini etiqad azadlığı insan hüquqları içərisində mühüm yer tutur. Tarixən dini etiqad azadlığından müxtəlif teoloji sistemlərin tolerantlığını təsvir etmək üçün bir vasitə kimi istifadə edilmişdir, etiqad azadlığı isə fərdi fəaliyyət azadlığı kimi müəyyən edilmişdir. “Homo religiosus”, yəni dini dünyagörüşlü insanların meydana gəlməsi nəticəsində din və dövlət, din və cəmiyyət problemləri də ortaya çıxmışdır. Dövlət hakimiyyəti ilə dini hakimiyyət arasında mövcud olan tarixi gərginlik cəmiyyətə təsirsiz ötüşməyib.

Müasir dövrdə plüralizm, vətəndaş cəmiyyəti, vicdan azadlığı, tolerantlıq yetkin demokratiyanın əsas atributlarıdır. Demokratik cəmiyyətdə dövlət və din münasibətlərinin prinsipləri hər kəsi vicdan və ibadət azadlığı hüququna hörmət etməyə məcbur edir. Tolerantlıq olmadan təkcə demokratiya deyil, cəmiyyətin sivil vətəndaşı da mövcud ola bilməz. Dünyəvi dövlət ideyası dövlət və din münasibətlərində rəsmi olaraq neytral olduğunu bəyan edir. Dünyəvi dövlət dinindən asılı olmayaraq, bütün vətəndaşlarına bərabər münasibət bəslədiyini iddia edir və vətəndaşlara dini inanclarına, mənsubiyyətinə görə imtiyazlar verməkdən çəkindiyini iddia edir.

Məqalədə dövlət və din arasındakı qarşılıqlı əlaqə tarixi-fəlsəfi baxımdan nəzərdən keçirilir. Hazırda inkişaf etmiş demokratik ölkələrdə dinə münasibət, əsasən, vicdan azadlığının və dini dözümlülüyün təmin edilməsinə əsaslanır. Buna baxmayaraq, bu gün dövlət–din münasibətləri məzmununa, mahiyyətinə, forma və metodlarına görə müxtəlif ölkələrdə özünəməxsus xarakter daşıyır.

***Açar sözlər:*** *dövlət və din, dini dövlət, dövlət dinləri, dini qurumlar, dünyəvilik prinsipi.*

## HISTORICAL ASPECTS OF RELATIONS BETWEEN THE STATE AND RELIGION

***Rahim Hasanov***

### ABSTRACT

Religion is a universal phenomenon intrinsic to every civilization. Since its formation, religion has had a serious impact on people's lives and their way of thinking. Freedom of religion holds a valuable place within the human rights. Historically, religious freedom has been used as a way to show tolerance of various theological systems, while religious freedom itself has been defined as freedom of individual activity. As a result of the appearance of "homo religiosus", that is, people with a religious worldview, the problems of religion and state, religion and society arose as well. The historical tension between the state and religious authorities has not spared the society either.

Today, the pluralism, civil society, freedom of conscience, and tolerance are the main attributes of a mature democracy. The principles of state-religious relations in a democratic society oblige people to respect the right to freedom of conscience and religion. Not only democracy, but also a civilized citizen of society cannot exist without tolerance. The idea of a secular state declares its formal neutrality in relations between the state and religion. The secular state claims to treat all its citizens equally, independently of religion, and refrain from granting privileges to citizens because of their religious beliefs.

The article examines the interaction of the state and religion from a historical and philosophical point of view. Today, the attitude towards religion in developed democratic countries is mostly based on ensuring freedom of conscience and religious tolerance. Nevertheless, today the state-religious relations in their content, essence, forms and methods have a peculiar nature in different countries.

***Keywords:*** *State and Religion, Religious State, State Religions, Religious Institutions, Secularism Principle*

## ИСТОРИЧЕСКИЕ АСПЕКТЫ ОТНОШЕНИЙ ГОСУДАРСТВА И РЕЛИГИИ

***Рагим Гасанов***

### РЕЗЮМЕ

Религия является универсальным явлением, присущим каждой цивилизации. Религия с момента своего возникновения оказывает серьезное влияние на жизнь людей, их образ мышления. Свобода вероисповедания занимает важное место в рамках прав человека. Исторически свобода вероисповедания использовалась как средство представления терпимости различных теологических систем, сама же свобода вероисповедания определялась как свобода индивидуальной деятельности. В результате появления «homo religiosus», то есть людей с религиозным мировоззрением, возникли также проблемы религии и государства, религии и общества. Историческая напряженность между государственной и религиозной властью не обошла стороной и общество.

В наше время плюрализм, гражданское общество, свобода совести, толерантность являются основными атрибутами зрелой демократии. Принципы государственно-религиозных отношений в демократическом обществе обязывают всех уважать право на свободу совести и вероисповедания. Без толерантности не может существовать не только демократия, но и цивилизованный гражданин общества. Идея светского государства заявляет о своей формальной нейтральности в отношениях государства и религии. Светское государство утверждает, что относится ко всем своим гражданам одинаково, независимо от религии, и воздерживается от предоставления гражданам привилегий в соответствии с их религиозными убеждениями.

В статье рассматривается взаимодействие государства и религии с историко-философской точки зрения. В настоящее время отношение к религии в развитых демократических странах во многом основывается на обеспечении свободы совести и религиозной терпимости. Тем не менее, сегодня государственно-религиозные отношения по своему содержанию, сущности, формам и методам носят в разных странах своеобразный характер.

***Ключевые слова:*** *государство и религия, религиозное государство, государственные религии, религиозные институты, принцип секуляризма.*

## Giriş

Dövlət və din münasibətləri problemi mürəkkəb və əhatəli məsələdir. Bəşəriyyətin siyasi tarixinin birinci mərhələsində din və dövlət arasında hakimiyyət uğrunda mübarizə, ikinci mərhələsində isə dövlətlə dinin qarşılıqlı faydalı əməkdaşlığı özünü büruzə verir. Plüralizm, vətəndaş cəmiyyəti, vicdan azadlığı, ibadət azadlığı, tolerantlıq yetkin demokratiyanın əsas atributlarıdır. Demokratik cəmiyyətdə dövlət və din münasibətlərinin prinsipləri hər kəsin ibadət azadlığı hüququna hörmət edilməsini tələb edir. Dinin dövlətdən ayrılması dövlətin din işlərinə qarışmaması ilə bağlıdır. Dünyəvi dövlət vətəndaş cəmiyyətinin ayrılmaz elementi kimi, dini qurumların fəaliyyətini qanun çərçivəsində tənzimlədiyi üçün bu qurumlardan qanunlara və hüquq normalarına ciddi əməl etməyi, öz fəaliyyətlərini qanun çərçivəsində həyata keçirməyi tələb edir. Planetimizdəki ölkələrin yarıdan çoxu XX əsrin sonunda rəsmi olaraq özlərini dünyəvi dövlət elan etdilər. Dini zorakılığın əhatə dairəsinin genişlənməsi müasir dövrdə ciddi narahatlıq yaradır. Bu baxımdan, dövlət–din münasibətlərinin tədqiqi çağdaş dövrdə aktual əhəmiyyət kəsb edir.

Kommunist ideologiyasının süqutundan sonra, dini amillərin nəzərəçarpacaq dərəcədə güclənməsi müşahidə olunurdu ki, bu da dini və milli təşkilatların dövlətə təsirinin artmasına səbəb oldu. Dövlətin müasir siyasətinin müəyyənləşməsində mütərəqqi dünya təcrübəsi mühüm rol oynaya bilər. Son illərdə vicdan azadlığı və dini birliklərin statusu ilə bağlı nəzəri müzakirələr geniş vüsət alıb, konfessiyaların təhsil, mədəniyyət və tərbiyə sahəsində fəaliyyəti genişlənib. Bununla bağlı münasibətləri tənzimləyən yeni qanunvericilik aktları hazırlanır. Bu qanunverici aktları hazırlanarkən müvafiq sahə üzrə nümunəvi modellərə diqqət yetirmək lazımdır.

Tədqiqatın məqsədi dövlət və dini birliklər arasındakı münasibətləri tarixi aspektdən öyrənmək, bu münasibətlərin inkişaf tendensiyalarını və qanunauyğunluqlarını müəyyən etməkdir. Müxtəlif tarixi dövrlərdə dövlət–konfessiya münasibətlərinin genezisi, mahiyyəti və məzmununu araşdırmaq, həmçinin müasir cəmiyyətdə dövlətlə dini birliklər arasında münasibətlərə təsir edən əsas amilləri müəyyən etməkdir.

Dövlət–konfessiya münasibətləri sahəsində, dini siyasət sahəsində, vicdan və din azadlığı sahəsində həm xarici, həm də yerli alimlər ciddi araşdırma aparmışlar. Xarici mənbələrdə dövlət və din münasibətləri C.Lokk, Ş.L. Monteskyö, İ.Kant, G.V.F. Hegel, F.Nitşe, N.A. Berdyayev, S.N. Bulqakov, J.P. Sartr və başqalarının əsərlərində araşdırılmışdır. Dövlət və din münasibətlərini tədqiq edən azərbaycanlı müəlliflər arasında Bəhram Həsənov, Anar Qafarov, Asəf Qənbərov, Vüqar Səlimov, Gündüz İsmayılov, Mübariz Ağalarlı və başqalarının adlarını qeyd etmək olar.

Tədqiqatın obyekti sosial sistemin tərkib hissəsi kimi dövlət və dini birliklər arasında münasibətlər kompleksidir. Tədqiqatın predmetinə dövlət hakimiyyəti orqanlarının, dini qurumların qərar və fəaliyyətləri daxildir.

**Dövlət və din arasında münasibətlərin müxtəlif formaları**

Dövlət–din münasibətləri dövlət təsisatları, o cümlədən hakimiyyət orqanları, dövlət qurumları və təşkilatlarla dini birliklər (dini qurumlar, dini qruplar, idarəetmə orqanları) arasında tarixən inkişaf edən münasibət formalarının məcmusudur. Bu münasibətlər dinin cəmiyyətdəki yeri və rolu haqqında tarixən formalaşmış fəlsəfi fikirlərə və dinin cəmiyyətin həyatında yeri, onların funksiyaları, fəaliyyət sahələri və bu qurumların bütün subyektlərinin səlahiyyətləri haqqında qanunvericiliklə təsbit olunmuş fikirlərə əsaslanır. "Din və siyasət arasındakı qarşılıqlı münasibət müxtəlif istiqamətlərdə inkişaf edə bilər. Bu, ilk növbədə, dinin mahiyyəti və məqsədi ilə əlaqədardır" (Qənbərov 2017, s. 2).

Dövlət ümumi siyasi sistem altında birləşmiş mütəşəkkil sosial birlikdir. "Dünyəvi dövlət" anlayışı Maarifçilik dövründən və Böyük Fransa inqilabından sonra ortaya çıxdı. "Dünyəvi dövlət modelinin 3 əsas növü var. Bunlar klassik (Fransa, Rusiya), neytral (ABŞ, Yaponiya) və imtiyazlı (İtaliya, İsrail, Almaniya, Polşa, İspaniya) dünyəvi dövlət modelləridir" (Otarbay 2021). Konfessional və ya dini dövlətdə dövlət dini kimi qəbul edilən bir din var. Bu dinin prinsipləri dövlətin qanunlarında nəzərə alınır. Bununla belə, dövlət dinindən başqa digər dinlərə də tolerant münasibət bəsləyir. Dini dövlət suveren dövlət tərəfindən rəsmi olaraq təsdiq edilmiş din və ya etiqaddır. Rəsmi dinə malik olan dövlət dünyəvi olmasa da, həmin dövləti mütləq teokratik dövlət kateqoriyasında dəyərləndirmək də doğru olmaz. Dini dövlətlər bir dinin rəsmi və ya hökumət tərəfindən icazə verilən qurumlarıdır, lakin dövlətin dinin nəzarəti altında olmasına ehtiyac yoxdur və dövlət tərəfindən təsdiqlənmiş din dövlətin nəzarəti altında deyildir. "Dini dövlət adlandırılan konfessional modeldə dövlət teokratik bir struktura malik olur və tamamilə dini istiqamətdə siyasət həyata keçirir" (Qənbərov 2019, s.24).

Dini dövlətlərdə dövlət hakim nüfuza malik olan dini qurumun maliyyələşməsində iştirak edir, bu və ya digər dərəcədə kadrlara təsir göstərir, qanunvericilik aktlarının qəbulunda, təşkilatın daxili fəaliyyətini tənzimləməklə dini liderləri dövlət strukturlarında iştiraka cəlb edir. Müəyyən bir inancın dövlət tərəfindən qeyri-rəsmi dəstək verilməsi ona dini dövlət statusu vermir. Ölkə sakinlərinin böyük əksəriyyəti eyni konfessiyaya mənsub olsa da, dövlət və kilsə rəsmi olaraq ayrılsa belə, dövlət status baxımından dünyəvidir.

Teokratik dövlətdə dini hakimiyyət siyasi hakimiyyətlə üst-üstə düşür, qanunlar dini göstərişlər nəzərə alınmaqla tərtib edilir və onlara əməl olunması hamı üçün məcburidir. Ateist dövlət isə heç bir dini tanımayan dövlətdir. O, dini etiqad azadlığını məhdudlaşdırır, bəzi hallarda isə tamamilə aradan qaldırır. Ateist dövlətlərə misal olaraq kommunist ölkələri göstərmək olar. "Albaniya 1967-ci ildən bəri ateizmin qanuni olaraq elan edildiyi yeganə dövlətdir. 1991-ci ildə Konstitusiyanın bu müddəası ləğv edildi" (Albania 2008).

Hal-hazırda dövlət və dini qurumlar arasında münasibətlərin tənzimlənməsinin müxtəlif formaları mövcuddur. "Dövlət–din münasibətlərini tənzimləyən modellərin müxtəlifliyi məhz dinin dünyaya və ictimai həyata baxışı, eləcə də dövlət strukturunun demokratik, avtoritar, ya da totalitar rejim olması kimi amillər tərəfindən müəyyənləşir" (Qənbərov 2018, səh.184). Dini siyasət və sekulyar siyasət meyarlarının qarşılıqlı münasibətləri nöqteyi-nəzərindən dövlət–din münasibətləri dörd əsas kateqoriyaya bölünür:

1. Dini dövlət – dini siyasət. İsraili, Cənubi Amerika ölkələrini, xüsusilə Braziliya və Qvatemalanı bu kateqoriyaya aid etmək olar.
2. Dünyəvi dövlət – sekulyar siyasət. Almaniya, Fransa, Türkiyə, ÇXR, İtaliyanı bu modelə misal göstərmək olar.
3. Dini dövlət – sekulyar siyasət. İsveç, İndoneziya, Yaxın Şərq ölkələrini bu kateqoriyaya aid etmək olar.
4. Dünyəvi dövlət – dini siyasət. ABŞ, Hindistan, Yaponiya, Polşanı bu modelə misal göstərmək olar. (Demerath 2001, s. 193)

Qədim dövrlərdən bəri dövlət və din ən mühüm sosial tənzimləyici kimi çıxış etmişdir. İlkin qanunvericilik normaları kimi dini normalar da müəyyən hallarda insanların nə etməyə borclu olduqlarını, müəyyən şəraitdə nəyin qadağan edildiyini və nəyə icazə verildiyini, normaları pozanlara hansı cəzaların verilməli olduğunu müəyyən edirdi. Ən qədim və ən universal ictimai şüur forması olan din bu günə qədər ictimai həyatın mühüm sahəsi olub. Erkən qəbilələr formalaşmasından milli dövlətlərin yaranmasına qədər din ictimai və siyasi tarixin ayrılmaz və mühüm hissəsi olmuşdur. Müasir dövlətlərarası və dinlərarası münasibətlər qlobal tendensiya çərçivəsində inkişaf etsə də, müəyyən dövlət daxilində tarixi, sosial-mədəni və siyasi şərait əsasında formalaşaraq, unikal xüsusiyyətlərə malikdir. Qədim dövrlərdə dövlətdə yalnız bir dinə üstünlük verilsə də, imperiyalar yaranandan bəri dövlət dini plüralizm şəraitində müxtəlif səviyyələrdə bir neçə dinlə münasibət qurmalı olmuşdur.

Coğrafi baxımından dövlət və din münasibətlərini üç yerə bölmək olar: Şərq modeli, Amerika modeli və Qərbi Avropa modeli. Şərq modeli digər dinlərin "azlıqda olması"ndansa, dövlətdə dinin nüfuzunu dəstəkləməyə üstünlük verir. Şərq modelində dövlət tənzimləmələrinin əlamətləri bunlardır: statusun hüquqi cəhətdən möhkəmləndirilməsi, bütün xərclərin dövlət tərəfindən maliyyələşdirilməsi, dövlət məmurları tərəfindən din işlərinin idarə edilməsi, dövlət tədbirlərində dini aliliyin aktivləşdirilməsi. Dövlət və din münasibətlərinin Amerika modeli dövlət və din arasında bütün konfessiyaların bərabərliyini, dini birliklərin dövlətdən ayrılmasını təmin edən səddin qurulmasını tələb edir. Qərbi Avropa modelində dövlət dinlərlə əməkdaşlıq edir, vətəndaş hüquqlarına əsaslanan "konstitusiya hüququ"nu təmin edir və ənənəvi dinləri qorumağı öz öhdəsinə götürür. "Dövlət–din münasibətlərinin strukturu aşağıdakılardan ibarətdir: dinə rəsmi statusun verilməsi; rəsmi statusun gətirdiyi imtiyazlar; dövlət büdcəsindən dini fəaliyyət ayrılan maddi yardımlar; dinə qarşı diskriminasiyalar; dövlətin dinə ümumi münasibəti; dini təsisatların müstəqilliyi; dinin təhsilə təsirləri" (Madeley, Enyedi 2003, s. 218).

Dövlət–din münasibətləri, dini ənənələr hər bir dövlətin tarixinə və daxili ictimai-siyasi sabitliyinə böyük təsir göstərir. Hazırda dünyada dövlət–din münasibətlərinin müxtəlif modelləri, konsepsiyaları formalaşıb və onların hər birinin özünəməxsus ictimai-tarixi yolu var. Məsələn, dünyanın ən qədim dinləri olan hinduizm və buddizm ilə dövlət arasındakı münasibətlər digər monoteist dinlərlə dövlət arasındakı münasibətdən əsaslı şəkildə fərqlənir. "XX əsrdə hinduizmin dövlət dini olduğu yeganə dövlət Nepal idi, lakin bu müddəa 2006-cı ildə ölkə parlamentinin qərarı ilə ləğv edildi (Nepal, 2006).

Ümumiyyətlə, dövlət və dinlərarası münasibətlərin tədqiqi sahəsində "dövlət–din münasibətləri" terminindən tez-tez istifadə olunur. Din və dövlət münasibətləri Xristianlıq və Qərb sivilizasiyasının tarixi ilə sıx əlaqədə yaransa da, bu münasibətlər digər mədəniyyətlər və dini ənənələr üçün mühüm əhəmiyyət kəsb edir. Din–dövlət münasibətləri dövlət təşkilatları ilə institutlaşmış dini strukturlar arasında münasibətlərin tarixən formalaşması nəticəsində bərqərar olub. Eyni zamanda, dövlət–din münasibətləri dinin cəmiyyətdəki yeri və xidmətləri, bu münasibətlərin subyektlərinin səlahiyyətləri, fəaliyyət sahələri haqqında qanunla müəyyən edilmiş anlayışlara əsaslanır. Bu anlayışlar zaman keçdikcə daxili sosial reallıqdan asılı olaraq ölkədən ölkəyə dəyişir.

Dünyəvi dövlətlərdə yalnız ictimai xarakter daşıyan dini fəaliyyət növlərinin həyata keçirilməsi qaydası tənzimlənir: kütləvi tədbirlərin keçirilməsi, dini təhsil müəssisələrinin yaradılması və s. Bu gün "din–dövlət münasibətləri" termini geniş mənada istifadə olunur, o cümlədən təkcə dövlət və din münasibətləri deyil, digər dini qurumlar da daxildir. Bu, bir tərəfdən, ənənəvi dinlərdən başqa yeni dini strukturların və cərəyanların meydana çıxması ilə bağlı idisə, digər tərəfdən də dövlətlə dinlərin institusional strukturları arasında münasibətlərin müəyyənləşdirilməsi və formalaşdırılması zərurətindən irəli gəlirdi.

Ümumiyyətlə, dövlət–din münasibətlərinin dövlətdən dövlətə fərqli olması və dövrün tələbindən asılı olaraq dəyişməsinə dair üç əsas nəzəriyyə mövcuddur: bunlar struktur, rasional seçim və siyasi yanaşmadır. Struktur yanaşmaya görə, cəmiyyətdə baş verən böyük və dərin dəyişikliklər dövlət–konfessiya münasibətlərində dəyişikliklərə səbəb olur. Rasional seçim yanaşmasına görə, əksinə, ayrı-ayrı siyasətçilər dövlətin dini qurumlarla hansı əlaqələr qurmalı olduğunu və onların müvafiq münasibət növlərini müəyyən edirlər. Üçüncüsü, siyasi yanaşmaya görə, dövlət–konfessiya münasibətləri dini və qeyri-dini qruplar arasında münaqişənin nəticəsidir. Sosial-mədəni yanaşma isə hər bir dövlətdə oxşar siyasi sistemlərin və sosial institutların münasibətlərinin fərqli həyata keçirilməsini izah edir, ənənəvi ictimai şüurda mental özəllikləri müəyyənləşdirir. Din və siyasət, onların institusional formaları dini qurum və dövlət-bəşəriyyət tarixində uzun və sıx əlaqələri olan mənəvi-sosial hadisələrdir. "Dini münasibətlərin tənzimlənməsi siyasətlə sıx şəkildə əlaqəlidir" (Səlimov 2020). Bəşəriyyətə məlum olan bütün mədəniyyətlərdə dini və hüquqi dəyərlər arasında sıx əlaqə müşahidə oluna bilər. Hesab olunur ki, ritual, adət-ənənə, hakimiyyət və ümumi qaydalar dini və hüquqi qanunlar sistemi üçün ümumidir.

**Qədim dövrdə dövlət–din münasibətləri**

Əsrlərboyu bəşər tarixində dövlət hakimiyyətinin yaranmasının izahında teoloji konsepsiyalar üstünlük təşkil etmişdir. Məsələn, Qədim Misirdəki fironların, Babildəki dövlət rəhbərlərinin "Tanrının övladları", Orta əsrlərdə isə hökmdarların "Tanrının seçilmiş qulları" olması anlayışı bu mədəniyyət sistemləri daxilində hakimiyyəti müəyyən edən və müqəddəsləşdirən nəzəriyyələr idi. Qədim Misirdə eramızdan əvvəl XIV əsrdə IV Amenhotep (e.ə.1372–1354) məcburi şəkildə Atona inamı ən vacib elan etdi. Fironlar çox vaxt Horus (Horos və ya Hor) tanrısının təcəssümü hesab olunurdu.

Yaxın Şərq xalqları, şumerlər, semitlər, ümumiyyətlə, dövlət dinlərinə malik idilər. Qədim dövrlərin yarımifoloji şumer padşahları və ya şahzadələrindən bir neçəsi öz şəhərlərinin tanrısının kahinləri idi. Təmmuz (Dumuzid) kimi qədim padşahlardan bəzilərinin Şumer panteona keçməsi güman edilir və sonrakı dövrlərdə padşahlar, məsələn, Akkadlı Sarqon (e.ə. 2316-2261) hakimiyyətə gəldikdən qısa müddət sonra, ilahimənşəli hesab olunurdular. Hakimiyyəti dövründə tanrı elan edilən ilk padşahlardan biri Laqaşlı Qudea (e.ə. 2142-2122), ardınca Şulqi (e.ə. 2094 -2046) kimi bir neçə Ur padşahlarının adlarını qeyd etmək olar.

Dövlət dini dövlət hakimiyyəti ilə ayrılmaz idi. Fironlar çox vaxt Horus tanrısının təcəssümü hesab olunurdular. Əhəmənilər İmperiyasında Mazdaizm dövlət dinidir, imperator isə ilahimənşəli mahiyyət kəsb edirdi. E.ə. 326-cı ildə Makedoniyalı İsgəndərin Hindistana yürüşündən əvvəl Şivaizm və Vişnuizm müxtəlif hind krallıqlarının dövlət dinləri idi. Bir neçə yunan şəhərinin bu şəhərlə əlaqəli bir tanrısı və ya ilahəsi var idi. O, təkcə şəhərin tanrısı deyil, həm də xüsusi şərəflərə layiq görülən biri idi. Qədim Yunanıstanda Afina şəhərində Afina, Spartada Artemida, Delosda Apollon və Artemida, Olimpdə Zevs var idi.

Çində Han sülaləsi (e.ə. 206 - 220) Konfutsiçiliyi dövlət dini olaraq təsis etdikdən sonra, Konfutsi mətnlərini bilmək dövlət xidmətinə girmək üçün mühüm şərt idi. Han imperatorları Konfutsiçiliyin mərkəzi konsepsiyası olan sosial nizamı yüksək qiymətləndirirdilər. Konfutsiçilik Sui sülaləsinə (581 - 618) qədər dövlət dini olaraq qaldı və Buddizmlə əvəz olundu. Yeni Konfutsiçilik X əsrdə Çində yenidən dövlət dini oldu.

Roma dövləti tanrılara ibadəti imperiyaya sədaqətlə əlaqələndirirdi. Roma İmperiyasında xristianlar və yəhudilər ciddi təqib olunurdular, imperatorun xilası və qorunması üçün tanrılara verilən qurbanlarda iştirak etmək onların imanlarına zidd idi. İmperator Qay Qaleri 311-ci ildə Valeri Maksimian ölüm döşəyində ikən bütün Roma İmperiyasında dini azadlıq elan etdi və xüsusilə xristianlara qarşı təqiblərə son qoymağa diqqət yetirdi. İmperator I Teodosi 380-ci ildə "Üç imperatorun fərmanı" ilə Xristianlığı Roma İmperiyasının dövlət dini elan etdikdən sonra, Avreli Avqustin (354-430) "Tanrı şəhəri haqqında" ("De civitate Dei contra paganos") əsərində (təxminən, 420-ci ildə) kilsə dövləti nəzəriyyəsi hazırladı. Onların əsas ideyaları Orta əsrlərboyu dominant olaraq qaldı. Xristian ilahiyyatçısı Avqustinə görə, dövlət Tanrının əmrlərinin icraçısıdır (Augustinus 1973).

Avqustdan başlayaraq imperatorun tanrı kimi ehtiramla qarşılanması bu dini sistemin əsl dövlət dininə çevrilməsinə, imperator kultunun Roma İmperiyasına bağlılığının simvoluna çevrilməsinə səbəb olmuşdur.

### Orta əsrlərdə dövlət dinləri

İmperator I Konstantin 313-cü ildə Milan fərmanı ilə dini azadlığı rəsmiləşdirir, lakin sonradan ilk Birinci Nikeya Kilsə Məclisini təşkil edərək kilsənin işlərinə müdaxilə edir. Xristianlıq 392-ci ildə Roma İmperiyasının dövlət dini elan edilmişdir. Salonik fərmanı ilə 380-ci ildə Xristianlığı Roma İmperiyasının rəsmi dini etdi. Bütpərəstlər, bidətçilər və yəhudilər hüquqi və inzibati məhdudiyyətlərlə yüklənərək, ikincidərəcəli vətəndaşlara çevrildilər. Pravoslavlıq isə Bizans imperiyasında dövlət dini olmuşdur.

Roma papası VII Qriqori (1073-1085) iddia edir ki, mütləq hakimiyyət (plenitudo potestatis) suveren papaya məxsusdur. Kilsə papadan başqa heç bir gücə dözə bilməz. "İki qılınc nəzəriyyəsi"nə görə, papa həm mənəvi qılınc, həm də maddi qılınca sahibdir. Papa ikinci qılıncı hökmdarlara verir ki, kilsənin ona göstərdiyi kimi ondan istifadə etsin. Kilsə papanı Allahın Yer üzündəki nümayəndəsi etmək yolu ilə pontifik teokratiya qurmağa çalışırdı. Avropada din–dövlət münasibətləri əsrlərboyu kilsə–dövlət qarşıdurması şəklində müxtəlif formalarda davam etmişdir. Dünyəvilik kilsə–dövlət mübarizəsi nəticəsində yaranmışdır. Müsəlman cəmiyyətlərində isə dindarlıq Qərbdəki kimi təşkil oluna bilmədi və böyük ölçüdə hökmdarlardan asılı qaldı. Ona görə də bu ənənənin ortaya qoyduğu din–dövlət münasibət modeli heç vaxt dini dövlət modeli olmamış, dövlət–din modeli olmuşdur (Aygen 2019, s.518).

Yunan və ərəb əsərlərinin XII əsrdə Latın tərcümələri Akvinalı Fomaya XIII əsrdə Xristianlıq və aristotelçilik arasında sintez yaratmağa imkan verir ki, bu da Müqəddəs Avqustinin yer şəhəri ilə ilahi şəhəri fərqləndirməsinə gətirib çıxarır. Sonra siyasi hakimiyyət təbii nizamın ifadəsinə çevrilir. Tomizm

daha sonra Fransiskanlar, Duns Skot və Uilyam Okkam tərəfindən etiraz edilir. Əvvəlcədən qurulmuş rasional nizam ideyasından imtina edənlər, bunun ilahi iradəni məhdudlaşdıracağını nəzərə alırdı.

Zərdüştilik dini meydana gəldiyi dövrdən etibarən, cəmiyyətin həyat tərzinə mühüm təsir göstərmişdir. Üç imperiyanın dövlət dini olan Zərdüştilik İslam dininin meydana gəldiyi dövrə qədər Yaxın Şərqdə öz əhəmiyyətini qoruyub saxlaya bilmişdi. Orta əsrlərdə Zərdüştilik 226-cı ildən 651-ci ilə qədər davam edən Sasanilər sülaləsinin dövlət dini oldu.

İslam dininin ideoloji əsasları yarandığı gündən müsəlman ölkələrində dövlət idarəçiliyinin istiqaməti, dövlət qanunvericiliyinin əsası, ictimai münasibətlərin tənzimlənməsində çox mühüm amil kimi çıxış edir. "Kitab əhli" (Yəhudilik və Xristianlıq) adlanan bəzi digər dinlərə səlahiyyətlər verilir, lakin onların tərəfdarları zimmi statusuna malikdirlər ki, bu da əlavə vergiləri, məhdud hüquq qabiliyyətini və imanlarının həyata keçirilməsinə dair məhdudiyyətləri nəzərdə tuturdu. Hazırda ən çox müsəlman əhalisi olan ölkələrin əksəriyyəti dini qaydalarla idarə olunur. Əksəriyyəti müsəlman olan bir çox ölkələrdə İslam dövlət dini kimi qəbul edilir: Əfqanıstan, Əlcəzair, Banqladeş, Bəhreyn, Bruney, Komor adaları, Cibuti, Misir, İran, İraq, İordaniya, Küveyt, Liviya, Maldiv adaları, Malayziya, Mavritaniya, Mərakeş, Oman, Pakistan, Fələstin, Qətər, Səudiyyə Ərəbistanı, Qərb Sahara, Somali, Birləşmiş Ərəb Əmirlikləri və Yəmən.

İngiltərə kralı VIII Henri tərəfindən 1534-cü ildə qurulan Anqlikanizm İngiltərənin rəsmi dövlət dinidir. İngiltərə kilsəsi bütün Böyük Britaniyanı əhatə etmədi. Uels Anqlikan kilsəsi, Şotlandiya Yepiskop kilsəsi və İrlandiya kilsəsi rəsmi kilsələr deyil və İngiltərə kilsəsindən müstəqildirlər. Bütün protestant dinləri Auqsburq sülhü ilə Almaniya İmperiyasında dövlət dini elan edilmişdir. Kalvinizm XV əsrdə meydana gəlmiş, Cenevrə və Şotlandiyada dövlət dini olur. Reformasiya dövründə – XVI əsrdə yaranan Lüteranlıq İsveçdə dövlət dininə çevrilir.

Qərb ölkələrində cəmiyyətin mədəni və siyasi inkişafında əsas rol oynayan yunan və Roma imperiyalarında din mühüm rol oynasa da, Şərq cəmiyyətlərində olduğu kimi, ictimai şüurun bütün formalarını birləşdirib özünə tabe etməmişdir. O, yunan şəhər-dövlətlərində və Roma İmperiyasında müxtəlif tanrılara sitayişin dini plüralizmin formalaşmasında mühüm amil olduğunu, həmçinin elmin, fəlsəfənin, incəsənətin və ədəbiyyatın dinin təsirindən asılı olmadığını vurğulayır.

### Müasir dövrdə dövlət–din münasibətləri

Dövlət və din arasında müasir münasibətlərin qurulmasının əsasını təşkil edən digər fundamental fəlsəfi ideya dini kompleksin rasionallaşdırılması ideyasıdır. İntibah dövründən başlayaraq, bir çox filosoflar tərəfindən müxtəlif variantlarda ifadə edilmiş, lakin müasir dövrdə Hobbes, Lokk və başqalarının əsərlərinin əsas məzmunu olmuşdur. Bu ideyanın dünyəvilikdən fərqli olaraq özəlliyi ondan ibarətdir ki, o, dinin özəl hüquq sferasına ayrılması zərurətini bəyan etmir, əksinə, dövlətin xeyrinə imanın vacibliyini təkid edir. Dini inanc, daha doğrusu, dini şüuru, dini hərəkəti və dini institutu özündə birləşdirən bütün mürəkkəb dini kompleks mahiyyətcə rasional olan sadə universal əxlaqi-praqmatik prinsipə endirilməlidir.

Maarifçilik dövründən etibarən, dövlət və dini, din və hüququ bir-birindən ayıran, dövlət və hüquq sistemini təşkil edən humanist və demokratik prinsipləri ortaya qoyan, bir çox anlayışları rasionallaşdıran ideyalar sıxışdırılır.

Hazırda xristian teokratiyası Vatikan, Yunanıstan, İngiltərə, Norveç, Danimarka, Farer adaları, Qrenlandiya, İslandiya, Malta, Lüksemburq, Lixtenşteyn, Kosta-Rika və Zambiya ölkələrində öz mövcudluğunu qoruyub saxlaya bilmişdir.

İstənilən cəmiyyətdə dinlə siyasətin münasibətinə həmin cəmiyyətin tarixi və milli xüsusiyyətləri təsir edir. Bundan əlavə, dinin quruluşu və sosial vəziyyəti, siyasi quruluşun tipi -hakimiyyət, siyasi rejim, bir çox iqtisadi, mədəni və xarici amillər əsrlərboyu dinlə siyasətin münasibətinə öz töhfəsini vermiş, sosial-mədəni xüsusiyyətlər yaratmışdır. Ümumiyyətlə, müasir dövlət–din münasibətləri sferasında əsas konsepsiyalar, modellər, dünyəviləşmə ideyaları, konkret istiqamətlər Maarifçilik dövründən başlayaraq, Qərb ictimai-siyasi və mədəni kontekstində inkişaf edir. Onlar əvvəlcə müstəmləkə dövlətlərinə yuxarıdan aşağıya doğru tətbiq edilmiş, sonralar dini etiqad azadlığının təmini və qorunması sahəsində müxtəlif beynəlxalq hüquqi sənədlərdə öz əksini tapmışdır. Qərbi Avropa ölkələrində dövlətlə dini qurumlar arasında münasibətlərin hüquqi tənzimlənməsi müəyyən dərəcədə milli dövlətlərin və konfessiyaların yarandığı dövrdən etibarən institusional şəkildə sistemləşdirilməyə başlayır.

Yaxın Şərqdə əhalisinin əksəriyyəti müsəlman olan dövlətlərin çoxunun rəsmi dini İslamdır, baxmayaraq ki, vətəndaşların gündəlik həyatına qoyulan dini məhdudiyyətlərin dərəcəsi ölkədən-ölkəyə görə dəyişir. Səudiyyə Ərəbistanının hökmdarları həm dünyəvi, həm də dini gücdən istifadə edir, İranın dünyəvi prezidentləri isə 1979-cu il İslam İnqilabından sonra dini qurumların qərarlarına əməl edirlər. Əhalisinin də əksəriyyəti müsəlman olan Türkiyə Atatürkün islahatlarından sonra dünyəvi ölkəyə çevrildi.

Dünyəvilik prinsipi dövlətlə dinin institusional şəkildə ayrılmasını və dövlətin dini qruplara neytral münasibətini nəzərdə tutur. Konstitusiya dünyəviliyi dini birliklərin siyasi məsələlərin müzakirəsində və ictimai müzakirələrdə iştirakını məhdudlaşdırmır, baxmayaraq ki, onların arqumentləri hüquqi-siyasi qərarlara əhəmiyyətli təsir göstərməməli, dövlət isə dini birliklərin muxtariyyətinə müdaxilə etməməlidir.

Dünyəvilik prinsipi Azərbaycan Konstitusiyasında öz əksini tapıb, dövlət və kilsə münasibətlərinin modelini, dini mənsubiyyətindən asılı olmayaraq qanun qarşısında bərabərlik prinsipini müəyyən edir. İnsanların əqidə, din və vicdan azadlığının qorunmasını təmin edir. Dövlət-din qarşılıqlı əlaqəsi həm dini qurumlar, həm də dövlət üçün müəyyən müsbət effekt verir. Fikrimizcə, dövlət-din münasibətləri konsepsiyası ölkənin çoxkonfessiyalı xarakteri nəzərə alınmaqla qurulmalı, sosial tərəfdaşlığa və etnik mədəniyyətin dirçəlişinə yönəldilməlidir ki, bu da həddindən artıq kargüzarlığın qarşısını alacaq. Təhsil sahəsində dini təbliğatın yox, mədəni yanaşmanın həyata keçirilməsini təmin etmək lazımdır. Azərbaycan dövləti xarici ölkələrin təcrübəsini, xüsusən də dövlət-din münasibətlərinin hüquqi tənzimlənməsi ilə bağlı təcrübəsini nəzərə almalıdır.

**Nəticə**

Dünyəviləşmə prosesinin baş verdiyi müasir şəraitdə dövlətlə dini qurumlar arasında əlaqə, əsasən, vicdan azadlığı prinsipi ilə müəyyən edilir. Vicdan azadlığı prinsipi BMT Assambleyası tərəfindən 10 dekabr 1948-ci il tarixində qəbul edilmiş Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, 16 dekabr 1966-cı il tarixində Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Pakt kimi beynəlxalq hüquqi sənədlərdə öz əksini tapmışdır. Tarixi və hüquqi şəraitdən asılı olaraq, dövlət–konfessiya münasibətlərinin hüquqi tənzimlənməsinin müxtəlif modelləri formalaşır. Dövlət–konfessiya münasibətlərinin modelləri problemi həm nəzəri, həm də praktiki baxımdan kifayət qədər mürəkkəbdir. Dövlət və dini konfessiyalar arasındakı əlaqə ilə məşğul olan hər bir tədqiqatçı öz modelini formalaşdırmağa çalışır. Dövlət–konfessiya münasibətləri sferası ilə bağlı yaxşı qurulmuş terminologiyanın olmaması da çətinlik yaradır ki, bu da ilk növbədə tədqiqat predmetinin çoxşaxəliliyi ilə bağlıdır. Praktiki aspektdə konkret dövlətdə faktiki olaraq inkişaf etmiş dövlət-konfessional münasibətlər modeli heç də həmişə nəzəri qaydalara uyğun gəlmir.

Dinin rolunu, cəmiyyətin siyasi sistemindəki yerini və əhəmiyyətini qiymətləndirərkən konfessional münasibətlərin mövcud müxtəlif modellərini nəzərdən keçirmək lazımdır. Birincisi, dövlət və din arasındakı münasibət, müəyyən bir inanc növü, dünyagörüşü, ideologiyası kimi. İkincisi, dövlətlə dini "rəsmi" təmsil edən təşkilatlar arasındakı münasibət. Üçüncüsü, dövlət və müxtəlif sosial qruplar arasında dini ənənəyə uyğun münasibət. Din və dövlət münasibətlərinin kooperativ modeli praktiki olaraq cəmiyyətin siyasi strukturundan asılı deyil, çünki onun ideal variantında dövlət və din bərabərhüquqlu tərəfdaşlardır.

Dövlət–konfessiya münasibətlərinin hüquqi tənzimlənməsi təcrübəsi göstərir ki, dinin dövlətdən ayrılması mütləq ola bilməz, çünki din formalaşdırdığı aksioloji göstərişlər vasitəsilə ən mühüm sistem yaradan amil kimi çıxış edir. Dinlər öz doqmatik xüsusiyyətlərinə görə sosial mühitdən asılı olaraq müxtəlif təsir potensialına malikdirlər. Dövlət və dini qurumların qanun çərçivəsində tərəfdaşlığı dövlət tərəfindən dini icmaların mənəvi nüfuzundan, sosial resursundan istifadə etməklə yanaşı, insanların dini tələbatlarının ictimai-siyasi sabitlik proseslərinə daxil edilməsinə imkan verir.

## ƏDƏBİYYAT

*Azərbaycan dilində*

1. Qənbərov A. (2019) Azərbaycanda dövlət-din münasibətləri: dünyəviliyin nəzəri və hüquqi əsasları. Bakı, "Nurlar" Nəşryyat-Poliqrafiya Mərkəzi, 216 səh.
2. Qənbərov A. (2018) Din sosilogiyası. Bakı, "Tuna Printing, Publishing, Packaging", 215 səh.
3. Qənbərov A. (2017) Dövlət-din münasibətləri: fərqli modellər və siyasətlər. Dövlət və Din - № 02 (49) Mart – Aprel
4. Səlimov V. (2020) Dövlət-din münasibətləri: istiqamətlər və hədəflər. "Yeni Azərbaycan" qəzeti, 03.12.2020-ci il

*Türk dilində*

5. Aygen M. (2019) Din, devlet ve siyaset ilişkisi üzerine. Avrasya Uluslararası Araştırmalar Dergisi. Cilt: 7 Sayı : 18 Sayfa: 516 – 536 Haziran 2019 Türkiye Araştırma Makalesi Makalenin Dergiye Ulaşma Tarihi:04.04.2019 Yayın Kabul Tarihi: 22.05.2019
6. Augustinus S. (1973) "Tanrı Devletinden Seçmeler", (Çeviren: Mete Tunçay J, Batı Siyasal Düşünüşünden Seçmeler, İstanbul, Cilt: 1, s. 381-382

*İngilis dilində*

7. *Demerath N.J.* Crossing the Gods: World Religions and Worldly Politics. III. New Brunswick: N.J.: Rutgers University Press, *2001*. 284 pp.
8. *Madeley* John T. S., Enyedi Zsolt. Psychology Press, *2003 - Church and state* - 245 pages.

*İnternet materialları*

9. Hoxha's Antireligious Campaign. (2008) Albania Table of Contents. https://countrystudies.us/albania/56.htm, Source: U.S. Library of Congress
10. Nepal ends official rule of Hinduism. — Free Online Library. Дата обращения: 17 марта 2008.
11. *Отарбай А.* Дамыған мемлекеттердің зайырлылық моделі. 26.08.2021. https://religions-congress.org/kz/news/novosti/1104

# MULTİKULTURAL VƏ DİNİ DƏYƏRLƏRİN FORMALAŞMASINDA HEYDƏR ƏLİYEV SİYASƏTİNİN ROLU

***Sevinc Muxtarova,***
Azərbaycan Milli Elmlər Akademiyası
Məhəmməd Füzuli adına Əlyazmalar
İnstitutunun kiçik elmi işçisi
seva_mukhtarova@mail.ru

## XÜLASƏ

Azərbaycan əsrlərboyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynayıb.

Azərbaycan tarixinin son yarıməsrlik dövrü dünyamiqyaslı dövlət xadimi, ümummilli lider Heydər Əliyevin adı və şəxsiyyəti, dövlətçilik təfəkkürü və yorulmaz fəaliyyəti ilə sıx bağlıdır. Multikulturalizm və tolerantlıq siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edən Heydər Əliyev Azərbaycan ərazisində yaşayan milli azlıqların etnik-mədəni və dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın – azərbaycançılığın təşəkkül və inkişafında müstəsna rol oynayıb. Məhz ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu uğurlu siyasət nəticəsində dövlət–din münasibətlərində həssas nəzarətlə bərabər, ölkədə etiqad azadlığı üçün şərait yaradıldı, dini dəyərlərə, ibadət yerlərinə və din adamlarına xüsusi qayğı göstərilməyə başlanıldı. Müstəqil dövlətin ilk milli Konstitusiyasında dini etiqad azadlığı, vicdan azadlığı tam şəkildə təmin edildi, dünyəvilik prinsipi dövlət–din modelinin əsası kimi müəyyənləşdi. Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan xalqının zəngin tolerantlıq ənənəsinin qorunub- saxlanılmasına dövlət səviyyəsində böyük önəm verilmiş, dini tolerantlıq ənənəsinin möhkəmləndirilməsi hökumətin din siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Ulu Öndər ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən, dövlət–din münasibətlərinin sivil prinsiplərə uyğun olaraq tənzimlənməsində, dini etiqad və vicdan azadlığının maneəsiz təminatında, dini-mənəvi, əxlaqi-etik dəyərlərin cəmiyyətin prioritet yaşayış normalarına çevrilməsində müstəsna xidmətlər göstərmiş, bu sahədə özündən sonra böyük siyasi irs və dövlətçilik təcrübəsi miras qoymuşdur.

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan Respublikası, multikultralizm, tolerantlıq, mədəniyyətlərarası əlaqə.*

## THE ROLE OF HEYDAR ALIYEV'S POLICY IN THE FORMATION OF MULTICULTURAL AND RELIGIOUS VALUES

***Sevinj Mukhtarova***

### ABSTRACT

Being at the crossroads of cultures, Azerbaijan has played a leading role in mutual understanding between religions and cultures for centuries.

The last half-century period of Azerbaijan's history is associated with the name of the world-class government figure, national leader Heydar Aliyev, his vision of statehood and restless activity. Heydar Aliyev, who considered the policy of multiculturalism and tolerance an integral part of the country's democratic development, saw the protection of ethnic, cultural and religious values of national minorities living in Azerbaijan as a crucial principle of democracy in the context of human rights and freedoms. His return to power in 1993, along with the creation of the political and economic foundations of the young state, played an exceptional role in the formation and development of the idea of Azerbaijanism, embodying the national and spiritual heritage of the Azerbaijani people. Precisely because of the successful policy laid down by the national leader Heydar Aliyev, along with strict control in state-religious relations, the conditions for freedom of religion were created in the country, and the special care for religious values, places of worship and clergy started to be provided. The first national Constitution of an independent state fully guaranteed freedom of religion and conscience, and the principle of secularism was defined as the basis of the state-religious model. During the period of Heydar Aliyev's leadership of the country, the great importance was attached to preserving the rich tradition of tolerance of the Azerbaijani people at the state level, the strengthening of the traditions of religious tolerance turned into one of the priorities of the government's religious policy. His merits in all spheres of public and political life were exceptional, including the regulation of state-religious relations following the civilized principles, the unhindered provision of freedom of religion and conscience, the transformation of religious, spiritual, moral, and ethical values into the top priorities for society, and he left behind a huge political legacy and the statehood experience in this area.

***Keywords:*** *Heydar Aliyev, the Republic of Azerbaijan, Multiculturalism, Tolerance, Intercultural Relations*

## РОЛЬ ПОЛИТИКИ ГЕЙДАРА АЛИЕВА В ФОРМИРОВАНИИ МУЛЬТИКУЛЬТУРНЫХ И РЕЛИГИОЗНЫХ ЦЕННОСТЕЙ

***Севиндж Мухтарова***

### РЕЗЮМЕ

Находясь на стыке культур, Азербайджан на протяжении веков играл ведущую роль во взаимопонимании между религиями и цивилизациями.

Последний полувековой период истории Азербайджана тесно связан с именем и личностью государственного деятеля мирового масштаба, общенационального лидера Гейдара Алиева, его видением государственности и неустанной деятельностью. Гейдар Алиев, считавший политику

мультикультурализма и толерантности составной частью демократического развития страны, видел защиту этнокультурных и религиозных ценностей национальных меньшинств, проживающих на территории Азербайджана, важным принципом демократии в контексте прав и свобод человека. Возвращение великого лидера Гейдара Алиева к власти в 1993 году, наряду с созданием политических и экономических основ молодого государства, сыграло исключительную роль в становлении и развитии идеи азербайджанства, содержащей национально-духовное наследие азербайджанского народа. Именно в результате успешной политики, заложенной общенациональным лидером Гейдаром Алиевым, наравне с чутким контролем в государственно–религиозных отношениях, в стране были созданы условия для свободы вероисповедания, началась особая забота о религиозных ценностях, местах поклонения и духовенстве. В первой национальной Конституции независимого государства в полной мере гарантировалась свобода вероисповедания, свобода совести, в качестве основы государственно-религиозной модели определялся принцип секуляризма. В период осуществления Гейдаром Алиевым руководства страной на государственном уровне придавалось большое значение сохранению богатой традиции толерантности азербайджанского народа, укрепление традиций религиозной толерантности стало одним из приоритетных направлений религиозной политики правительства. Великий лидер оказал исключительные заслуги во всех сферах общественной и политической жизни, включая регулирование государственно-религиозных отношений в соответствии с цивилизованными принципами, беспрепятственное обеспечение свободы вероисповедания и совести, преобразование религиозно-духовных и морально-этических ценностей в приоритетные нормы жизни для общества, и в этой области он оставил после себя большое политическое наследие и опыт государственности.

***Ключевые слова:*** *Гейдар Алиев, Азербайджанская Республика, мультикультурализм, толерантность, межкультурные отношения.*

## Giriş

Keçən əsrdən başlayaraq, ictimai fikir tarixində ən aktual məsələlərdən biri bəşər cəmiyyətinin minillərdir qarşılaşdığı müxtəlif sivilizasiyalar arasındakı münasibətlər olmuşdur. Təsadüfi deyildir ki, fəlsəfə və geosiyasətdə, hətta iqtisadiyyat və ədəbiyyatda belə, bu mövzu əsas istiqamət kimi götürülməyə başlanmışdır. Ümumilikdə, son dövrlər elmi dairələrdə bəşər cəmiyyətinin müxtəlif sahələrdə qarşılaşdığı problemlərin və ya qarşıdurmaların başlıca səbəbinin fərqli sivilizasiya daşıyıcılarının uyğunsuzluğu ilə əlaqələndirilməsi daha çox müzakirə olunur. İctimai həyatın bir çox sahələrində - istər dövlətlərarası, istər xalqlar arasında olsun, cəmiyyətin subyektləri arasında əlaqələrdə müsbət və mənfi məqamları ilə məhz fərqli sivilizasiyaların özünəməxsus xüsusiyyətləri əsas səbəb olaraq görülməkdədir. Bir sıra alimlər sivil dünyanın yaranmasını, inkişafını və hətta dünyanın sonunu da sivilizasiyaların dialoqu və ya qarşıdurması ilə əlaqələndirirlər. Xüsusi diqqət çəkən məqam ondan ibarətdir ki, geosiyasətin əsas istiqamətverici meyarlarının müəyyənləşdirilməsində də yeni yanaşma müşahidə olunmaqdadır. Belə ki, "geosiyasət" anlayışının yarandığı dövrdən indiyədək uzun müddət əsas münasibətlər milli dövlətlərin və ya ideologiyaların maraqları üzərində qurulduğu halda, qloballaşmanın getdikcə dərinləşdiyi müasir dövrümüzdə, artıq geosiyasətdə belə əsas proseslərin, sivilizasiyaların maraqları hesabına formalaşması fikri ortaya atılmışdır (Həbibbəyli 2011, 3).

Azərbaycan əsrlərboyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynayıb. Bu gün dünya üçün multikultural dəyərlər nə qədər yeni olsa da, Azərbaycan bu dəyərlər sisteminə – yəni eyni bir ölkədə yaşayan müxtəlif xalqların hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasəti ilə minillərdir bəşəriyyətə nümunə göstərir. Azərbaycanın dünya ölkələrinə təqdim etdiyi multikultural model xalqların dostluq və mehriban şəraitdə birgə yaşamasını təmin edən modeldir. Multikulturalizm – ayrıca götürülmüş ölkədə və bütövlükdə dünyada müxtəlif millətlərə və dinlərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmişdir. Humanist və demokratik nəzəriyyə, yaxud ideologiya olaraq, multikulturalizm tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, birgə zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyil.

"Multikulturalizm modeli" dedikdə, bir dövlətin sərhədləri daxilində müxtəlif etnomədəni tərəflərin dinc yanaşı yaşaması və öz mədəni xüsusiyyətlərini, həyat tərzini rəsmən ifadə etmək və qoruyub-saxlamaq hüququna malik olması nəzərdə tutulur. Multikulturalizm mədəniyyətlərin və sivilizasiyaların dialoqunun zəruri alətidir. Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. Tarixi ənənələrə nəzər salsaq görərik ki, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında ulu öndər Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmişdir (Multikulturalizm Azərbaycanın həyat tərzidir, 2016, 4).

## Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələrinin bərpası

Ulu öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli-mənəvi irsini ehtiva edən ideyanın – azərbaycançılığın təşəkkül və inkişafında müstəsna rol oynamışdır. Sovet dövründəki dinlə bağlı sərt qadağalar, din xadimlərinin repressiyalara məruz qalması, bütün dinlərə aid ibadət ocaqlarının dağıdılması, o cümlədən müstəqilliyimizin ilk illərində bütün sahələrdə olduğu kimi, din sahəsindəki pərakəndəlik, dinlə bağlı daha həssas, qətiyyətli, həm də məqsədyönlü siyasətin həyata keçirilməsinə zərurət yaratdı. Məhz ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu uğurlu siyasət nəticəsində dövlət–din münasibətlərində həssas nəzarətlə bərabər, ölkədə etiqad azadlığı üçün şərait yaradıldı, dini dəyərlərə, ibadət yerlərinə və din adamlarına xüsusi qayğı göstərilməyə başlanıldı. Müstəqil dövlətin ilk milli Konstitusiyasında dini etiqad, vicdan azadlığı tam şəkildə təmin edildi, dünyəvilik prinsipi dövlət–din modelinin əsası kimi müəyyənləşdi.

Ümummilli liderimiz Heydər Əliyevin siyasəti nəticəsində ötən əsrin 90-cı illərində Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələri bərpa edilmişdir. Müstəqilliyimizin ilk illərində yaranmış xaosdan ölkəni xilas edən və xalqın istəyi ilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev respublikamızda dini etiqad azadlığının təminatçısı, milli-mənəvi dəyərlərin qoruyucusu olmuşdur. Heydər Əliyev Azərbaycanda yaşayan dini icmalara qarşı həmişə hörmət və ehtiramla yanaşmış, onların dini bayramlarını təbrik etmiş, adət-ənənələrinə qayğı göstərmişdir. İştirak etdiyi bütün beynəlxalq tədbirlərdə tolerantlıqla bağlı fikirlərini bildirmiş, indiki qloballaşma dövründə dinlərarası, mədəniyyətlərarası dialoqa həmişə üstünlük vermişdir.

Müstəqil Azərbaycanda multikultural dəyərlərin formalaşmasında azərbaycançılıq ideologiyası əvəzsiz rol oynayır. Azərbaycan dövlətini 1993-cü ildə parçalanmaqdan qurtarmış Ümummilli Liderin uğurlarının kökündə məhz azərbaycançılıq ideyası dayanırdı. Həmin dövrdə respublikada milli-etnik ixtilaf, bölücülük tendensiyası ayrı-ayrı bölgələrdə özünü daha qabarıq göstərirdi. Belə bir zamanda xalq dinindən, etiqadından və etnik bölgüsündən asılı olmayaraq, Heydər Əliyevin azərbaycançılıq ideyası ətrafında birləşdi və ölkəni parçalamaq istəyən qüvvələr zərərsizləşdirildi (Multikulturalizm Azərbaycanın həyat tərzidir, 2016, 5).

Azərbaycan tarixinin son yarıməsrlik dövrü dünyamiqyaslı dövlət xadimi, ümummilli lider Heydər Əliyevin adı və şəxsiyyəti, dövlətçilik təfəkkürü, yorulmaz fəaliyyəti ilə sıx bağlıdır. Heydər Əliyev xalqının tarixi taleyində, onun mənəvi, siyasi və ictimai həyatında misilsiz xidmətlər göstərmiş dahi bir şəxsiyyətdir.

Ulu Öndər hələ ötən əsrin 70-ci illərində Azərbaycanda sağlam millətçilik ideyalarının yayılmasında, xalq arasında milli mənlik və milli şüur hissinin tərbiyə olunmasında nəhəng işlər görmüşdür. H.Əliyev 16 noyabr 1999-cu il tarixində Azərbaycandakı dini konfessiyaların başçıları ilə görüşündə cəmiyyətdə tolerantlıq və multikultural dəyərlərin vəziyyətini şərh edərək demişdir: “Azərbaycan Prezidenti olaraq mən məmnunam ki, ... ölkəmiz ictimai-siyasi sabitliyi qoruyub-saxlayır, müxtəlif millətlərdən, müxtəlif dinlərdən olan, müxtəlif adətlərə, müxtəlif mədəniyyətə mənsub olan insanlar arasında dostluq münasibətlərini təmin edir. Elə bunun özü tolerantlıqdır, baxmayaraq ki, tolerantlıq çox geniş anlayışdır, özündə çox mənaları birləşdirir. İndi burada başqa sahələr haqqında danışmaq istəmirəm. Tolerantlıq münaqişələrin, terrorizmin, ekstremizmin, separatizmin olmamasını tələb edir. Bunlar hamısı tolerantlıq anlayışına daxildir”.

Azərbaycanın multikultural ənənələrinin dövlət tərəfindən qorunması işində ən vacib olanı ümummilli lider Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə bu məsələnin hüquqi sənədlərdə, o cümlədən Azərbaycan Respublikasının Konstitusiyasında əks olunmasıdır. Belə ki, multikulturalizm siyasətinin əsasını təşkil edən tolerantlıq (dözümlülük) prinsipi Azərbaycan Respublikası Konstitusiyasının bir sıra maddələrində aydın şəkildə təsbit edilmişdir. Bununla bağlı “Bərabərlik hüququ” (maddə 25, bənd 3), “Milli mənsubiyyət hüququ” (maddə 44, bəndlər 1, 2), “Ana dilindən istifadə hüququ” (maddə 45, bəndlər 1, 2) və başqa maddələri göstərmək mümkündür. Ulu Öndər haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, “dinindən, dilindən, irqindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik” olmalarını təmin etməli idi. Təbii olaraq, Ulu Öndər etnik millətçiliyə alternativ kimi, bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda, dövlətçiliyimizin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O, qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndərin dediyi kimi, həqiqətən də “Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udin də, kumık da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır” (Abdullayev 2014, 3 ).

**Digər din və mədəniyyətlərə dözümlü münasibət**

Azərbaycan Respublikası polietnik dövlətdir. Xalq, dövləti təşkil edən etnosdan – azərbaycanlılardan və bir sıra milli azlıqlardan: udinlər, ingiloylar, qrızlar, xınalıqlar, buduqlar, tatlar, talışlar, ləzgilər və digərlərindən təşkil olunmuşdur. Bu millətlərin tarixən Azərbaycandan başqa vətənləri olmamış və buna görə də vahid polietnik Azərbaycan vətəndaşları hesab olunurlar. Bu millətlərdən başqa, respublikamızda öz tarixi vətənləri olan ruslar, ukraynalılar, belaruslar, kürdlər, yəhudilər, yunanlar, almanlar və tatarlar yaşayırlar. Təkcə Bakıda rusların, ukraynalıların, kürdlərin, lakların, ləzgilərin, slavyanların, tatların, tatarların, gürcülərin, ingiloyların, talışların, avarların, axıska türklərinin, Avropa və dağ yəhudilərinin, gürcü yəhudilərinin, alman və yunanların iyirmidən yuxarı cəmiyyətləri və mədəniyyət mərkəzləri vardır. Ümumiyyətlə, etnik azlıqların kompakt şəkildə yaşadıqları bütün rayonlarda belə icmalar mövcuddur. Məhz Azərbaycanda dağ yəhudilərinin məskəni – Qırmızı sloboda, molokan kəndi İvanovka, udin kəndi Nic, öz dili, özünəməxsus adət və ənənələri ilə məşhur olan Xınalıq kəndi və başqa milli azlıqların yaşadığı onlarca belə məskənlər mövcuddur. Etnik azlıqlar da yerli əhali ilə bərabər bütün hüquqlara malikdirlər.

Azərbaycanda dinlərarası dialoq və tolerantlığın dünyanın bir çox polietnik regionları üçün nümunə olan xüsusi modeli formalaşmışdır. Ölkə vətəndaşlarının böyük əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarını təmin etməklə yanaşı, dövlət respublika ərazisində yayılan bütün ənənəvi dinlərə qayğı göstərir. Hazırda Azərbaycanda müsəlman icmaları ilə paralel şəkildə qeydə alınmış 21 qeyri-müsəlman dini icmaların fəaliyyətini təmin edən "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu və bu qanunun icrasını həyata keçirən Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi mövcuddur. Komitənin əsas vəzifəsi isə ölkədə müxtəlif din və konfessiyalara bərabər imkanlar və şərait yaratmaqdan ibarətdir. Milli azlıqların hüquq və azadlıqlarının qorunması Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsas istiqamətlərindən biridir və tolerantlıq baxımından örnək bir dövlət kimi özünü təsdiqləyən Azərbaycan hazırda burada yaşayan bütün xalqların, bütün dinlərə etiqad edənlərin azad yaşadığı bir dövlətdir. İrqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən və mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların hüquq və azadlıqlarının bərabərliyini təmin edən milli siyasətin əsas müddəaları Azərbaycan konstitusiyasında (maddə 25, 44.) göstərilmişdir. Azərbaycan Respublikasının milli siyasət konsepsiyası, həmçinin aşağıdakı beynəlxalq sənədlərə əsaslanır:

- BMT-nin İnsan hüquqları Haqqında Ümumi Bəyannaməsi;
- İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi Haqqında Avropa Konvensiyası;
- BMT-nin "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktı;
- Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin Yekun aktı;
- ATƏT-in İnsan meyarları üzrə konfransının Kopenhagen sənədi;
- Müstəqil Dövlətlər Birliyinin üzvləri tərəfindən qəbul edilmiş "Milli azlıqlara mənsub olan şəxslərin hüquqlarının təmin edilməsi haqqında" konvensiya.

Azərbaycanda müxtəlif millətlərin nümayəndələri cəmiyyətin ayrı-ayrı sahələrində məhsuldar işləyərək, ölkənin inkişafına layiqli töhfələr verir, dövlət strukturlarında çalışırlar. Milli Məclisdə ölkənin bir sıra etnik azlıqları, o cümlədən, rus, ləzgi, tat, talış və b. öz nümayəndələri ilə təmsil olunurlar (Multikulturalizm Azərbaycanın həyat tərzidir, 2016, 7)

Azərbaycançılıq məfkurəsini müasir Azərbaycan dövlətçiliyinin ideoloji təliminə çevirən Ulu Öndərin 13 avqust 2001-ci il tarixində milli-mənəvi dəyərlərimizin qorunması ilə bağlı verdiyi bəyanatda

səslənən fikirlər kifayət qədər aktual, xəbərdaredici və ibrətamizdir: “Hər xalqın öz adət-ənənəsi var, öz milli-mənəvi və dini dəyərləri var. Biz öz milli-mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik. Əgər insan mənsub olduğu millətin milli-mənəvi dəyərlərini anlaya bilmirsə, yaxud onları qəsdən təhrif edirsə, əgər vəziyyət o dərəcəyə çatırsa ki, Azərbaycanın dini rəhbəri təhqir olunur, onda, təbiidir ki, bu, bizi narahat etməlidir... Biz Azərbaycanda demokratiyanın bütün tələblərini tətbiq etmişik, edəcəyik də. Ancaq Azərbaycanın milli-mənəvi dəyərlərinə qarşı, Azərbaycanın milli mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin hamısının qarşısı alınacaqdır” (Niftiyev 2015, 45 ).

Çoxmillətli və çoxkonfessiyalı dövlət olan müstəqil Azərbaycan Respublikasının bütöv bir tarixi mərhələsi bilavasitə umummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər ictimai-siyasi həyatın bütün sahələrində, o cümlədən, dövlət-din münasibətlərinin sivil prinsiplərə uyğun olaraq tənzimlənməsində, dini etiqad və vicdan azadlığının maneəsiz təminatında, dini-mənəvi, əxlaqi-etik dəyərlərin cəmiyyətin priaritet yaşayış normalarına çevrilməsində müstəsna xidmətlər göstərmiş, bu sahədə özündən sonra böyük siyasi irs və dövlətçilik təcrübəsi miras qoymuşdur.

Əhalisinin böyük əksəriyyətini müsəlmanlar təşkil edən Azərbaycan digər din və mədəniyyətlərə dözümlü münasibətdə dünyanın bir sıra dövlətlərindən fərqlənir. Azərbaycan müxtəlif millətlərin dini konfessiyaların dinc birgə yaşadığı unikal nümunədir. Ölkəmizdə bütün dinlərin nümayəndələrinə dini ayinlərini və mərasimlərini sərbəst yerinə yetirmək üçün lazımi şərait yaradılmışdır. Tarixən müxtəlif xalqlar, etnik azlıqlar ərazimizdə məskunlaşmış, əsrlərboyu Azərbaycan xalqının ictimai-siyasi həyatında mühüm rol oynamış, etnik xüsusiyyətlərini, dinlərini, adət-ənənələrini qoruyub saxlamış və bu günədək yaşatmışlar. Müxtəlif dinlərə etiqad edən insanlar Azərbaycanda daim sülh və əmin-amanlıq şəraitində yaşamış, dini icmalar arasında daim möhkəm dözümlülük, qarşılıqlıqlı anlaşma olmuş, milli, irqi, dini ayrı-seçkilik müşahidə edilməmiş, ayrı-ayrı dinlərə etiqad bəsləyən insanlar mehriban bir ailə kimi yaşamışlar. Müasir dövrdə də ölkəmizdə bu zəngin ənənə qorunub saxlanılaraq, uğurla davam etdirilir.

Digər din və mədəniyyətlərə dözümlü münasibət, onlarla qarşılıqlı anlaşma şəraitində yaşamaq Azərbaycan xalqının təbiətindən, insanpərvərliyindən, xoş məramından irəli gəlir. Bu gün dünyanın bir çox ölkələrində insanların yaşayış yerinin müəyyən edilməsində onların dini mənsubiyyəti əsas meyar kimi götürülür. Yəhudi, xristian, İslam və digər dinlərin nümayəndələri ayrı-ayrı məhəllələrdə yaşayırlar. Belə ki, ölkəmizdə müxtəlif dinə mənsub olan insanlar bir küçədə, bir həyətdə, hətta bir evdə sərbəst yaşayır və bir-birlərinin bayramlarında, dini ayinlərində bir ailə kimi yaxından iştirak edirlər.

Bu zəngin ənənlərin qorunmasında və möhkəmlənməsində Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur. O, yenidən hakimiyyətə gəldikdən sonra bir çox sahələrdə olduğu kimi, dövlət-din münasibətlərində də əsaslı dəyişikliklər baş vermiş, milli-mənəvi dəyərlərin qorunmasına dövlət qayğısı artırılmış, dini sahədə mövcud problemlərin həlli istiqamətində ciddi addımlar atılmışdır (Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər 2007, 160).

Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycan xalqının zəngin tolerantlıq ənənəsinin qorunub-saxlanılmasına dövlət səviyyəsində böyük önəm verilmiş, dini tolerantlıq ənənəsinin möhkəmləndirilməsi hökumətin din siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdir. Ulu öndər mütəmadi olaraq müxtəlif dinlərə mənsub din xadimləri ilə görüşər, ibadət ocaqlarını ziyarət edər, dini bayramlar və mərasimlər münasibətilə onları təbrik edərdi.

Ümummilli Liderin respublikaya rəhbərliyi dövründə məscidlərlə bərabər, sinaqoq və kilsələrində bərpa və inşasına diqqət artırılmışdır. Onun diqqət və qayğısı sayəsində 1920-ci ildə bağlanmış Cen Mironosets kilsəsinin binası 1991-ci ildə Rus provaslav kilsəsinə verilmişdir. Azərbaycanda 2001-ci ilin may

ayında səfərdə olan Rusiyanın Patriarxı II Aleksi bu məbədə “Baş kafedral kilsə” statusu vermişdir. Kilsə Sovet hakimiyyəti dövründə anbar kimi istifadə olunduğundan, dağıntılara məruz qalmışdır. Kilsənin təmirini Moskvada yaşayan azərbaycanlı iş adamı Aydın Qurbanov öz üzərinə götürmüş və Baş kafedral kilsə tezliklə təmir olunmuşdur. Kilsənin açılış mərasimində ümummilli lider Heydər Əliyev itq söyləmişdir. Bakıda 1999-2001-ci illərdə digər pravoslav məbəd – Müqəddəs Məryəmin miladı baş kilsəsi bərpa olunmuşdur (Məmmədov 2007, 161).

Azərbaycanda 1998-ci ildə Bakı və Xəzəryanı ölkələrin bölgə yepiskopluğu yaradılmış, tərkibinə Azərbaycan ərazisindəki pravoslav kilsələri ilə yanaşı, Dağıstan və Çeçenistan respublikalarındakı pravoslav kilsələri də daxil edilmişdir. Rum partiarxı II Vorfolomey 2003-cü ilin aprel ayında dinlərarası dialoqu inkişaf etdirmək məqsədilə Azərbaycanda rəsmi səfərdə olmuş, dövlət rəsmiləri, din xadimləri, müsəlman, xristian, yəhudi icmalarının rəhbələri ilə görüşlər keçirmiş, dini durumla tanış olmuş və ölkədə fəaliyyət göstərən ənənəvi və qeyri-ənənəvi konfessiyalar arasındakı mövcud münasibətləri yüksək qiymətləndirmişdir. Qonağı ümummilli lider Heydər Əliyev də qəbul etmişdir. Qəbələ rayonunun Nic kəndində 2006-cı ilin may ayında “Müqəddəs Yelisey” adlanan qədim Alban kilsəsinin yerində “Çotari” adlı Alban-udi kilsəsinin açılış məqasimi keçirilmiş, tədbirdə dövlət üzvləri, dini icmaların nümayəndələri və xarici qonaqlar da iştirak etmişlər.

**Nəticə**

Azərbaycanın təməl prinsiplərini Ulu Öndərin ideyaları təşkil edən bugünkü nümunəvi dövlət–din, tolerantlıq modeli öz bəhrəsini verir. Heydər Əliyevin dövlət–din münasibətləri sahəsində qoyduğu siyasətin onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla aparılmasının nəticəsidir ki, bu nümunə dünya ölkələri tərəfindən nümunəvi model kimi qəbul olunur. Azərbaycan xalqının çoxəsrlik adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin qorunub-saxlanılmasında və tolerantlıq ənənələrinin möhkəmləndirilməsində ümummilli lider Heydər Əliyevin müstəsna xidmətləri vardır. Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra, bütün sahələrdə olduğu kimi, ölkəmizdə dini etiqad azadlığının təmin olunması, dövlət–din münasibətlərinin tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması, dini abidələrimizin bərpası istiqamətində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirildi. Məhz ulu öndər Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycan Respublikasının Konstitusiyasına dini etiqad azadlığı ilə bağlı bir sıra mühüm iddialar salındı. Azərbaycan əhalisinin böyük əksəriyyətinin müsəlman olmasına baxmayaraq, konstitusiyada bütün dinlərin bərabərhüquqlu, hər bir vətəndaşın etiqad azadlığı olduğu xüsusi vurğulanmalıdır. Onun rəhbərliyi ilə Azərbaycan xalqının multikultutral ənənələrinin qorunması sahəsində həyata keçirilən siyasi xətt hazırda Prezident İlham Əliyev tərəfindən inamla davam və inkişaf etdirilir. Buna görə də Azərbaycandakı bütün xalqlar özlərini sərbəst, rahat hiss edir, dini inanclarına görə mənfi münasibətlərə məruz qalmır, dövlətin hüquqlu vətəndaşları olaraq yaşayırlar.

Qeyd olunan faktlar gösrərir ki, Azərbaycanda dini tolerantlığın bərqərar olması üçün bütün tədbirlər ardıcıllıqla, məqsədyönlü şəkildə həyata keçirilir, bütün dinlərin ardıcıllarının tam bərabərhüquqlu vətəndaş kimi yaşayıb fəaliyyət göstərməsinə şərait yaradılır. Tolerantlıq Azərbaycanın əvəzsiz, dünya xalqlarına nümunə göstəriləcək milli-mənəvi sərvətidir. Azərbaycan xalqı özünün tolerantlığını qoruyub-saxlayacaq və gələcək nəsillərə çatdıracaqdır.

## ƏDƏBİYYAT


1. Abdullayev K. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir //Azərbaycan**. -** 2014. - 23 iyul.- S.7.
2. Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər. - Bakı: Əbilov, Zeynalov və oğulları Nəşriyyat-Poliqrafiya Evi, 2007. - 424 s.
3. Həbibbəyli Ə. Sivilizasiyalarin kəsişməsində türk dünyasi. - Bakı: Elm və təhsil. - 2011. - 257s.
4. Məmmədov C. Azərbaycanda dini dözümlülük ənənələrinin bərqərar olmasında Heydər Əliyevin rolu // Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər beynəlxalq konfrans.3-4 aprel. -2007. –Bakı,159 s.
5. Multikulturalizm Azərbaycanın həyat tərzidir (metodik tövsiyələr). - Bakı. - 2016. - 59s.
6. Niftiyev N. Azərbaycanda birgəyaşayış və multikulturalizm. - Bakı, 2015. - 408 s.

# AZƏRBAYCANDA DÖVLƏT–DİN MÜNASİBƏTLƏRİ

***Gülnarə Əsədullayeva,***
Azərbaycan İlahiyyat İnstitutunun
"Dinlər tarixi" ixtisası üzrə II kurs magistrantı
gulnara.asadullayeva@gmail.com
https://orcid.org/0000-0002-6002-6814

## XÜLASƏ

Müstəqil Azərbaycan dövlətinin qurucusu, xalqın ümummilli lideri – Heydər Əlirza oğlu Əliyevin 2023-cü il mayın 10-da 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan olunmuşdur.

Respublikamızda tolerantlığın əsası Umummilli Liderin adı ilə bağlıdır. Tariximiz, təhsilimiz, dinimiz, mədəniyyətimiz Heydər Əliyev siyasətinin əsas məqsədlərindən olub. Tarix hər bir dövlətin mənəvi və maddi sərvətidir. Qədim tarixə malik dövlətçilik ənənələrimizin yeni tarixi dövrdə qorunub-saxlanılması və onun gələcək nəsillərə miras olaraq ötürülməsi Heydər Əliyev siyasətinin başlıca amillərindəndir. Bir milləti məhv etmək üçün onun dilini, tarixini və dinini məhv etmək kifayətdir. Tarixə nəzər saldıqda, düşmənlərin daim bu üç məhfum – tarix, dil və din üzərindən çirkin əməllərinin şahidi oluruq. Əsas hədəf kimi, mədəniyyətimizin nümunələri olan dini-tarixi abidələrimiz məhv edilib. Abidələr təkcə maddi-mədəniyyət nümunələri deyil, onlar tarixin yaddaşı və yadigarlarıdır. Bu səbəbdən onları qorumaq və gələcək nəsillərə ötürmək vacibdir.

Respublika ərazisində İslam ilə yanaşı, digər din mənsublarına məxsus tarixi abidələr də dövlət səviyyəsində qorunur.

Heydər Əliyev haqqında belə bir fikir formalaşmışdır ki, onun üçün mümkün olmayan heç bir iş yoxdur. Çıxılmaz vəziyyətlərdə belə, lazımi addımlar ata bilmək Ulu Öndərin müdrikliyinin nəticəsi idi.

Ümummilli Lider Azərbaycan gənclərini savadlı, təhsilli görmək arzusunda idi. Onun təhsilə verdiyi dəyərdən, xüsusilə dini təhsilə ayırdığı diqqətin az bir qismindən məqalədə bəhs olunub. Həmçinin respublika ərazisində yaşayan digər din mənsublarına məxsus gənclər üçün yaratdığı şəraitin bu gün onun layiqli davamçılarının simasında gözəl şəkildə davam etdirildiyini görə bilərik.

***Açar sözlər:*** *tarix, din, dövlət, təhsil, dəyərlər, tolerantlıq, siyasət.*

## STATE-RELIGIOUS RELATIONS IN AZERBAIJAN

***Gulnara Asadullayeva***

**ABSTRACT**

In accordance with the Decree of the President of the Republic of Azerbaijan, Mr. Ilham Aliyev, dated September 29, 2022, the year of 2023 was declared the "Year of Heydar Aliyev" in the Republic of Azerbaijan on the occasion of the 100th anniversary of the founder of the independent Azerbaijan, the National Leader Heydar Alirza oglu Aliyev on May 10, 2023.

The foundation of tolerance in our country is associated with the name of the National Leader. Our history, education, religion, and culture were the main goals of Heydar Aliyev's policy. History is the spiritual and material heritage of every state. Preserving our traditions of statehood with its ancient history in the new historical period and passing them on to future generations was one of the main factors of Heydar Aliyev's policy. To destroy a nation, it is enough to destroy its language, history, and religion. Viewing the history, we constantly witness the heinous actions of enemies towards these three concepts – history, language, and religion. Religious and historical monuments, being an example of our culture, were destroyed as the main target. Monuments are not just samples of material culture, they are the historical memory. For this very reason, it is important to preserve them and pass them on to future generations.

Within the territory of our country, along with Islam, the historical monuments belonging to other religions are protected at the state level.

An opinion was formed that nothing was impossible for Heydar Aliyev. Even in desperate situations, the opportunity to take the necessary steps was the result of his wisdom.

The National Leader wanted to see Azerbaijani youth literate and educated. The article described in a few words the importance he attached to education, especially religious one. We also see that the conditions he created for the young followers of other religions living in the country are preserved today by his worthy successors.

***Keywords:*** *History, Religion, State, Education, Values, Tolerance, Politics*

## ГОСУДАРСТВЕННО-РЕЛИГИОЗНЫЕ ОТНОШЕНИЯ В АЗЕРБАЙДЖАНЕ

***Гульнара Асадуллаева***

**РЕЗЮМЕ**

В соответствии с Распоряжением Президента Азербайджанской Республики господина Ильхама Алиева от 29 сентября 2022 года по случаю 100-летнего юбилея основателя независимого Азербайджанского государства, общенационального лидера народа Гейдара Алирза оглы Алиева 10 мая 2023 года, 2023 год в Азербайджанской республике был объявлен «Годом Гейдара Алиева».

Основа толерантности в нашей республике связана с именем общенационального лидера. Наша история, образование, религия, культура были основными целями политики Гейдара Алиева. История является духовным и материальным достоянием каждого государства. Сохранение в новом историческом периоде наших традиций государственности с древней историей и передача их в наследство будущим поколениям являются одними из главных факторов политики Гейдара Алиева. Для уничтожения нации достаточно уничтожить ее язык, историю и религию. Оглядываясь на историю, мы постоянно становимся свидетелями гнусных поступков врагов по отношению к этим трем понятиям – истории, языку и религии. В качестве основной цели уничтожались религиозно-исторические памятники, являющиеся образцами нашей культуры. Памятники – это не просто образцы материальной культуры, они являются памятью истории. По этой причине важно сохранить их и передать будущим поколениям.

На территории республики, наряду с исламом, на государственном уровне охраняются исторические памятники, принадлежащие другим религиям.

О Гейдаре Алиеве сложилось мнение, что для него не было невыполнимой работы. Даже в безвыходных ситуациях возможность предпринять необходимые шаги была результатом мудрости великого лидера.

Общенациональный лидер хотел видеть азербайджанскую молодежь грамотной и образованной. В статье в нескольких словах было рассказано о значении, которое он придавал образованию, особенно религиозному образованию. Также мы видим, что созданные им условия для молодых последователей других религий, проживающих на территории республики, сегодня сохраняются достойными продолжателями его дела.

***Ключевые слова:*** *история, религия, государство, образование, ценности, толерантность, политика.*

**Giriş**

Azərbaycanda dini tolerantlıq mədəniyyəti və başqa millətlərə qarşı milli dözümlülük tarixən çox yüksək səviyyədə olmuşdur. Azərbaycan müstəqillik qazandıqdan sonra, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi vaxtlarda respublikamızda dini etiqad azadlığı tam təmin edilmiş, milli-mənəvi dəyərlərə münasibət kökündən dəyişilmiş, dini ayin və mərasimləri yerinə yetirmək üçün bütün dinlərə mənsub olan insanlara bərabər şərait yaradılmışdır. Bunun nümunəsini biz Respublika ərazisində fəaliyyət göstərən kilsə, sinaqoqlarda görə bilərik. Dövlət tərəfindən bunlar hər zaman digər dinlərə məxsus dini-tarixi abidələr kimi qorunmuş, əsas strukturu saxlanılmaqla təmir edilmişdir.

Xalqımızın dini cəhətdən tolerant olduğunu respublikamıza səfərə gələn dünya dini liderləri də təsdiq edirlər. Bakıda 2010-cu ilin 26-27 aprel tarixlərində keçirilən Dünya dini liderlərinin sammitində iştirak edən qonaqlar bunun şahidi olmuşlar.

Xalqlar, dövlətlər və sivilizasiyalar arasında dialoq imkanlarını genişləndirmək, cəmiyyətdə sülh, əmin-amanlıq və dözümlülük mühitini inkişaf etdirmək mədəniyyətlərarası dialoqla bağlı keçirilən tədbirlərin əsas məqsədidir. Bunun nümunəsini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili barədə" 27

may 2011-ci il tarixli Fərmanında görə bilərik. Prezidentin bu Fərmanında deyilir: **“Azərbaycan Respublikası Konstitutsiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkəmizin İslam dünyası ilə Qərb sivilizasiyası və eləcə də digər mədəniyyətləri təmsil edən xalqlar arasında dialoqun və etimadın möhkəmləndirilməsində mühüm rolu nəzərə alınmaqla, müxtəlif mədəniyyətlər arasında əməkdaşlıq üçün qlobal platformanın təmsil edilməsi və Azərbaycan xalqının tolerant mədəniyyətinin, tarixi ənənələrinin beynəlxalq aləmə tanıdılması məqsədilə qərara alıram: Azərbaycan Respublikasında 2011-ci ildən başlayaraq, hər iki ildən bir Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu təşkil edilsin”.**

Respublikamızda dinlərarası dialoqun və dini tolerantlıq mədəniyyətinin inkişafında Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin fəaliyyəti danılmazdır. Bu fəaliyyət nəticəsində, İslam və başqa dinlərin rəhbərləri ilə daim müxtəlif görüşlər keçirir, ölkə daxilində və xaricdə beynəlxalq dini konfranslar təşkil olunur.

### Heydər Əliyev və tolerant dəyərlər

Respublikamız müstəqillik qazandıqdan sonra, Heydər Əliyevin diqqət mərkəzində duran əsas sahələrdən biri də dinimizin inkişafı oldu. Ulu Öndərin İslam dininə verdiyi dəyər onun çıxışlarında da öz əksini tapır. Məhəmməd peyğəmbərin Mövlud günü münasibətilə Ulu Öndərin 5 sentyabr 1993-cü il tarixində Təzəpir məscidindəki çıxışında Peyğəmbərə (s), müqəddəs kitabımız Qurani-Kərimə, Axirət gününə inama olan münasibəti bir dövlət başçısı kimi, onun mənəviyyatının yüksəkliyindən, əxlaqından xəbər verir (DQİDK 2015, 21).

İslamda tolerantlıq dinin əsas ünsürü kimi qəbul edilir. İslam, eyni zamanda, müsəlman olmayan, amma müqəddəs kitabı olanlarla dialoqu necə qurmaq lazım olduğunun Qurani-Kərimin **“Ali-İmran” surəsinin 64-cü ayəsində** göstərildiyini bildirir: **“Söylə: “Ey kitab əhli, sizinlə bizim aramızda eyni olan bir kəlməyə tərəf gəlin!”. Allahdan başqasına ibadət etməyək. Ona şərik qoşmayaq və Allahı qoyub bir-birimizi Rəbb qəbul etməyək!”. Əgər onlar yenə də üz döndərərlərsə, o zaman onlara deyin: “İndi şahid olun ki, biz, həqiqətən, Allaha təslim olanlarıq!”.**

Heydər Əliyev öz dinimizi, mənəviyyatımızı qorumaqla yanaşı, xalqı başqa dinlərə də hörmətlə yanaşmağa dəvət edərək, Azərbaycanda multikultural dəyərlərin və tolerantlığın əsasını qoymuşdur (DQİDK 2015, 21).

Ölkə ərazisində yaradılan sülh, digər dinlərə anlayışla və hörmətlə yanaşma müxtəlif din mənsublarının rahat şəkildə respublika ərazisində birgəyaşayışına səbəb olmuşdur. Uca Allahın (c) İslamın birinci əsas mənbəyi olan Qurani-Kərimin **“Kafirun” surəsinin 6-cı ayəsində** buyurduğu kimi: **“Sizin dininiz sizə, mənim dinim mənə aiddir”.**

Ayədən insanların müxtəlif inamda və fikirdə ola biləcəkləri və həmin şəxslərə qarşı münasibətin necə formalaşacağı aydın görünür.

Azərbaycan Respublikasının Qanunlarına görə, din dövlətdən ayrı olsa da, Heydər Əliyevin hər zaman dövlət idarəçiliyində, xalqa münasibətində, davranışlarında İslam dininin buyurduğu gözəllikləri, əxlaqı, mənəviyyatı, ədaləti görə bilərik. İslama görə, tolerantlıq müxtəlifinanclı insanlar arasında bir körpüdür. İnsanların bir-birlərini tanımaları, qarşılıqlı münasibətlərinin formalaşmasının əsası tolerantlıqdan keçir. Allah həmişə dözümlülüyü, tolerant olmağı əmr edir. Bu əmr bütün dövrlərə şamil olan bir qaydadır. Heydər Əliyev bunların hamısını çox gözəl bilirdi. Bu səbəbdən də bizimlə düşmənçilik aparanlara qarşı özünün uzaqgörən siyasətindən məharətlə istifadə edirdi.

Bu barədə Qurani-Kərimin **“Taha” surəsinin 43-44-cü ayələrinə** diqqət etdikdə görürük ki, Allah (c) insanlara hər bir şəraitdə mülayim olmağı, təfəkkürlə davranmağı məsləhət bilir. Allah (c) Hz.Musanı (ə) və qardaşı Həzrət Harunu Onu inkar edən, özünü tanrı hesab edən, zalım və azğın Misir hökmdarı Fironun yanına göndərərkən necə hərəkət etməli olduqlarını belə buyurur: **“Fironun yanına yollanın. O, həqiqətən, azğınlaşıb həddini aşıb. Onunla yumşaq danışın. Bəlkə öyüd-nəsihət qəbul etsin, yaxud çəkinsin!”.**

Digər ayədə – Həzrət Məhəmmədin (s) dözümlü olması haqqında Qurani-Kərimin “**Ali-İmran” surəsinin 159-cu ayəsində** belə buyurulur: **“Allahın mərhəməti səbəbinə sən onlarla yumşaq rəftar etdin. Əgər qaba, sərtürəkli olsaydın, əlbəttə, onlar sənin ətrafından dağılıb-gedərdilər...”.**

Milli, dini bayram və mərasimlərimizlə yanaşı, Heydər Əliyev ölkə ərazisində yaşayan digər din mənsublarını da diqqətdən kənarda qoymayıb. Pasxa bayramı münasibətilə 29 aprel 1994-cü il tarixində Ulu Öndərin xristian vətəndaşlarına təbriki: “Azərbaycan torpağı əsrlərboyu müxtəlif etiqadlara tapınan insanlar üçün doğma vətən olmuşdur”. Bu cümlə respublikamızın dünya üçün tolerantlıq və multikulturalizm örnəyinin bir qismidir (DQİDK 2015, 21).

“Dini etiqadından, dilindən, milli mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşları hüquqi, demokratik cəmiyyət quruculuğunda və Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində yaxından iştirak edirlər”, – söyləyən Heydər Əliyev Azərbaycanın pravoslav xristianlarının da ümummilli işdə zəhməti olduqlarını 5 yanvar 1996-cı il tarixində Azərbaycanın pravoslav xristianlarının Milad bayramındakı çıxışında qeyd edib.

Heydər Əliyevin doğum günündə 10 may 2004-cü il tarixində açılış mərasimini qeyd etmiş Heydər Əliyev Fondu bu gün də Ümummilli Liderin dövlətçilik siyasətini uğurla həyata keçirir. Moskvadakı Yəhudi Muzeyi və Tolerantlıq Mərkəzində Heydər Əliyev Fondunun, Azəbaycanın Rusiyadakı Səfirliyinin Yəhudi Muzeyinin və Tolerantlıq Mərkəzinin birgə təşkilatçılığı ilə 3 aprel 2014-cü il tarixində “Azərbaycan – tolerantlıq mərkəzi” sərgisinin açılışında Fondun vitse-prezidenti Leyla Əliyeva çıxış etmiş, Azərbaycanda 21 qeyri-müsəlman icmasının mövcud olduğunu, həmçinin Fondun 20-yə yaxın məscid, sinaqoq və kilsəni təmir etdirdiyini bildirmişdir. Bundan əlavə, Fransada X əsrə aid kilsənin təmirinə, Strasburq, Versal, Vatikanda abidələrin, kilsələrin bərpasına kömək etmişdir.

Təhsil hər zaman Heydər Əliyevin və ondan sonra Ulu Öndərin yolunu şərəflə davam etdirən Prezident İlham Əliyevin diqqət mərkəzində olub. “Tolerantlığın ünvanı – Azərbaycan” layihəsi çərçivəsində Heydər Əliyev Fondu və “Or-Avner” Beynəlxalq Fondu tərəfindən Azərbaycanda yaşayan yəhudi uşaqlar üçün “Xabar-Or-Avner” Təhsil Mərkəzi inşa edilib. Ulu öndər Heydər Əliyev 2003-cü ildə binanın inşası ilə bağlı, 2004-cü ilin dekabrında isə Prezident İlham Əliyev yeni kompleksin tikintisi üçün torpaq sahəsinin ayrılmasına dair göstəriş vermişlər. Təhsil mərkəzinin açılışı 4 oktyabr 2010-cu il tarixində baş tutdu. Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva, MDB Yəhudi İcmaları Federasiyasının və “Or-Avner” Beynəlxalq Fondunun prezidenti Lev Levayev Təhsil Mərkəzinin açılışında iştirak ediblər.

Yüksək dini-mənəvi mühitin qorunub-saxlanılması və inkişaf etdirilməsi, yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etmək üçün Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun yaradılması haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 9 fevral 2018-ci il tarixində Sərəncam imzaladı.

İnstitutda təhsilin bakalavriat, magistratura və doktorantura pillələri üzrə mütəxəssislər yetişdirilir. Bakalavriat üzrə "İslamşünaslıq" və "Dinşünaslıq" ixtisasları, magistratura səviyyəsi üzrə "Dinin tarixi", "Dinin sosiologiyası", "Dinin psixologiyası" və "İslamşünaslıq" ixtisasları mövcuddur.

"Dinin tarixi" ixtisasına xüsusi diqqət etsək, burada həm bakalavr, həm də magistr pillələrində tələbələrə İbrahimi dinlərlə (Yəhudilik, Xristianlıq, İslam) yanaşı, digər dinlərin də tədris edildiyini görürük. Bu dinlərin tarixi, mədəniyyəti haqqında da məlumat verilir. Həmçinin tələbələrin elmi müstəvidə inkişaf etmələri üçün konfranslarda iştiraklarına şərait yaradılır.

Beynəlxalq Tolerantlıq Günü münasibətilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi və ABŞ-nin "Stirlinq" fondunun birgə təşkilatçılığı ilə Bakıda 16 noyabr 2022-ci il tarixində "Tolerantlıq sülh və əməkdaşlığa aparan yol kimi" mövzusunda konfrans keçirilmişdir. Konfransın təşkilatçılarından olan ABŞ-nin "Stirlinq" fondunun nümayəndə heyəti Azərbaycan İlahiyyat İnstitutunu ziyarət etmişdir. Görüşdə İnstitutun rektoru, dosent Aqil Şirinov ölkəmizdə mövcud olan multikultural mühitdən danışarkən, Qəbələ rayonunun Nic qəsəbəsində məskunlaşmış udilər üçün Xristianlıq kursunun təşkil edildiyini qeyd edib. Həmçinin Qubada yəhudilərin yaşadıqları Qırmızı qəsəbəni İnstitut tələbələri ilə birlikdə ziyarət etdiklərini diqqətə çatdırıb. ABŞ-nin "Stirlinq" fondunun prezidenti Edvard Rou Azərbaycanın multikulturalizm və tolerantlıq kimi humanist dəyərləri dünyada layiqincə təbliğ etdiyini vurğulayıb. Həmçinin Yuta ştatında yaşayan etnik azlıqlar barədə, burada mövcud olan kilsə və sinaqoqların tarixi haqqında məlumat verib.

**Ulu Öndər və tariximiz**

Tariximiz, mədəniyyətimiz hər zaman Heydər Əliyev üçün mühüm əhəmiyyət kəsb edib. Bunun nümunəsini 21 sentyabr 1993-cü il tarixində AMEA-da ziyalılarla olan görüşdəki çıxışından görə bilirik. Ulu Öndər ziyalılarla görüşün onun üçün nə qədər əhəmiyyətli olduğunu qeyd etmişdir. Müstəqilliyin Azərbaycan üçün böyük tarixi hadisə və nailiyyət olduğunu, dünyada, o cümlədən keçmiş Sovetlər birliyində 1970-1980-ci illərdən başlayaraq gedən ictimai-siyasi proseslərin nəticəsi olduğunu və bunun bizim üçün taleyin bir fürsəti olduğunu, müstəqilliyimizin dəyərini bilməyimizi vurğulamışdır (Mehdiyev, Orucov 1997, 150).

Heydər Əliyevin analitik düşüncə qabiliyyəti gələcəkdə baş verə biləcək problemlərin qarşısının alınması məqsədilə tariximizin təhrif olunmaması üçün tarixçilərimizə XVIII, XIX, XX əsrlər tarixinə diqqət etməyi məsləhət bilmişdir (Mehdiyev, Orucov 1997, 154).

Həmçinin dünyanın bir çox muzey və kitabxanalarında tariximizi əks etdirən sənədlərin mövcud olduğunu qeyd etmiş, bunları ciddi şəkildə araşdırmağımıza ehtiyac duyulduğunu söyləmişdir. Hacı Zeynalabdin Tağıyevdən qalan mülkün AMEA-nın Əlyazmalar Fonduna verilməsi və Elmi İnstitutun yaradılması haqqında qərarı Heydər Əliyevin elmə, tarixə, mədəniyyətimizə nə dərəcədə əhəmiyyət verdiyinin göstəricisidir. Ulu Öndər dünyada və ölkəmizdə elmi müstəvidə Azərbaycanın əsrlərboyu keçdiyi qədim tarixi yolu öyrənmək üçün elm adamlarına geniş fürsətlər yaratdı (Mehdiyev, Orucov 1997, 154-155).

Tariximizin şanlı səhifələrindən biri də 14 iyul 1969-cu il tarixində Heydər Əliyevin respublika rəhbərliyinə gəlməsi, Azərbaycanın qarşısında duran bir çox taleyüklü suallara aydın cavablar tapması və onların ardıcıllıqla həll edilməsi tarixi hadisə oldu.

Azərbaycan 18 oktyabr 1991-ci il tarixində dövlət müstəqilliyini əldə etdikdən sonra, özünü Xalq Cümhuriyyətinin siyasi və hüquqi varisi elan etdi. Az müddət sonra Azərbaycan Xalq Cümhuriyyəti dövrünün rəmzləri bərpa edildi.

Dövlətçilik ənənələrinə sadiq qalan və xalqın iradəsi ilə müstəqilliyini elan etmiş Azərbaycan Respublikası çətin iqtisadi-siyasi şəraitdə fəaliyyət göstərirdi. Xalqın tələbi ilə 1993-cü ildə ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra vəziyyət dəyişməyə başladı. Heydər Əliyev 15 iyun 1993-cü il tarixində Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi və həmin gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclis iyunun 23-də prezident səlahiyyətlərini Ali Sovetin Sədri Heydər Əliyevə həvalə etdi.

Azərbaycanda siyasi fəaliyyətinin birinci dövrü əhatə edən 1969–1982-ci illərdə Heydər Əliyevə qarşı yaranan xalq sevgisi 1980-ci illərin sonlarından Dağlıq Qarabağ problemi ilə əlaqədar ölkədəki böhran və dövlətçiliyin itirilməsi təhlükəsi Heydər Əliyevin Azərbaycana ikinci dəfə hakimiyyətə qayıtması ilə nəticələndi (Hüseynova 2004, 10).

**Nəticə**

Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi və diplomat Heydər Əlirza oğlu Əliyevin 10 may 2023-cü ildə anadan olmasının 100 ili tamam oldu. Yubileylə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan Respublikasında 2023 "Heydər Əliyev İli" elan olunmuşdur. Tariximizi vərəqlədikcə Azərbaycanın keçdiyi yola nəzər salarkən görürük ki, Heydər Əliyev ölkəmizi müstəqilliyə hazırlayıb və onu qoruyub əbədiləşdirmək üçün hər zaman çalışıb. O, Azərbaycanın müstəqilliyini təmin edən, xalqımızın Ümummilli Lideri zirvəsinə ucalmış iki əsrin dahi şəxsiyyətidir. İyirminci əsrin son otuz ili, XXI əsrin başlanğıcı isə görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır.

Respublikamızda müxtəlif dinlərin qarşılıqlı hörmət şəraitində yaşamasına nümunə olan Azərbaycanda bütün konfessiyaların inkişafı üçün bərabər şərait yaradılmışdır. Heydər Əliyev milli-mənəvi dəyərlərin öyrənilməsini, qoruyub-saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bu keyfiyyətlərə malik olan xalq müstəqillik yolu ilə gedəcək və onu qorumaq əzmində olacaqdır.

Milli-mənəvi dəyərlərin inkişaf etdirilməsində təhsil önəmli ünsürdür. Bu səbəbdən, təhsil sahəsinə dövlətin mühüm diqqəti danılmazdır. "Təhsil millətimiz üçün, xalqımız üçün vacib məsələdir", – söyləyən milli təhsil quruculuğunun banisi Heydər Əliyev ölkəmizdə uğurlu təhsil islahatlarının əsasını qoymuşdur (Səmədov 2010. 19).

Qarşımızda duran əsas vəzifələrdən biri də mənəvi tərbiyə məsələsidir. Tolerantlığın inkişafı və elmi müstəvidə gənc nəsillərə öyrədilməsi təhsil sahəsinin aktual mövzularından biridir. Dini təhsilə olan dövlət diqqətini Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə yaradılan Azərbaycan İlahiyyat İnstitutunun simasında görə bilərik.

Həmçinin "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində Heydər Əliyev Fondu və "Or-Avner" Beynəlxalq Fondu tərəfindən Azərbaycanda yaşayan yəhudi uşaqlar üçün "Xabar-Or-Avner" Təhsil Mərkəzinin inşası dövlətimiz tərəfindən digər dinlərə olan hörmətin və qayğının göstəricisidir.

Azərbaycanın tarixi və mənəvi həyatının inkişafı, təhsil Ümummilli Liderin diqqət mərkəzində olmuşdur və Ulu Öndər cəmiyyətin tərəqqisinin məhz bu sahələrdə görülən işlərdən asılı olduğunu dönə-dönə qeyd etmişdir.

## ƏDƏBİYYAT


1. Qurani-Kərim. (ərəb dilindən tərcümə: Ziya Bünyadov, Vasim Məmmədəliyev). Bakı:Çıraq. (2005)
2. Ramiz Mehdiyev, Hidayət Orucov. (1997). Heydər Əliyev,Müstəqilliyimiz əbədidir. Çıxışlar, nitqlər, bəyanatlar,məktublar müsahibələr. Azərnəşr . (608 səh)
3. İradə Hüseynova. (2004). Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil. (472 səh)
4. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi. (2015). Heydər Əliyev siyasəti: Tolerantlıq (çıxışlar, nitqlər, görüşlər, təbriklər). Bakı: Elm və təhsil. (504 səh)
5. Abbas Səmədov.(2010). Ümummilli Liderimiz Heydər Əliyevin Azərbaycanda Təhsilə və Təhsil xidmətlərinə qayğısı. Gəncə. Səh 498
6. https://president.az/az/pages/view/azerbaijan/history
7. Heydər Əliyev Fondu - Moskvada “Azərbaycan – tolerantlıq məkanı” sərgisi (heydar-aliyev-foundation.org)
8. Heydər Əliyev Fondu - Tolerantlığın ünvanı – Azərbaycan (heydar-aliyev-foundation.org)
9. https://president.az/az/articles/view/828
10. https://president.az/az/articles/view/27001

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA DİN SİYASƏTİNİN PRİORİTETLƏRİ

***Nərgiz Əliyeva,***
Azərbaycan İlahiyyat İnstitutu
"Dinşünaslıq" ixtisasının IV kurs tələbəsi
nargizliyeva90@gmail.com

## XÜLASƏ

İyirminci əsrin sonunu, əsasən, sosialist düşərgəsinin süqutu nəticəsində, dünyanın mövcud siyasi xəritəsinin dəyişməsi, habelə ictimai həyatın müxtəlif sahələri ilə bağlı bir sıra qlobal problemlərin yaranması və gərginləşməsi ilə səciyyələndirmək mümkündür. Bu mərhələdə iqtisadi, ekoloji və demoqrafik problemlərlə yanaşı, əxlaqi-etik dəyərlərə lazımi diqqət yetirilməməsi nəticəsində, mənəviyyat problemləri də kəskinləşmişdi. Bundan başqa, dünya dinləri arasında mövcud fərqlərə əsaslanan sivilizasiyaların toqquşması nəzəriyyəsi meydana çıxmış və öz tərəfdarlarını tapmışdır. Bəzi separatçı qruplaşmalar bir çox hallarda öz fəaliyyətlərinə bəraət qazandırmaq məqsədilə din amilindən istifadə edirlər. Belə bir şəraitdə bəşər sivilizasiyasının müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması böyük əhəmiyyət kəsb edir. Bu baxımdan, tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi nümunə ola bilər. Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yaşamasının unikal nümunəsidir.

Müasir dövrdə dövlət–din münasibətlərini sosioloji nəzəriyyələr əsasında tədqiq edən araşdırmalar böyük əhəmiyyətə malikdir. Qeyd edək ki, Qərbdə din–dövlət və din–siyasət münasibətlərinin araşdırılmasına həsr edilmiş geniş elmi ədəbiyyat mövcuddur. Qloballaşan dünyada din–dövlət münasibətlərinin düzgün anlaşılması, zaman-zaman meydana çıxan çağırışların və problemlərin həlli məhz dolğun tarixi-nəzəri tədqiqatların aparılmasını zəruri edir. Bu baxımdan, dövlət–din münasibətləri modellərinin müqayisəli təhlili, bu sahədə müxtəlif yanaşmaların qarşıladırılması, dünyəvilik prinsipinin hüquqi əsaslarının göstərilməsi və s. mövzular müasir sosiologiyanın, siyasət elminin, beynəlxalq münasibətlərin aktual problemlərindən hesab edilir. Son dövrlərdə postsovet ölkələrində, həmçinin Azərbaycanda da din–dövlət münasibətləri sahəsində aparılan tədqiqatların sayı artıb. Ölkəmizdə dövlətin din siyasətinin istiqamətini müəyyənləşdirən əsas amillərdən biri dinin (İslamın) siyasiləşməsinin, xüsusilə siyasi islamçı ideyaların yayılmasının qarşısının alınmasıdır. Şübhəsiz, dünyəvi dövlət kimi, Azərbaycan Respublikasında dinin siyasiləşməsi narahatlıq yaradır və belə təmayüllər dini radikalizmin bir növü kimi xarakterizə edilir. Digər tərəfədən, ənənəvi din konsepsiyası, ictimai müstəvidə dinlərarası və konfessiyalararası tolerantlığın təmin olunması, multikultural mühitin qorunması dövlətin din siyasətinin əsas hərəkətverici amillərini təşkil edir.

Ulu Öndərin yaratdığı güclü strategiya öz uğuru ilə davam edir. Azərbaycan siyasi, iqtisadi, milli-mənəvi, həmçinin dini cəhətdən öz siyasətini davam etdirərək uğurlara imza atır. Ulu Öndərin siyasəti nəticəsində, Azərbaycan bu gün inkişaf etməkdə olan ölkələr sırasındadır və ən əsası, Qarabağ azaddır.

***Açar sözlər:*** *dövlət siyasəti, din siyasəti, dövlət və din münasibətləri, digər dinlər, dini abidələr, tolerantlıq, konstitusiya.*

# HEYDAR ALIYEV AND THE PRIORITIES OF RELIGIOUS POLICY IN AZERBAIJAN

***Nargiz Aliyeva***

**ABSTRACT**

The end of the 20th century can be characterized mainly by a change in the existing world political map as a result of the collapse of the Communist bloc, as well as the emergence and aggravation of a number of global public life-related issues. At this stage, along with economic, environmental and demographic problems, the moral problems had worsened as a result of insufficient attention to ethical and moral values. Besides, the theory of the Clash of Civilizations, based on the existing differences between world religions, appeared and found its supporters. Some separatist groups often use the religious factor to justify their activities. In such conditions, the emergence of a dialogue between religions and cultures is of great importance for the preservation of various cultures of human civilization. From this point of view, the experience of countries and regions with rich traditions of tolerance can serve as a model. Azerbaijan is a unique example of peaceful coexistence of many nationalities and religious denominations.

Nowadays, the researches covering the state-religious relations based on sociological theories are of great importance. It should be noted that in the Western countries there is an extensive scientific literature devoted to studying the relationship between religion and the state, as well as religion and politics. A proper understanding of the relations between religion and the state in a globalizing world, and solving the challenges and problems arising from time to time, makes it necessary to conduct comprehensive historical and theoretical research. In this regard, a comparative analysis of the models of state-religious relations, a comparison of different approaches, an indication of the legal foundations of secularism principle and other topics are considered urgent problems of modern sociology, political science, and international relations. Recently, the number of studies in the field of state-religious relations has increased in post-Soviet countries, including Azerbaijan. One of the main factors defining the direction of the religious policy in our country is the prevention of politicization of the religion (Islam), especially the spread of political Islamist ideas. By all means, the politicization of religion in the Republic of Azerbaijan, as a secular state, causes concern, and such trends can be characterized as a kind of religious radicalism. On the other hand, the concept of traditional religion, ensuring interreligious and interfaith tolerance in public terms, and preserving a multicultural environment are the main driving factors of the state's religious policy.

The strong strategy created by the great leader continues successfully. Azerbaijan is making progress, continuing its policy in political, economic, national-spiritual, as well as religious terms. As a result of the great leader's policy, Azerbaijan is now among the developing countries and, most importantly, Karabakh is free.

***Keywords:*** *State Policy, Religious Policy, Relations Between the State and Religion, other Religions, Religious Monuments, Tolerance, Constitution*

## ГЕЙДАР АЛИЕВ И ПРИОРИТЕТЫ РЕЛИГИОЗНОЙ ПОЛИТИКИ В АЗЕРБАЙДЖАНЕ

***Наргиз Алиева***

### РЕЗЮМЕ

Конец XX века можно охарактеризовать, главным образом, изменением существующей политической карты мира в результате распада социалистического лагеря, а также возникновением и обострением ряда глобальных проблем, связанных с различными сферами общественной жизни. На этом этапе, наряду с экономическими, экологическими и демографическими проблемами, в результате недостаточного внимания к морально-этическим ценностям обострились и проблемы нравственности. Кроме того, появилась и нашла своих сторонников теория столкновения цивилизаций, основанная на существующих различиях между мировыми религиями. Некоторые сепаратистские группировки часто используют религиозный фактор для оправдания своей деятельности. В таких условиях для сохранения различных культур человеческой цивилизации большое значение имеет возникновение диалога между религиями и культурами. С этой точки зрения образцом может служить опыт стран и регионов с богатыми традициями толерантности и терпимости. Азербайджан является уникальным примером мирного сосуществования многих национальностей и религиозных конфессий.

В наши дни большое значение имеют исследования, изучающие государственно–религиозные отношения на основе социологических теорий. Отметим, что на Западе существует обширная научная литература, посвященная исследованию отношений между религией и государством, а также религией и политикой. Правильное понимание отношений между религией и государством в глобализирующемся мире, решение возникающих время от времени вызовов и проблем делает необходимым проведение именно исчерпывающих историко-теоретических исследований. В связи с этим сравнительный анализ моделей государственно–религиозных отношений, сопоставление различных подходов в этой области, указание на правовые основы принципа секуляризма и другие темы считаются актуальными проблемами современной социологии, политологии и международных отношений. В последнее время в постсоветских странах, в том числе и в Азербайджане увеличилось число исследований в области государственно-религиозных отношений. Одним из основных факторов, определяющих направление религиозной политики государства в нашей стране, является предотвращение политизации религии (ислама), особенно распространения политических исламистских идей. Несомненно, политизация религии в Азербайджанской Республике, как светском государстве, вызывает беспокойство, и такие тенденции характеризуются как разновидность религиозного радикализма. С другой стороны, концепция традиционной религии, обеспечение межрелигиозной и межконфессиональной толерантности в общественном плане, сохранение мультикультурной среды составляют основные движущие факторы религиозной политики государства.

Мощная стратегия, созданная великим лидером, успешно продолжается. Азербайджан, поддерживая свою политику в политическом, экономическом, национально-духовном, а также религиозном плане, добивается успехов. В результате политики великого лидера Азербайджан сегодня входит в число развивающихся стран и, самое главное, Карабах свободен.

***Ключевые слова:*** *государственная политика, религиозная политика, отношения государства и религии, другие религии, религиозные памятники, толерантность, конституция.*

**Giriş**

Tarix yalnız dahi şəxsiyyətlərin nurlu əməlləri sayəsində nəsillərin yaddaşına həkk olunur. Azərbaycan xalqı dünya tarixinə Cavanşir, Babək, Şəmsəddin Eldəniz, Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Uzun Həsən, Şah İsmayıl Xətai, Nadir şah kimi qüdrətli şəxsiyyətlər bəxş etmişdir. Əsrlər keçdikdən sonra - XX yüzillikdə xalqımız daha bir dahi şəxsiyyət yetirdi. Dünyanın Atatürk, Vaşinqton, Nehru, de Qoll kimi nadir tarixi simaları sırasında Heydər Əliyev şəxsiyyəti öz layiqli yerini tutdu. Sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan, min cür maneələrdən, çətinliklərdən keçərək, SSRİ kimi nəhəng bir dövlətin rəhbərlərindən biri səviyyəsinə ucalan Heydər Əliyev Azərbaycan tarixinə qurtuluş mübarizəsinin qalibi kimi daxil olmuşdur (Mahmudov 2013, 5).

Heydər Əliyev şəxsiyyəti öyrənilməmiş dünyadır! Bu nadir dühanın siyasət aləmini bitib-tükənməyən, sahilləri görünməyən ümmana bənzətmək olar. Misilsiz dövlət xadimi kimi, ən mürəkkəb, ağır, hətta çıxılmaz hesab olunan vəziyyətlərdən Vətən üçün, doğma xalqından ötrü heç kəsin gözləmədiyi ən yaxşı qurtuluş yolu tapmaq bacarığı Allahın ona bəxş etdiyi vergi idi. Bütün bunların hamısı bir keyfiyyət altında birləşirdi: Heydər Əliyev böyük azərbaycanlı idi. Azərbaycan xalqının, Azərbaycan torpağının misilsiz təəssübkeşi, dövlətçiliyimizin xilaskarı idi. Heydər Əliyev Azərbaycan xalqının planetə bəxş etdiyi bir möcüzə idi. İllər, qərinələr ötdükcə, Azərbaycan xalqının və bütün türk dünyasının dahi oğlu Heydər Əliyevin təkrarsız və misilsiz həyat yolu, tarixi xidmətləri, bir insan ömründə yaratdığı ağlasığmaz möcüzələr daha aydın görünəcək, bütün dünya onun həyatı və fəaliyyəti ilə maraqlanacaqdır. Amansız bolşevik rejiminin milli-dini ayrı-seçkilik siyasəti şəraitində ağır təqiblərə məruz qalan türk–müsəlman xalqlarından birinin oğlu olmasına baxmayaraq, planetin altıdabir hissəsində hökmranlıq edən sovet imperiyasının rəhbərlərindən biri səviyyəsinə ucala bilmiş, sovet imperiyası və sosializm sistemi çökdükdən sonra isə bütün Yer kürəsində sayılıb-seçilən dahi siyasətçi zirvəsinə ucalan Heydər Əliyev şəxsiyyəti indidən belə hələ neçə-neçə nəsillərin diqqət mərkəzində olacaqdır (Mahmudov 2013, 6).

***“MÜSTƏQİLLİK YOLU QƏDƏR ÇƏTİN YOL YOXDUR...”***

**Heydər Əliyev**

**Keçid dövrü**

Müasir tərəqqiyə qovuşmuş xalqların və dövlətlərin hamısı bu dövrü yaşamışdır. Hərənin öz xüsusiyyəti, çətinliyi olduğu kimi, bizim keçid dövrünün də öz xüsusiyyətləri, çətinlikləri, problemləri var. Üstəlik, ənənəvi xarici düşmənlərimiz Azərbaycan Respublikasının müstəqil bir dövlət kimi yaşamasının qarşısını almaq, onun daha da inkişaf edib, yüksək tərəqqiyə qovuşmuş dövlətlər sırasına çıxmasına əngəl törətmək üçün əllərindən gələni edirlər. Avropa ilə Asiya, Rusiya ilə Yaxın və Orta Şərq ölkələri arasında “qızıl körpü” rolunu oynayan Azərbaycanın azad yaşaması, getdikcə güclənməsi həmin qüvvələri heç cür təmin etmir. Müasir Azərbaycan dünya miqyasında çox qüdrətli beynəlxalq qüvvələrin mənafelərinin çarpazlaşdığı ən qaynar məntəqələrdən birinə çevrilmişdir. Heydər Əliyevin Azərbaycana başçılıq etdiyi birinci dövrlə ikinci dövr arasındakı illər, sözün əsl mənasında, tariximizin hərc-mərclik mərhələsi, ağır tənəzzül vaxtı idi. Xüsusilə Azərbaycan tarixinin 1990–1993-cü illəri xalqın yaddaşında ən ağır fəlakət illəri, “olum, ya ölüm” dövrü kimi qaldı. Moskvaya satılmış xəyanətkar rəhbərlər və onları əvəz edən, heç bir idarəçilik bacarığı olmayan Azərbaycan Xalq Cəbhəsi rejimi məmləkəti dağılıb, məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. Azərbaycan Cənubi Qafqazın xəritəsindən silinmək üzrə idi. Bu zaman Vətənin ümid çırağı, əliyalın xalqın yeganə qələbə silahı Heydər Əliyev zəkası idi. Bu dövrdə 1990-cı il yanvarın

21-də (20 Yanvar qırğınının ertəsi günü) həyatını təhlükə qarşısında qoyaraq, Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gəlib, doğma xalqına başsağlığı verən, Bakıda kütləvi qırğın törədənlərin cəzalandırılmasını tələb edən Heydər Əliyev, əslində, doğma xalqının qurtuluş mübarizəsinin önünə keçdi. Dahi siyasətçi xalqının ağır günündə Kremlin təqiblərindən yaxa qurtarıb, 1990-cı il iyulun 20-də Vətənə döndü. Vətəndə, onun paytaxtı Bakıda tariximizin ən rüsvayçı faktlarından biri baş verdi: xalqın xilaskar oğluna vaxtilə onun qurub-yaratdığı paytaxtda qalmaq, ağır fəlakət anında doğma xalqı ilə birlikdə olmaq, ona yol göstərmək imkanı verilmədi. Böyük dövlət xadimi Bakıya gəlişindən iki gün sonra, 1990-cı il iyulun 22-də, doğma Naxçıvana pənah aparmalı oldu. Heydər Əliyev Naxçıvanda bütün Azərbaycanın qurtuluş mübarizəsinə başladı. Bu dövrdə ermənilər və onların havadarları olan Rusiya hərbçiləri tərəfindən hərbi-siyasi və iqtisadi blokadaya salınmış Naxçıvan çıxılmaz vəziyyətə düşmüşdü. Ana Vətəndən – Böyük Azərbaycandan da Naxçıvanın harayına cavab verən yox idi. Səriştəsiz rəhbərlər, oyuncaq kürsü düşkünləri Vətən torpaqlarını hərraca qoymuşdular. Təkcə Naxçıvanın deyil, bütün Azərbaycanın halı ağır idi. Məhz belə bir ağır şəraitdə Heydər Əliyev "olum, ya ölüm" savaşımızın ən ağır cəbhəsindən – Naxçıvandan bütün Azərbaycanın qurtuluş mücadiləsinə qalxdı (Mahmudov 2011, 348-350).

Uğursuz Qarabağ müharibəsi, hakimiyyəti ələ keçirmək xatirinə müqəddəs torpaqlarımızın düşmənə təslim edilməsi, xaricdəki ağalara daha sədaqətlə nökərçilik etmək üçün bəhsəbəhs vaxtilə Nərimanovun qətlə yetirildiyi Kreml labirintlərindən salamat qurtarıb, xalqını dardan xilas etmək üçün Vətənə qayıtmış böyük dövlət adamımız Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmaması, onu hətta Naxçıvanda da hakimiyyətdən götürmək cəhdi kimi rüsvayçılıqlar tariximizin ən qara səhifələri, bağışlanılmaz səhvləridir. Heydər Əliyev ömrünün Naxçıvan səhifələri daha aydın görünür: milli dövlətçilik ənənələrimizin dirçəldilməsi, muxtar respublikanın adından "sovet", "sosialist" sözlərinin çıxarılması, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olunması, 1990-cı ilin 19-20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Naxçıvan əhalisinin SSRİ-nin saxlanılması barədə referendumda iştirakdan imtina etməsi, Muxtar Respublika ərazisində Kommunist Partiyasının yerli orqanlarının fəaliyyətinin dayandırılması. Bəs Heydər Əliyevin hakimiyyətə yaxın buraxılmadığı həmin dövrdə böyük Vətəndə – Azərbaycanda nələr baş verirdi?

Ölkədə talançılıq baş alıb gedirdi, dövlət faktiki olaraq yox idi. Xalq ümidsizlik və təlaş içərisində idi. Sabaha inam qalmamışdı. Ən təhlükəli cəhət isə bundan ibarət idi ki, Azərbaycanın xaricdəki yağı düşmənləri daxildəki satqınlarla birləşmişdilər. Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız o zaman qəti və sərrast hərəkət edərək, yeganə düzgün addım atdı - dünyanın bu böyük siyasət adamını hakimiyyətə gətirdi. Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra öz xalqı üçün, doğma Vətən üçün nələr etdi? Həmçinin 1993-cü ilin 15 İyun gününü nə üçün "Qurtuluş Günü" adlandırmaq olar?! Görülən işlərin hamısını sadalamaq mümkün olmasa da, gəlin, heç olmasa, onların ən mühümlərini, ən böyüklərini sıraya düzək. Ən başlıcası: azadlıq, müstəqillik, həm hər bir ayrıca vətəndaş üçün, həm də bütöv xalqlar, millətlər üçün ən müqəddəs, ən şirin nemətdir. Biz azadlığımızın, müstəqilliyimizin yolunu illərlə gözləmişik, mübarizə aparmışıq, bu yolda minlərlə şəhid vermişik. Azadlığı, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub-saxlamaq bir o qədər mürəkkəb və ağır məsələdir (Mahmudov 2011, 397-400).

Heydər Əliyev bütün dövrlərdə doğma xalqına sədaqətlə xidmət etmişdir. Ümummilli Lider ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə Azərbaycanın inkişafına çox böyük töhfələr vermişdir. Heydər Əliyev xalqın dəvəti ilə 20 iyul 1990-cı il tarixində Moskvadan Bakıya gəldi. Heydər Əliyevin Naxçıvanda fəaliyyət dövrü başladı. A.Mütəllibov onun Bakıda qalmasına imkan vermədiyi üçün buradan

Naxçıvana getdi. 1990-cı ilin sentyabrında Heydər Əliyev Azərbaycan SSR və Naxçıvan MSSR ali sovetlərinə deputat seçildi. Heydər Əliyevin iştirakı ilə 17 noyabr 1990-cı il tarixində Naxçıvan MR Ali Sovetinin keçirilən sessiyasında Muxtar Respublikanın adından "Sovet Sosialist" sözü çıxarıldı, Naxçıvan Muxtar Respublikası Ali Soveti "Ali Məclis" adlandırıldı, AXC-nin üçrəngli bayrağı NMR-in rəsmi bayrağı kimi qəbul edildi. 1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçildi (İsayev 2017, 383; Qaralov 2013, 29-30).

Azərbaycanın 91 tanınmış ziyalısının 16 oktyabr 1992-ci il tarixində "Səs" qəzeti vasitəsilə Heydər Əliyevə müraciəti nəticəsində o, Bakıya gəldi. Baş vermiş hadisələrdən sonra xalqın razılığı ilə Azərbaycan Respublikasının Prezidenti seçilməsi ölkəmizin düçar olunduğu bir çox fəlakətlərdən qurtarmasına imkan və əlverişli şərait yaratdı. Heydər Əliyevin 13-14 iyun 1993-cü il tarixində Gəncədə qiyamçılarla danışıqlar aparması nəticəsində üsyançılar silahı yerə qoydular. Az sonra Azərbaycanın cənub bölgəsi təxribatçı-separatçı qüvvələrdən təmizləndi, ölkənin şimal bölgəsində separatçı meyillərin qarşısı alındı. Bununla da Azərbaycan parçalanmaq təhlükəsindən və vətəndaş müharibəsindən xilas olundu. Milli Məclisin 15 iyun 1993-cü il tarixli sessiyasında Heydər Əliyev Milli Məclisin sədri seçildi (İsayev 2017, 384).

Bunu nəzərə alaraq, 15 iyun 1993-cü il tarixinin "Qurtuluş Günü" kimi rəsmiləşdirilməsi və onun hər il dövlət səviyyəsində keçirilmasi fikri yarandı. Heydər Əliyevin Naxçıvandan Bakıya dəvət edilməsini, Yeni Azərbaycan Partiyası yaratmaq barədə müraciətləri, o ağır, facilə günlərdə həyəcan yaşadığımızı, Heydər Əliyevin rəhbərliyi ilə 1993–1997-ci illərdə ürəkaçan dəyişmələri, köklü islahatları, inkişafın ölçüsünü və əhəmiyyətini nəzərə alaraq, Azərbaycan Respublikasının Milli Məclisi Heydər Əliyevin 15 iyun 1993-cü tarixində respublika rəhbərliyinə qayıdış gününü Azərbaycan xalqının və müstəqil Azərbaycan dövlətinin qurtuluşunun başlanğıcı kimi qiymətləndirmiş, bugünü tarixə çevirmişdir.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarının ölkənin dərin ictimai-siyasi və iqtisadi böhrandan çıxarılmasında, vətəndaş müharibəsinin qarşısının alınmasında, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin qorunmasında və möhkəmləndirilməsində, dövlətimizin beynəlxalq aləmdə böyük uğurlar qazanmasında, Azərbaycan dövlətçiliyinin nailiyyətlərində müstəsna xidmətləri qeyd edilmiş və 15 İyun günü Azərbaycan xalqının Milli Qurtuluş Günü elan edilmişdir. "Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olur-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm" (Qaralov 2013, 31).

***"DÖVLƏTÇİLİK HƏR BİR ŞƏXSİN QƏLBİNDƏ OLMALIDIR..."***

**Heydər Əliyev**

**1993–2003-cü illər**

Bundan sonra 3 oktyabr 1993-cü il tarixində Heydər Əliyev mütləq səs çoxluğu ilə birinci müddətə prezident seçildi. Heydər Əliyevin gəlişi ilə ölkədə bir sıra tədbirlərə rəvac verildi. Öncə dövlətin hərbi-siyasi gücünü möhkəmləndirmək məqsədilə tədbirlər həyata keçirildi: hərbi hissələr ayrı-ayrı siyasi qrupların təsirindən çıxarıldı; nizamsız hərbi hissələr ləğv edildi; güclü nizami ordu yaradılması prosesinə başlanıldı; ordunun silah-sursat, geyim və ərzaqla təminatı nizamlandı.

Müasir demokratik, hüquqi və dünyəvi dövlət yaratmaq məqsədilə ilk islahatlar keçirildi: ilk konstitusiyasını hazırlamaq üçün Konstitusiya komissiyası yaradıldı. Referendumla 12 noyabr 1995-ci il tarixində konstitusiya qəbul edildi (İsayev 2017, 392); 20 sentyabr 1994-cü il tarixində "Əsrin müqaviləsi" imzalandı.

Azərbaycan Dövlət Neft Şirkəti ilə xarici dövlətlərin iri neft kompaniyaları arasında Xəzər dənizinin Azərbaycana aid hissəsində neft hasilatı haqqında "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın yeni neft strategiyasının əsası qoyuldu. Bu müqavilə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən üç zəngin neft yatağının iri xarici neft şirkətləri ilə birgə işlənməsini nəzərdə tuturdu. "Əsrin müqaviləsi"ndə 8 ölkənin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Rusiya, Türkiyə, Norveç, Yaponiya, Səudiyyə Ərəbistanı) 13 məşhur neft şirkəti iştirak edirdi. Heydər Əliyevin yeni neft strategiyası Azərbaycanın neft sənayesində köklü islahatların aparılmasına, güclü infrastruktur yaradılmasına, neft sənayesinə müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsinə gətirib çıxardı. "Əsrin müqaviləsi"ni həyata keçirmək üçün 1995-ci ildə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ), 1996-cı ildə "Qarabağ" strukturu üzrə olan müqavilənin reallaşdırılması üçün "Xəzər" Beynəlxalq Neft Şirkəti yaradıldı. "Əsrin müqaviləsi"nə əsasən, 1997-ci ildə neftin ilkin hasilatına başlanıldı və 1997-ci ildə Rusiyadan keçən "Şimal" (Bakı–Novorossiysk) neft boru kəməri istifadəyə verildi.

Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti 1994–2001-ci illərdə 14 ölkənin 32 neft şirkəti ilə 21 müqavilə imzaladı. Həmin müqavilələrə görə, Azərbaycana 60 milyard dollar həcmində investisiya cəlb olunması nəzərdə tutulurdu (İsayev 2017, 395, 396).

**Siyasi addımlar**

Xarici siyasət və həmçinin Dağlıq Qarabağla bağlı həll istiqamətində Ulu Öndərin fəaliyyəti danılmazdır. Atəşkas əldə olunduqdan sonra (1994), Azərbaycan münaqişənin sülh yolu ilə həll edilməsinə üstünlük vermiş, bu zaman torpaqlarının geri qaytarılması üçün ordu quruculuğuna, Azərbaycanın haqq səsinin dünyaya çatdırılmasına və diplomatik fəaliyyətə xüsusi diqqət yetirilmişdir. Heydər Əliyevin beynəlxalq səviyyədəki görüşlərində Dağlıq Qarabağ münaqişəsi əsas mövzulardan biri idi. Onun sayəsində Dağlıq Qarabağ münaqişəsinin həqiqi mahiyyəti dünya ictimaiyyətinə məlum olmuşdur. BMT Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğal olunması ilə bağlı olan qətnamələri Dağlıq Qarabağ münaqişəsinin həllinin beynəlxalq hüquqi əsasını təşkil edir. Sonrakı illərdə ATƏT, Avropa Şurası, İKT, NATO, Avropa İttifaqı da oxşar qərarlar qəbul etmişdi. Bu rəsmi sənədlər Ermənistanın təcavüzünü pisləyir, işğala məruz qalmış torpaqlarımızın azad edilməli olduğunu birmənalı şəkildə tələb edirdi.

ATƏT-in 1996-cı ildə keçirilən Lissabon sammitində isə Azərbaycanın mövqeyi və ərazi bütövlüyü dünyanın 53 dövləti tərəfindan tanındı və bu barədə bəyanat verildi. Lissabon sammitindən sonra, Minsk qrupunun fəaliyyətində fəallaşma müşahidə olunsa da, ona rəhbərlik edən ABŞ, Rusiya və Fransanın qeyri-obyektiv yanaşması və Ermənistanın qeyri-konstruktiv mövqeyi Dağlıq Qarabağ münaqişəsi istiqamətində danışıqlarda ciddi nəticələr əldə edilməsinə mane olur. Hər iki sammitdə Qarabağ münaqişəsinin ədalətli, beynəlxalq prinsiplərə əsaslanaraq həll olunmasının vacibliyi təsdiq edilmişdir.

Qonşu və Avropa dövlətləri ilə münasibətlərdə də uğura imza atılmışdır. Azərbaycan Respublikası qonşu dövlətlərlə – Rusiya, Türkiyə, İran, Gürcüstan, Qazaxıstan və Türkmənistanla münasibətlərini beynəlxalq hüquq normalarına uyğun qurmuş və tarazlaşdırılmış siyasət həyata keçirməyə müvəffəq olmuşdur.

Avropa dövlətləri ilə münasibətində isə Heydər Əliyev ilk dəfə 1993-cü ilin dekabrında rəsmi səfərlə Fransada olmuşdur. Səfər zamanı Heydər Əliyevin 1990-cı ildə qəbul edilmiş Avropa üçün Paris xartiyasını imzalaması ilə Azərbaycan Paris Xartiyasına qoşulmuşdur. Azərbaycan Paris xartiyasına qoşulmaqla:

1. BMT Nizamnaməsinə, beynəlxalq təhlükəsizlik, əməkdaşlıq normalarına və prinsiplərinə əməl edəcəyini təsdiqləmiş oldu.

2. Azərbaycan Avropa təhlükəzlik sisteminə doğru ciddi şəkildə irəlilədi. Almaniya, Böyük Britaniya, İtaliya, İspaniya ilə 1991–2003-cü illərdə yüksəksəviyyəli əlaqələr quruldu. Avropa ölkələri ilə münasibətlər Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsində mühüm əhəmiyyətə malik idi (İsayev 2017, 397).

Heydər Əliyevin müstəqil Azərbaycanda hakimiyyətə qayıdışından sonra, respublikanın sosial-iqtisadi, ictimai-siyasi və elmi-mədəni həyatında baş vermiş dəyişikliklər cəmiyyətdə mənəvi mühitin xeyli dərəcədə sağlamlaşmasına, milli köklərə bağlılığın artmasına gətirib çıxardı. Qətiyyətlə deyə bilərik ki, xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında, onların dövlətçiliyin ayrılmaz tərkib hissəsinə və dövlət siyasətinin aparıcı qoluna çevrilməsində ümummilli lider Heydər Əliyev qədər xidmət göstərən şəxsiyyət olmamışdır. Ulu Öndər doğma torpağımız, Ana dilimiz, böyük və zəngin tariximiz, millətimizlə yanaşı, milli-mənəvi dəyərlərimizə də sadiq olmağı hər bir azərbaycanlının vətəndaşlıq borcu hesab edirdi (Xəlilov 2001, 83).

**Din siyasəti**

Sovet hakimiyyəti illərində dini məclislərin, ayinlərin keçirilməsinin qadağan olunması ilə Azərbaycanda “din” anlayışının yox olmasına gətirib çıxarmışdı. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda dini oyanış baş verdi. Keçirdiyi dini islahatlar nəticəsində, İslam Azərbaycanda güclənməyə başladı. Azərbaycanın tolerant ölkə olduğunu hər zaman vurğulayan Ulu Öndər ölkəmizdə digər dinə mənsub olan insanların yaşamasına, dini məkanlarının olmasına, məclislərinin keçirilməsinə hörmətlə yanaşmış, ölkədə din siyasətini güclü şəkildə həyata keçirmişdir. Sovet İttifaqı dağılan kimi, bu nəhəng kommunist imperiyasının ideoloji dayaqları, o cümlədən ateizm təbliğatı dərhal iflasa uğradı və onun sərt buxovlarından azad olan müsəlman respublikalarında yeni əlamətdar dövr – xalqların öz kökünə, eləcə də öz dinlərinə qayıdış mərhələsi, dalğası başlandı. Uzun illər idi ki, bu ölkələrdə müsəlman xalqları doğma dinlərindən uzaq salınmış, onlara zorla allahsızlıq, imansızlıq təlqin edilmiş, insanlar yad mənəvi dəyərlər ruhunda tərbiyə edilmişdilər. Bütün bunlar xalqların dinə bağlılığını tam halda sarsıda, aradan qaldıra bilmirdi. Hədsiz təzyiqlərə sinə gərənlər dini hisslərini ürəklərində yaşadır, mərasimlərini gizlində icra edirdilər. Siyasi-ideoloji iqlimin kəskin yeniləşməsi, müstəqillik əldə edilməsi iqtisadiyyatdan tutmuş, mənəviyyatadək bütün sahələrdə əsaslı dəyişikliklər doğurdu, tarixi yaddaşına, dini-əxlaqi dəyərlərinə qayıdış xalqların özlərini yenidən tanımasına və dərk etməsinə, bununla bağlı şəkildə həyatlarını ruhlarına uyğun təməl üzərində qurmasına imkan yaratdı. Bütün bu yenidənqurma prosesi geniş, vüsətli olduğu qədər də çətin, mürəkkəb idi. Odur ki, həmin meyilləri düzgün anlamaq və istiqamətləndirmək zəruri idi (əl-Fəlah 2013, 25).

Heydər Əliyevin qarşısında bir-birindən böyük və çətin vəzifələr dururdu: hüquqi dövlətin, bazar iqtisadiyyatının, demokratik cəmiyyətin əsaslarını yaratmaq və inkişaf etdirmək. Dövlət və cəmiyyət quruculuğu mədəniyyət və mənəviyyat quruculuğu ilə birləşməli, ahəngdarlıq təşkil etməli idi. Özü də kökə, tarixi yaddaşa söykənmək, özünəqayıdış bütün sahələrdə səylərin təməlinə çevrilməli idi. Heydər Əliyev, beləcə, əsl siyasi-ideoloji lider kimi, ənənələri və müasir tələbləri özündə birləşdirən, xalqın mentalitet və psixologiyasına uyğun gələn yeni ölkə, həyat quruculuğu konsepsiyasının, həm nəzəri-strateji, həm də əməli-taktiki problemlərini düzgün müəyyənləşdirməyi bacardı.

Dinə münasibətin aydın təzahürü, dəyərlərin əhəmiyyətinin dərindən anlaşılması dövrə, zamana həmin konseptual siyasi baxışın çox mühüm tərkib hissəsi kimi diqqəti cəkir. Bu bağlılıq, bu vəhdət bütünlükdə konsepsiyanın dəyərliliyini və uğurunu təmin edəcək dərəcədə önəmlidir. Din, həm milli mədəniyyətin, xalqın ruhi-mənəvi dəyərlərinin əsasını təşkil edir, müasir həyatda ön mövqeyə keçir, həqiqət axtaran, inamla yaşamaq istəyən müasir insan getdikcə daha çox dinə tapınır. Müstəqilliyə qovuşandan sonra Azərbaycanda da dinə kütləvi qayıdış müşahidə edilir, hər cür yasaqlar, məhdudiyyətlər aradan qalxır, çoxlu məscidlər tikilir, dini mərasimlər geniş qeyd edilir, dini təhsilə meyil sürətlə artır. Bütün bunlar cox yaxşıdır, lakin həmin proses müəyyən cətinliklər, problemlər də doğururdu. Dinə qayıdış bəzən dəb kimi başa düşülürdü, halbuki dəblə həqiqi inam, saf etiqad uyuşmur. İnam ruhi ehtiyacdan doğmalıdır. Buna görə də dinə qayıdış dərin, əsaslı olduğu kimi, həm də səmimi olmalı, düzgün təməl üzərində qurulmalıdır. Əsas məqsəd budur və Heydər Əliyevin dinlə bağlı qayğı və düşüncələrinin də elə məzmununu bu amil müəyyənləşdirdi (əl-Fəlah 2013, 27-28).

Müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə Heydər Əliyevin ölkədəki prosesləri həmişə həssaslıqla izlədiyini, ən müxtəlif dini məsələlərin həllinə diqqətlə yanaşdığını görürük. Təsadüfi deyil ki, onun istər əməli fəaliyyətində, istərsə də elmi nəzəri irsində dinlə bağlı tədbirlər, mülahizələr mühüm yer tutur. Ölkə başçısı və ümumiyyətlə, mütəfəkkir siyasətçi kimi o, həm tarixi, həm də müasir aspektdə dindən ardıcıl surətdə söhbət açmışdır. Onun dinlə bağlı həyata keçirdiyi mühüm əməli işlər və söylədiyi dərin fikirlər bir-biri ilə daxilən bağlanır, sözü ilə işi bir-birini tamamlayan böyük dövlət xadiminin fəaliyyətinin düşüncələrinin mühüm bir sahəsini dolğun şəkildə göz önündə canlandırır (əl-Fəlah 2013, 28).

Heydər Əliyev hələ prezident seçilməzdən əvvəl 5 sentyabr 1993-cü il tarixində Təzəpir məscidində Peyğəmbərimizin Mövlud günü münasibətilə keçirilən mərasimdəki qısa çıxışında Azərbaycan xalqının bir müddət öz dinindən uzaq düşməsi səbəbləri, bunun acınacaqlı nəticələri üzərində dayanır və bu məsələyə, həm də qeyd etdiyimiz aspektdən yanaşırdı. Əlbəttə, Azərbaycan xalqının da, keçmiş SSRİ tərkibində yaşayan digər müsəlman xalqlarının da öz dinlərindən təcrid olunmasının birbaşa səbəbkarı sovet siyasi-ideoloji sistemi idi və bu mülahizə Heydər Əliyevin təhlillərində həmişə ön plana cəkilirdi. Heydər Əliyev dini-fəlsəfi düçüncələr müstəvisində çıxış edərək deyirdi: “Azərbaycan xalqı uzun müddət öz dinindən məhrum olmuşdur. Bu, əlbəttə, bizim üçün acınacaqlı bir haldır. Ancaq bu nə sizdən, nə də məndən asılı idi. Ola bilər ki, bu, Allahın işidir. Və bu da bir imtahandır ki, görsünlər, insan öz dinindən məhrum olandan sonra nə bəlalara düşür və öz dininə qayıdandan sonra nə qədər xoşbəxtlik əldə edir” (əl-Fəla 2013, 29-30).

Məsələnin bu şəkildə qoyuluşu dini baxımdan da əsaslı görünür. Məlumdur ki, Qurani-Kərim Allahın öz bəndələrini müxtəlif vasitələrlə imtahana çəkdiyini dəfələrlə bizə bildirir. Məsələn, “əl-Bəqərə” surəsinin 155-157-ci ayələrində müsibətlə üzləşən Allah bəndələri səbrə dəvət edilir, belə olduqda, onların Rəbbləri tərəfindən bağışlanması və rəhmət gözləyir. Düşünmək olar ki, görünür, Azərbaycan müsəlmanları da SSRİ-nin tərkibində (digər müsəlmanlar kimi) belə bir sınağa məruz qalmış, lakin Allahın rəğbəti yenidən onların öz dininə qayıtmasına fürsət vermişdir.

Bakıda 1-2 oktyabr 1998-ci il tarixində keçirilən “Müasirlik və dini-mənəvi dəyərlər” mövzusunda beynəlxalq konfransdakı geniş çıxışında Heydər Əliyev sovet hakimyyəti dövründə dinə qarşı aparılmış total və fasiləsiz mübarizə üzərində ətraflı dayanmağı lazım bilmiş, həmin mübarizənin təkcə bir ölkəyə qarşı deyil, nəticə etibarı ilə bütünlüklə bəşəriyyətə qarşı yönəldiyini bəyan etmişdir: “Məlumdur ki, biz 70 il kommunist ideologiyası ilə tərbiyələnərək dinimizdən və dinin bizə bəxş etdiyi mənəvi dəyərlərdən məhrum olmuşuq. Kommunist ideologiyasının bəşəriyyətə vurduğu zərbələrdən ən böyüyü 70 il ərzində dinə qarşı aparılmış təbliğat, xüsusən dinin qadağan olunması və təhrif edilməsi olmuşdur. Ancaq, eyni

zamanda, bu tarix onu da göstərir ki, din və o cümlədən bizim mənsub olduğumuz islam dini o qədər qüdrətə malikdir ki, heç bir ideologiya, heç bir hakimiyyət və heç bir hökmdar onunla bacara bilməz və 70 illik tarix də göstərir ki, bunu bacara bilmədi" (əl-Fəlah 2013, 30-32).

O, Bibiheybət məscidini 1994-cü ildə ziyarət edərkən, bu müqəddəs ocağın necə vəhşiliklə dağıdılmasını yada salır. Burada yeni bir məscidin tikilməsi barədə qərar verir. Bu məscid-kompleks 1998-ci ilin may ayında tikilib başa çatdı və Prezident həmin açılışda çıxış edərək bir daha göstərdi ki, nə fiziki zor və məhvetmə, nə də siyasi-ideoloji təbliğat maşını insanların etiqadını sındıra bilmişdir.

Heydər Əliyev 1-2 oktyabr 1998-ci il tarixində Bakıda Qafqaz Müsəlmanları İdarəsi Elmi-Dini Şurasının keçirdiyi "Müasirlik və dini-mənəvi dəyərlər" mövzusunda beynəlxalq konfransda bu barədə bəhs edərək belə söyləmişdir: "Təsəvvür edin, o yer müqəddəs yerdir. Orada VIII əsrdə Həzrət Hökumənin qəbri olmuşdur. İmam Rzanın bacısı Həzrət Hökumənin qəbri üzərində vaxtilə insanlar məscid qurmuşdular və ora ziyarətgaha çevrilmişdi. Ancaq o müqəddəs yer, müsəlmanların, tək Azərbaycandan yox, dünyanın bir çox yerlərindən gələn müsəlmanların ziyarət etdiyi müqqədəs ocaq 1933-cü ilda partladılmışdır, dağıdılmışdır. Məscidi partladıblar, dağıdıblar, yerlə yeksan ediblər, amma insanlar ayağını o yerdən çəkməyiblər. Həmişə Bibiheyber məscidi, bizdə ona pir deyirlər - müsəlmanların ziyarət yeri olubdur, müsəlmanlar gedib orada, o yerə öz ehtiramını bildiriblər. Allah yolunda nəzirlərini veriblər və o yeri yaşadıblar" (əl-Fəlah 2013, 37-38).

Azərbaycan müstəqillik əldə edərkən ölkədə cəmi 18 məscid fəaliyyət göstərirdi. Qısa bir vaxtda, yəni 7 il ərzində 1000-dən artıq məscid tikilmişdir. O, bu barədə sözlərini belə yekunlaşdırır: "İndi Azərbaycanda 1000-dən artıq məscid var. Demək, insanların hamısının qəlbində məscid intizarı, məscid arzusu (məscid Allah evidir) o qədər yaşayıb ki, qısa bir zamanda hökumətin, dövlətin heç bir köməyi, vəsaiti olmadan məscidlər tikilibdir. Bu, mənim dediklərimə əyani sübutdur" (əl-Fəlah 2013, 38). "Qafqazda indi üç müstəqil dövlət var – Azərbaycan, Gürcüstan va Ermənistan. Gürcüstanda 500 min azərbaycanlı müsəlman, bundan başqa isə acarlar və qeyriləri yaşayırlar. "Ermənistan" adlanan ərazidə qədim zamanlardan azərbaycanlılar, müsəlmanlar yaşamışlar. Qərbi Azərbaycan – İrəvan, Göyçə, Zəngibasar, Vedibasar və Zəngəzur mahallarının hamısı müsəlman azərbaycanlıların yaşadıqları diyarlar olublar. Təəssüf ki, bu ərazilərdən müsəlmanlar çıxarılıblar. Əgər Qafqazda İslam sivilizasiyası haqqında danışırıqsa, həqiqəti demək lazımdır".

Ümummilli Lider son vaxtlar dünyada İslama və müsəlmanlara qarşı yönələn mənfi təbliğat metodlarını kəskinliklə və tutarlı dəlillərlə rədd edir, bunun yolverilməz olduğunu bildirir. Heydər Əliyevin bu məsələdə tutduğu mövqe çox aydın və məntiqlidir. Burada diqqəti cəlb edən önəmli məqam isə bir sıra dairələrin İslama qarşı apardığı təbliğatda "fundamentalizim", "ekstremizm" və "fanatizm" kimi mənfi məna daşıyan məfhumlardan bəhrələnməsidir. O, belə fikirlərin son vaxtlar geniş yayıldığını da nəzərdən qaçırmır: "İndi dünyadakı bəzi mərkəzlərdə "İslam fundamentalizmi, İslam ekstremizmi və fanatizmi" haqqında fikirlər söylənilir. Hesab edirəm, bizim müqəddəs kitabımız Qurani-Kərim heç vaxt fundamentalizmin əsasını qoymayıbdır. Biz İslam mədəniyyətini, İslam mənəvi dəyərlərini müqqədəs kitabımız Qurani-Kərimdə olduğu kimi qəbul edirik. Onların təhrif olunması, əgər dini dildə desək, günahdır" (əl-Fəlah 2013, 45-47).

Azərbaycan Prezidenti 8 aprel 1998-ci il tarixində Qurban bayramı münasibətilə Mir Mövsüm ağa ziyarətgahında keçirilən mərasimdə İslam dəyərlərini azərbaycanlıların milli-mənəvi sərvəti adlandırır: "Xalqımızın çoxminillik tarixi var və çox əsrlərdir ki, İslam dininə ibadət edirik. İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dinimizin adət-ənənələri və dəyərləri bizim milli sərvətimizdir".

Ölkə başçısı ayrı-ayrı tarixi dövrlərdə cürbəcür zorakılığa və məhrumiyyətlərə məruz qalmasına baxmayaraq, xalqın bu dəyərləri yaşatmasını İslam mədəniyyətinin və mənəviyyatının həyati gücü ilə əlaqələndirir: "Bu onu göstərir ki, bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır" (əl-Fəlah 2013, 61).

Digər Qafqaz respublikaları kimi, Azərbaycan da Avropa Şurasının üzvü olmaqla, başqa beynəlxalq və Qərb strukturları ilə geniş əlaqələr quran bir ölkədir. Bununla yanaşı, Azərbaycan Şərq və İslam dünyasının ayrılmaz bir parçasıdır. Bu gənc respublika müstəqilliyinin başlanğıcında bir sıra müsəlman dövlətləri ilə diplomatik və iqtisadi-siyasi, mədəni əlaqələr qurdu. Azərbaycan Respublikası 1991-ci ilin dekabrında İslam Konfransı Təşkilatı (İKT) kimi mötəbər bir regional-beynəlxalq quruma üzv olmuş, bu təşkilatla münasibətlərini daim genişləndirmişdir. Azərbaycan, həm bu təşkilat çərçivəsində, həm də ayrı-ayrı İslam ölkələri ilə qurduğu ikitərəfli əlaqələrdə üzləşdiyi problemləri, xüsusilə də Dağlıq Qarabağ münaqişəsi və onun nəticəsində öz doğma yurd-yuvasından didərgin düşmüş bir milyon müsəlmanın ağır həyatı ilə bağlı çətinlikləri İslam dünyası ilə paylaşmaq zorunda qalmışdır. Heydər Əliyev cənabları Azərbaycanın mühüm Şərq və İslam ölkələri ilə münasibətlərinə xüsusi əhəmiyyət verən bir siyasi şəxsiyyət olmuşdur. Azərbaycanla İKT arasında əlaqələr 1994-cü ilin noyabr ayında həmin təşkilatın Baş katibi, doktor Həmid əl-Qabidin Bakıda Heydər Əliyevlə danışıqlarından sonra genişlənməyə başladı. Həmin ilin dekabr ayında isə Azərbaycan Prezidenti ilk dəfə olaraq İKT-nin Kasablankada keçirilən Zirvə toplantısında iştirak və çıxış etdi: "İslam ölkələri dünyanın böyük bir hissəsini təşkil edirlər. Onların bir milyarddan çox əhalisi var. İslam Konfransı Təşkilatı bu ölkələrin ümumi potensialından istifadə edərək həm beynəlxalq proseslərdə iştirak edir, həm da İslam ölkələrinə məxsus spesifik problemlərin həllinə çalışır".

Zirvə toplantısının gedişində Heydər Əliyev Küveyt, Misir, İordaniya, Türkiyə, Pakistan, Səudiyyə Ərəbistanı, Malayziya, İran və başqa İslam ölkələrinin başçıları ilə görüşlər keçirərək, ikitərəfli və çoxtərəfli əlaqələrin genişləndirilməsi barədə danışıqlar apardı. O, Küveyt əmiri Cabir Əhməd əs-Sabahla görüşündə Azərbaycan dövlətinin bu ölkə ilə əlaqələrini möhkəmləndirmək əzmində olduğunu bildirdi. Fələstin rəhbəri Yasir Ərafatla danışıqlarda bu xalqın öz müstəqilliyi uğrunda apardığı qəhrəmanlıq mübarizəsini təqdir etdi. Küveytdə Beynəlxalq İslam Xeyriyyə Cəmiyyətinin nəzdində yaranmış Asiya Müsəlmanları Komitəsinin Azərbaycandakı fəaliyyətini ayrıca qeyd etmək olar. 1995-ci ilin sonlarında Bakıda rəsmi qeydiyyatdan keçmiş bu komitə Qarabağ münaqişəsi nəticəsində məcburi köçkün düşən müsəlmanlara hümanitar yardım göstərir. Asiya Müsəlmanları Komitəsi, həmçinin kimsəsiz uşaqlara da himayədarlıq edir (əl-Fəlah 2013, 72-74).

### Dini abidələr

Bakıda 1998-ci ildə Qafqaz müsəlmanlarının X qurultayı keçirilmişdir. Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Gürcüstanda və Dağıstanda da nümayəndəlikləri açılmışdır. QMİ beynəlxalq İslam təşkilatları ilə əlaqəsini ardıcıl şəkildə təmin edir, qonşu müsəlman ölkələri ilə dini zəmində sıx əlaqələr yaradır. Bu gün QMİ öz səlahiyyətləri çərçivəsində Azərbaycanda İslam dini icmalarına rəhbərlik edir, şəriət qayda-qanunlarının düzgün yerinə yetirilməsini həyata keçirir.

Bakı İslam Universiteti 1991-ci ildə yaradılmışdır, ruhani kadrların yetişdirilməsi sahəsində xeyli iş görmüşdür. Bakı Dövlət Universitetinin İlahiyyat fakültəsində də 1992-ci ildən ilahiyyatçı və islamşünas mütəxəssislər hazırlanırdı. Daha sonra ölkə Prezidenti İlham Əliyevin 2018-ci il 9 fevral Sərəncamına əsasən, Azərbaycan İlahiyyat İnstitutu yaradıldı. Hal-hazırda dini mütəxəssislər burada yetişdirilir.

Ölkədə hazırda 1 300 məscid, 40 kilsə, sinaqoq və digər ibadət yerləri, 500-dək pir və ziyarətgah fəaliyyət göstərir. Azərbaycanda pravoslavlıq rus və gürcü pravoslav kilsələri ilə təmsil olunur. Ölkədəki rus pravoslav kilsələri 2000-ci ildə təsis edilmiş Bakı və Xəzəryanı Yeparxiyasında birləşib. Azərbaycanda, həmçinin 11 molokan icması da fəaliyyət göstərir.

Dini abidələr hər hansı bir bölgənin din tarixi, həmin ərazidə yaşayan insanların mənəvi aləmi haqqında müəyyən məlumat əldə etməkdə önəmli rol oynayır. Həmçinin dini memarlıq abidələri insanların mənəviyyatına, əxlaqına, mədəniyyətinə, sosial həyatına böyük təsir göstərir. Ən çox yayılmış dini abidələrdən biri "Allahın evi" adlanan məscidlərdir. Ümumiyyətlə, müsəlmanların cəm halda ibadət, vəz (dini məsələlər barədə danışaraq nəsihət etmək) və məşvərət mərkəzi hesab olunan məscidlərin sayı respublikamızda 1750-dir. Bakıda isə 114 məscid vardır ki, bunlardan 64-ü fəaliyyət göstərir. Həmçinin hazırda ölkədə 40 kilsə, sinaqoq və digər ibadət yerləri, 500-dək pir və ziyarətgah mövcuddur.

Azərbaycanda dini məkanların açılmasında Heydər Əliyevin rolu böyükdür. Bunlardan Bibiheybət pirini göstərmək olar. Bu ocaqda şiə məzhəbinə məxsus VII imam – İmam Kazımın qızı Həzrət Hökumə xanımın, İmamın iki oğlan və bir qız nəvəsinin məzarları yerləşir. Bu tarixi-dini memarlıq abidəsi XIII əsrdə Şirvanşah II Fərruxzad ibn Axsitan tərəfindən inşa etdirilib. Məscidin divarında tarixi faktlar yazılan kitabə yerləşir. Bu kitabədə qeyd edilib ki, 1281-1282-ci illərdə tikilən məscidin memarı Mahmud ibn Səyiddir. Məşhur tarixçilər Bakıxanov, Beryozin, Dorn və Xanukov da bu kitabə haqqında yazıblar. Yeddinci İmam Museyi-Kazımın qızlarından Həzrət Hökumə xanım Bibiheybətdə, Həzrət Məsumə xanım İranın Qum şəhərində, Həzrət Rəhimə xanım Bakının Nardaran, Həzrət Leyla xanım isə Bilgəh kəndində dəfn edilib. Bibiheybət məscidi 1933-cü ildə dinamitlə partladılıb. Məscid və minarə yerlə-yeksan olunaraq üzərindən yol çəkilib. Müstəqillikdən sonra isə Bibiheybət məscidi yenidən bərpa olunub. Məscidin bərpasına Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci ildən başlanılıb, 2008-ci ilin iyulun 12-də isə yenidən qurulmuş Bibiheybət məscidinin açılışı olub.

Azərbaycan torpağı daim əhli-beyt ailəsinin sığınacaq yerlərindən biri olub. Buna misal olaraq, Bakıda bir neçə ziyarətgahı sadalaya bilərik: Bibiheybət, Nardaran kəndində Rəhimə xanım, Bülbülə kəndindəki İmamzadə, Bilgəh kəndindəki Leyla xanım ziyarətgahlarını və başqalarını göstərə bilərik. Bu məkanlarda imam övladları dəfn olunub və hər zaman xalqımız tərəfindən böyük ehtiramla ziyarət olunurlar. Belə ziyarətgahlar ölkəmizin müxtəlif bölgələrində də mövcuddur. Onlardan Gəncə, Bərdə imamzadələrini və digərlərini nümunə göstərmək olar.

Naxçıvan şəhərindən, təqribən, 12 km aralı, İlandağ ilə Nəhəcir dağı arasındakı təbii mağarada ziyarətgah olan Əshabi-Kəhf ərəb dilində "mağara adamları" deməkdir. Eyniadlı yerin Kiçik Asiya və ya Fələstin ərazisində olması haqqında qədim dini ədəbiyyatlarda, o cümlədən Quranda məlumat var. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin tapşırığı və himayəsi ilə Əshabi-Kəhfdə abadlıq-bərpa işləri aparılmış, zəvvarlar üçün şərait yaradılmış, 13 km məsafədə rahat yol salınmış, məscid tikilmiş, kitabə qoyulmuşdur. Bundan əlavə, Mir Mövsüm ağa ziyarətgahı, Gəncə İmamzadəsi, Bərdə İmamzadəsi, Xıdırzində Baba ziyarətgahı, Diribaba, Piri-Mərdəkan kimi pirlər və məscidlər sovet hakimiyyəti dağıldıqdan sonra, Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə və qəbul edilən qərarlara əsasən fəaliyyətə başlamışdır (Abdullayev 2007; İslamzadə 2009, 191-198).

***"ƏGƏR HƏR HANSI ÖLKƏNİN XALQLARI ÖZ HÜQUQLARINI ANLAYIR VƏ ONLARI QORUYA BİLİRSƏ, O ZAMAN ƏN KİÇİK DÖVLƏT BELƏ, ƏN BÖYÜK MƏMLƏKƏT QƏDƏR GÜCLÜ OLAR"***

**Heydər Əliyev**

**Digər dinlər**

Azərbaycan tolerant ölkə olduğu üçün burada bir neçə dinin xalqları yaşamış, dini məbədlər tikilərək istifadəyə verilmiş, onların ibadətlərini həyata keçirmələrinə şərait yaradılmışdı.

Azərbaycanda üç yəhudi icması – dağ yəhudiləri, Avropa yəhudiləri (aşkenaz) və gürcü yəhudiləri icmaları mövcuddur. Dağ yəhudiləri hazırda ölkədəki yəhudi diasporu arasında çoxluq təşkil edir. Musa Kalankatuklu dağ yəhudilərinin Qafqaza gəlməsini e.ə. I əsrə aid edir. Başqa məlumatlara görə, onlar Şərqi Qafqaza Sasani hökmdarı I Xosrov Nuşirəvan (531-579) tərəfindən köçürülmüşlər. Bakıda, Oğuzda, Qubada dağ yəhudilərinin bir neçə sinaqoqu fəaliyyət göstərir. Qubadakı Qırmızı qəsəbə bütün postsovet məkanında dağ yəhudilərinin yığcam halda məskunlaşdıqları ən iri yaşayış məntəqəsidir. Ayin orucu günü dünyanın hər yerindən dağ yəhudiləri yaxınlarının qəbirlərini ziyarət etmək üçün buraya gəlirlər. Qəsəbədə üç sinaqoq və mikva vardır. Azərbaycanda XIX əsrdən məskunlaşmağa başlamış Avropa yəhudilərinin əksəriyyəti isə Bakıda və Sumqayıtda yaşayır. Gürcü yəhudiləri icması isə sayca kiçikdir. Gürcü yəhudilərinin sinaqoqu 1997-ci ildə bərpa edilmişdir. Azərbaycan müstəqillik əldə etdikdən sonra, buradakı yəhudi icmaları beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmlətmiş, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, qəzetlərini yaratmışlar. Bakıda 9 martın 2003-cü il tarixində yeni yəhudi sinaqoqu açılmışdır. Bu, Avropada ən böyük sinaqoqdur. Respublikada 1990-cı ildən "Azərbaycan-İsrail" Dostluq Cəmiyyəti, habelə "Soxnut" cəmiyyəti fəaliyyət göstərirlər. Yəhudi bayramlarında qəzetlərdə respublikanın yəhudi icmalarının tanınmış nümayəndələri ilə müsahibələr dərc olunur. Bakıda nəzəriyyəçi-fizik, Nobel mükafatı laureatı Lev Landau, respublikanın Əməkdar həkimi Solomon Qusman, müharibə qəhrəmanı Albert Aqarunov və digər tanınmış yəhudi şəxsiyyətlərinin yaşadıqları binalarda xatirə lövhələri qorunub-saxlanılıb. Azərbaycandakı yəhudilərə göstərilən ehtiramdan söhbət açarkən, Krasnaya sloboda qəsəbəsini də qeyd etmək lazımdır. Bura keçmiş Sovetlər məkanında yəhudilərin yığcam yaşadıqları yeganə yerlərdən biridir (4 min nəfərə qədər). Azərbaycanda Sovet hakimiyyətinin qurulmasına qədər qəsəbədə 11 sinaqoq var idi. Sovet dövründə onlardan yalnız biri fəaliyyət göstərirdi. Dövlət tərəfindən 1996-cı ildən sonra daha iki sinaqoq qaytarılmışdı. Azərbaycanın hökumət nümayəndələrinin və dünyanın bir çox ölkələrindən gələn qonaqların iştirakı ilə 2001-ci ilin oktyabr ayında ikimərtəbəli, altıgünbəzli sinaqoqun bərpasına həsr olunmuş təntənəli mərasim keçirilmişdi. Yəhudilər Azərbaycanda 2 500 ildən artıqdır ki, məskunlaşmışlar. Onlar ölkəmizdə heç vaxt dini dözümsüzlüyə və ayrı-seçkiliyə məruz qalmamışlar. Hazırda 7 yəhudi dini icması dövlət qeydiyyata alınıb. Bakıda 3, Oğuzda və Qubada 1 sinaqoq fəaliyyət göstərir. Bakıda 2003-cü il mart ayında yeni yəhudi sinaqoqu istifadəyə verilmişdir. Bakıda 2003-cü ilin sentyabr ayında "Od-Avner" Xabad Lyubaviç Beynəlxalq Fondunun maliyyələşdirdiyi ilk yəhudi orta ümumtəhsil məktəbi fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 222 saylı 5 oktyabr 2006-cı il tarixli Qərarına əsasan, Quba rayonunun Qırmızı qəsəbəsində yerləşən 1 nömrəli məktəbə İsaak Abramoviç Xanukovun adı verilmişdir. Ölkədə mövcud olan yüksək tolerantlıq dərəcəsi və yəhudilərə qarşı heç bir ayrı-seçkiliyin olmadığı 9-14 fevral 2006-cı il tarixində Azərbaycana səfər etmiş Amerikanın Yəhudi Təşkilatları Prezidentlərinin Konfransı Təşkilatının nümayəndə heyəti tərəfindən də vurğulanmışdır. Nümayəndə heyətinə təşkilatın sədr müavini M.Hönlayn, Avropa–Asiya Yəhudi Konqresinin prezidenti A.Maxkevitç və digər şəxslər daxil idilər.

Azərbaycan ərazisində Xristianlıq yeni eranın ilk əsrlərində yayılmışdır. Burada ilk xristian icmalarının yaranması da bu dövrə təsadüf edir. Azərbaycan ərazisində IX-X əsrlərdə müstəqil dövlətlər yarananda Alban kilsəsi yenidən avtokefal kilsə statusunu bərpa etmişdir. Bu durum XIX əsrə kimi davam

etmiş, 1836-cı ildə isə Çar hökuməti Sinodun təqdimatı ilə Alban kilsəsini ləğv edilmiş, kilsənin bütün əmlakı Üçmüədzin katolikosluğuna verilmişdir. İyirmiunci əsrin 80-90-cı illərində Alban kilsəsi bir daha bərpa olunur. Şəkidəki Kiş kilsəsinin 2003-cü ildəki bərpasından sonra, Alban-udi xristian icması dövlət qeydiyyatından keçmişdir. Azərbaycanda Xristianlıq özünün pravoslavlıq, katoliklik və protestantlıq qolları, habelə müxtəlif sektant icmaları ilə təmsil olunur.

Pravoslavlıq Azərbaycanda XIX əsrin əvvəllərindən etibarən, rus çarizminin bölgədə yeritdiyi "köçürmə siyasəti" nəticəsində yayılmağa başlamışdır. Alban-udi xristian dini icması 1920-ci ildə bağlanmış Jen Mironosets baş kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinə verilmişdir. Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi 27 may 2001-ci il tarixində bu məbədi müqəddəs elan etmiş və ona "Baş kafedral kilsə" statusu vermişdir. Açılış mərasimində Heydər Əliyev, hökumət üzvləri, səfirliklərin nümayəndələri və dini icmaların başçıları iştirak etmişlər. Paytaxtda 1999-2001-ci illərdə digər pravoslav məbədi – Müqəddəs Məryəmin miladı baş kilsəsi bərpa olunmuşdur. Rum patriarxı I Varfolomey 16-18 aprel 2003-cü tarixinədək Azərbaycanda rəsmi səfərdə olmuşdur. Şərqi Roma pravoslav kilsəsi başçısının səfərinin əsas məqsədi müxtəlif dinlərə etiqad edən insanların narahatlığına səbəb olan bir çox mürəkkəb məsələlərdə qarşılıqlı anlaşma və razılığa nail olmaq, Azərbaycanla münasibətlər yaratmaq, habelə dinlərarası dialoqu daha irəli aparmaqdan ibarət olmuşdur. Azərbaycana gəlişindən əvvəl patriarx üç müsəlman ölkəsinə səfər etmişdir. Onun etirafına görə, respublikamızdakı dövlət–dini konfessiyalar münasibətləri, habelə ənənəvi və qeyri-ənənəvi dini konfessiyalar arasındakı mövcud münasibətlər nümunəvidir. O demişdir: "Mən buradakı tolerantlığın səviyyəsindən məmnunam. Azərbaycanda hər kəs istədiyi dinə etiqad edir, istədiyi kimi ibadət edə bilir". Hazırda Bakıda 3, Gəncədə və Xaçmazda 1 rus pravoslav kilsəsi fəaliyyət göstərir.

Bakıda ilk Roma-katolik prixodu XIX əsrin 50-ci illərində Çar Rusiyası tərəfindən hərbçi katoliklərin Qafqaza sürgün edilməsi ilə əlaqədar olaraq yaradılmışdır. Bakının gözəl memarlıq abidələrindən sayılan Müqəddəs Məryəmin bakirə hamiləliyi yeni kilsəsi qotik üslubda 1909-1912-ci illərdə inşa edilir. Sovet dövründə kilsə dağıdılmışdır. Bakıda 1999-cu ildə Roma-katolik icması yenidən bərpa olunmuş və 2001-ci ildə icma öz ibadət evini yaratmışdır. Azərbaycan antisemitizmə heç vaxt məkan olmayıb və indi də yoxdur. Bunun bariz nümunəsi Roma katolik kilsəsinin sabiq başçısı II İohan Pavelin respublikaya etdiyi tarixi səfəridir (22-24 may 2002-ci il). Bakıda olarkən pontifik Azərbaycandakı tarixi dözümlülük ənənələrini xüsusi qeyd etmişdir. Tarixi faktdır ki, Roma hakimiyyəti tərəfindən vaxtilə təqib olunan xristianlar məhz burada sığınacaq tapmışdılar.

Polşalı keşiş Yerji Pilyusun səyləri nəticəsində qeydiyyatdan keçən respublikanın katolik icması da hakimiyyətin qayğısından kənarda qalmır. İlk iclaslar dindarların mənzillərində keçirilirdi, 2000-ci ildə isə bu məqsədlər üçün bina alınmış və kiçik kilsəyə çevirmişdir. Katolik icmasında Vatikanın təyin etdiyi iki keşiş xidmət göstərir, ibadətlər bazar və dini bayram günləri yerinə yetirilir. Hal-hazırda respublikanın paytaxtında layihəsi Vatikan ilə razılaşdırılan katolik kilsə inşa olunur. Öz xarici görkəminə görə o, əvvəllər Bakıda olan katolik kilsəsinə bənzəyəcək.

İncilçi-lüteran kilsəsinin ardıcılları (baptistlər) Bakıya hələ XIX əsrin II yarısında neft yataqlarının istismarında iştirak edən alman sənayeçiləri sırasında gəlmişlər. Lüteran kilsəsinin keşişləri 1937-ci ildə başqa dini icmaların nümayəndələri ilə birlikdə sürgün edilmiş, güllələnmişlər. Lüteran icması 1994-cü ildə Bakıda yenidən fəaliyyətə başlamışdır.

Alban-udi xristian dini icmasının qeydə alınması formal olaraq digər icmaların qeydiyyatından fərqlənməsə də, xarakter, məzmun, dini və siyasi əhəmiyyət baxımından çox əlamətdar bir hadisədir. Bu gün udi etnosuna mənsub olan insanların sayı dünyada 10000-ə qədərdir ki, onların 6000-i Azərbaycan

ərazisində, o cümlədən 4400-ü kompakt şəkildə Qəbələ rayonunun Nic kəndində yaşayır. Tarixən udilər bizim eradan əvvəl IV əsrdə türk qəbilələri ilə qohumluq əlaqəsində olaraq Qarabağda, Xəzərsahili torpaqlarda yaşamış, sonralar Xristianlığı qəbul etmiş və bu dini Qafqaz Albaniyasında yaymışlar. Kiş kilsəsi (Şəki rayonu, Kiş kəndi) ilk xristian kilsəsi, "xristian kilsələrinin anası hesab olunur.

Habelə Azərbaycanda protestantlıq cərəyanına məxsus Yevangel–lüteran kilsəsi Yevangel xristian baptist icması, yeddinci gün adventistləri, "Şərqdə ulduz" xristian İncil dini icması, hətta Molokan ruhani xristianların dini icması da fəaliyyət göstərir.

Azərbaycan Respublikasında dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində müstəqillik əldə edildikdən keçən son illər ərzində dövlət çox mühüm və ciddi addımlar atmışdır. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu 1992-ci ildə qəbul edilmiş və zaman keçdikcə şəraitə uyğun olaraq, həmin qanuna 1996 və 1997-ci illərdə müvafiq düzəlişlər edilmişdir. Bu qanuna görə, Azərbaycan Respublikasında vətəndaş hüququna malik olan "Hər bir kəs dinə münasibətini müstəqil müəyyənləşdirir, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və yaymaq hüququna malikdir" (Azərbaycan Milli Ensklopediyası).

***"İSLAM DİNİ BAŞQA DİNLƏRƏ HEÇ VAXT DÜŞMƏN OLMAMIŞDIR, ÇÜNKİ BU DİNLƏRİN HAMISI ALLAHDAN GƏLİR"***

**Heydər Əliyev**

**Nəticə**

Heydər Əliyev 21 iyun 2001-ci il tarixli 512 saylı Fərmanı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin yaranmasını təsdiq etdi. Həmin Fərmanla müəyyən edildi ki, yeni yaranmış Dövlət Komitəsinin əsas vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasının dini əqidə azadlığını təmin edən 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin yaradılmasından, dini etiqad azadlığı ilə bağlı olan digər qanunvericilik aktlarına riayət olunmasına nəzarəti təmin etməkdən, dini qurumlarla dövlət arasında münasibətləri daha ciddi tənzimləməkdən ibarətdir. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ölkədə dini durumda gərginlik yaranmaması, dini ayrı-seçkilik meyllərinin milli münasibətlər səviyyəsinin yüksəlməsinə yol verilməməsi, dini mərasim adı altında müxtəlif antidövlət meylli şəxs və qrupların qarşıdurma yaratmaq cəhdlərinin qarşısının alınması, ictimai təhlükəsizlik və sosial sabitliyin qorunması, din-dövlət münasibətlərinin normal səviyyədə tənzimlənməsi üçün mövcud dini duruma lazımi nəzarəti təşkil edir və bu yolda hər cür neqativ halların qarşısının alınması işində müvafiq beynəlxalq təşkilatları ilə əməkdaşlıq edir.

ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu tərəfindən 10-11 oktyabr 2002-ci il tarixində Azərbaycan hökumətinin dəstəyi ilə Bakıda "Demokratik cəmiyyətdə din və əqidənin rolu: terrorizm və ekstremizmə qarşı mübarizə yollarının araşdırılması" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransda ATƏT-ə üzv olan 55 dövlət, eləcə də beynəlxalq təşkilatların nümayəndələri iştirak etmişlər. Bununla yanaşı, Dövlət Komitəsi dini məsələlərə dair müxtəlif seminar, "dəyirmi masa"lar təşkil edir, ölkəmizdə mövcud olan dini icmaların nümayəndələri ilə mütəmadi olaraq görüşlər keçirir. Azərbaycanda yüksək tolerantlıq nümayiş etdirildiyi və burada mövcud olan dözümlülük münasibətlərinin bir çox ölkələr üçün yaxşı nümunə ola biləcəyi dəfələrlə ölkəmizə səfər etmiş müxtəlif din xadimləri və rəsmi şəxslər tərəfindən bəyan edilmişdir.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 1999-cu ildən etibarən,Azərbaycanda Tolerantlıq Günü (16 noyabr) xüsusilə qeyd edilir. Tolerantlıq günü ilə əlaqədar 2006-cı ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Qafqaz Müsəlmanları İdarəsi, Rus pravoslav kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyası və yəhudi dini icması ilə birgə "Tolerantlıq örnəyi –Azərbaycan" mövzusunda "dəyirmi masa" təşkil etmişdir. Tədbirdə Bakıda akkreditə olunmuş səfirliklər, eləcə də beynəlxalq təşkilatların nümayəndələri, ictimai və dini xadimlər və digər şəxslər iştirak etmişlər (Məmmədov 2009, 52-57).

***"MƏNİ YAŞADAN, MƏNİ SİYASİ UZUNÖMÜRLÜ EDƏN ƏN ƏSAS AMİL ODUR Kİ, MƏN HƏMİŞƏ XALQIN DƏSTƏYİNƏ ƏSASLANMIŞAM".***

**Heydər Əliyev**

## ƏDƏBİYYAT


Qaralov Zahid. (2013). Heydər Əliyevin elmi irsi (nəzəriyyə və təcrübəsi). I cild. Bakı: Şərq Qərb, 304 səh.

Mahmudov Yaqub. (2011). Heydər Əliyev ideyalarının zəfər yürüşü. Bakı: Təhsil, 520 səh.

Mahmudov Yaqub. (2013). Heydər Əliyev II cild. Bakı: Turxan NPB, 500 səh.

Xəlilov Səlahəddin. (2001). Lider, dövlət, cəmiyyət. Bakı: Azərbaycan Universiteti, 470 səh.

Adil Abdulla Əl-Fələh. (2013). Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı: CBS., 108 səh.

İsayev Anar, Məcnunov Rəhim, Abbasov Muxtar. (2018). Azərbaycan tarixi. Bakı: Şərq Qərb, 415 səh.

Abdullayev Kamal. (2007). Azərbaycanda müqəddəs ziyarətgahlar. Bakı: Çinar-Çap

Azərbaycan Milli Ensiklopediyası. (2007). Bakı, 25 cild. "Azərbaycan" cildi

İslamzadə Xalidə. Məscidlər və pirlər. (2009). "Dövlət və din" jurnalı. №4, 191-198 səh.

Məmmədov Zamin. Hüquqi dövlət və din. (2009). "Dövlət və Din" jurnalı. №5, 52-57 səh.

*İnternet resursları:*

www.president.az

www.preslib.az